www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 noyabr 2016-cı il Bazar ertəsi № 247 (6568) Qiyməti 60 qəpik

Xəbər

## Hacıqabulda qız anasını döyə-döyə öldürdü

yazısı səh.14-də

Gündəm

### ABŞ üçün kritik iki gün - dünyanın gözü Amerikada



Sabah fövqəldövlətin növbəti sükançısının adı bəlli olacaq; məğlub rəqib qalibi təbrik edəcəkmi?

yazısı səh.3-də

### Ölkəsində "vətən xaini" adlandırılan erməni publisist yenidən Bakıda

yazısı səh.3-də

### Qafqazın ən böyük ticarət mərkəzlərindən olan "Sədərək" dirçəlir - əməkdaşımızın qeydləri

yazısı səh.12-də

### Ermənilər Dağlıq Qarabağın adını dəyişir - separatçı rejimdən daha bir təxribatçı addım...

yazısı səh.9-da

### Azərbaycan siyasətçiləri separatçı Dəmirtaşın həbsini təqdir etdilər - rəylər

yazısı səh.9-da

### Hüquq müdafiəçiləri əfv gözləntisindən danışdılar

yazısı səh.3-də

### İşğalçı-separatçılara və himayəçilərinə Bakıdan son savaş siqnalı

yazısı səh.11-də

*Emin Sabitoğlunun qızı:*

### "İstərdim ki, atamı musiqiləri ilə xatırlasınlar, dedi-qodularla deyil..."

yazısı səh.13-də

### Qiymətlər qalxdıqca ərzağın keyfiyyəti düşür - ekspertdən maraqlı açıqlama

yazısı səh.14-də

### Məhsul bayramları - Sovetin qalığı, yoxsa...

yazısı səh.4-də

### Qışın daha bir qatili - turşular da can alır, təhlükədən necə qorunmalı?

yazısı səh.15-də

## İrəvandan Kremlə qarşı de-marş - Moskva nə deyəcək?

# SƏRKİSYAN QƏRBLƏ BAZARLIĞA GEDİR - "QARABAĞ" KLANININ MƏKRLİ PLANI...

Ermənistan hakimiyyəti aprel döyüşlərinin bir ilinin tamamında öz xalqına sürpriz hazırlayır; **erməni nəşri:** "Hökumət danışıqları seçkilərədək ona görə uzadır ki..."




yazısı səh.8-də

# "Vosmoy bazarı" uğrunda yeni mübarizə başlayıb

Əməkdaşlarımız "MTN" generallarının "nifaq alması"na çevirdikləri bazardan yazır; illərlə Akif Çovdarovla Hilal Əsədovun cibinə axan milyonları kim qaytaracaq?..

yazısı səh.5-də



*Hadı Rəcəbli:*

### "Axı məni Prezident Administrasiyasına çağırmayıblar, nə günah sahibiyəm?"

yazısı səh.6-da



*Siyavuş Novruzov:*

### "Vitse-prezidentlər hər an təyin oluna bilərlər"

yazısı səh.7-də



### Fərhad Əliyevin qanı batırılan kadrının qardaşı danışdı

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016



# Şagirdlərə qarşı kobud hərəkət edən müəllimlər cəzalandırılacaq

**Bakı şəhəri üzrə Təhsil İdarəsi məktəblərdə müəllimlərin şagirdləri cəzalandırması hallarına münasibət bildirib. APA-nın xəbərinə görə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva deyib ki, məktəbdə uşağın təhsil almaq hüququ ilə yanaşı, digər hüquqları da müdafiə olunmalıdır. Onun sözlərinə görə, təhsil naziri tərəfindən 2011-ci ildə müəllimlərin etik davranış qaydaları ilə bağlı müvafiq əmr imzalanıb:**

"Həmin qaydalardakı bəndlərdən biri də müəllimlərin davranışında uşaqlara qarşı zorakılıq hərəkətlərinə yol verilməməsidir. Təbii ki, ictimaiyyətin hər bir nümayəndəsi kimi bizim də bu məsələyə münasibətimiz çox sərtdir. Nəzarət mexanizminə gəlincə, bununla bağlı məktəb direktorları və digər əməkdaşlarla qaydalara riayət edilməsi ilə bağlı mütəmadi söhbət edirik. İdarə bu kimi halları ciddi nəzarətdə saxlayır. Orta məktəblərdə şagirdlərə qarşı hansısa kobud hərəkət edən müəllimlər inzibati qaydada cəzalandırılacaq".

M.Vəliyeva məktəblərdə valideynlərdən müxtəlif adlar altında pul tələb olunmasına da aydınlıq gətirib. O vurğulayıb ki, idarənin bu məsələdə mövqeyi birmənalıdır. Şagirdlərdən pul yığılmasının yolverilməz olduğunu deyən müdir vurğulayıb ki, idarə tərəfindən direktorlara bununla bağlı tapşırıqlar verilib və bundan sonra da veriləcək:

"Bu istiqamətdə fəaliyyətin məktəb rəhbərliyi tərəfindən keçirilməsinə şübhə ilə yanaşıram, çünki onlar bu məsələnin nə qədər diqqət mərkəzində olduğunu yaxşı bilirlər. Amma bunu da qəbul edirəm ki, bəzi hallarda valideyn komitələrinin sədrləri hansısa tədbiri təşkil etmək üçün pul yığmaq təşəbbüsü göstərirlər. Bu da valideynlərdən gələn təşəbbüsdür. Lakin yenə də bu məsələyə məktəb rəhbərliyi nəzarət etməlidir. Hesab edirəm ki, narazılıqlar da bu məsələdən qaynaqlanır".

# Bu il Bakıdan ən çox İstanbula uçublar

**Bu ilin oktyabr ayında Heydər Əliyev Beynəlxalq Hava Limanı 265 min sərnişinə xidmət göstərib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 faiz çoxdur.**

Bu barədə virtualaz.org-a "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) mətbuat xidmətindən məlumat verilib.

Bildirilir ki, ümumilikdə 2016-cı ilin ötən on ayı ərzində Bakı hava limanı 2,7 milyon sərnişinə xidmət göstərib. Milli aviadaşıcıya 1,7 milyon sərnişin üstünlük verib, o cümlədən AZAL-ın Naxçıvan və Gəncəyə daxili uçuşlarında 468 min sərnişin daşınıb. Bu da ümumi sərnişin dövriyyəsinin 17 faizini və AZAL dövriyyəsinin 27 faizini təşkil edir.

Bu müddət ərzində hava limanının yük terminalları vasitəsilə 12,9 milyon ton yük daşınıb.

Beynəlxalq istiqamətlər üzrə ən çox tələbat əvvəlki kimi Bakıdan İstanbula, Moskvaya, Dubaya və Kiyevə olub. Xaricə gedən sərnişinlərin ümumi sayının 45 faizi onların payına düşür.

2016-cı ildə "Iraqi Airways", "Fly Baghdad", "ATA Airlines", "Air Cairo", "Komaviatrans" aviaşirkətləri, həmçinin "Pobeda" loukosteri Bakıya uçuşlara başlayıb.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**


# Professor İlham Rəhimovun İtaliyada növbəti kitabı çap olundu






**Azərbaycanın əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor İlham Rəhimovun Sankt-Peterburqun "Yuridiçeskiy çentr" nəşriyyatı tərəfindən rus dilində çap olunmuş "O nravstvennosti nakazaniya" ("Cəzanın əxlaqiliyi haqqında") adlı növbəti kitabı italyan hüquqşünaslarının təşəbbüsu ilə İtaliyanın Turin şəhərində çap olunub.**

İtalyan dilinə tərcümə olunmuş monoqrafiya cəzanın fəlsəfi mahiyyəti haqqında müəllifin "Cinayət və cəza" (M., 2012), "Cinayət və cəzanın fəlsəfəsi" (SPb, 2013)kitablarında ifadə edilmiş düşüncələrinin davamıdır.

Monoqrafiyada qeyd edilir ki, hüquq elmi yalnız cəzanın formal tərifini verə bilər, bundan artığına qadir deyil. Bu fenomenin mahiyyəti haqqında mücərrəd mühakimə onun əxlaqına müdaxiləyə cəhd etmək, fəlsəfi fikrin hazırladığı kateqoriyalara daxil etmək imkanı verir. Xüsusən əgər söhbət ölüm cəzasından gedirsə, cəza əxlaqidirmi? Cəza qisas, qorxutma, psixoloji təsirdirmi? Cəzalandırma əxlaqının əsası nədir? Cəmiyyət cəza yolu ilə qarşısına qoyduğu məqsədlərə çatırmı? Müasir şəraitdə cəzadan imtina etmək mümkündürmü?

Professor İ.Rəhimovun bu maraqlı əsərində cavab verməyə çalışdığı sualların tam olmayan siyahısı belədir.

Kitab tələbələr, hüquq ali məktəblərinin aspirant və müəllimləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, cinayət hüququ sahəsində ixtisaslaşan nəzəriyyəçi və praktiklər, eləcə də filosoflar, sosioloqlar, psixoloqlar, cinayət və cəza problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Xatırladaq ki, professor İlham Rəhimovun "Cəzanın əxlaqiliyi haqqında" əsəri italyan dilinə tərcümə olunmuş sayca ikinci kitabıdır.



# Ölkədə qripə qarşı kütləvi dezinfeksiyaya başlanılıb

**Ölkədə qrip və kəskin respirator virusa qarşı kütləvi dezinfeksiya tədbirlərinə başlanılıb.**

Bu barədə APA-ya Bakı Şəhər Dezinfeksiya Stansiyasının kadrlar üzrə mütəxəssisi Kəmalə Cəfərova məlumat verib. O bildirib ki, səhiyyə naziri Oqtay Şirəliyevin qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə imzaladığı əmr əsasında Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən sərəncam verilib. Sərəncama əsasən dezinfeksiya tədbirləri ümumtəhsil və məktəbəqədər təhsil müəssisələri, qaçqın və məcburi köçkünlərin sıx məskunlaşdığı yerlər və əhalinin digər kütləvi toplaşdığı ərazilərdə aparılacaq.

Noyabrın 1-də başlayan tədbirlər ayın 12-dək davam edəcək: "Dezinfeksiya Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Masallı və Cəlilabadda aparılacaq".

# Bakıda dini ədəbiyyat satışı ilə bağlı reyd keçirilib

**Noyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları ilə birgə Bakı şəhərinin Sabunçu, Nizami, Xətai, Nəsimi və Suraxanı rayonları ərazisində yerləşən dini təyinatlı ədəbiyyatın, habelə mal və məmulatların satışı ilə məşğul olan 9 mağazada daha bir reyd keçirib.**

DQİDK-nın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsi olub.

Baxış keçirilən mağazalardan 8-nin ixtisaslaşdırılmış satış məntəqəsi olmadan dini təyinatlı ədəbiyyat, mal və məmulatların satışı ilə məşğul olduğu aşkarlanıb. Bununla yanaşı, içərisində müvafiq razılığın olmadığı, nəzarət markası ilə markalanmamış 421 dini təyinatlı ədəbiyyat, 13 ədəd DVD, 5 ədəd CD müəyyən edilərək hüquq-mühafizə orqanları tərəfindən götürülüb.

Qeydə alınmış qanun pozuntuları hüquq-mühafizə orqanları tərəfindən müvafiq qaydada sənədləşdirilib və aşkar edilmiş qanun pozuntuları ilə bağlı müvafiq araşdırmalar davam etdirilir.

# Aralıq dənizində 2 mühaciri gəmisi batıb-239 nəfər həlak olub

**Aralıq dənizində mühacirləri aparan iki gəmi batıb. "Trend"in BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına istinadən verdiyi məlumata görə, gəmilər Liviya sahillərində batıb. Hadisə nəticəsində 239 mühacirin həlak olduğu bildirilir.**

# Ermənistan əhalisi 634,7 min nəfər azalıb

**Ermənistan əhalisinin sayı açıqlanıb. Ermənistan KİV xəbər verir ki, 2016-cı il oktyabrın 1-nə olan məlumata görə, bu ölkənin 2993900 nəfər sakini var. Məlumata görə, bu ilin ilk 9 ayında Ermənistan əhalisinin sayı 4700 nəfər azalıb. 2016-cı il yanvarın 1-nə Ermənistan əhalisinin sayı isə ötən ilin eyni dövrü ilə müqayisədə 12 min nəfər az olub.**

Ümumiyyətlə, 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Ermənistan əhalisinin sayı 634,7 min nəfər azalıb.

# Qaradağda qadın özünü qazla boğmaq istəyib

**Bakıda intihara cəhd olub. Qaradağ Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə rayonun Qobustan qəsəbəsində qeydə alınıb.**

Qəsəbə sakini, 1990-cı il təvəllüdlü Samirə Əli qızı Məmmədova yaşadığı evin qapıları qıfıllayaraq təbii qaz xəttini açıb.

O, daha sonra Daxili İşlər Nazirliyinin "102" xidmətinə zəng edərək bu yolla intihara əl atdığını deyib.

Dərhal hadisə yerinə polis əməkdaşlarından ibarət əməliyyat qrupu çıxıb. Qapını sındıraraq evə daxil olan polis əməkdaşları S. Məmmədovanı huşsuz vəziyyətdə aşkar ediblər. O, dərhal xəstəxanaya yerləşdirilib, vəziyyəti normaldır.

# Ordumuz irimiqyaslı təlimlərə başlayır

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, noyabrın 12-dən 18-dək səhra şəraitində qoşunların və silahların idarəolunması sisteminin yoxlanılması məqsədilə Silahlı Qüvvələrdə irimiqyaslı təlimlər keçiriləcək.**

Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib. Təlimlərə 60 mindən artıq şəxsi heyət, 50-dən çox təyyarə və helikopter, 150-dən artıq tank və zirehli texnika, eləcə də raket və artilleriya qoşunlarının 700-dək sistemi cəlb ediləcək.

# 20 yaşlı neftçalalı gənc Bakıda dəm qazından həyatını itirdi

**Qaradağ rayonunun Lökbatan qəsəbəsi ərazisindəki evlərdən birində 1996-cı ildə anadan olmuş Neftçala rayonu Aşağı Surra kənd sakini Rəsulov Elvin Rövşən oğlu dəm qazından zəhərlənərək ölüb.**

Virtualaz.org saytının Şirvan bürosuna kənd sakinlərinin bildirdiyinə görə, 20 yaşlı Elvin Rəsulov Bakı şəhərindəki tikintilərdə fəhləlik etdiyindən kirayə ev tutubmuş.

Bu gün səhər onun işə gəlmədiyini və telefona cavab vermədiyini görən iş yoldaşları yaşadığı evə baş çəkərkən hamamda dəm qazından boğulmuş cəsədini aşkar ediblər.

Elvin Rəsulov hərbi xidmətdən yenicə gəlmişdi və ailənin yeganə oğlu idi.

Faktla bağlı Qaradağ Rayon Prokurorluğunda araşdırmalara başlanılıb.

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

**Milli Məclisin Aqrar siyasət komitəsinin noyabrın 3-də keçirilən iclasında “Tütün və tütün məmulatı haqqında” Qanuna dəyişiklik edilməsi haqqında layihə müzakirə olunub.**

# Deputatdan şok açıqlama: “Orta məktəblərdə qızlar da siqaret çəkir”

## Milli Məclis “Tütün və tütün məmulatı haqqında” Qanunu sərtləşdirir


Eldar Quliyev

Dəyişikliyə əsasən, tütün məmulatlarının satışında həvəsləndirmə üsulları məhdudlaşdırılır. Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, layihə Milli Məclisə prezident İlham Əliyev tərəfindən göndərilib. Onun sözlərinə görə, təklif edilən düzəlişlər tütün məmulatlarının insanların sağlamlığına zərərli təsirinin qarşısının alınmasına və sağlam həyat tərzinin təminatına yönəldilib. Həmçinin tütün və tütün məmulatının və onun ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanların reklamı qadağan edilir.

Digər dəyişikliyə əsasən isə tütün və tütün məmulatı istehsalı və ya satışı ilə məşğul olan şəxslər “Reklam haqqında” Qanunun 13.4 və 28-ci maddələrinə uyğun olaraq sponsor ola bilməzlər.

“Siqaretin reklamı qəti qadağan olmalıdır. Xarici ölkələrdə siqaret çəkən və çəkməyən insanların ağciyərlərinin şəklini də qutunun üstünə vururlar. Adam o şəklə, ciyərə baxanda siqaretin qutusunu belə açmaq istəmir”. Modern.az-ın məlumatına görə, bu sözləri deputat Mahir Aslanov deyib. Deputat “Tütün və tütün məmulatı haqqında” Qanuna edilən dəyişikliyə münasibət bildirərək deyib ki, o, 53 il siqaret çəkib. “Mən özüm 53 il siqaret çəkmişəm. Siqaret məni o dərəcədə cana yığdı ki, o vərdişdən uzaqlaşdım. Hətta tütün məhsullarının yığımı da zəhərlidir. Ona görə də siqaretin reklam olunmasının qarşısı birmənalı şəkildə alınmalıdır”.

“Bəzi tələbələr dövlət və özəl ali məktəblərdə siqareti universitetlərin dəhlizlərində çəkirlər. İnanın ki, adamın ürəyi bulanır”. Azvision.az xəbər verir ki, bunu deputat Hüseynbala Mirələmov deyib.

**Deputat bildirib ki, televiziyalarda siqaretin reklamının qarşısı alınmalıdır:** “Siqaret 2-ci və 3-cü sinifdə oxuyan uşaqlardan başlayaraq qızlarımızın, uşaqlarımızın səhhətini korlayır. Bu gün televiziyalarda siqaretin reklamını elə göstərirlər ki, istər-istəməz çəkməyən adamda da siqarətə maraq yaranır. Televiziyalarda siqaretin reklamının qarşısı alınmalıdır”.

**O, universitetlərin daxilində siqaret çəkən tələbələrin cərimələnməsinin vacibliyini vurğulayıb:** “Əgər biz təqaüdlə dolanan tələbəni ictimai yerlərdə siqaret çəkdiyinə görə cərimə etsək, inanın ki, o, ümumiyyətlə, siqareti də tərgidər”.

**“Təəssüf ki, son zamanlar orta məktəblərdə qızlar arasında siqaret çəkənlərin sayı çoxalıb”. Bunu isə komitə sədrinin müavini Eldar Quliyev deyib. Deputat bildirib ki, Azərbaycanda siqaret çəkən qadınların sayı artmaqdadır:** “Orta məktəblərdə siqaret çəkən qızlar da var. Bu baxımdan, orta məktəblərdə buna qarşı kəskin mübarizə aparılmalıdır. Əvvəllər biz buna Rusiya, MDB, Avropa ölkələrində daha çox rast gəlirdik. İndi Azərbaycanda da qadınların siqaretə meylliliyi artıb. Bunun qarşısını almaq üçün təkcə biz valideynlər yox, həmçinin orta məktəblərdə də ciddi nəzarət artırılmalıdır”.

**Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.**

**❑ Hazırladı:E.PAŞASOY**


Əbubəkr Əl Bağdadi

# Suriyada döyüşən azərbaycanlı İŞİD-çilər həbs olundu

**Türkiyənin Kocaeli vilayətində antiterror polisi İŞİD-ə üzv olan 9 xarici ölkə vətəndaşını yaxalayıb. Virtualaz.org xəbər verir ki, onlardan 2-nin canlı bomba kimi hazırlandığı məlum olub. Həbs olunanlar arasında Azərbaycan və Suriya vətəndaşları da var. Hazırda onların dindirilməsi davam edir.**

Bu arada isə İŞİD-in nəşr orqanlarında təşkilatın lideri Əbubəkr əl Bağdadiyə məxsus olduğu deyilən səsyazma yayımlanıb.

Lent.az-ın xarici KİV-ə istinadən məlumatına görə, 31 dəqiqəlik səsyazmada İŞİD lideri Ə.Bağdadi Mosul əməliyyatının uğursuz alınacağını deyir: “İslam dövlətinin bu gün apardığı böyük cihada qarşı mübarizələr şiddətlənir. Bu isə bizim inamımızı artırır. Deməli, zəfərdən bir addım da irəlidəyik. Xalqımız "Allah düşmənlərinə" qarşı apardığımız bu cihadın zəifləməsinə icazə verməməlidir".

Səsyazmada Türkiyənin də adı anılır. İŞİD lideri təşkilat üzvlərinə çağırış edərək “artıq nifrətinizin alovunu Türkiyə əsgərlərinə boşalda bilərsiniz” deyib.

Səsyazmadakı Türkiyə ilə bağlı digər bölümdə isə “Türkiyə bu gün artıq mənzilinizə girdi, cihadınızın hədəflərindən biri halına gəldi. Oranı işğal edin və güvəndə hiss etdiyi yerlərə qorxu salın” ifadəsi yer alır.

Ə.Bağdadi “İnanmayanların gündüzünü gecəyə çevirin, torpaqlarını dağıdın, qanlarını çay kimi axıdın”, - deyə çağırış edib.

Səsyazmada “kafir” ifadəsi işlədilən Səudiyyə Ərəbistanına da hücum çağırışı edilir.

Bildirək ki, Bağdadinin sonuncu səsyazması ötən ilin dekabr ayında yayılmışdı. Həmin səsyazmada isə Rusiya hərbi hava hücumlarının və Amerika liderliyindəki koalisiyasının İŞİD-i zəiflətmədiyi ifadələri yer alırdı.

Qeyd edək ki, İŞİD-in xəlifəliyini elan etdiyi Mosul 2014-cü ilin iyun ayından bu günə kimi təşkilatın qalası sayılır.

# Əvəz Zeynallının “hökumətə işləyirlər” açıqlaması aranı qatdı

## Siyasi məhbus siyahısı qalmaqalı böyüyür-94 nəfərlik siyahı müəlliflərindən əks düşərgəyə sərt cavab


Əvəz Zeynallı


Əsabəli Mustafayev

**Siyasi məhbuslarla bağlı hazırlanan 94 və 166 nəfərlik siyahılar ətrafında gedən müzakirələr səngimir. Hər iki siyahını hazırlayanların və bu siyahıların tərəfdarlarının bir-birilərinə qarşı olan ittihamları getdikcə artmaqdadır.**

Xüsusilə AXCP və Milli Şuranın açıq dəstək verdiyi, Hollandiyada mühacir həyatı yaşayan hüquq müdafiəçisi Leyla Yunusun rəhbərliyi ilə hazırlanmış 166 nəfərlik məhbus siyahısını müdafiə edənlərin qarşı tərəfə ittihamları daha sərtdir. Onlar iddia edirlər ki, 94 nəfərlik siyahı hakimiyyətin maraqlarına xidmət edir və hökumət tərəfindən sifariş əsasında hazırlanıb. Arqument kimi də hakimiyyətin ölkə daxilində siyasi məhbusların artmaması ilə bağlı bu həcmdə məhbusun olması kimi görüntü yaratmaq istəyi göstərilir. Bu ittihamlar L.Yunusun siyahısının tərəfdarlarından olan “Xural” qəzetinin baş redaktoru Əvəz Zeynallının “Yeni Müsavat”a verdiyi son müsahibədə açıq şəkildə səsləndirilmişdi. Baş redaktorun müsahibədə dedikləri günlərlə davam edən gərginliyi daha da artırıb.

**94 nəfərlik siyahı müəlliflərindən bəziləri onu sərt şəkildə tənqid edirlər. Ə.Zeynalının öz feysbuq səhifəsində paylaşdığı müsahibəsinin altında 94 nəfərlik siyahının müəlliflərindən olan tanınmış vəkil Əsabəli Mustafayev ona sərt rəy yazıb. Vəkilin fikirləri bunlardır:** “Məni çox təəccübləndirir ki, peşəkar jurnalist Əvəz bəy verəcəyi müsahibə barədə faktları əvvəlcədən dəqiqləşdirmir və nəticədə ölkədə insan hüquqlarının müdafiəsinin avanqardı olan şəxsləri təhqir edən fikirlər yazır. İlk növbədə 94 nəfərlik siyahını hazırlayan qrupun tərkibinə baxın: İntiqam Əliyev, Rəsul Cəfərov, Anar Məmmədli, Bəşir Süleymanov, Xədicə İsmayıl, Samir Kazımlı, vəkillərdən Fariz Namazlı, Xalid Bağırov, Fəxrəddin Mehdiyev, Yalçın İmanov, mən. Bir neçə vəkil də sənədlərin toplanması və qrupa təqdim olunması şəklində iştirak edib. Siyahının qaralama variantı hələ 2 ay qabaq hazırlanmışdır. Lakin həbslərlə bağlı situasiya hər gün dəyişdiyi üçün siyahını elan etmək mümkün olmurdu. Yekun siyahının hazırlanmasında Oqtay Gülalıyev də son günlərə qədər iştirak edirdi. Bizim heç xəbərimiz yox idi ki, o bizim qrupda iştirak etməklə yanaşı, ayrıca siyahının üzərində işləyir. Mən bunu ona görə yazıram ki, Əvəz bəy, guya 166 nəfərlik siyahıdan sonra biz siyahı tutmuşuq məlumatı yalandır. Bizim siyahı çoxdan hazır idi, lakin bəzi mübahisəli məqamlar olduğu üçün yekunlaşdırmaq olmurdu. İndi say barədə. Oqtay bəyin və bəzi şəxslərin rəyi bu idi ki, Nardaran işi üzrə tutulanların hamısı dərhal siyasi məhbus elan olunmalıdır. Əsasən də vəkillər bunun qəti əleyhinə idi. Çünki bu şəxslər barədə bizdə heç bir məlumat, sənəd yox idi. Siyahı isə hüquqi sənəddir və onun hazırlanmasında sənədlərə istinad olunmalıdır. Bu şəxslərin çoxunun vəkilləri yox idi, hökmdən apelyasiya şikayəti verilməmişdir. Hələ yazmadığım digər məlumatlar da var idi və bütün bunlar haqqında Oqtay bəy məlumatlı idi. Ona görə bu şəxslər monitorinq altında saxlandılar və nəzərdə tutulmuşdur ki, sənədlər toplandıqca onlar əsas siyahıya salınsın. Əvəz bəy, Siz Oqtay bəydən soruşun ki, neçə nəfərin sənədlərini toplamağı və qrupa təqdim etməyi söz vermişdi və neçəsini təqdim etmişdi. Sabunçudakı hadisələrlə bağlı həbs olunanların 7-nin də apelyasiya instansiyasında müdafiəsini təmənnasız olaraq öz üzərimə götürməyi razılaşdım və Oqtay bəy həmin şəxslərin yaxınları ilə məni calaşdırmağa söz verdi. Sonrası nə oldu, ondan maraqlanın. Hər kəsin öz siyahısını tərtib etmək hüququ var. Birincisi, digər siyahı müəlliflərinə qarşı kompaniya aparmaq lazım deyil. İkincisi, dəfələrlə deyilib k, siyahının çoxluğu çox ziyanlıdır. İndi Əvəz bəy, sizin müsahibənizə görə işçi qrupunda olan və sizin yaxşı tanıdığınız bizlər hökumətə işləyirik?”

**94 nəfərlik siyahının müəlliflərindən olan REAL hərəkatının idarə heyətinin üzvü Rəsul Cəfərov barələrində olan ittihamlarla bağlı xüsusi bir fikir bildirmək istəmədiyini qeyd etdi:** “Əvəz bəyin müsahibəsini oxudum, kifayət qədər ümumi ifadələrə yer verilmişdi. Düşünmürəm ki, bu iddialara mən cavab verməliyəm. Siyasi məhbuslarla bağlı sənəd bir və ya bir ayın içərisində hazırlanmış sənəd deyildi. Sənəd oktyabrın 17-də elan olundu. Bu sənədin hazırlanmasına faktiki bir neçə ay əvvəldən başlanılmışdı. Bununla bağlı konkret işçi qrupu olub. Bu qrup görüşlər keçirib, araşdırma aparılıb və yekunda bu siyahı ortaya çıxıb. Bizim sənəd ancaq siyahıdan ibarət deyil. Həm də 105 səhifəlik bir hesabatdır. Həmin hesabatda bu şəxslərin işlərini vermişik. Orada biz həmin şəxsləri nəyə görə siyasi məhbus kimi qələmə verdiyimizi göstərmişik. Açığı, bizim üçün siyasi məhbusların sayının nə qədər olması o qədər də önəmli deyil. Bizim üçün əsas olan həmin siyasi məhbusların azadlığa çıxmalarına yardımçı olmaqdır. Hazırda bu istiqamətdə müzakirələr daha çox məhbusların sayı, siyahılar arasında yaranan fərqlər üzərində qurulur. Düşünürəm ki, müzakirələri hər kəs həmin məhbusların azadlığa çıxmaları üzərində qurmalıdır. Hər kəsi bu işlə məşğul olmağa dəvət edirəm”.

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

# Borçalıdan həyəcanlı xəbərlər - azərbaycanlı qadın niyə ölüb?

## Əlibala Əsgərov: “Hadisə milli qarşıdurma zəminində baş verməyib”

**Gürcüstanda daha çox azərbaycanlıların yaşadığı Marneuli rayonunda gürcülərlə azərbaycanlılar arasında kütləvi dava düşüb. Baki-post.az xəbər verir ki, hadisə noyabrın 2-də baş verib. Məlumata görə, svan mənşəli gürcülərlə düşən davada 1 nəfər gürcü oğlan öldürülüb. Dava ətrafdakıların müdaxiləsi ilə dayandırılıb.**



Sayt daha sonra yazıb ki, svan mənşəli şəxslər azərbaycanlılara cavab olaraq növbəti gün hücuma keçiblər. Nəticədə Marneuli bazarında bir qadın soydaşımız vəhşicəsinə döyülərək öldürülüb.

Baş verənlərin seçkisonrası gərginliklə əlaqədar olduğu da güman edilir. Qeyd edək ki, Gürcüstanda keçirilən son parlament seçkilərindən sonra hakim Gürcü Arzusu Partiyasının namizədlərinin az səs toplaması həmyerlilərimiz üçün problemlər yaradıb. Bir neçə gün əvvəl yayılan məlumatlarda müxalif Vahid Milli Hərəkat Partiyasının 36-cı seçki dairəsindən namizədi olmuş Əhməd İmanquliyevin də həyatının təhlükədə olduğu bildirilirdi.

Baş verən hadisədə svanların da adının çəkilməsi narahatlıq doğurur. Çünki Marneulidən azərbaycanlı namizədin şansı böyük olduğu halda, svan iddiaçının deputat seçilməsi birmənalı qarşılanmayıb.

Məsələ ilə əlaqədar Gürcüstandakı mənbələrimizlə əlaqə yaratdıq. **Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Əli Babayev** “Yeni Müsavat”a bildirdi ki, yayılan xəbərdə müəyyən qeyri-dəqiqliklər var. Onun sözlərinə görə, hadisə Marneuli bazarında olub. Ancaq qadın bazardakı başqa bir şəxslə dalaşıb və yıxılaraq ağır xəsarət alıb. “Ancaq belə iddia var ki, o, infarktdan dünyasını dəyişib” deyə, Ə.Babayev əlavə etdi. Ə.Babayev rəsmi qurumların məsələyə ehtiyatlı yanaşmasını da məntiqli saydı: “Qorxu var ki, bu qalmaqallı seçkilərdən sonra millət ayağa qalxar”.

Digər adının çəkilməsini istəməyən mənbəmiz isə bildirdi ki, Marneulidə iki hadisə baş verib. Birinci hadisə qadının ölməsi ilə nəticələnib. Digər hadisə zamanı isə svan və gürcülər arasında toqquşma olub, ancaq ölən olmayıb.

**“Qeyrət” Xalq Hərəkatının sədri Əlibala Əsgərov “Yeni Müsavat”a dedi ki, əslində milli zəmində hər hansı qarşıdurma baş verməyib, həmçinin baş verənlərin seçkilərə aidiyyəti yoxdur:** “Marneuli bazarında bir azərbaycanlı qadın alverçi yola yaxın yerdə satdığı malları düzübmüş. Bu zaman bazarın işçisi olan bir nəfər maşınla keçmək istəyəndə həmin mallara toxunub və mallar aşıb. Bundan sonra qarşıdurma yaranıb. Avtomobil sahibi qadını itələyib və yerə yıxılan azərbaycanlı qadın keçinib. Hadisə bazardakı camaatın gözü qarşısında baş verib”. **Ə.Əsgərov hadisəni törədən şəxsin saxlanıldığını da bildirdi:** “Onun gürcü olduğu deyilir. Amma başqa bir məlumata görə, svandır”.

**“Qeyrət” sədri bildirdi ki, hadisə barədə özü də telefonla məlumat ala bilib. Amma soydaşlarımızla görüşüb təxribata uymamaları üçün söhbətləşməyi düşünür:** “Hadisə milli qarşıdurma zəminində baş verməyib, kriminal hadisədir. Əminəm ki, bizim xalq milli qarşıdurmaya getməyəcək. Gürcü tərəfin də gərginlik yaratmaqda marağı yoxdur. Amma bəzi kriminal qüvvələr gərginliyin artmasında maraqlıdır. Mən sabah *(4 noyabrda-C.T.)* hadisə yerinə gedib bu məsələ ilə dəqiq məşğul olacağam”.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, hadisə Marneulinin mərkəzi bazarında qeydə alınıb. Şahidlər bildirir ki, səhər saatlarında svan (gürcüdilli millət) olduğu güman edilən gənclə bazarda çalışan 50 yaşlı azərbaycanlı, Marneuli şəhər sakini Məlahət Məmmədova arasında mübahisə baş verib. Mübahisə zamanı həmin gəncin M. Məmmədovaya qarşı güc tətbiq etdiyi, nəticədə yerə yıxılan qadının başından zərbə alaraq öldüyü deyilir.

Lakin Gürcüstan Daxili İşlər Nazirliyi hadisəni qətl kimi xarakterizə etməyib. Nazirlik M. Məmmədovanın halının qəflətən pisləşdiyini və onun dünyasını dəyişdiyini açıqlayıb. Faktla bağlı Gürcüstan CM-in 116-cı maddəsi ilə (ehtiyatsızlıqdan adam öldürmə) cinayət işi qaldırılıb.

Gürcüstandakı bəzi mənbələr isə əməkdaşımıza bildirdilər ki, rəsmi qurumlar hadisəni ört-basdır etməyə çalışır. Lakin soydaşlarımız israrla günahkarın cəzalandırılmasını istəyir.

**Gürcüstan parlamentinin azərbaycanlı deputatı Azər Süleymanov azvision.az-a açıqlamasında bildirib ki, dünyasını dəyişən qadın bazarda satıcı işləyirmiş. Deputatın sözlərinə görə, azərbaycanlı xanım mübahisə zamanı dünyasını dəyişib:** “Bazarda alıcı ilə satıcı arasında mübahisə olub. Mübahisəyə görə səhhətində problem olan xanım dünyasını dəyişib. Xanımın bədənində heç bir xəsarət izi aşkarlanmayıb. Ehtimal edilir ki, o, ürək tutmasından dünyasını dəyişib”.

**Azər Süleymanov hadisənin mətbuat tərəfindən şişirdildiyini vurğulayıb:** “Gürcüstan və azərbaycanlılar arasında heç bir problem yoxdur. Kiçik bir insident zamanı xanımın ürəyi tutub. Xahiş edərdim ki, hər kəs milli məsələlərdə diqqətli olsun. Biz istəmirik iki xalqlar arasında milli zəmində problem yaşansın”.

**Deputat məlum olayla bağlı cinayət işinin açıldığını, faktın araşdırıldığını qeyd edib.**

❑ **Cavid TURAN**




## Milli Dirçəliş Günü münasibətilə Təşkilat Komitəsi yaradılıb

**17 noyabr Milli Dirçəliş Günü münasibətilə bayram tədbiri keçiriləcək. Bu barədə AĞ Partiyanın sədri Tural Abbaslının verdiyi xəbərə görə, Milli Dirçəliş Gününü adına layiq tədbirlə qeyd etmək üçün Təşkilat Komitəsi yaradılıb. Təşkilat Komitəsinə Tural Abbaslı, vəkil Qurban Məmmədov, meydan hərəkatının liderlərindən olmuş Nemət Pənahlı, VİP sədri Əli Əliyev, “Xural”ın baş redaktoru Əvəz Zeynallı, tanınmış hərəkatçı, “Çənlibel” təşkilatının yaradıcılarından biri olan Bəxtiyar Tuncay, Bünyamin Qəmbərli, Ənvər Börüsoy daxildir. Təşkilat Komitəsi noyabrın 17-də möhtəşəm bir tədbir keçirmək üçün işə başlayıb.**

Təşkilat Komitəsi bəyan edib ki, bura ölkənin ali rəhbərliyindən müxalifət partiyalarına, gənclərdən QHT-lərə, media işçilərindən sıravi vətəndaşlara qədər hamı daxildir. Tədbir millətindir və millətin adına layiq olmalıdır.

Qeyd edək ki, 1988-ci il noyabrın 17-də Azərbaycanda meydan hərəkatı başlayıb. Azərbaycan üçün həmin gün xalq hərəkatının başlanğıcının qoyulduğu tarix olaraq mühüm əhəmiyyət kəsb edir. Məhz həmin gün o dövrkü Lenin meydanı-indiki Azadlıq meydanında ilk dəfə Azərbaycanın milli bayrağı qaldırılıb. Bakının baş meydanında ilk mitinq noyabrın 17-də keçirilib və 18 gün fasiləsiz davam edib. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra prezident Əbülfəz Elçibəy 17 noyabrın Milli Dirçəliş Günü adlandırılması və rəsmi dövlət bayramları sırasına daxil edilməsi haqda fərman verib. 2006-cı ilə qədər 17 noyabr qeyri-iş günü olaraq dövlət səviyyəsində bayram edilirdi. 2006-cı ildən isə iş günü olan bayramlar sırasına daxil edilib.

❑ **E.SEYİDAĞA**

# Bu gün Nardaran pirinə təbii qaz veriləcək - biz yazandan sonra...

## ““Azəriqaz” insanların dini inanclarından asılı olmayaraq hər bir məbədə hörmətlə yanaşır”

**Bakının Nardaran qəsəbəsində yerləşən 7-ci imam Museyi Kazımın qızı Rəhimə xanım ziyarətgahında kommunal problemlərin yaranması haqda xəbər vermişdik.**



Əməkdaşlarımız Nardaran qəsəbəsində sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun bağ evini (http://musavat.com/news/reportaj/emekdashlarimiz-eldar-mahmudovun-bag-evinde-oldular-repor taj_388970.html) axtararkən təsadüfən öyrəniblər ki, pirə verilən qaz ötən il kəsilib. “Azəriqaz” əməkdaşları müqəddəs ziyarətgahı təbii qazla təmin edən xətti kəsərkən 46 min manat borc yarandığını söyləyiblər.

Bildiriblər ki, həmin borc ödənilməsə, qaz olmayacaq. Maraqlıdır ki, ARDNŞ-in mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən müqəddəs ziyarətgaha qaz verilişinin dayandırılmadığı haqda açıqlama vermişdilər. Bu haqda “Yeni Müsavat”ın http://musavat.com/news/olke/nardaran-pirinin-qazi-kesilib-korrupsiya-iyinden-bash-chatlayir_389827.html son 2 sayında xəbər vermişdik.

Noyabrın 3-də “report”saytına açıqlama verən məscidin axundu Musa Rza deyib ki, məscidə təbii qaz noyabrın 4-dən veriləcək. O qeyd edib ki, məscidin qazı 2015-ci ilin dekabrından kəsilib. M.Rza deyib ki, yeni qaydalara görə, məscid Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyata alınmalı idi: “Biz də qeydiyyatla bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə müraciət etdik. Müraciətimiz müsbət cavablandırıldı və bu ilin sentyabr ayında məscid qeydiyyata alındı. Sonra texniki şərtlərin alınması üçün "ASAN xidmət"ə müraciət etdik". Onun sözlərinə görə, “ASAN xidmət” bu gün texniki şərtləri təqdim edib və həmin texniki şərtlərin alınması ilə bağlı arayış “Azəriqaz”a göndərilib: “İstehsalat Birliyindən bizə bildirdilər ki, sabah(bu gün-red.) qazın verilişi təmin olunacaq”.

“Azəriqaz” İstehsalat Birliyinin mətbuat xidmətindən bildirilib ki, abonent uçotu sistemində qeydiyyatda olan və təbii qazla təmin olunan İslam dini təyinatlı ibadət, digər konfessiyalara məxsus məbəd və ziyarət yerlərinin orta illik qaz sərfiyyatı 1 953 kubmetr olduğu halda İstehsalat Birliyi tərəfindən hər bir məbədə illik 5 min kubmetr limitin əvəzsiz verilməsi həyata keçirilir: “2016-cı il noyabrın 1-ə olan məlumata əsasən, bu çərçivədə 378 məscid və dini məbədin təbii qazdan əvəzsiz istifadəsi üçün 1 890 000 kub metr limit ayrılıb. SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi insanların dini inanclarından asılı olmayaraq hər bir məbədə hörmətlə yanaşır".

Qurumun mətbuat xidmətindən bildirilib ki, “Rəhimə xanım ziyarətgahı” məscidinin qazla təmin edilməsi ilə bağlı müraciət təqdim olunandan sonra “Azəriqaz” məscidin tez bir zamanda təbii qazla təmin olunması üçün bütün köməkliyi göstərəcək.

Yada salaq ki, bu ilin iyun ayında prezident İlham Əliyev Bakının Nardaran qəsəbəsində, qəsəbədəki 7-ci imam Museyi Kazımın qızı Rəhimə xanım ziyarətgahında olarkən yerli sakinlərə bildirib ki, işığa görə yaranan 42 milyon 267 min manat elektrik enerjisi borcu silinib. Bu xəbər Azərbaycanda fəaliyyət göstərən əksər KİV-də “Nardaranlıların 42 milyon manatlıq işıq pulu borcu silindi” sərlövhəsi ilə yayılıb. Həmin görüşdən ötən 4 ay ərzində nardaranlıların işıq borcu müvafiq qurumlar tərəfindən silinməyib. Silinmiş işıq borcunun hansı əsasla əhalidən alınması məsələsinə aydınlıq gətirmək üçün “Azərişıq”ın mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevə sorğu ilə müraciət etmişik. Veriləcək cavabı da təqdim edəcəyik.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

# Sabiq naziri ən yaxın adamı satdı

**"MTN işi" üzrə ilk günlərdən adı Akif Çovdarovla (ləğv edilmiş Milli Təhlükəsizlik nazirliyinin idarə rəisi olub, hazırda həbsdədir) qoşa çəkilən, lakin bugünədək azadlıqda qalmağı bacaran Hilal Əsədovun (sabiq nazir Eldar Mahmudovun müavini olub) istintaqa verdiyi sensasion ifadəsi üzə çıxıb.**







## Eldar Mahmudov ya özünü vurmalı, ya da qandallanmalıdır

"MTN şefi"nin müavininin şok ifadəsi yayıldı; Hilal Əsədovun dediklərindən aydın olur ki, Akif Çovdarovun dəstəsini birbaşa nazir himayə edib; "Eldar Mahmudov şifahi tapşırıq verirdi"...

Yayılmış ifadədən belə aydın olur ki, general Hilal Əsədov keçmiş şefi Eldar Mahmudovun cinayətləri haqda istintaqçıların dili ilə desək, "səmimi ifadə" verib. Elə onun azadlıqda qalmasının sirrinin də bu olduğu şübhəsizdir. Lent.az generalın istintaqa verdiyi ifadənin tam mətnini əldə edib.

### H.Əsədov ifadəsində "sandığı açıb, pambığı tökübˮ

General istintaqçıların qarşısına qoyduqları kağızlara yazıb ki, 2004-cü ildə MTN-də işə başlayıb. Nazirlikdə ilk vəzifəsi mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsində müşavir olub. 3 ay sonra nazirliyin Antiterror Mərkəzinə rəis təyin edilib. 2005-ci ildən sonra Eldar Mahmudov Hilal Əsədovu özünə müavin təyin edib. Hilal Əsədov ifadəsində bildirir ki, birbaşa nazir Eldar Mahmudovun şifahi tapşırığı ilə 2005-2009-cu illərdə nazirliyin Antiterror Mərkəzinə, 2011-ci ildən sonra həm də Əks-kəşfiyyat Baş İdarəsinin işlərinə nəzarət edib. O, nəzarətində olan idarə və mərkəzin fəaliyyəti çərçivəsində tədbirləri, məlumatları Eldar Mahmudova məruzə edib.

### "Eldar Mahmudov dedi ki, halallıqla bazarı alın"

Sabiq nazir müavininin əhali arasında "Vosmoy bazarı" kimi tanınan meyvə-tərəvəz bazarının MTN əməkdaşları tərəfindən ələ keçirilməsi epizodu üzrə çox ilginc detalları ortaya qoyub. Onun ifadəsini ittiham aktına köçürüb, Eldar Mahmudovu özgəsinin əmlakını zorla ələ keçirilməsinə tapşırıq verdiyinə görə həbs etmək olar.

**H.Əsədov ifadəsində cinayət işində bu iş üzrə zərərçəkmiş kimi tanınan əslən Cəlilabad rayonundan olan Salman, Cəfər, Səfər və Qəhrəman Səfərov qardaşlarının heç birini tanımadığını, onları görmədiyini deyib:** "Onların sabiq iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyevin yaxın adamları olduğunu bilirdim. 2005-ci il idi. Akif Çovdarov yanıma gəldi. Dedi, Çingiz Əsədov adlı şəxs Səfərov qardaşlarından şikayət edir. Ç.Əsədov bildirmişdi ki, Səfərov qardaşları 2002-ci ildə zorla Naxçıvanski küçəsi 50-də yerləşən meyvə-tərəvəz bazarını onun əlindən alıblar. Ona hədə-qorxu gəliblər, qardaşını oğurlayıblar. Həmin zaman Səfərov qardaşlarının sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin yaxın adamları və kəndçiləri olduğunu öyrəndim. Fərhad Əliyev onda yenicə həbs edilmişdi, barəsində cinayət işi istintaq olunurdu".

**Hilal Əsədov ifadəsində bildirib ki, Səfərov qardaşları əməllərini səmimi şəkildə Akif Çovdarova etiraf ediblər: "Çovdarov o zaman Antiterror Mərkəzinin 1-ci idarəsinin 1-ci şöbəsinin rəisi idi. O, gördüyü işlərlə bağlı mənə məruzə edirdi. Çovdarov Səfərov qardaşlarını dindirmişdi, onlar elədikləri əməlləri səmimi şəkildə etiraf etmişdilər. Çingiz Əsədovun isə Səfərov qardaşları barəsində rəsmi şikayət edib, onları həbs etdirmək niyyəti yox idi. O, yalnız bazarın geri qaytarılmasını istəyirdi. Mən bunların hamısını Eldar Mahmudova məruzə elədim. Nazir məsələnin ciddi araşdırılmasını istəmişdi".**

**Sabiq nazir müavini bir müddət sonra Səfərov qardaşları ilə Çingiz Əsədov arasında razılıq yarandığını deyib:** "Akif Çovdarovun otağında Səfərov qardaşlarından biri Çingiz Əsədovla bazarın geri qaytarılması barədə razılaşıb. Mən nə Çingizi, nə də Səfərov qardaşlarını tanıyırdım. Bu məsələ ilə bağlı Çovdarov mənə gündəlik məruzə edirdi. Məruzələrdən sonra mənə məlum oldu ki, müəyyən məbləğ ödənildikdən sonra Səfərov qardaşları bazarı yenidən Çingiz Əsədova satıblar. Bu məsələlərdən sonra bazar Çingizə qaytarılıb".

**H.Əsədov qeyd edib ki, bu söhbətlərdən iki-üç həftə sonra Çingiz Əsədov bazarı satmaq istəyib:** "Akif zəng edib bu barədə mənə məlumat verdi. Çovdarova dedim ki, bu məsələni mütləq Eldar Mahmudova məruzə edəcəyəm. Nazirin yanına getdim, bu barədə məlumat verdim. Eldar Mahmudov bir neçə günə cavab verəcəyini dedi. İki gün sonra nazir razılıq verdi. Eldar Mahmudov dedi ki, halallıqla bazarı alın. Bütün işlər Çovdarova tapşırıldı".

### Hilal Əsədovun yoldaşına yağmalanan bazardan hər ay 15-20 min dollar verilib!

**Müavininin təkcə Eldar Mahmudovun deyil, özünün qayınatasının da həbsinə yol açmaq gücündə olan ifadəsi var. H.Əsədov istintaqçılara deyib ki, Səfərovlardan alınan bazarın yarısı qayınatasına çatıb:** "Payım olsun deyə qayınatam Ənvər Məmmədova bazarın yarısını almağı təklif etdim. Digər yarısını isə Çovdarovun özü həll edəcəkdi. 70 min dollar qayınatama verdim, qalan pulu özü düzəltdi. Bazarın alınmasında rolum ancaq Ənvər Məmmədova pul verməyim olub. Bütün sənədləşdirmə işləri Akif Çovdarov və qayınatam tərəfindən aparılıb. Bazar qayınatam və Akif Çovdarovun yaxın adamı Elşən Hüseynova satıldı. Onların hər biri bazarda 50 faiz paya sahib oldular. Bazarı hazırda elə Elşən Hüseynov işlədir. 2012-ci ildə qayınatam özünə düşən payı yoldaşım Nüşabəyə verib. Bazarın alqı-satqısı, ada keçirilməsi 2005-ci ilin sonu, 2006-cı ilin əvvəllərində oldu. Bunların heç birində mən iştirak etməmişəm. Hər ay Ənvər Məmmədov Nüşabəyə 15-20 min dollar pul verirdi".

Müstəntiqlərin suallarını cavablandıran Hilal Əsədov bazarın Akif Çovdarov tərəfindən zorla alınmasından xəbərsiz olduğunu deyib. H.Əsədov əlavə edib ki, hazırda bazarın 50 faizi arvadı Nüşabə Əsədovaya məxsusdur, qalan 50 faizi isə Akif Çovdarovun qızı Aida Qasımovanın adınadır.

Qeyd edək ki, vaxtilə bazarın sahibi olmuş sahibkar Salman Qürbət oğlu Səfərov əmlakının əlindən necə qəsb edilməsi haqda bir müddət əvvəl "Yeni Müsavat" qəzetinə danışıb. (http://musavat.com/mobile/olke/mtn-generallarinin-vosmoy-bazari-emeliyyatinin-yeni-shok-detallari-qarshi-terefden-ilginc-achiqlamalar_384679.html)

S.Səfərovun söylədikləri general Hilal Əsədovun bazarın guya halallıqla alınması haqda ifadələrini təkzib edir. Qeyd etdiyimiz kimi, Hilal Əsədovun adı həmişə Akif Çovdarovla qoşa çəkilib. Təkcə "8-ci kilometr" bazarının bir hissəsinin deyil, "Karvansaray" ticarət mərkəzinin bütövlükdə sahiblərinin əlindən alınması əməliyyatı da bu cütlüyün birbaşa iştirakı ilə həyata keçirilib. Zərərçəkən tərəflərin danışdıqları hekayələrdə Hilal Əsədovun adı qırmızı xətlə keçir. Məsələn, "Yeni Müsavat"ın 11 noyabr 2015-ci il tarixli sayında "MTN generalları 20 milyonluq "Karvansaray"ı necə ələ keçiriblər..." sərlövhəli yazı dərc olunub. (http://musavat.com/news/gundem/mtn-generallari-20-milyonluq-karvansarayi-nece-ele-kechiribler_304414.html)

**Həmin yazıda 2012-ci ilə kimi "Karvansaray" ticarət mərkəzində payı olmuş Elşən Kərəm oğlu bildirir ki, "Karvansaray"ı onlardan MTN generalları Akif Çovdarov və Hilal Əsədov alıb. Həmin yazıdan sitat:** "Bizim MMC-nin rəhbərini Akif Çovdarov yanına çağırıb təhqir edir, söyürdü. Növbəti gün də Hilal Əsədov bunu təkrar edirdi..."

***

MTN-də ötən ilin oktyabrında baş tutan qəfil əməliyyatdan sonra hər kəs A.Çovdarovla yanaşı Hilal Əsədovun da qandallanacağını gözləyirdi. Belə görünür ki, H.Əsədov vaxtında vəziyyəti "düzgün" qiymətləndirə bilib və general lompaslı ağ kostyumunun yaxalığındakı qara ləkələri ifadələri ilə yumağa qərar verib.

Bu ifadədən sonra ortaya çıxan nəticə budur: Müavini, ən yaxın adamı Eldar Mahmudovu ilk fürsətdə satıb və cinayətləri onun tapşırığı və nəzarəti ilə həyata keçirdiklərini etiraf edib. Bundan sonra Eldar Mahmudov ya özünü vurmalı, ya da qandallanmalıdır...

❑ **E.MƏMMƏDƏLİYEV**




# Çovdarovun əlində gizli çəkilən intim videolar olub - "Elit" hoteldə əməliyyatın təfərrüatı

## MTN generalı pul ələ keçirmək üçün keçirilən əməliyyatda xüsusi təyinatlılardan istifadə edib

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Nəzarət Baş İdarəsinin həbsdə olan sabiq rəisi Akif Çovdarovun cinayət işi üzrə yeni detallar üzə çıxmaqdadır. A.Çovdarovun cinayət dosyesindən daha bir epizod haqda məlumatları apa.az yayıb.**

Sayt yazır ki, istintaqla müəyyən edilib ki, A.Çovdarov cinayət işi üzrə təqsirləndirilən şəxslərdən Səlim Məmmədovla birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olan Neman Kərimovun külli miqdarda pul vəsaitini ələ keçirmək üçün onu və yaxın qohumu Elvin Mövsümovu azadlıqdan məhrum edib. N.Kərimov və E.Mövsümov Binəqədi rayonunda yerləşən "Elit" hotelində olduqları vaxt dəstə üzvü Səlim Məmmədov xüsusi təyinatlılardan istifadə etməklə odlu silahla oraya basqın edərək adları çəkilən şəxsləri zorla MTN-ə gətirib.

A. Çovdarov onları 10 saat ərzində xidməti otaqlarda saxlamaqla qanunsuz azadlıqdan məhrum edib. O, N. Kərimovun yaxın münasibətdə olduğu Sevinc Rüstəmovadan aldığı 20 min manatı qaytarmamasını bəhanə edərək, sidik nümunələri götürərək guya narkotik vasitələrin istifadəçiləri olduqlarını iddia edərək barəsində cinayət işi başlanılacağı, həbs ediləcəyi, rüsvayedici məlumatların yayılacağı ilə hədələyib.

A. Çovdarov onlardan 80 min manat məbləğində pul tələb edib. Həmin gün tutulanların yaxınları həmin məbləği veriblər. A. Çovdarov həmin pulun 20 min manatını Sevinc Rüstəmovaya borcunun ödənişi kimi verib. Qalan 60 min manatını isə mənimsəyiblər.

Yada salaq ki, bir müddət əvvəl "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu Eldar Mahmudovun əlində 2800 seks videosunun olduğunu açıqlamışdı.

**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl moderator.az-a deyib ki, A.Çovdarovun bu kimi əməliyyatlarda qadınlardan istifadə etməsinin dövlətin təhlükəsizliyinə zərrə qədər aidiyyəti olmayıb:** "Əgər "istifadə olunan qadınlar" həqiqətən istintaqa cəlb olunursa, deməli, onlar bildiyimiz klassik məxfi əməkdaşlar deyil. Onlar Çovdarovun şəxsi məqsədləri, özəl həyatı üçün istifadə etdikləri, şantaj alətləridir, bəlkə də qurbanlarıdır. Qadınlar xüsusi xidmət orqanlarında tarixən olub, var və olacaq. Qadınları xarici kəşfiyyata əməliyyat işçisi və ya agent kimi cəlb etmək çətin və yorucu proses olsa da, nəticələri çox vaxt uğurlu olub. Lazım olan informasiyanı qadından yaxşı kim ala bilər ki? Müasir dünyamızda ABŞ, İsrail xüsusi xidmət orqanları məxfi əməkdaş kimi qadınlardan geniş istifadə edirlər. Böyük Britaniyanın kəşfiyyat orqanı Mİ-6-da, əks kəşfiyyatı təşkil edən Mİ 5-də kadr əməkdaşların 40 faizi qadınlardır. Bu geniş mövzudur, sadəcə, həyatdan götürülmüş , bizlərə tanış olan iki filmdən epizodu xatırlayaq. "Uzaq sahillərdə" filmində Anjelika alman zabitindən filmin başlama saatını məhz qadın cazibədarlığını istifadə etməklə öyrənir. "Baharın on yeddi anı"ndakı Ket xaricdə təhlükəli şəraitdə radist kimi fəaliyyət göstərir. Çovdarovun nə kəşfiyyata, nə əks-kəşfiyyata heç bir aidiyyəti yoxdur ki, hələ bir dövlət təhlükəsizliyini təmin etmək üçün yeri gələndə qadınlardan da istifadə etsin. O, yuxarıda qeyd etdiyim kimi, şəxsi məqsədləri, özəl intim həyatı və şantaj aləti kimi onlardan istifadə edə bilər".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016





# "Vaşinqtonda verdiyim "ikra" ziyafətində Hillari Klinton da vardı"

## **Hafiz Hacıyev:** "Amerikadan qayıdan kimi Surət Hüseynov məndən 600 min dollar xərac tələb etdi"

**Mis müsəlman qazanları masa üzərində sırayla düzülmüşdü. Hamısı zəfəranlı nərə balığı kababıyla dolub daşırdı. İsrail istehsalı "Uzi" avtomatı masanın bir kənarında dincəlir, bəlkə də öz yeni sahibini gözləyirdi...**

Müsəlman qazanı, zəfəranlı nərə balıq kababı, təptəzə İsrail silahı...Qəribə, çox ziddiyyətli bu mənzərəni görərkən, yadımdadı, xeyli təəccübləndim. 1992-ci ilin may ayı idi, səhv etmirəmsə. Xalq Cəbhəsi fəalları öz qərargahlarına yığılıb hakimiyyəti alıb-almayacaqları barədə uzun-uzadı, yorucu müşavirələr-filan keçirdirdilər. İsgəndər Həmidov, indiki kimi yadımdadı, dəqiqəbaşı dəhlizlərdə peyda olur, tez də qeybə çəkilirdi. Pıçapıç, gizli xosunlaşmalar qərargahın bütün künc-bucaqlarına hakim olsa da, son sözü deyəcək qüdrət sahibi hələ görünmürdü.

Axır, bərk darıxıb sıxıldım. Süfrədəki nərə balığı kababından ağzıma yağlı bir tikə atıb, aradakı sükut buzunu qırdım.

- Bakı balıqçıları, nərə balığı, qara kürü qaçaqçıları, deyəsən, keçib Cəbhənin tərəfinə. Kim qara kürünün, ağ balığın sahibidirsə, Bakının fatehi də elə həmin adam olacaq.

Hardan biləydim camaata elə bircə bu hay lazımdı? Dəhlizdəki bütün bağlı qapılar bu dəm qəfil taybatay, öz-özünə açıldı elə bil. İclasdakılar dəhlizə tökülüşdülər. Türk mehtər marşının müşayiəti ilə cumdular eyyy Ali Sovetin ağ mərmər örtüklü qəşəng binasına tərəf.

Qısa atışma səsindən sonra eşitdik ki, bəs, Cəbhə hakimiyyətə yiyələnib. Bakını fəth edib.

***

- İsrail istehsalı "Uzi" avtomatını ilk dəfə həyatımda, bax, bu zaman gördüm. Təzəydi lap. Yağ içində. Görünür, təzəcə qutudan çıxarmışdılar. Qazan-qazan nərə balığı kababını, görünür, Hacı Cəbrayıl göndərmişdi cəbhəçilərin süfrəsinə.

"Müasir Musavat" Partiyasının sədri Hafiz Hacıyevin isti, rahat kabinetində əyləşib köhnə xatirələrimi danışıram. Hacı Cəbrayılın adını çəkən kimi Hafiz Hacıyev əsəbləşib sifətini turşudur.

- Nə? Hacı Cəbrayıl? Yox eyyyy... Mən idim... mən idim o vaxt bu kababı milli qazanlarımıza doldurub AXC qərargahına göndərən. Mən! Bunu məndən başqa daha kimsə bacarmazdı o vaxt. Bacarmazdı! O vaxt bizim "Azərbalıq" Dövlət Konserni nazirlik səviyyəsində bur qurum idi. Bakının balığı, kürüsü ixtiyarımızdaydı. Başqalarının ağzı nəydi bu sahəyə soxulsun...

Digər siyasi partiyaların qərargahlarıyla müqayisədə "Müasir Musavat"ın baş ofisi, necə deyərlər, toya gedəsidi. Qapıdakı elan qonaqlara bəribaşdan xəbərdarlıq edir: "Zəngi basıb, azca gözləyin". Sədrin otağında, şükür, istidir. Qapısına sovetdənqalma üslubda, meşin üzlük çəkilib. Hafiz bəy bu detala marağımı görüb xəfifcə gülümsəyir. Bilir söhbətimizin nəbzini harda tutmaq lazımdı. Keçir şirin sovet dövrü xatirələrinə.

- Gəncədə, 1982-də, deyəsən, Kənd Təsərrüfatı İnstitutunu qurtardım. Məni ölkənin ən ucqar bölgəsi sayılan Kəlbəcərə göndərdilər. Komsomolda işlədim əvvəlcə. Təşkilat şöbəsinin müdiri vəzifəsindən başladım. Katib kürsüsünəcən irəlilədim. Cari komsomol fəaliyyətim elmi işlərimi üstələmədi. Leninqrad Biologiya İnstitutunda "Şoran sularda nohur balıqçılığı" mövzusunda namizədlik dissertasiyamı müdafiə etdim. Elmi rəhbərim Kaşnevskiy Vasiliy İvanoviçdən sonra, vallah, dünyada başqa bir təmiz adam tanımıram. İnan, balalarımın canıyçün.

## "Xalq Cəbhəsinin qərargahına osetrin kababını və kürünü mən göndərmişdim"

***- Elmi rəhbərinizə qutu-qutu nərə balığı, qara kürü payı necə, hədiyyə aparardız?***

Hafiz Hacıyev, "Həəəəə" etirafını son dərəcə musiqi səsləndirir bu dəfə. Ağzındakı "Ə" səsini bir xeyli uzadıb, arada mən tərəfə baxmağı da unutmur.

- Daha kimlərə nərə, qara kürü daşıdınız Moskvada, Bakıda, Vaşinqtonda, İstanbulda, Ankarada? Deyin, utanmayın. Aradan gör neçə illər keçib.

***

Həəəə....siyasi hakimiyyətə can atanlar yaxşı bilər - Bakının qara kürüsü, ağ balığı kimə əvvəlcədən öz xoş sifətini göstərəcəksə, yadda saxla, hakimiyyət də elə həmin kəsə keçəcək.

Basarkeçər dağlarındakı Zod kəndindən Gəncəyə, Bakıya gəlmiş gənc tələbə Hafiz Hacıyev bir gün bu etirafı Bakının Kubinka məhəlləsində eşidib, dərin fikirlərə qərq olur. Qərara gəlir, öz bəxtini məhz qara kürü, ağ balıq sahəsində sınasın. Girişir balıqçılığa. İçinə "İxtioloq" yazılmış diplomuyla Kənd Təsərrüfatı Nazirliyində gur fəaliyyətə başlayır. Tez bir zamanda şöbə müdiri, idarə rəisi vəzifələrinə yetişib, bunları son mənzil saymır özü üçün. Daha yüksək hədəfləri nişan alaraq, uzaq üfüqlərdən gözlərini bir an belə ayırmır. O vaxtlar Xəzər balığının mühafizəsi Həştərxana tabe idi. Kürü istehsalı, nərə balıq ovu isə birbaşa Moskvaya, Kremlə.

- Kommunist Partiyasının hər növbəti qurultayına 600 kilodan çox, bəzən hətta 1-2 ton qara kürü göndərərdik adətən. Bir o qədər də nərə balığı. Müstəqillikdən sonra Elçibəyin razılığı ilə "Azərbalıq" Dövlət Konsernini yaradıb işə başladıq.

***- Elçibəy, qara kürü, nərə balığı kababı...***

Hafiz Hacıyev icazə vermir cümləmi bitirim.

- Yox. Elçibəy qara kürü, ağ balıq kababı yeməzdi heç vaxt. İstəsəydi, birinci mənə deyərdi bu arzusunu. Dilindən bir dəfə də belə xahiş səslənmədi, biləsiz haaaa... O vaxt qərara gəldik ki, hər azərbaycanlının payına ayda bir dəfə 200 qram qara kürü, 2 kilo nərə balığı düşür. Xalqı bu minimumla təmin etdik. Elçibəy dövründə 55 ton qara kürü, 650 ton nərə balığı istehsal edərək satışa buraxdıq.

***- Qiymətlər necə idi bəs?***

Bayaqdan ürəyimdə saxladığım bu sualı, ilk fürsət tapınca ona ünvanlayıb, deyəsən, azca karıxdırıram.

- Yaddaşım paslanıb, deyəsən. Dükanlardakı qiymətlər, bağışlayın, indi yadımda qalmayıb. Ancaq Türkiyəyə, ABŞ-a satdığımız qara kürünün, ağ balığın qiyməti heç vaxt yadımdan çıxası deyil.

***

Azərbaycanın həm qara kürüsü var, həm də qara baxtı. Həm də Qarabağı. Həm də qara nefti. 90-cı illərdə bu qara rəngli naz-nemətlərimiz ətrafında dünya supergücləri öz gizli-açıq oyunlarını qurub fikrə getdilər: "Bəs kim oyunçu olacaq bu qəliz oyunlarda?"

O vaxtkı kadrlar qıtlığından istifadə edən Hafiz Hacıyev bu çağırışı elə göydəcə tutmağı bacarır. Özünü verir irəli. Okeanın o tayında, Amerikada, Ağ Evlə üzbəüz yerləşən "Çarlton" hotelində qara kürümüzün təqdimat mərasimini keçirir. Dəvətlilər arasında indi prezidentliyə namizədliyini irəli sürmüş Hillari Klinton da varmış.

- Həəəə... o, masalar arxasında gəzişir, hərdən süfrədəki qara kürünün dadına baxırdı.

***- Yadından çıxarmayıbmı o dad indi?***

Qəliz sualım həm Hafiz bəyi ayıldır, həm də katibəsini. O, tez masaya yaxınlaşıb çayımı təzələyir.

- Düşmənlərimiz həmişə milli mətbəximizə, qara kürümüzə, ağ balığımıza məğlub olub, yenə də məğlub olacaqlar. Bunu o vaxtkı Vaşinqton təqdimatımızda hiss edib, xeyli sevindim. Vaşinqton hakim elitasının restoran menyusuna özüm baxmışam. Qara kürü, nərə balığı bu menyudan heç vaxt pozulub silinən deyil.

***- Tanınmışlardan kimlər vardı "Çarlton" hotelindəki təqdimatınızda?***

H.Hacıyev bu dəfə sualımdan ehtiyatlanır, deyəsən. Qonaqların tam siyahısını açıqlamır. Siyahını qısaldır.

- Hafiz Paşayevin, Ceyhun Mollazadənin indi də o günlər yadından çıxmaz. Elə Hillari Klintonun da...

***- Bu dadı xanım Klintona xatırlatmaq lazımdı nə qədər gec deyil. Yoxsa sabah gec olar...***

Növbəti tapşırığım anında hədəfə dəyir sanki. Hafiz bəyin xatirə dəftərçəsi sanki düz ortadan açılır. O, telefonunun səs siqnalını söndürüb, nəhayət, rahatlanır. Katibəyə him-cimlə nəsə başa salır. Katibə kabinetdən çıxan kimi Hafiz bəy xatirələrinə davam edir.

- O vaxt ilk dəfə Moskvadan yan ötərək, biz dünya bazarına Xəzər nemətlərimizi satışa çıxardıq. Turqut Ozalın bir qohumu vardı, fotoşəkillərimiz indiyəcən qalır, Əhməd Yurddaş adında. Ona məxsus "Urfa" bazar şirkəti vasitəsilə qardaş ölkəyə 250 ton nərə balığının kilosunu 3,5 dollar qiymətinə satdıq. Qara kürünün tonunu 105 dollara satdıq Türkiyəyə, 110 dollara Amerikaya.

Sonrakı xatirələrin acısı bu vaxt Hacıyevin gözlərində canlanıb məni də öz axarına alır.

- Surət Hüseynovun adamları Vaşinqton səfərimdən dərhal sonra qapımı kəsdirib, nağıllardakı yeddi ilin bac-xəracını, yəni 600 min dollar pul tələb etdilər məndən. Vermədim. Gəlib elə kollegiyanın iclasından apardılar məni. Qısası, Surət Hüseynov məni tutdurdu, Heydər Əliyev buraxdırdı. Zindandan ayrılınca, əvvəlcə "Elçibəy xalq hərəkatı"nı yaratdım, sonra "Müasir Musavat"ı təsis etdim.

## "Elçibəy qara kürü, ağ balıq kababı yeməzdi heç vaxt. İstəsəydi, birinci mənə deyərdi bu arzusunu. Dilindən bir dəfə də belə xahiş səslənmədi"





***- Eşitdiyimə görə, Heydər Əliyevi Bakıda qarşılayanlardan ən fəalı elə siz olubsunuz vaxtilə. Nəriman Həsənzadə, Bəxtiyar Vahabzadə, Cəlal Əliyev sıra boyu öndə dayanmışdılar. Amma Heydər Əliyevə yeganə gül çələngini siz vermişdiniz o zaman.***

- Hə...elədi... Onun bu çələngi qoxulamağı indiyəcən xatirəmdədir. Cəlal Əliyevin o vaxt çiynimə qonan əlinin istisi indi də getməyib.

Söhbətimizin bu ən şirin yerində katibə kabinetə qayıdır. "Vaşinqtonda vaxtilə çəkilmiş şəkillərdi" deyib, bir topa fotonu masa üzərinə buraxır.

***

Bir an fotolara zillənib keçmişə düşüb, müasirlikdən ayrılıram. Hafiz Hacəyev əvvəlcə gözləmə taktikasını seçir. Görəndə məsələ uzanır, başlayır öskürməyə. Bu, məni ayıldıb günümüzə qaytarır. Qayıdıb görürəm o, yenə əvvəlki yerindədi, katibə Könül xanım isə bir kənarda durub arxiv qovluqlarını vərəqləyir.

H.Hacıyev yenə öskürüb boğazını arıtlayır. Səsini bərpa edib sözünə davam edir.

- İndiki vəziyyətlə 1993-cü il arasında elə də fərq görmürəm. Tarix yenidən təkrarlanır. Qardaşımı, - o, prezident İlham Əliyevi daim belə çağırır, - gözü götürməyənlər, satqın məmur tayfası açıq sabotaja başlayıb prezidentimizə qarşı. Xalqla prezident arasında uçurum yaratmağa girişiblər. Məni ən çox kənd təsərrüfatı naziri əsəbiləşdirir, vallah. Toyuq əti niyə 1 manat 75-dən 3 manat 75 qəpiyə qalxmalıydı bu gün? Niyə? Mal ətinin kilosu 6 manatdan qalxıb 10 manata. Üzüm, Allahın üzümü, Azərbaycanın üzümü niyə 4-5 manata marketlərdə satışa çıxarılmalıdır? Sabotaj deyilsə, bəs nədir bu, hə, soruşuram hamınızdan? Son vaxtlar oliqarxlar siyasətlərini dəyişiblər lap. Deyirlər, bəs prezident yaxşıdır, ətrafı zaydır. Yenə də təkrarlayıram hamı üçün - bunu adi adam deyə bilər, vəzifə sahibi yox... Hakimiyyəti parçlamaq siyasətidir axı bu...

***- Çox qorxuludurmu vəziyyət?***

***- həyəcanımı gizləyə bilmirəm.***

- Xəbərlərdən belə çıxır ki, nurçuların siyahısı Türkiyədən Bakıya göndərilib elə bil. İndi masa üzərindədir... Prezident...

Axşamdı artıq. Sadə insan kütləsi aşağıdakı "Azadlıq" metrosuna tərəf axır, axır, axır. Qurtarmır.

***

Söhbətimiz axır, bax, bu nöqtəsində bitdi nəhayət ki. Amma Hafiz Hacıyev söndürdüyü telefonunu yandırınca, zənglərin sayı-hesabını itirdik. Zəng vuranların ən narahatı, səbirsizi "Müasir Musavat"ın Şirvan şəhər şöbəsinin sədri Əmənov Eyvazdı. Deyirdi bəs oğlunu yol polisi işçiləri tutub döyüblər. Vəziyyəti ağırdı. Əl mənim, ətək sənin. Bəs ay Hafiz, kömək əlini bizdən üzmə...

- Polislə prokuror əvəzi əlbirdi bu şəhərdə. Şikayət etmişəm barələrində. Prokuror əvəzinə şiddətli töhmət veriblər... Polisin biri qaçıb...vəziyyət qəlizləşib lap eyyy...

**Hafiz bəy telefonlarını bir-birinə qatıb baş prokurorun köməkçisini aramaya başlayan vaxt, fikirləşdim qoy daha ona mane olmayım. Sakitcə qalxdım masa arxasından. Lal-dinməz, ingilissayağı kabineti tərk edirəm.**

**İmkan yaratdım ki, Hafiz bəy ölkəmizdə haqq-ədaləti bacardığı qədər bərpa etsin.**

**Mənimlə isə o, sonra da vidalaşa bilər.**

❑ **Həmid HERİSÇİ**



# Həbsdəki jurnalistin xanımının İran səfirliyinə sığınması təsdiqləndi

## Fikrət Fərəməzoğlunun ailəsini səfirlik mühafizə edir; jurnalistin həyat yoldaşı barəsində xoşagəlməz xəbərləri kimlər yayıb?

**Hazırda həbsdə olan jam.az saytının baş redaktoru Fikrət Fərəməzoğlunun ailəsinin İran səfirliyinə sığınması barədə xəbər vermişdik. Jurnalistin ailəsi artıq səfirliyin nəzarətindədir. Doğrudur, səfirliyin təşkil etdiyi evdə yerləşməsələr də, Fərəməzoğlu ailəsi öz evində səfirlik tərəfindən mühafizə olunur.**

Bundan başqa, bəzi saytlarda F.Fərəməzoğlunun həyat yoldaşı Faiqə Nosrati haqqında qeyri-etik xəbərlər dərc ediblər ki, bu da qarşı tərəfdə ciddi narazılıq doğurub. F.Nosrati "Yeni Müsavat"a açıqlamasında vətəndaşı olduğu İran səfirliyinə sığınmasının səbəblərini açıqladı: "Belə iyrənc hadisələri yaşayacağımı bilmirdim, zənn edirdim ki, adi təhdidlərdir. Amma işin ən pik nöqtəsinə gəldik. Barəmdə əxlaqsız xəbərlər paylaşıldı. Səfirliyə müraciət etməyə məcbur qaldım. Mənə dedilər ki, sənə ev ayırırıq, orada yaşayarsan. Fikrətin məsələsi tam aydınlaşana qədər. Səfirliyə xəbər verdim ki, noyabrın 3-də onların ayırdıqları evə gələcəm. Amma sonradan fikrimi dəyişdim və səfirliyə məlumat verdim ki, öz evimdə qalıram, siz mənim evimi qoruyun. Onlar da bununla razılaşdılar. Ona görə evimi tərk etmədim ki, sonradan evdə adam olmayanda gəlib kamera, dinləmə quraşdırarlar. Sonra isə şəxsi həyatıma aid şeylər paylaşarlar. Səfirlikdən xahiş etdim ki, kolidora kamera quraşdırsınlar. 24 saat da evimiz mühafizə altında olacaq. İstəmirəm səfirliyin evində yaşamaq. Əvvəl deyilirdi ki, Fikrət rüşvət alarkən həbs olunub. Amma indi sübut olundu ki, həyat yoldaşım yazdığı yazılara görə həbs edilib. Bizi ləkələmək istədilər, amma alınmadı. Belə əxlaqsız xəbər yayan saytlar pula görə hər şeylərini satanlardır. Bu saytlar Fikrət həbs olunandan bu günə qədər onun barəsində bir xəbər belə yazmayıblar. Aydındır ki, o saytlara müəyyən məbləğdə vəsait verilib, bu xəbəri yaymaq üçün. Vəkil baş verənlər barədə şikayət hazırlayıb, prokurorluğa təqdim edəcək. Bir qadının başına necə oyun aça bilərlər ki? İlkin mərhələdə belə iyrənc xəbəri yayarlar. Bu hərəkəti edən şəxslər məsuliyyətə cəlb olunmalıdırlar. Onlar bildirirlər ki, haker hücumuna məruz qalıblar. Həmin məlumatları bir müddət yayıblar. Bunun screenlərini etmişik. Fikrət bəylə məsləhətləşəcəm. Bu barədə məhkəməyə müraciət etmək fikrimiz var. Əxlaqa sığmayan qeyri-etik ifadələr işlədilib. Təəssüf edirəm ki, hüquq-mühafizə orqanları vəkilə təsir etmək üçün belə imkanlara əl atırlar. Bu şeylər davam edəcək. Ona görə də evdən bayıra çıxanda da səfirliyin əməkdaşı məni mühafizə edəcək".



Fikrət Fərəməzoğlu

### Faiqə Nosrati: "Hər dəqiqə səfirlik başımızın üstündədir"

**Jurnalistin həyat yoldaşı xarici ölkələrin birindən siyasi sığınacaq istəmək fikrində olmadığını da söylədi:** "Bu barədə heç vaxt düşünmək belə istəməmişəm. Yoldaşımı heç vaxt həbsdə tək qoymaram. Ömrü boyu həyat yoldaşımı həbsxanada saxlasalar belə, onu tək qoyub ölkədən getmərəm. Fikrət azadlığa çıxandan sonra onun məsləhəti ilə harasa gedə bilərik. Fikrət həbs olunduğu andan səfirliyə müraciət etmişdim. O zamanlar təhdid olunmuşdum. O zamandan səfirliklə əlaqəm var idi. Hər dəqiqə səfirlik başımızın üstündədir. Bunları biləbilə niyə belə hərəkətlər edirlər, hələ də anlamıram".

**F.Fərəməzoğlunun vəkili Elçin Sadıqovun təqib olunmasını iddia edən jurnalist xanımı bunu yolverilməz hesab edir:** "Bütün səlahiyyətli orqanlardan, o cümlədən ölkə başçısından xahiş odur ki, bu məsələni dərhal araşdırıb, son qoyulmasına göstəriş versinlər".

Xatırladaq ki, Fikrət Fərəməzoğlu barəsində 2016-cı il iyulun 2-də Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Jurnalist Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə pul tələb etmədə) maddəsi ilə təqsirləndirilir. O, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılır.

❑ **Cavanşir ABBASLI**

# "Sərhədsiz Reportyorlar"ın hesabatı: "sərhədi" keçir, yoxsa...

**"Sərhədsiz Reportyorlar" hüquq-müdafiə təşkilatı noyabrın 2-də 2016-cı il üçün hesabatını açıqlayıb ki, 35 dövlət və hökumət başçısının, o cümlədən Azərbaycanın dövlət rəhbərinin adı da neqativ planda çəkilib.**

Sənəddə iddia olunur ki, ötən il ən çox Türkiyədə vəziyyət pisləşib, burada kütləvi repressiyalar dalğası davam edir və ən azı 130 jurnalist həbsdədir, 140-dan çox KİV bağlanıb. Hakimiyyət, demək olar ki, ölkənin bütün mətbuat məkanına nəzarət edir. ("Turan") "Ötən ildən hakimiyyət xaricdə sığınacaq almış jurnalistlərin qohumlarının təqibi ilə bağlı yeni metodlar tətbiq edir. Hazırda Azərbaycanda 8 jurnalist və blogger həbsdədir, onlarla KİV nümayəndəsi isə təqiblərdən xaricdə gizlənmək məcburiyyətindədir. 2015-ci illə müqayisədə Azərbaycan dünyada mətbuat azadlığı reytinqində 162-ci yerdən 163-cü yerə düşüb" - hesabatda bildirilir. Qeyd edək ki, ümumilikdə siyahıda 180 ölkədən bəhs olunur. Ən azad mətbuat Finlandiya və Niderlandda, ən qeyri-azad mətbuat isə Eritreya və Şimali Koreyadadır. Mətbuat azadlığının səviyyəsinə görə Gürcüstan 64-cü, Ermənistan isə 74-cü yerdə göstərilib. Azərbaycanda isə bu hesabata münasibət birmənalı deyil.



**Arif Əliyev:**
"Hələ mən görməmişəm ki, düşmən siyahıları hansısa bir ölkənin rəhbərliyinə və yaxud siyasi elitasına müsbət təsir göstərsin"



**Zahid Oruc:**
"Siyasi elitaların qəddarlığından danışanlar "Wikileaks"in banisi Culian Asancı raketlə partlatmağı təklif edən hökumətləri "dünyanın ən azad ölkələri" sırasına qoyurlar"

"Dost və düşmən kateqoriyaları, fikrimcə, bütövlükdə ayrı-ayrı ölkələrdə və müxtəlif səviyyələrdə artıq media elementi olmaqdan başqa, həm də siyasi elementdir. Ona görə də mən bunu bir o qədər də uğurlu kateqoriya hesab etmirəm". Bu fikirlər isə **"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyevə** məxsusdur. A.Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, medianın məqsədi həm də vəziyyəti dəyişmək, yaxşılaşdırmaqdır. "Hələ mən görməmişəm ki, düşmən siyahıları hansısa bir ölkənin rəhbərliyinə və yaxud siyasi elitasına müsbət təsir göstərsin. Ona görə də mən bu kateqoriyanı daha çox siyasi hesab edirəm. Bu, əlbəttə, bir media faktorudur, amma eyni zamanda burada, əlbəttə, bir siyasət də var. Amma əgər söhbət Azərbaycanda medianın vəziyyətini qiymətləndirməkdən gedirsə, mən bu fikirdəyəm ki, Azərbaycanda medianın vəziyyəti Avropa ölkələri arasında ən pis göstəricilərdən biridir. O mənada bu faktla razıyam. Xoşagəlməz bir səhnə mövcuddur" deyə, A.Əliyev əlavə etdi.

**A.Əliyev güman etmir ki, belə hesabatların hazırlanması zamanı "Sərhədsiz Reportyor"ın mövqeyinə təsir edən kənar amillər olur:** "Söhbətlər var ki, ermənilərdir, ya nələrdir, bu, çox səviyyəsiz söhbətlərdir. Hansı təşkilat ki, bir az xoşagəlməz bəyanat verir, biz dərhal onu erməniyə calayırıq ki, "Azərbaycana təsir etmək istəyir" və s. Dünya çapında Azərbaycan elə mühüm rol oynamır ki, ona təsir etmək üçün bu qədər böyük hengamələr yaradılsın. Sadəcə, hər təşkilatın özünün prinsipləri var. Təbii ki, istənilən təşkilata müəyyən təsirlər mövcuddur. Amma mən bilirəm ki, onlar öz siyahılarını, araşdırmalarını bütün ölkələr üçün ümumi prinsiplər əsasında aparırlar və xoşumuz gəlsə də, gəlməsə də, çox sanballı təşkilatlardandır".

**Ortaya sual çıxır, əgər bu təşkilat obyektivdirsə, o halda Ermənistanın adı niyə siyahıdan kənarda qalıb ki, erməni mediası Türkiyə və Azərbaycanın adını sevincək xəbər başlıqlarına çıxarıb və bu iki türk dövlətinə qarşı təbliğat aparmaq şansı qazanıb? Qan tökməklə hakimiyyətə gəlmiş Sərkisyanın ölkəsində vəziyyət bu qədərmi idealdır? A.Əliyev:** "Yox, Ermənistanda vəziyyət ideal deyil. Amma Ermənistanda medianın vəziyyəti və hakimiyyətin media siyasəti Azərbaycandan qat-qat yumşaqdır. Orda jurnalistlərin sərbəst fəaliyyət göstərməsinə imkanlar daha genişdir. Mən təəssüflənirəm ki, Azərbaycan mediası Qafqazdakı aparıcı rolunu artıq 2000-ci illərin əvvəlindən itirib".

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc isə təşkilatın hesabatını tam qərəzli sayır:** "Azərbaycanda mətbuatın azadlığını müəyyənləşdirmək üçün beynəlxalq hesabatları mötəbər mənbə kimi qəbul etməyin özü həmin hücumlara legitimlik qazandırmaq demək olardı. ATƏT-in komissarı Dunya Miyatoviç də daxil böyük bir dəstə "ekspertlər şuraları" şəklində uzun illərdi sovet çinovniklərinə bənzər bir formada Azərbaycanı hədələməklə məşğuldurlar. Lakin özləri ən kiçik tənqidlərə dözümsüzlük göstərir və xəfiyyə orqanlarının təmsilçiləri kimi yalnız xüsusi seçilmiş mənbələrlə işləməyə öyrəşiblər. Halbuki bir ölkədə internetin əlçatanlığına nəzərən və sosial medianın bütün digər KİV sektorunu üstələdiyinə rəğmən mediaya basqından və azad sözün meydanının daraldılmasından danışmaq qərəzçilikdir, xüsusi məqsədlər güdür və siyasi sifarişlərdən qaynaqlanır. SSRİ dövründə ideoloji basmaqəlibllərlə işləyən qurumların təcrübəsi bir sıra beynəlxalq təşkilatların fəaliyyətində hələ də özünü qabarıq göstərməkdədir".

**Z.Oruc "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda hakimiyyət orqanlarının mətbuata münasibətini bir neçə jurnalistin haqları üzərindən çözmək olmaz:** "Dünyada elə bir ölkə yoxdur ki, informasiya vasitələri üzərində xüsusi siyasət yürütməsin. Dövlət sirlərinə münasibət, hərbi təhlükəsizlik maraqları və müharibə şəraitinin tələbləri, həmçinin son illər qlobal təhlükəyə çevrilmiş etnik-milli-dini ekstremizmlə bağlı təhlükələr hakimiyyət orqanları ilə mətbuat arasında çoxsaylı problemləri meydana çıxarıb. Milli mənafelər hüquqi cəmiyyət quruluşunun gerçəkləri ilə qarşılıqlı ziddiyyətdə və çarpışma vəziyyətində qalıb. Ona görə də dünyada kəşfiyyat orqanlarının ən böyük silahlı kanalı təəssüf ki, informasiya vasitələridir. Media ictimai fikri formalaşdıran vasitə olmaqdan çıxaraq casus şəbəkələrinin maraq dairəsinə daxil olub. Azərbaycanda dövlət-media münasibətlərinin uğurlu inkişafına və yaxşı əməkdaşlıq tarixinə heç bir yer ayırmadan narkokartellərin və ya terrorçuların adı yer alan siyahılarda 162 ölkəni və bizi qaralamaq həmin hesabatları tərtib edənlərin cinayətkar maraqlarından başqa bir şey deyil. Hər halda, siyasi elitaların qəddarlığından danışanlar "Wikileaks"in banisi Culian Asancı pilotsuz raketlə partlatmağı təklif edən hökumətləri "dünyanın ən azad ölkələri" sırasına qoyurlar. Görünür, demokratik rejimlərdə amansızlıqla öldürülmək həbs olunmaqdan daha yüngül cinayətdir. Azadlığın ən yüksək həddi olaraq təhqir hüququnun və hər kəsi mühakimə etmək səlahiyyətinin hökm sürdüyü bir cəmiyyəti "qeyri-azad" adlandıranlar müxtəlif qanlı inqilablar törətdikləri ölkələrdə fərqli mövqeyi ilə seçilən media quruluşlarına qarşı basqıları, qətlə yetirilən jurnalistləri nədən görmürlər? Yoxsa azadlıq ancaq qərbpərəstliklə ölçülür?"

❑ **Cavid TURAN**



# Sözləri mənim, musiqisi hökumətin

Zamin HACI
zaminhaci@gmail.com

**Avstraliyada təzəlikcə bir qalmaqal qopmuşdu, özü də it üstündə. Sən demə, orda ştatlardan birinin türmə naziri iki it saxlayır, şəhərdən bağ evinə qədər məsafə isə 100 kilometrə yaxındır, bir neçə dəfə nazir sürücüsünə tapşırıb ki, itləri maşına qoyub bağa aparsın. Maşın nazirin xidməti maşını olduğundan camaat, mətbuat, siyasi aləm qarışıb bir-birinə. Tələb edirlər ki, nazir istefa verməlidir, çünki dövlət avtomobilində şəxsi itini daşıtdırıbdır.**

Belə söhbətləri oxuyanda adam it olub hürmək istəyir. Sən bunların dərd-sərinə bax... Gör camaat hansı "problemlərlə" uğraşır, biz nələrlə... Ötən əsrdəki bir teletamaşada Hacıbaba Bağırovun qəhrəmanı deyirdi: "Nöş belə oldu, çibuş?" Axı prinispcə, Avstraliya da Azərbaycan kimi bir yerdir, hələ qlobusda təpəsi aşağı dayanıblar, bizə baxanda çətinlikləri çoxdur.

Elə həmin gün bizim mediada başqa it xəbəri var idi: Bərdədə it boğuşdurmaq üzrə Azərbaycan çempionatı keçirilmişdir, Bozdar Toplanı boğmuşdur.

Fərq, bax, bundan yaranır: onlar naziri iti dövlət maşınına mindirdiyi üçün boğazlayır, biz isə it boğuşdurmaqdan ləzzət alırıq.

BDU-da bir professor var, gələcəyin jurnalistlərini istehsal eləmək üzrə, türkün sözü, görəvlidir. Keçən il Bakıda Avropa oyunları məzhəkəsi düzəldiləndə belə yazmışdı: "Bu oyunların təntənəli açılış mərasiminə sevinməyənlərin damarlarından azərbaycanlı qanı axmır". İndi buna nə deyəsən? Beləlerinin stanoklarından çıxan məhsullar ölkəni hara aparar? Uzun sözün qısası, həmən bu professor təzəlikcə müəllimlərin kitab oxumadığından gileylənmişdi. Deyir, gərək müəllimlər çoxlu bədii kitab oxusun, uşaqlara da oxutdursun, millətimiz aydınlığa çıxsın, hurreyy! Sən oxuyub camaatın qan analizi ilə məşğul olursansa, o biri müəllimlər oxumasa yaxşıdır. Kasıbçılığımızı edirik birtəhər, imkan verin yaşayaq. Kitab oxusalar seçki saxtakarlığını, yaltaqlığı, yalançılığı bədii üsullarla edəcəklər.

O biri yanda AMEA-nın Ədəbiyyat İnstitutu adlı karikatur qurum iclas keçirdir və qərara alırlar ki, institutda... manısçılıq üzrə şöbə düzəldilsin, ən güclü mahnılarından biri "Kişidi bu, kişidi bu, nənənin kişmişidir bu" olan nəğməkar-şairi də ora müdir qoysunlar. Bəh-bəh... Nə günlərə qaldın, Azərbaycan, öz cəzandır çək... Hərçənd Bob Dilan Nobel alıbsa, bizim manısların ədəbiyyat institutuna axışmasına niyə pis baxaq? Yadıma Nüsrət Kəsəmənlinin bir şeiri düşdü, orda kor dişini çəkdirəndə gözü açılırdı, bundan sonra bütün korlar diş həkiminə axışırdı.

Üstəlik, hara baxsan, manıslıqla doludur. Azərbaycanda nə iş görsən, nə düzəltsən mahnı alınır. Nəğməkar ölkəyik. Prokuror mahnı yazır, nazir mahnı yazır, general qaval oynadır, canım sənə desin, gömrükçü mahnı qayırır və saire. Hətta bir ara dünyanın ən bərkgedən universitetinə uşaq göndərdik, oxuyub gəldi, başladı mahnı oxumağa. Elə bil Oksforda, Harvarda deyil, Bülbül adına orta ixtisas məktəbinə uşaq göndərirsən. Qardaş, nə qədər mahnı oxumaq olar? Azərbaycanın adını axırda dəyişib "Osəsbaycan" qoyacaqlar. Özü də nə sirdirsə, oxuyanın da hamısı bir ağız oxuyub özünü tutandan sonra boğazı piylənir, başlayır xoruz buraxmağa. Hamı oxuyur, di gəl qulaq asmağa mahnı yoxdur. Yapistlərin mənəvi babası Brejnev müəllimin adından bir söz yazırdılar: "Çörək olarsa, mahnı da olar". Cəlal əmidən sonra buğda sortlarında yüngülvari problem yaşasaq da indi, göz dəyməsin, çörək var. Ye, oxu. Müsiqişünas Firudin Şuşinskinin bir müğənni haqda dediyi söz yadıma düşdü: "Zəngulə vura bilmir, səsi salır çənəsinə, elə bil Qala qoyunu gövşəyir".

Yəqin Avstraliyadan başlayan yazının qoyunla bitməsi də təsadüf deyildir. Hərçənd bizdə yanlış təsəvvür var ki, dünyada ən çox qoyun Avstraliyadadır. Yazım biləsiniz, bu düz fakt deyil. Ən çox qoyun Argentinada yaşayır.

# İrəvan və Tehran anlaşma ərəfəsində

## İran və Ermənistan arasında qaz razılaşması yenidən masada; Rusiya qazına alternativə "yaşıl işıq" yandıran İrəvan paralel olaraq Gürcüstanın tranzit tariflərini aşağı salması üçün hərəkətə keçdi

**İran və Ermənistan arasındakı qaz sövdələşməsi ilə bağlı proses yenidən canlanıb. Noyabrın 2-də Ermənistanın enerji infrostrukturu və təbii ehtiyatlar nazirinin müavini Ayka Arutyunyan Tehrana səfər edib.**

"Yeni Musavat" Ermənistan mediasına istinadən xəbər verir ki, nazir müavini səfəri çərçivəsində İranın neft və qaz ixracı milli kampaniyasının icraçı direktoru ilə görüşüb. Görüşdə İran qazının alış-satışı, Ermənistan ərazisindən üçüncü ölkəyə tranziti ilə əlaqədar məsələlər müzakirə olunub. Ermənistanın Energetika Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, danışıqlar əsnasında tərəflər təbii qazın tranziti və alqı-satqısını nəzərdə tutan yekun memorandumu paraflayıblar. "Yaxın zamanlarda sənəd imzalanmaq üçün təqdim olunacaq"-rəsmi məlumatda deyilir.

Qeyd edək ki, Ermənistan İrandan alacağı böyük həcmdə təbii yanacağın idxalı və ötürülməsi məqsədilə "Enerjiimpeks" kompaniyasını yaradıb. Hazırda Ermənistan təbii qazın bir hissəsini Rusiyadan Gürcüstan ərazisi vasitəsilə alır. Ermənistanı müəyyən qədər qaz ehtiyatları ilə təmin edən müsəlman İran dövləti son anlaşmaya əsasən, işğalçı ölkəyə 20 il ərzində 36 milyard kubmetr qaz ixrac edəcək. Hətta ixracın həcminin 47 milyarda qədər artırılması da istisna edilmir.

Heç şübhə yoxdur ki, Ermənistan qaz idxalını artırmaqla həm də Azərbaycanın işğal altındakı ərazilərini də təbii qazla təmin etməyi planlaşdırır. Bir sıra yaşayış məntəqələrinə ianələrlə də olsa, qaz xətləri çəkilib və işğalın və separatçılığın stimullaşdırılmasında çox təəssüf ki, Azərbaycanın müsəlman qonşusu da iştirak edir.

Eyni zamanda müxtəlif kombinasiyalar qurmaqla qazanmağa çalışan işğalçı Ermənistan İranla anlaşma imzalamağa hazırlaşdığı ərəfədə Tiflislə də qaz danışıqlarına başlamağa qərar verib. Ermənistan mətbuatı xəbər verir ki, İrəvan Rusiya qazının Gürcüstandan keçən hissəsinə görə tətbiq olunan tariflərin aşağı salınması məqsədilə Tiflislə danışıqlara başlayıb. Bu xəbəri "Qazprom-Ermənistan" kompaniyası da təsdiqləyib. İranla qaz anlaşmasından sonra Ermənistan Rusiya qazına artıq "ikinci dərəcəli" məsələ kimi baxmağa başlayıb və vəziyyətdən istifadə edərək daha ucuz mavi yanacaq almağa çalışır. İndi Tiflisin İrəvana hansı cavabı verəcəyi çox maraqlıdır.

Düzdür, ən ağır dönəmlərdə Azərbaycanın hesabına donmaq təhlükəsindən xilas olan Gürcüstanın da Bakı ilə razılaşmaları "unudub" Ermənistandan ötürüləcək İran qazından pay almaq iştahı var. Gürcü rəsmilər bunu Azərbaycanın qaz ehtiyatlarının "az olması" ilə əlaqələndirməyə, əslində isə Bakıya təzyiq edib daha ucuz qiymətə qaz almağa çalışırlar. Bu il ərzində Tiflisdən bir neçə dəfə bənzər açıqlamalar gəlib və rəsmən etiraf olunub ki, Tehran və Tiflis 200 milyon İran qazının Gürcüstana ixracına dair danışıqlar aparır. Həlelik Ermənistanın az tutumlu kəmərləri iri qaz anlaşmasını mümkünsüz edir. Üstəlik, İran-Ermənistan qaz kəmərinin İran hissəsinin diametri Ermənistan hissəsinin diametrindən iki dəfə böyükdür. Bu isə İrəvanın arzuları il tərs mütənasibdir. Rəsmi mövqe belədir ki, İran-Ermənistan qaz kəməri tikiləndə Ermənistan ərazisində daha iri diametrli kəmərin çəkilməsi üçün vəsait olmadığından belə bir vəziyyət yaranıb. Vaxtilə normal ölçülü kəmər çəkmək üçün vəsait tapa bilməyən Ermənistanın indiki ac-yalavac dövrdə bu vəsaiti haradan tapacağı isə sual doğurur. Qeyd edək ki, 2007-ci ildə istifadəyə verilən kiçik diametrli İran-Ermənistan qaz kəməri ildə 2,5 milyard kubmetr qaz ötürməyə imkan verir. Bununla belə, Ermənistan daha az qaz alır və əvəzində İrana hər il 3,3 milyard kilovat/saat elektrik enerjisi ötürür.




Ancaq qəribədir ki, beynəlxalq layihələrdən kənarda qalan işğalçı ölkə bəzən İran qazının Rusiya vasitəsilə hətta Avropaya ötürüləcəyi barədə də xam xəyallara düşür. Rusiyanın sanksiyalarla üz-üzə qaldığı və maliyyə problemləri ilə üzləşdiyi dövrdə isə bu, real görünmür. Mümkündür ki, İrəvan Rusiyanın Ermənistan-İran qaz anlaşmasına şərt təpki verəcəyindən ehtiyatlandığı üçün belə məlumatları dövriyyəyə buraxır və Kremli zərərsizləşdirmək istəyir. İrəvan İran qazının Gürcüstan vasitəsilə Rusiyanın Abxaziya vilayətinə qədər nəql oluna biləcəyindən də dəm vurur. Amma bütün bunlar arzu olaraq da ermənilərin ürəyində qala bilər. Yeri gəlmişkən, İran-Ermənistan qaz danışıqlarında az sonra aprel döyüşləri baş verdi ki, Rusiya həmin döyüşləri bir neçə gün ərzində sakitcə müşahidə etməklə Ermənistanı şoka saldı. Məhz bundan sonra İrəvanda "Rədd olsun Rusiya" tipli şüarlarla aksiyalar başladı. Son zamanlar Rusiyanın bir sıra dairələrində Kremlin İrəvanla soyuyan münasibətlərindən bəhs olunur. Eyni zamanda Rusiya-Azərbaycan əlaqələrində dinamika müşahidə edilməkdədir. Odur ki, İran-Ermənistan qaz anlaşmasının tətiklənməsi Rusiyaya qarşı cavab tədbiri də ola bilər. Ona görə də mümkündür ki, Ermənistan növbəti dəfə Rusiyanın tərs şapalağına tuş gəlsin...

❑ Elşad PAŞASOY



## "Azərbaycan heç zaman Ermənistana hücum planı qurmayıb"

**"Erməni general Arkadi Ter-Tadevosyanın Ermənistanın Azərbaycanı 20 dəqiqəyə büsbütün məhv edə biləcəyi ilə bağlı iddiaları tamamilə ağılsızlıq və sərxoş adamın sayıqlamasıdır. Özünə hörmət edən hərbçi sübut-dəlil göstərmədən belə bəyanat verməz".**

Ehtiyatda olan polkovnik Şair Ramaldanov bu sözləri virtualaz.org üçün erməni general-mayoru, "Kommandos" ləqəbli Arkadi Ter-Tadevosyanın "Yerkramas" qəzetinə verdiyi müsahibədəki sözlərini şərh edərkən deyib.

Erməni generalı yalan danışmaqda günahlandıran Ş.Ramaldanov deyib: "Azərbaycan heç zaman Ermənistana hücum planı qurmayıb. İşğal altında olan torpaqlarımızın azad edilməsi bizim tarixi hüququmuzdur. Biz qaçqınları, özü də bütün millətlərdən olan qaçqınları öz yurdlarına qaytarmaq istəyirik".

## Rusiya aviaşirkəti İrəvana uçuşlardan imtina etdi

**Rusiyanın aşağı büdcəli aviaşirkəti "Pobeda" Ermənistanın paytaxtı İrəvana aviareyslər həyata keçirməkdən imtina edib. Rusiya KİV-i xəbər verir ki, buna səbəb Zvartnots hava limanında gömrük rüsumlarının yüksək olmasıdır. (azvision.az).**

İrəvan hava limanında 1 sərnişin üçün rüsum 50 avro təşkil edir. Bu isə Rusiya aviaşirkətinin büdcəsinə uyğun deyil. "Pobeda"nın xarici marşrut istiqamətində 1 sərnişin üçün hava limanının rüsumu orta hesabla 10 avro təşkil edir. Bir sıra hava limanlarında isə bu xidmət ümumiyyətlə pulsuzdur.

Qeyd edək ki, "Pobeda" Rostovdan İrəvana, həmçinin Gümrüyə uçuşlar həyata keçirməyə icazə alıb.

**Zaman-zaman Rusiyanın Azərbaycan və Ermənistana fərqli münasibət sərgiləməsinin şahidi olmuşuq. Bunun üçün ötənlərə qısaca nəzər yetirmək kifayətdir. Aprel döyüşlərində yalnız üç gün susaraq gərgin döyüşləri müşahidə edən Rusiya daha sonra atəşkəsin əldə olunmasına nail oldu, sülh danışıqlarında dinamikanın əldə olunması üçün bəzi cəhdlər göstərdi. Lakin daha sonra tərəfləri "razılaşmaq" üçün baş-başa buraxmağı daha məqsədəuyğun sayaraq yenə də kənara çəkildi.**

# Moskva-İrəvan münasibətlərindəki gərginlik - oyun, yoxsa reallıq...

## Politoloq: "Kreml İrəvana öz nümayəndələri vasitəsilə demək istəyir ki, "mənim bütün əmrlərimi yerinə yetirməsən, Dağlıq Qarabağ məsələsində mövqeyimi dəyişə də bilərəm"



Ermənistanda anti-Rusiya dalğasının baş qaldırdığı yay aylarında qəfildən Serj Sərkisyan Moskvaya çağırıldı və onun ardınca Kremlin öz forpostuna münasibəti xeyli dəyişdi. Rusiya işğalçı ölkənin hava məkanını öz nəzarətinə aldı, Ermənistanla birgə hərbi birləşmələr yaradılmasına qərar verdi, son nəticədə isə Rusiyaya məxsus "İsgəndər" raket kompleksləri İrəvandakı hərbi paradda göründü. Əksəriyyət hesab edirdi ki, Rusiya həm bununla Azərbaycanı ondan daha çox silah almağa təşviq edir, həm də Ermənistandakı ictimai rəyi öz xeyrinə dəyişməyə çalışır.

Əslində zahirən Rusiyanın öz məqsədinə çatdığını da demək olar. Xüsusən də Ermənistandakı anti-Rusiya aksiyalarının səngiməsini xatırladaq bilərik. Son vaxtlar isə Rusiyanın Azərbaycanla əlaqələrə daha çox önəm verməsi, VII Azərbaycan-Rusiya regionlararası forum kimi birgə tədbirlərin keçirilməsi və s. addımlar çox güman ki, yenə də erməniləri silkələyəcək və onların növbəti dəfə "Rusiya Ermənistanı satdı, Qarabağı Azərbaycana qaytarır" kimi vay-şivənə başlayacaqları şübhə doğurmur.

Bir sıra rusiyalı ekspertlərin açıqlamaları isə belə düşüncələr yaradır ki, İrəvan-Moskva münasibətlərində yenidən gərginliklər mövcuddur. Hesab olunur ki, bu soyuqluğun bir səbəbi də Ermənistandakı anti-Rusiya ovqat və Qərbə yönəlik siyasi reveransların artmasıdır. Hətta bu arada Rusiyanın Avrasiya İqtisadi Birliyi institutunun direktoru Vladimir Lepexin Ermənistanı öz ərazisində Qərb institutlarının fəaliyyətini dayandırmağa və yerli QHT-lərin Qərbdən maliyyələşməsinin qarşısını almağa çağırıb. "Əks halda, Ermənistanın ağır nəticələrlə üzləşəcəyini, o cümlədən "Dağlıq Qarabağı itirəcəyini" deyib.

**Bu ilin sonuna kimi bəzi ərazilərin azad olunacağına ümidli olan Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov isə beş il əvvəl Qarabağ razılaşmasının son anda pozulmasından bəhs edib.** "Bu güzəşt 2011-ci ildə işlənib-hazırlanmış Kazan formuluna əsaslanmalı imiş. Kazan formulunun prinsipləri artıq hər kəsə məlumdur. Söhbət ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qaytarılmasından *(Ermənistanla dəhliz saxlanılması şərti ilə)* gedirdi. Dağlıq Qarabağın statusu isə gələcəkdə müzakirə olunmalı idi. Demək olar ki, razılıq əldə olunmuşdu, hər şey hazır idi, bircə imza atmaq qalmışdı. Lakin son anda Ermənistan rəhbərliyi qorxaraq geri çəkildi. Sərkisyan bu addımı atacağı təqdirdə, devriləcəyindən qorxdu və sülh müqaviləsinə imza atmaqdan imtina etdi"- Markov deyib.

**Bir sıra müşahidəçilər isə Rusiya-Ermənistan münasibətlərindəki soyuqluğun əslində görüntü məqsədi daşıdığını, bununla həm də Azərbaycanın başının altına yastıq qoyulduğunu güman edirlər.**

"Rusiya Azərbaycanı özünün dostu kimi qələmə verir, tez-tez birgə forumlar keçirilir, gediş-gəliş artır. Biz də Rusiya ilə münasibətlərdə gərginliyin tərəfdarı deyilik, əksinə, inkişafın və iqtisadi-ticarət əlaqələrinin həcminin artırılmasını istəyirik. Ancaq Azərbaycanın dostu olmağa iddialı ölkə ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışar. Təəssüf ki, biz bunu Moskvadan görmürük".

**Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında politoloq Elxan Şahinoğlu söylədi. Ekspertin fikrincə, Moskvanın mövqeyi budur ki, "gedin, özünüz Ermənistanla razılaşın". E.Şahinoğlu qeyd etdi ki, razılaşmanın mümkün olmadığı Kremlə aydındır:** "Biz gücümüzü göstərmək istəyəndə isə Kreml tələsik işə qarışaraq Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyünün qarşısını alır. Deməli, Kreml Ermənistanın məğlub olmasını istəmir. Ermənistan məğlub olmayınca isə torpaqlarımızı işğaldan azad edə bilməyəcəyik. Ermənistan prezidenti Serj Sərkisyan açıq-aşkar işğalı və beləcə status-kvonu uzatmağa çalışır. Ancaq aprel-dən sonra bunu uzatmaq İrəvan üçün getdikcə çətinləşir. Ermənistan hakimiyyəti üzərində böyük dövlətlərin təzyiqini hiss etməsə belə, Azərbaycanın silahlanmasından, Bakının dostları ilə hərbi ittifaqlarını gücləndirməsindən, həttaAzərbaycan hakimiyyətinin Rusiyanı öz tərəfinə çəkə biləcəyindən ehtiyatlanır".

**Politoloq bir məqama da diqqət çəkdi:** "Təsadüfi deyil ki, Rusiyanın Avrasiya İqtisadi Birliyi institutunun direktoru Vladimir Lepexin "Novosti Armeniya" agentliyinə müsahibəsində deyib ki, Qərb institutları Ermənistanda fəaliyyətlərini dayandırmasalar və yerli QHT-lərin Qərbdən maliyyələşmələrinin qarşısı alınmasa, İrəvan Dağlıq Qarabağı itirə bilər. Əslində bu sözlər rəsmi İrəvana ultimatumdur və Ermənistan hakimiyyəti Rusiyanın Avrasiya İqtisadi Birliyi institutunun direktorunun dilindən deyilən bu sözləri Kremlin mesajı kimi də qəbul edə bilər. Əlbəttə, Kreml Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməyə çalışmır, ancaq Moskva münaqişənin varlığından Ermənistan hakimiyyətini daima qorxu altında saxlamaq üçün istifadə edir. Yəni Kreml İrəvana öz nümayəndələri vasitəsilə demək istəyir ki, "mənim bütün əmrlərimi yerinə yetirməsən Dağlıq Qarabağ məsələsində mövqeyimi dəyişə də bilərəm". Belə çıxır ki, Moskva münaqişəni həll etmək əvəzinə, onun konservləşdirilmiş vəziyyətdə saxlamaq istəyir ki, Ermənistanı qul kimi yanında saxlaya bilsin". **E.Şahinoğlu bildirdi ki, Ermənistan Azərbaycanla üz-üzə qalarsa, Dağlıq Qarabağ üzərindəki nəzarətin itirilə biləcəyindən də qorxur:** "Məhz buna görədir ki, son günlər Ermənistanda siyasətçilər və ekspertlər arasında "Dağlıq Qarabağın müstəqil dövlət kimi qalması yaxşıdır, yoxsa Ermənistana birləşdirilməsi" mövzusu ətrafında geniş diskussiya gedir. Yəni Ermənistanda ən azı anlayırlar ki, Dağlıq Qarabağın "müstəqil dövlət" kimi varlığı uzun çəkməyə də bilər".

**"Rusiyanın "İsgəndər" raketlərini Ermənistana verməkdə məqsədi Dağlıq Qarabağ məsələsi deyil. Burada əsas məqsəd Gürcüstanı nişan almaqdır". Bu fikri isə azadinform-a politoloq Mübariz Əhmədoğlu deyib. O bildirib ki, son zamanlar Gürcüstana ABŞ və NATO-nun hərbi gəmiləri gəlir. Rusiya isə bundan narahatdır:** "Hesab edirəm ki, Rusiya "İsgəndər"i Ermənistana buna görə verib. Rusiya bu məsələyə çox ciddi reaksiya verir". Politoloqun sözlərinə görə, Rusiya hesab edir ki, ABŞ və NATO-nun Qara dənizdə, Baltikyanı regionda, Ukrayna və Gürcüstanda hərbi qüvvələri yığmaqda məqsədi odur ki, Rusiyanın Suriyada apardığı kampaniyaya mane olsun: "Ona görə də Rusiya hazırda Suriyada öz qoşunlarını möhkəmləndirir. Admiral Kuznetsov artıq Aralıq dənizinin Suriya sahillərinə yan alıb. Bu da ABŞ və NATO-da narahatlıq yaradır. Çalışırlar ki, Qara dəniz və Baltikyanı ərazilərdə hərbi manevrlər etməklə "Admiral Kuznetsov"u geri qaytarsınlar".

**M.Əhmədoğlu hesab edir ki, regionda hərbi gərginlik nə qədər az olsa, bir o qədər yaxşıdır:** "Digər tərəfdən, yaranmış qarşıdurma ermənilərin təxribatına cavab verməyə yaxşı geosiyasi şərait yaradır. Bunu da nəzərə almaq lazımdır ki, ABŞ və Rusiyanın başı qarışıqdır. Hazırda Dağlıq Qarabağ onların yadına düşmür. Rusiya bütün kosmik qüvvələrini Suriya və Mosula yönəldib. Bizim region demək olar yaddan çıxıb. Azərbaycan ermənilərin hərbi təxribatına hərbi yolla cavab versə, daha yaxşı uğur əldə edə bilərik".

❑ **E.PAŞASOY**



# "Rusiya Azərbaycanın müttəfiqi deyil, tərəfdaşıdır"

## Bakıda keçirilən Azərbaycan-Rusiya forumuna ekspertlərdən reaksiyalar gəldi

**Bakıda keçirilən "Əməkdaşlıq körpüsü" adlandırılan VII Azərbaycan-Rusiya regionlararası forumu son günlərin mühüm hadisələrindən oldu. Forumda hər iki ölkənin hökumət üzvləri, iş adamları və media təmsilçiləri iştirak edib. Forum çərçivəsində Azərbaycan və Rusiya arasında əməkdaşlığa dair 12 sənəd imzalanıb.**

Ekspertlər bu forumun hər iki ölkə arasında iqtisadi-siyasi sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynayacağını qeyd edirlər.

**Siyasi ekspert Elxan Şahinoğlu** hesab edir ki, hər iki ölkə birgə əməkdaşlıqda maraqlıdır: "Əvvəlki illərdə mərkəzi hakimiyyətlər əməkdaşlıq edirdilər. Amma görünən odur ki, bu əməkdaşlıq yerlərə çatmayıb. Bu baxımdan, gözəl təşəbbüsdür. Azərbaycan Rusiyanın fərqli bölgələri ilə də əməkdaşlıq qurmaq istəyir. Amma Dağıstanın rəhbəri açıqlama verdi ki, əməkdaşlıq yüksək səviyyədə deyil. Elə məhsullar var ki, Azərbaycan onu üç dəfə baha qiymətə digər ölkələrdən alır, halbuki bizdən almalıdır. Dağıstan rəhbərliyi dəfələrlə Azərbaycana gəlib, eləcə də Azərbaycan rəsmiləri ora səfər ediblər. Amma maraqlıdır ki, bu əməkdaşlıq hələ də yüksək səviyyəyə qalxmayıb. Düşünürəm ki, əməkdaşlıq çox vacibdir. Həştərxanın bir rayonunda azad iqtisadi zona yaradılıb. Rusiya ilə iqtisadi əməkdaşlıq bizim üçün çox vacibdir. Ölkə başçısının özü də qeyd edir ki, neft erası başa çatıb. Son məlumata görə, Azərbaycana turistlərin 30%-i Rusiyadan gəlib. Bizim uzun onilliklərdir işlədiyimiz Rusiya bazarıdır. Bəzən Rusiya sərhədində maneələr yaradılır. Bu maneələr aradan qaldırılmalıdır. Forumda bunlar dilə gətirilmədi. Amma istənilən halda, bu forumu gərəkli sayıram. Siyasi zəmində daha çox əhəmiyyətlidir. Çünki Rusiya görür ki, Azərbaycan onların müxtəlif bölgələri ilə əməkdaşlığa can atır. Ona görə də Azərbaycanla əməkdaşlığı vacib sayır. Təəssüf ki, bu əməkdaşlıq Dağlıq Qarabağ məsələsinin həllində mühüm rol oynamır. Düşünürəm ki, Rusiyanın bölgələri ilə əməkdaşlıq bizə siyasi və iqtisadi istiqamətlərdə dividentlər gətirər. Bu məsələlərə pozitiv baxıram. Düzdür, Rusiyanın siyasəti ilə bağlı daim ciddi suallarım olub. Əgər Rusiya ilə əməkdaşlıqdan iqtisadi mənfəət əldə etmək mümkündürsə, bundan qaçmaq düzgün deyil. Əgər ölkəyə gələn turistlərin çoxu Rusiyadan gəlirsə, bunun artırılması yolları barədə düşünməliyik. Gəlib nə qədər çox pul xərcləsələr, büdcəyə pul o qədər də çox daxil olar. Bu məsələdə optimistəm. Rusiya hələ ki Azərbaycanın müttəfiqi deyil, tərəfdaşıdır. İşğalçı ölkə bizə müttəfiq ola bilməz".

**Politoloq Qabil Hüseynli Azərbaycan-Rusiya münasibətlərinin daim yaxşı olduğunu qeyd etdi:** "Belə forumun keçirilməsi münasibətlərin daha da yaxşılaşdırılmasına təkan verə bilər. Düzdür, forumun səviyyəsi dövlət səviyyəsində keçirilən forum deyildi. Burada verilən qərarlar düşünürəm ki, tövsiyə xarakteri daşıyır. Amma forumda kifayət qədər tanınmış şəxslər iştirak edirdilər. Onların siyasi nüfuzu və hökumətlərə təsir riçaqları var. Onlar münasibətlərin yeni səviyyəyə qalxmasına töhfə verə bilərlər. Bu, indiki dövrdə xüsusilə vacibdir. Əhəmiyyətli bir forum olduğunu düşünürəm. Münasibətlərdə fundamental gedişin başlanğıcı qoyuldu. Gələcəkdə belə forumların müntəzəm keçirilməsinin həm də ənənəsi yaradıldı. Belə forumlar indiki şəraitdə Rusiya-Azərbaycan münasibətlərinin yeni səviyyəyə qaldırılmasında əhəmiyyətli rol oynaya bilər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

# "Lotu Quli"nin "Marneuli klanı"-kimlər var?

## "Rövşən Lənkəranski"nin qətlindən sonra onunla uzun illərdir ki, konfliktdə olan Nadir Səlifovun önə çıxacağı gözlənilən idi

**Rusiyanın hüquq-mühafizə və xüsusi xidmət orqanları paytaxt Moskva və ətraf rayonlarda Azərbaycan mütəşəkkil cinayət şəbəkəsinin görünməmiş aktivliyindən narahatdırlar.**

Virtualaz.org xəbər verir ki, bu haqda "Rosbalt" agentliyinə Rusiya xüsusi xidmət orqanlarındakı mötəbər mənbə bildirib.

Mənbənin bildirdiyinə görə, Moskva şəhəri və Moskva vilayətinin şəhər və rayonlarında azərbaycanlılardan ibarət mütəşəkkil cinayətkar qruplar görünməmiş dərəcədə aktivləşiblər. Bu, məşhur azərbaycanlı kriminal avtoritet "Lotu Quli" (Nadir Səlifov) və "Vaqif Bakinski" kimi tanınan Vaqif Süleymanovun qruplaşmalarının birləşməsindən yaranan yeni cinayətkar sindikatdır.

Xüsusi xidmət orqanlarındakı mənbənin məlumatına görə, yeni kriminal konqlomerat bu ilin yayında formalaşıb. Daha sonra ona "Rəşad Gəncinski" kimi tanınan digər kriminal avtoritet Rəşad İsmayılov da qoşulub. "Lotu Quli" yeni kriminal konqlomeratın liderdir və mənbə bildirir ki, hazırda o, ən güclü yaraqlılar "ordusuna" malik olan "vor zakon"dur. Öz növbəsində "Vaqif Bakinski" və "Rəşad Gəncinski" Moskvada iri ticarət mərkəzlərinə və topdansatış bazalarına malik olan iri azərbaycanlı biznesmenlərlə yaxın əlaqələrə malikdir.

Bildirilir ki, yeni klan bir-birinin ardınca Moskva və Moskvaətrafında gəlirli ticarət obyektlərini, ticarət mərkəzlərini, bazarları öz nəzarətlərinə alır. "Lotu Quli"nin klanı digər kriminal qruplaşmaları Moskva başda olmaqla, böyük şəhərlərdən sıxışdırıb çıxarmaqdadır. Mənbə bildirib ki, "Lotu Quli"nin başçılıq etdiyi klan öz qüvvələrini Moskvaya toplayır. Bu proses yeni qanqster müharibəsinin başlamasına səbəb ola bilər. "Rusiya xüsusi xidmət orqanları yaxınlarda ölkənin bir çox şəhərlərində qanlı kriminal qarşıdurmaların olacağından narahatdır", - deyə mənbə bildirib.



Xatırladaq ki, bugünlərdə "Rosbalt" Rusiya xüsusi xidmət orqanlarındakı mənbələrə istinadən "Rövşən Lənkəranski"nin qətlinin motivlərini açıqlayıb. Məlum olub ki, onu "Vaqif Bakinski"nin klanına daxil olan "göyərti kralı" Canbulat Şamiloğlunun qətlinə görə öldürüblər. "Rövşən Lənkəranski"nin qətlinin "Lotu Quli"nin dəstəyi sayəsində baş verdiyi bildirilir. Mənbə bildirirdi ki, "Rövşən Lənkəranski"nin qətlindən sonra onun aktivləri uğrunda müharibə başlayır. Rəqib qruplaşma onun "krışası" altında olan obyektləri ələ keçirməyə başlayıb.

"Rövşən Lənkəranski"nin qətlindən sonra onunla uzun illərdir ki, konfliktdə olan "Quli"nin önə çıxacağı gözlənilən idi. "Ded Xasan" klanına sadiq olan "Quli" Otar Bədəlovdan sonra "Marneuli klanı"nın lideri hesab olunur. "Lotu Quli"nin ən yaxın dostu hesab edilən Otar Bədəlov *("Otar Marneulski")* 2003-cü il martın 21-də Moskvadakı "Sushi" adlı barda öldürülməsindən sonra "Quli"nin azərbaycanlı "qanuni oğru"larla münasibəti daha da pisləşmişdi. Otarın qətli Azərbaycan kriminal qruplaşmalarını iki barışmaz düşərgəyə böldü. Bundan sonra "Lənkəranski" yə "qanuni oğru" adı vermiş "Nardaranlı Mirseymur" qətlə yetirildi. "Peşera" barına gələn iki killer Mirseymura "Steçkin" tipli tapança-avtomatdan 12 güllə vurub. Azərbaycanlı "qanuni oğru" xəstəxanaya çatdırılmamış həyatla vidalaşıb. İddia olunur ki, Hikmət Muxtarovun *("Sabirabadlı Hikmət")* qətli də məhz Otarın öldürülməsinə "Marneuli klanı"nın intiqamı olub. Hikmətin qətlindən sonra onun nəzarət etdiyi obyektlərə sahiblənmiş "Lənkəranski" də intiqam almaqdan vaz keçməyib. Məsələn, "Vaxa Marneulski" kimi tanınan Baxış Əliyevin qətlini yada salaq. Odessada güllələnən "Vaxa" bəzi mənbələrə görə, "Quli"nin qan qohumu idi. 2012-ci ilin noyabrında "Ded Xasan"ın rəhbərliyi ilə keçirilən toplantıda "Lənkəranski"nin "oğru" adının alınması barədə qərarı imzalayanlar arasında "Lotu "Quli" ilə yanaşı "Vaqif Marneulsiki"nin və "Vaxa"nın da adı vardı.



"Vaqif Marneulski"

Ümumiyyətlə, "Lənkəranski"nin Gürcüstan doğumlu azərbaycanlı "qanuni oğru"larla münasibətləri həmişə kəskin olub. Bu sırada "Vaqif Marneulski" də var. "Rövşən Lənkəranski"nin "Vaqif Marneulski" arasında konflikdən danışarkən 2010-cu ildə keçirilən bir "sxodka"nı yada salmaq lazım gəlir. 2010-cu ilin avqustunda V.Süleymanov münasibətlərini aydınlaşdırmaq üçün Rublevski yaxınlığında "Lənkəranski"yə yaxın "qanuni oğru" Cemal və Mamuko Mikeladze qardaşlarının kottecində toplaşıblar. Məlumatlar var ki, bu "sxodka" məhz "Cemo" söz alandan sonra davaya çevrilib. Onun azərbaycanlı "qanuni oğru"ya iradına Vaqif Süleymanov adekvat cavab verib. "Cemo" Vaqifi vurmaq istərkən *("qanui oğru"ya əl qaldırmaq bağışlanılmaz səhv sayılır)* özü zərbə alıb. Bu "sxodka"dan sonra "Lənkəranski" ilə münasibətlər daha da pisləşib. "Cemo" isə Bıtırkada "Vaqif Marneulski" nin təşkil etdiyi "sxodka" da adını itirib...

50 yaşlı "Vaqif Marneulski" 2001-ci ildə "qanuni oğru" adını alıb. Onun "Quli" ilə güclərini birləşdirməsi Rusiyada azərbaycanlıların mövqelərinə təsir edə bilər. Belə ki, "Lənkəranski"nin qətlindən sonra azərbaycanlıların bazarlardan sıxışdırılması prosesi vüsət alıb.

❑ «YM»

# YAP-çı deputatdan siyasi məhbus siyahısı hazırlayanlara sərt ittiham

## Bəxtiyar Sadıqov: "Siyahıları tərtib edənlərə yaxşı qrantlar verirlər"

**Siyasi məhbuslarla bağlı hazırlanan 94 və 166 nəfərlik siyahı ətrafında yaranan narazılıq bitmək bilmir. Hər keçən gün qalmaqal nəinki böyüyür, səslənən ittihamların sayı sürətlə artır. Mətbuat və sosial şəbəkələr səviyyəsində təhqir və tənqidlər havada uçuşur.**

Siyasət meydanında illərin dostları olan şəxslər məhz bu siyahılara görə qısa müddətdə düşmənə çevriliblər. Araşdırmaçı jurnalist Xədicə İsmayılın başçılığı ilə hazırlanan 94 nəfərlik siyahının tərəfdarları qarşı tərəfi geniş siyahı hazırlamaqla Avropadan gələn qrantların məbləğini artırmaq istəyində ittiham edirlər. Öz növbəsində hüquq müdafiəçisi Leyla Yunusun hazırladığı 166 nəfərlik siyahını müdafiə edənlər isə əks tərəfi hakimiyyətə işləməkdə və bunun üçün hakimiyyətin marağına xidmət edən siyahı hazırlamaqda suçlayırlar.

İqtidar düşərgəsinin isə siyahılara münasibəti birmənalıdır. Hakimiyyət nəinki hər iki siyahını qəbul edir, Azərbaycanda, ümumiyyətlə, siyasi məhbusların olmadığını bildirir.

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov** "Yeni Müsavat"a açıqlamasında siyahı hazırlayanları sərt şəkildə tənqid etdi: ""Bəxt üzüyü" adında məşhur film var. Orada şair Moşunun qələmi əlindən düşür, Söylüyə deyir ki, qələm hanı, qələm düşdü. Söylü deyir ki, qələm demə, çörək ağacı de. Azərbaycanda adını hüquq müdafiəçisi qoyan şəxslər, siyasi partiyalar var ki, siyasi məhbus siyahısı onlar üçün Moşunun çörək ağacı kimi bir şeydir. Əvvəla, bilmək lazımdır ki, siyasi məhbus kimdir? Onun kriteriyaları nədir? Beynəlxalq qurumlar konkret müəyyən etməyiblər ki, hansı əlamətləri olanlara siyasi məhbus deyilir, yaxud hansı əlamətlərdən məhrum olanlar adi məhbuslardır. Bu bir faktdır ki, beynəlxalq qurumlar, xarici ölkələr siyasi məhbus anlayışından digər dövlətlərə, xüsusilə yeni müstəqillik qazanmış ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Əslində siyasi məhbus anlayışı ikili standartların ən parlaq nümunələrindən biridir. Bir ölkədə eyni halla tutulanlar siyasi məhbus sayılır, digər ölkələrdə isə cinayətkar. Dini radikalizmlə bağlı terrorçuluqda, Azərbaycanda mövcud quruluşu dəyişmək istiqamətində fəaliyyət göstərməkdə ittiham olunan şəxslər bizim ölkədə siyasi məhbus kimi qələmə verilir. Ölkə daxilində bu şəxslərin siyasi məhbus siyahılarına adlarını salmağa dəfələrlə cəhdlər olub. Necə ki, son məhbus siyahılarında bununla bağlı yaranan qalmaqal bunu açıq şəkildə göstərdi. Amma digər ölkələrdə bu insanlar birbaşa terrorçu kimi qiymətləndirilir. Hətta daha ağır cinayət hesab olunur. Bütün dünya terrordan əl çəkir. Ona görə də terrorizm ən ağır cinayət sayılır. İki siyahı var ki, onun biri Leyla Yunusundur. Onu çox yaxşı tanıyırıq. Ömrü boyu Azərbaycanın milli maraqlarına qarşı çıxış edib, ermənilərlə əməkdaşlığı olub. Sonuncu dəfə o, bizim yadımızda qanun nümayəndəsi olan polisi təhqir edən, papağını götürüb yerə atan, prezidentimizin təbirincə desək, ünsür kimi qalıb. Sonradan o çox zarıdı, xəstəyəm filan dedi. Azərbaycan dövləti buna rəhm elədi. Ona hətta imkan verildi ki, xaricdə müalicə olunsun. Ora çatan kimi yenidən əvvəlki ənənələrinə qayıdıb. O, antiazərbaycançı şəbəkənin əlində oyuncağa çevrilən insandır. Siyasi məhbus siyahısı onun üçün çörək ağacıdır. Eyni zamanda AXCP sədri Əli Kərimli və daxil olduğu qurum daim bundan çörək ağacı kimi istifadə ediblər. Bu siyahıları tərtib edənlərə yaxşı qrantlar verirlər. Bu qrantları antiazərbaycançı şəbəkə verir".



**İqtidaryönlü deputat hazırlanan siyahıların Azərbaycanın əleyhinə yönəldiyini də qeyd etdi:** "Siyahılarda siyasi məhbus kriteriyaları, ümumiyyətlə, nəzərə alınmayıb. Siyahıda hazırda məhkəmələri gedən şəxslər də var. Biz konkret bilirik ki, siyahıda adı olanlar hansı cinayətləri törədiblər. Bu dəqiqə hüquq müdafiəçisi adını almaq çox asandır. Bir dənə QHT yarat, adını qoy, sonra ol hüquq müdafiəçisi. Bundan sonra olursan toxunulmaz şəxs. Cinayət də törətsən, sənə heç kim toxunmalı deyil, bu, mətbuat və söz azadlığına qəsddir. Açığı, mənə təəccüblü deyil ki, bu siyahılar üstündə dava düşüb. İki siyahı var, üçüncü mövqe də var. Əslində bu, siyahı davası deyil. Bu, Azərbaycana xəyanət edib, antiazərbaycançı qüvvələrin ölkəmizə təzyiq etmək üçün hazırlanan siyahıdır. Özləri bununla pul qazanacaq, o şəbəkə də hesab edir ki, bununla Azərbaycana təsir göstərəcək. Amma Azərbaycan müstəqil dövlətdir. Müstəqilliyimizin 25 illiyini qeyd etmişik. Sonuncu dəfə Avropa İttifaqında məlum ədalətsiz qərar oldu. Azərbaycan özünün çox doğru və kəskin addımını atdı. Nəticə ortadadır. Nə iki standartlardan, nə siyasi məhbus siyahısı ilə, nə də başqa vasitələrdən Azərbaycana nəinki təsir, heç təzyiq də göstərmək mümkün deyil. Azərbaycanın özünün yolu var. Bu yol milli maraqlara söykənir. Bu yolla ölkəmiz qətiyyətlə gedir. O insan ki cinayətkardır, məhkəmənin qərarı ilə cəzasını çəkməlidir. O insanlar ki, Azərbaycana xidmət edirlər, öz yolları ilə gedirlər. O insanlar Azərbaycanın rəsmən vətəndaşı olsalar da, qəlbən vətəndaşı deyillər. Bu yolla meydana atılanların özləri gülüş gündədirlər. Azərbaycana xidmət davası deyil, Azərbaycan adından istifadə edib özlərinə qrantlar qazanmaq davasıdır. Bu insanda təəssüf hissi yaradır ki, heyf ki beləri də azərbaycanlıdır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

# “Hərb, yoxsa sülh” məsələsi ətrafında mühüm gəlişmə




# Bakı İrəvanın arzusunu gözündə qoydu - düşmənin “İsgəndər” fiaskosu

## Rusun raket kompleksləri ilə hərbi paritetə ümid edən Ermənistana qarşı Azərbaycanın cavab tədbirləri sərtləşir; müdafiə sənayesi naziri Yavər Camalovun Pakistana gözlənilən səfərinin ilginc pərdəarxası; Netanyahu Azərbaycana nə ilə gəlir, təcavüzkarın öz müttəfiqi Moskvaya arxayınçılığına əsas varmı?..

**Bu günlər Rusiya-Azərbaycan münasibətlərində mühüm hadisə - hökumətlərarası forumun Bakı iclası ilə yadda qaldı. Gələn ayın əvvəlində isə Rusiya baş nazirinin müavini, hərbi-sənaye kompleksini kurasiya edən, prezident Putinin yaxın adamlarından sayılan Dmitri Roqozin Bakıya gələcək. Rusiyanın Minsk Qrupunun üç həmsədrindən biri və işğalçı Ermənistanın əsas müttəfiqi olduğu nəzərə alınarsa, hər iki hadisənin qarşılıqlı münasibətlərdə məxsusi iz buraxacağını söyləmək mümkündür.**

“Rusiya Azərbaycana ən müasir silahlar və ticarət əlaqələrində bir sıra üstün imtiyazlar tövsiyə edəcək”. Bunu axar.az-a Roqozinin qarşıdakı Bakı səfərini şərh edən **sabiq dövlət müşaviri Qabil Hüseynli** deyib. O, Azərbaycanın hökumətlərarası komissiyanın iclasından çox şey gözlədiyini vurğulayıb: “Bugünlərdə Azərbaycan-Rusiya münasibətlərinə dair forum keçirildi. Bu forum iki ölkə münasibətlərini müttəfiqlik səviyyəsinə qaldırmaq məqsədi daşıyırdı. Hətta tərəflər öz hökumətlərinə müəyyən tövsiyələr hazırlayıb təqdim etmək niyyətindədirlər. Bunun ardınca hökumətlərarası komissiyanın iclası olacaq. Roqozinin Bakıya səfəri isə indiki ərəfədə əlamətdar sayıla bilər. İclas konstruktiv bir məcrada keçəcək. Yəni Rusiya Azərbaycana ən müasir silahlar və ticarət əlaqələrində bir sıra üstün imtiyazlar tövsiyə edəcək”, - politoloq deyib.

**Rəsmi Bakının sözügedən iclasa çox ciddi surətdə hazırlaşdığını deyən politoloq yaxın zamanlarda Rusiya ilə birgə hərbi istehsalın təşkili istiqamətində perspektivlərin mümkünlüyünü də istisna etməyib:** “Hazırda qarşıda duran əsas məsələ Ermənistana verilən ”İsgəndər-M" raketlərini neytrallaşdıran cavab tədbirləri görməkdir. İsrailin baş nazirinin ölkəmizə səfərinə böyük ümidlər gözlənilir, ancaq Moskva ilə münasibətlər də önəmlidir. Güman edirəm ki, Roqozinin səfəri Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi istiqamətində yeni yollar açacaq. Azərbaycan çalışır ki, özünün müstəqil hərbi sənaye kompleksini formalaşdırsın. Ordunun müasir silahlarla silahlandırılması sahəsində, hələ ki bəzi dövlətlərdən asılılığımız qalır. Xüsusən Rusiya ilə silah alverində müəyyən imkanlar yaradılır və Azərbaycan da bu imkanlardan öz mənafeyi naminə istifadə edəcək. Hesab edirəm ki, Azərbaycan hərbi üstünlüyünü təmin etmək üçün lazım olan addımları atacaq və çox güman ki, Rusiya da buna müsbət cavab verəcək".

***

D. Roqozinin Bakı səfərinədək, yəni noyabrın sonunda isə Azərbaycanın hərbi sənaye naziri Yavər Camalovun Pakistana səfəri nəzərdə tutulur. Bu haqda “İnterfax-Azərbaycan” agentliyinə diplomatik qaynaqlardan bəlli Y.Camalovun Pakistan səfirinin gündəliyində bu mövzu öndə olacaq.

***

Yada salaq ki, Azərbaycan prezidenti İlham Əliyev Bakıda Nəvaz Şəriflə görüşü zamanı Azərbaycanın Pakistandan yeni nəsil, müasir hərbi texnologiyalara və avadanlıqlar almaqda, eyni zamanda ortaq istehsalın olub. Nazirin Karaçidə keçiriləcək müdafiə sənayesi sərgisində iştirak edəcəyi bildirilir.

Daha önəmlisi, əlbəttə ki, səfərin iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın genişləndirilməsi fonunda baş tutmasıdır. Belə ki, Azərbaycanın yeganə nüvə müttəfiqi, qardaş Türkiyə qədər bizə yaxın olan dost Pakistanın baş naziri Məhəmməd Nəvaz Şərifin ötən ay Bakıya etdiyi səfərdən sonra hərbi sahədə ilişkilər yeni mərhələyə qədəm qoyub.

Bu səfərin məntiqi nəticəsi kimi dünən məlum olub ki, İslamabad Azərbaycana 500 milyon dollar dəyərində müdafiə məhsullarının tədarükünü sürətləndirməklə bağlı hərəkət planını təsdiqləyib. Məlumatı Pakistanın rəsmi radiosu yayıb. Qərar İslamabadda idarələrarası İşçi Qrupunun iclasında qəbul edilib. İşçi qrup bununla bağlı 5 illik plan da təsdiqləyib. Sözsüz ki, təşkilində maraqlı olduğunu bildirmişdi.

Pakistanın bizim əsas silah tədarükçülərindən biri olduğu məlumdur. Hərbi analitiklərə görə, Bakı bu ölkədən daha müasir müdafiə və hücum sistemləri almaqla, onların ortaq yerli istehsalına nail olmaqla işğalçı Ermənistan üzərində əzici hərbi üstünlüyünü saxlaya bilər.

Təbii ki, İsraillə də uğurla inkişaf etdirilən hərbi-texniki əlaqələrin əhəmiyyəti böyükdür. Bu xüsusda politoloq Qabil Hüseynlinin də vurğuladığı kimi, İsrail baş naziri Benyamin Netanyahunun Bakıya gözlənilən səfəri düşmənin yuxusunu qaçıran növbəti hadisə ola bilər. O mənada ki, həmin səfər işğalçı tərəfin “İsgəndər M”lər və digər bəzi rus silahları vasitəsilə Azərbaycanla hərbi paritet yaratmaq istəyinin üstündən xətt çəkilməsini sürətləndirəcək.

Söhbət bu kimi raket komplekslərinə qarşı İsrailin “Dəmir günbəz” və “Sehirli çubuq” adlanan qalxan sistemlərinin alınmasından gedir. Bəzi məlumatlara görə, “Dəmir günbəz” Azərbaycanda əslində var, sadəcə, onun daha da modernləşdirilməsi gündəmdədir. Burdaca xatırladaq ki, hazırda İsrailin müdafiə naziri Azərbaycanın yaxın dostu Aviqdor Libermandır.

***

İstənilən halda, təqdirəlayiqdir ki, Azərbaycan Rusiya ilə silah ticarətinin minimum səviyyədə saxlamaqla, bizə qat-qat yaxın olan müttəfiq, tərəfdaş və hərbi sənayesi inkişaf etmiş dövlətlərlə *(Pakistan, Türkiyə, İsrail, Ukrayna)* hərbi-texniki əməkdaşlığın həcmini artırmağa başlayıb.

Hər necə olmasa, Rusiya Ermənistanın əsas hərbi-siyasi müttəfiqidir. Ancaq Bakının silahlanma məsələsində geniş manevr imkanları və üstün iqtisadi potensialı var. Bu da o deməkdir ki, təcavüzkar ölkə hətta Rusiya hesabına da Azərbaycanla hərbi paritet yarada, silahlanma yarışına girə bilməyəcək.

❑ **Siyasət şöbəsi**

# Kəlbəcər girovları ilə bağlı MTN rəhbərliyinə ittihamlar



**2014-cü il iyul ayında Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailə üzvləri onların həyatının təhlükə qarşısında olduğunu bildirib.**

Onlar Beynəlxalq Qırmızı Xaç Komitəsindən (BQXK) narazılıqlarını ifadə ediblər və bir neçə gün əvvəl qurumun Bakı nümayəndəliyinin qarşısına toplaşıb etirazlarını şəxsən çatdırıblar. Şahbaz Quliyevin sonuncu məktubunda “Dilqəmi başqa yerə aparıblar” yazması isə girovların ailələrində daha çox narahatlıq yaradıb. D.Əsgərovun oğlu atasının həyatının təhlükə qarşısında olduğunu deyib və müvafiq qurumlardan yardım istəyib. Bəs Kəlbəcər girovlarını necə xilas etmək olar?

**Qarabağ müharibəsi veteran, sabiq milli təhlükəsizlik xidməti zabiti İlham İsmayıl “Yeni Müsavat”a açıqlamasında bunları söylədi:** “Bir az öncə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının internet saytına nəzər saldım. Bildiyim məlumatlara xüsusi bir əlavə görmədim. 3098 nəfər hərbçi, 726 nəfər mülki şəxs olmaqla, 3824 nəfər axtarışdadır. Bu rəqəmlər köhnədir, amma bu rəqəmlərin içərisindəki iki ad təzədir-hələ köhnəlməyib: Dilqəm Əsgərov və Şahbaz Quliyev. Düzdür, zaman kəsiminə baxmayaraq 3824 nəfərin hər biri onun doğmaları üçün əzizdir, amma etiraf edək ki, Dilqəmlə Şahbaz cəmiyyətimizin təzə açılmış, qaysaqlanmamış yarası, dərdidir. Bəs ölkə olaraq onları girovluqdan - hərbi əsir sayılmır - azad etmək üçün nə edirik? İlk olaraq bu vəzifə dövlətin üzərinə düşür. Öz adıma deyirəm ki, dövlətin bu istiqamətdə bu günədək heç bir təsirli addımını görməmişəm. Adını çəkdiyim komissiyanın fəaliyyəti də sanki hesabat xətrinədir. Əvvəla, deyək ki, bu komissiyaya uzun müddət sədrlik etmiş Eldar Mahmudov bütün işlərlə məşğul olub, bircə birbaşa məsul olduğu işlərdən başqa”. **İ.İsmayıl hesab edir ki, bu komissiya Beynəlxalq Qırmızı Xaç təşkilatı qarşısında da təsirli tələblər qoymayıb:** “Xüsusi xidmət orqanı kimi vaxtilə MTN heç bir əks-əməliyyat həyata keçirməyib ki, Dilqəmlə Şahbazı dəyişə bilsin. Dövlət tərəfindən humanitar sahədə dünya səviyyəsində görülən çoxsaylı xeyirxah tədbirlərin birinin əvəzi olaraq düşmən əlində olan Dilqəmin, Şahbazın azad olunması xahişi edilibmi? Ermənistana təsir imkanları olan elə Fransadan, Rusiyadan bu istiqamətdə xahişlər olunubmu? Axı istər Fransa, istər Rusiya üçün çox xeyirxah işlərin icraçısı Azərbaycan olub. Roma Papasından necə? Vatikan üçün də axı nələrsə edilib. Dilqəmin, Şahbazın dövlət səviyyəsində azad edilməsi iqtidara bu iqtisadi böhrana baxmayaraq, xeyli divident gətirərdi. Xalq Qarabağla bağlı bütün baş verənlərin müsbət həllinə xüsusi həssaslıqla yanaşır, bir olanı on dəfə şişirdir. Diplomatik yolla, əməliyyat yolu ilə heç bir uğur yoxdur, ona görə ki, ümumiyyətlə, bu insanların azadlığı üçün iş görülməyib. Bugünlərdə bir deputat Azərbaycanın xüsusi xidmət orqanları ilə MOSSAD-ın ciddi əlaqələri olduğunu qeyd edib. O hardan bilir başqa mövzunun söhbətidir, amma Afrikadan tutmuş Argentinayadək yəhudi soydaşlarından ötrü ağlagəlməz əməliyyatlara imza atmış bu əfsanəvi təşkilatla da, bəlkə bu barədə fikir mübadiləsi aparsınlar. Variantlar çoxdur... Gözümüzün qabağında açıq-aşkar Ermənistan iki soydaşımıza, iki vətənpərvərə, iki türkə işgəncə verir, ölümün bir addımlığındadırlar”.



**İlham İsmayıl:**
“Xüsusi xidmət orqanı kimi vaxtilə MTN heç bir əks-əməliyyat həyata keçirməyib ki, Dilqəmlə Şahbazı dəyişə bilsin”

**Bəzi ekspertlər hesab edir ki, girovları azad etmək üçün düşmənin qarşısına vaxt qoymaq, bu vaxtın tamamında isə onlar azad etmək üçün beynəlxalq hüquqa əsaslanıb əməliyyatlara başlamaq olar. Bu variant real görünürmü? İ.İsmayıl:** “Dilqəmgilin azadlığı üçün vaxt istənilsə, iki ağır nəticəsi ola bilər. Birincisi, Dilqəmgilin səhhət problemini yaradıb onların ölümünə qərar verə bilərlər. İkincisi, hətta salamat qalarlarsa və bizim verdiyimiz vaxt bitib heç bir iş görə bilməsək, bu, daha ağır nəticədir. Bu bizim hərbi ritorikanın da üstündən xətt çəkir, qeyri-ciddiliyimizi sübut edir, həm də onları hər zaman sərvaxt saxlamış oluruq. Onların əməliyyat yolu ilə azad olunmasının bir neçə variantı var, o cümlədən də dəyişməyə imkan verən şəxslərin ələ keçirilib dəyişilməsi də bu variantların biridir. Burda maliyyə ayırmaq, iş görmək lazımdır. Yenə deyirəm operativ kombinasiya qurmaq üçün çeşidli imkanlar var”.

❑ **Cavìd TURAN**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016



# Dolları bahalaşdıran ABŞ-dır, yoxsa Elman Rüstəmov?

## Ekspertlər bildirirlər ki, uzunmüddətli perspektivdə manatın taleyi qaranlıqdır, devalvasiya bitmədiyi üçün baş bankir də dəyişdirilmir…

**ABŞ Federal Ehtiyat Sistemi (FES) dollarla bağlı faiz artımı qərarı verməsə də, manat ucuzlaşmaqdadır. Ekspertlər musavat.com-a manatın yaxın müddətdəki taleyinin FES-dən, yaxud Mərkəzi Bankdan asılı olduğunu musavat.com-a açıqlayıblar.**

**Ekspert Natiq Cəfərli** bildirib ki, manatın taleyi hazırda nə FES-dən, nə də Mərkəzi Bankın rəhbərindən asılı deyil: " Manatın dərdi daha böyükdür. Manat ölkənin valyuta gəlirlərinin azalmasından, ölkənin valyuta gətirə biləcək, dünya bazarlarına heç nə təqdim edə bilməməsindən, ölkənin valyuta, idxaldan asılılıqdan asılıdır. Yaxın həftələrdə Yeni il bayramının gəlməsi ilə bağlı idxalın artacağı proqnozlarından da asılıdır. Yəni bir çox şeylərdən asılıdır, xırda məsələlərdən tutmuş iri, makroiqtisadi göstəricilərə qədər hər şeydən asılıdır. Ona görə də manatın taleyi yaxın gələcəkdə heç də yaxşı görünmür. Hələ üstəlik, dekabrda FES də faizi artırsa, qonşu ölkələrdə ciddi valyutaların ucuzlaşmasına səbəb olacaq. Bu da istər-istəməz Azərbaycan manatına təsir göstərəcək. Azərbaycan təcrid olunmuş halda yaşamır, dünyada, ətrafda gedən proseslərdən də asılıdır. Üstəlik, son günlər neftin qiyməti də ciddi enişə keçib. Bu il əslində neftin qiyməti 11 faiz dəyər itirib. Bu da təbii ki, manata basqıları artırır. Bütün bu proseslər üst-üstə gəldikdə, manatın gələcək taleyi çox qaranlıq görünür".

**Ekspertin sözlərinə görə, ilin sonuna FES qərarını dəyişməsə də, manat yenə ucuzlaşacaq:** "Manat yenə dəyər itirəcək. Amma ümumən, köklü və fundamental manatın məzənnəsinə təsir etməyəcək. Düşünürəm ki, ilin sonuna qədər yumşaq şəkildə gündəlik, yaxud həftəlik məzənnənin zəifləməsi yolu ilə Mərkəzi Bank manatı ucuzlaşdırmaqda davam edəcək. Çünki həm də hökumətin bunda marağı var. Manat nə qədər ucuz olsa, Dövlət Neft Fondunun və Mərkəzi Bankın ehtiyatlarına o qədər çox qənaət etmiş olur. Burada hökumətin də marağının olduğunu qeyd etmək lazımdır".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, manatla bağlı qısamüddətli proqnoz vermək çətindir:** "Çünki manatın məzənnəsi inzibati yolla müəyyən olunur. Kiçik dövr çərçivəsində Mərkəzi Bank istənilən məzənnəni təyin edə bilər. Özünün zərərinə olsa belə edə bilər. Buna görə də ciddi proqnoz uzunmüddətli, ən azı 1 illik ola bilər".

**Ekspertin fikrincə, uzunmüddətli perspektivdə manatın taleyi acınacaqlıdır:** "Dolların xeyli bahalaşması və yaxın ildə 2 manatdan, sonra isə yəqin ki, 3 manatdan da baha olması qaçılmazdır. Ona görə ki, ölkənin valyuta gəlirləri azala-azala gedir və gedəcək. İstənilən əmtəə azdırsa, qiyməti bahalaşır. Deməli, ölkədə dollar azaldıqca, qiyməti də artacaq. Dollarımız isə azalır, o cümlədən valyuta ehtiyatlarımız da azalır. Bu, həmçinin Neft Fondunun səriştəsiz fəaliyyəti nəticəsində baş verəcək. Valyuta gəlirlərimiz ona görə azalır ki, neftin qiyməti ən azı artmır və böyük ehtimalla yenə düşəcək. İqtisadi əsaslarla yanaşı, geosiyasi səbəblər də var. Digər tərəfdən, neft hasilatımızın da həcmi azalır. Deməli, daha az neft satırıq, özü də aşağı qiymətlə satırıq. Neft və qaz Azərbaycanın yeganə valyuta gəliri mənbəyidir. Dünya bazarında əhəmiyyətli həcmdə başqa heç nə satmırıq. Çünki qeyri-neft sektorumuz, o cümlədən kənd təsərrüfatı inkişaf etməyib və etmir də. Sahibkarlığın inkişafı üçün ciddi və real tədbirlər görülmür, məmurlar prezidentin göstərişlərini yerinə yetirmir. Məhkəmə sistemi bərbad gündədir. Buna görə də sərmayə qoyub iş görmək istəyən yoxdur. Xaricə nə isə satmağımız bir tərəfə, heç özümüzü də təmin edə bilmirik, ərzaqın da böyük hissəsini idxal edirik. Təbii, neft gəlirləri hesabına. Deməli, valyuta gəlirlərimizin bir hissəsi ərzağa xərclənir. Buna görə də manatın devalvasiyasının sonu görünmür. Görünməsi üçün indidən tədbirlər görmək lazımdır. İlk növbədə də müstəqil və obyektiv məhkəmə sistemi olmalıdır ki, sahibkarlarda əminlik hissi yaransın və yavaş-yavaş iqtisadiyyatımız dirçəlsin. Bank sistemi və milli valyuta etimada söykənən institutlardır. Bu etimad ilk növbədə Mərkəzi Bankın rəhbərinə olan etimadla ölçülür. Azərbaycanda isə Mərkəzi Bankın sədri ən nüfuzsuz məmurlardan biridir, sözünə heç etimad yoxdur, düz danışanda belə etimad göstərilmir. Buna görə də məntiqlə çoxdan istefaya göndərilməli idi. Amma göndərilmir. Ona görə ki, devalvasiya bitməyib".

❑ Röya RƏFİYEVA

# Bəzi ərzaq məhsulları yenə bahalaşacaq

## Yeni gömrük rüsumları qüvvəyə mindi; hökumət bahalaşmanın qarşısını almaq üçün monitorinqləri gücləndirməlidir

**Noyabrın 3-dən Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"ndə etdiyi dəyişikliklərlə bağlı qərar qüvvəyə minib. Yeni gömrük idxal rüsumları iki il müddətində qüvvədə olacaq. Dəyişikliyə əsasən, Azərbaycana idxal edilən 1 kq ev toyuğu əti üçün 1 dollar, 1000 ədəd toyuq yumurtası üçün 100 dollar, 1 kq soğan üçün 0,2 dollar, 1kq xiyar üçün 0,2 dollar, 1 kq qoz-fındıq üçün 1,5 dollar, 1 kq üzüm üçün 0,4 dollar, 1 kq alma (sidr istehsalı üçün, qalama (qabsız), sentyabrın 16-dan dekabrın 15-dək), armud (perrinin və ya armud sidrinin istehsalı üçün, qalama (qabsız), avqustun 1-dən dekabrın 31-dək), heyva üçün 0,3 dollar, 1 kq xurma üçün 0,3 dollar gömrük idxal rüsumu müəyyənləşdirilib.**

O cümlədən meyvə şirələrinin, spirtli içkilərin 1 litri üçün 0,7 dollardan az olmamaqla gömrük idxal rüsumu alınacaq.

Gömrük rüsumlarının artması isə yuxarıda adıçəkilən malların bahalaşması deməkdir. Hökumət rüsumları artırmaqla daxili bazarı xarici rəqabətdən qorumağa çalışsa da, bu qərar ilk olaraq əks təsir yaratdı və bahalaşmaya gətirib çıxartdı.

Çünki sözügedən məhsullarla bağlı yerli istehsal hələ daxili tələbatı ödəmək gücündə deyil. Yerli istehsal olunan bəzi məhsulların isə xammalı xaricdən gətirilir. Bu da bahalaşmanı qaçılmaz edir.

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən iqtisadçı ekspert Natiq Cəfərli qeyd etdi ki, nəinki xaricdən gətirilən, eləcə də yerli məhsulların qiymətinin artacağı gözlənilir:** "Xaricdən gətirilən toyuq ətinin qiymətinin qalxması bazara təsirini göstərəcək. Digər tərəfdən, bəzi məhsulların xammalı da xaricdən gətirilir. Məsələn, toyuq ətindən hazırlanan kolbasalar yerli məhsul olsa da, xammal kimi xaricdən gətirilən toyuq ətindən istifadə olunurdu. O cümlədən dönərxanalarda, yeməkxanalarda xaricdən gətirilən toyuq əti istifadə edilirdi. Bu sahələrdə də təbii ki, qiymət artımları olacaq. Dolayı təsirləri isə ondan ibarətdir ki, yerli istehsalçılar bazarın tələbatını tam ödəmək qabiliyyətində deyillər. Xarici analoqların qiyməti qalxdıqca, istehsalın artımına da uzun bir zaman lazım olduğunu nəzərə alsaq, yerli istehsalçılar da məhsullarının qiymətini qaldıracaqlar. Bu da nəticə etibarilə əhalinin büdcəsinə zərbə vuracaq. Daxili istehsalın artması üçün bu qərarın qısa zamanda effekt verəcəyini gözləmək əbəsdir".



**İqtisadçı ekspert Vüqar Bayramov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hökumət "Antidenpinq haqqında" Qanun qəbul edibsə, həmin qanuna uyğun olaraq idxal olunan məhsulların bir qisminin gömrük rüsumunun qaldırılması gözlənilən idi:** "Hökumət o məhsulların idxalına gömrük rüsumunu qaldırıb ki, onlar ölkədə ya tam, ya da qismən istehsal olunur. Məsələn, quş əti ölkədə istehsal olunur. Lakin bu heyvanların yemi , dərmanı və sair xaricdən idxal olunur. Lakin bazarda olan məhsulların böyük əksəriyyəti yerli məhsullardır. O baxımdan, sərəncam yerli istehsalın çox olduğu məhsullara tətbiq olundu. Bu həm də ona görə idi ki, idxal yolu ilə xaricə gedən valyutanın həcmini azaltmaq mümkün olsun. Bu, hökumətin əsas məqsədi idi. Burada psixoloji tərəflər də var. Biz bu rüsumlar tətbiq edilən zaman bildirmişdik ki, xaricdən gətirilən məhsullar bahalaşarsa, bu, yerli istehsalın da bahalaşmasına gətirib çıxaracaq. Məsələn, yerli kolbasa istehsalında istifadə olunan xammalın əhəmiyyətli hissəsini xaricdən gətirilən məhsullar təşkil edir".

**Vüqar Bayramov onu da vurğuladı ki, hökumət bahalaşmanın qarşısını almaq üçün monitorinqləri gücləndirməlidir:** "Birmənalı şəkildə demək olmaz ki, yalnız xarici məhsulların qiyməti arta bilər, yerli məhsulların qiyməti artmamalıdır. O baxımdan, xərc strukturunun monitorinqi aparılmalıdır, yerli istehsal olunan məhsullarda xaricdən gətirilən xammalın çəkisinin nə qədər olması müəyyənləşdirilməlidir, daha sonra həmin məhsulun qiymətinin artması iqtisadi baxımdan əsaslandırılmalıdır".

❑ Nərgiz LİFTİYEVA

# Kənd təsərrüfatı ciddi ziyanda

## Fikrət Yusifov: "Bu ilin payızında heç vaxt müşahidə olunmamış aramsız yağışlar kənd təsərrüfatı məhsullarının istehsalına ciddi təsir göstərir"

**Ölkədə qeyri-neft sektorunun inkişafı qarşıya məqsəd kimi qoyulduğundan, ekspertlər məsələ ətrafında fikirlərini, təkliflərini açıqlayırlar. Hansı sahələrin inkişafının mümkünlüyü, qarşıya çıxan çətinliklər ekspertlər tərəfindən müzakirə edilir. Bu sahəyə dövlətin dəstəyinin hansı həddə olması da müzakirəyə çıxarılan məsələlərdəndir.**



**İqtisadçı alim Fikrət Yusifov** musavat.com-a bildirib ki, cari ilin doqquz ayı ərzində aqrar sektorda ümumi istehsal 6,7 faiz arta bilib: "Təəssüf ki, bu ilin payızında indiyə qədər heç vaxt müşahidə olunmamış aramsız yağışlar kənd təsərrüfatı məhsullarının istehsalının səviyyəsinə ciddi təsir göstərir. Əgər təbii şərait normal olardısa, bu il aqrar sahədəki göstəricilər kifayət qədər yüksək ola bilərdi. Təbii şəraitin tam əlverişsiz olduğu bir vəziyyətdə, ümumi iqtisadi böhran və ümumi iqtisadi azalmalar fonunda aqrar sektordakı bu nəticələr sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsi kimi dəyərləndirilməlidir".

**Ekspertin sözlərinə görə, son bir neçə il ərzində aqrar sektorda fermerlərin fəaliyyətini daha səmərəli təşkil etmək məqsədilə dövlət öz dəstəyini kifayət qədər artırıb:** "Hazırda fermerlər ancaq torpaq vergisi ödəyirlər və başqa qalan bütün vergilərdən azaddırlar. Elə bunun nəticəsidir ki, hesabat dövründə keçən illə müqayisədə bir çox məhsulların istehsalı və ixracı üzrə əsaslı irəliləyişlər müşahidə olunub, ixrac olunan məhsulların çeşidi kifayət qədər böyüyüb, ixracın coğrafiyası isə genişlənib. Bunu kifayət qədər müsbət ənənə hesab etmək olar".

**F.Yusifovun sözlərinə görə, strateji məhsulların yetişdirilməsi sahəsində bu ilin doqquz ayı ərzində əldə olunan nəticələr ötən illərin müvafiq dövrləri ilə müqayisədə artıq dəfə ilə ölçülə biləcək səviyyədədir:** "Məsələn, əgər keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıbsa, bu il 52 min hektarda pambıq əkini təmin edilib. Bu hesaba da ilin sonuna 100 min ton məhsul gözlənilir. Gələn il pambıq əkin sahələrinin 2,3 dəfə artırılması, onun istehsalının isə 250 min tona çatdırılması nəzərdə tutulur. İpək istehsalının yeni infrastrukturunun yaradılması və baramaçılığın müasir tələblər səviyyəsində təşkil edilməsi nəticəsində keçən il istehsal olunmuş 232 kiloqrama qarşı cari ildə 70,7 ton, yəni 300 dəfə artıq yaş barama məhsulu istehsal edilib. Növbəti illərdə ölkədə baramaçılığın daha geniş inkişafı məqsədilə 1milyon 600 min tut tinginin əkilməsi nəzərdə tutulur ki, bu da hazırda mövcud olan tut ağaclarının sayından 4,5 dəfə çox deməkdir. Cari ilin 1 iyun tarixinə respublika üzrə 2,1 min hektar sahədə tütün əkilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 839 hektar və ya 40 faiz çoxdur. Göründüyü kimi, aqrar sektora dövlət dəstəyi öz nəticələrini artıq verməyə başlayıb. Hesab edirəm ki, bu qaydada inkişafla yaxın bir neçə il ərzində aqrar sektor ölkə iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılmasında öz sözünü əsaslı şəkildə deyəcək".

**Ekspert qeyd edib ki, aqrar sektorun sürətli inkişafını təmin etmək üçün ölkənin bank sisteminin rolu kifayət qədər artmalıdır:** "Bu gün kəndli-fermer dövlət dəstəyi ilə xüsusi olaraq verilən kreditlərdən başqa kreditlər almaq iqtidarında deyil. Çünki banklar bu gün kənd təsərrüfatı sahəsində sahibkarlığa dəstək verməyə hazır deyillər. Onların hazırkı durumunda təklif edə biləcəkləri kreditlərin şərtləri isə çox ağırdır. Yəni bu gün fermer hər hansı bir məhsul istehsal etmək üçün bankdan 15-20 faizlə kredit götürüb bu işlə məşğul ola bilməz. Belə kreditlər ona ən yaxşı halda 5-7 faizlə təklif olunmalıdır. Eyni zamanda kreditlərin uzunmüddətli olması mühüm şərtdir. Hesab edirəm ki, aqrar sahədə qarşıya qoyulan qlobal vəzifələrin həlli üçün ölkədə dövlətin də dəstəyi olan xüsusi bir ixtisaslaşmış bankın yaradılmasına ehtiyac var".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

# Uşaqları zəhərləyən məktəb bufetləri...

**Fazil Talıblı:** "Azyaşlıların qidalanması üçün nəzərdə tutulmayan məhsullar satılır"

**Bəşarət Məmmədov:** "Məktəb bufetlərində standartdan kənar qidaların satılmasına icazə verilmir"

**Eyyub Hüseynov:** "Məktəb bufetlərinə valideynlər də nəzarət etməli, oranın standartlara uyğun işləməsinə nail olmalıdırlar"

**Şagirdlərin əksəriyyəti tənəffüs vaxtı məktəblərin bufetinə qaçır. Burada isə sağlamlıq üçün təhlükəli olan, tərkibi, hazırlanma şəraiti bilinməyən pizza, tost, dönər, bulka, keks, çips, pirojna, suxarı, buterbrod və müxtəlif qazlı içkilərin satıldığı haqda zaman-zaman faktlar ortaya çıxıb. Məktəb bufetlərinə nəzarət demək olar ki, yox dərəcəsindədir. Baş çəkdiyimiz bir neçə məktəb bufetində bunların şahidi olduq. Bufetlərini jurnalistlərin daxil olması qadağan edilsə də, biz valideyn qismində ora daxil olaraq, xeyli məlumatlar əldə etdik. Məlum oldu ki, bufetlər haqqındakı standartda qadağan edilmiş xeyli qidalar var ki, onlar hazırda bufetlərdə şagirdlərə sırınır. Bəli, məhz sırınır, çünki uşağın qidanın keyfiyyətini müəyyən etməsi mümkünsüzdür.**

Şagirdlər məktəb bufetlərində qidaların baha satıldığını deyirdilər.

**304 saylı orta məktəbdə** olarkən şagirdlərdən biri məktəbdə daha çox kolbasa-çörəyi bəyəndiyini dedi: "Kolbasa-çörək və peraşkilər yaxşıdı. Ancaq pizzanın içindəki sosiska yaxşı dadmır. Biz daha çox suxari alırıq. Ancaq bizim məktəbdə qazlı sular satmırlar. Çöplü şirələr satılır".

Məktəbin qarşısında övladını dərsdən götürməyə gələn bir neçə valideynlə də söhbətləşdik. **Övladının 3-cü sinifdə oxuduğunu deyən Əminə Məmmədova** uşağına məktəb bufetindən nəsə almağa icazə vermədiyini dedi: "Mən məktəb bufetində nələrin satıldığını, hansı şəraitdə bişirildiyini bilmirəm. Ona görə də buranın qidalarına etibar etmirəm. Özüm hər səhər uşağı dərsə gətirəndə mağazadan şirniyyat, su alıb çantasına qoyuram".

**Ümumiyyətlə, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ümumtəhsil və ilk peşə təhsili müəssisələrində uşaq və yeniyetmələrin qidalanması zamanı istifadəsinə icazə verilməyən məhsulların siyahısı aşağıdakı kimidir: İçalat məhsulları** (qaraciyər, dil və ürək istisna olmaqla), içalatı təmizlənməmiş quş, vəhşi heyvanların əti, suda üzən quşların yumurtası və əti, qabığı çirklənmiş yumurta, və həmçinin salmonellyoza görə qeyri-sağlam təsərrüfatdan olan yumurta, germetikliyi pozulmuş bankada olan, köpmüş, paslı, deformasiyaya uğramış, etiketsiz konservlər, termiki emala məruz qalmayan yaşıl noxud, çirklənmiş və ya anbar ziyanvericiləri ilə yoluxmuş yarma, un, quru meyvələr və başqa məhsullar, mənşəyi məlum olmayan ərzaq məhsulları, kremli şirniyyat məmulatları (piroq və tortlar), termiki emala məruz qalmayan, təbii halda olan kəsmik və xama, ev şəraitində hazırlanmış qatıq, göbələklər və onlardan hazırlanan məhsullar (kulinariya məmulatları), termiki emala məruz qalmayan içkilər və morslar, kvas, kənd təsərrüfatı heyvanlarında aşkarlanan xəstəliklərə görə qeyri-sağlam təsərrüfatdan alınan, çəlləkdə saxlanılan, pasterizə edilməmiş və qaynadılmamış süd, təbii halda olan və kəsmiyin hazırlanması üçün istifadə olunan süd və qatıq, termiki emaldan keçməmiş ətdən, quş ətindən, balıqdan hazırlanmış yeməklər, sirkə, xardal, qıtıqotu, istiotlu bibər və digər (kəskin) ədviyyatlar, xəmiri acıdan naməlum tərkibli tozlar, istiotlu souslar, ketçuplar, mayonezlər, qəlyanaltı konservlər, turşuya qoyulmuş tərəvəzlər və meyvələr, təbii kofe, alkoqollu, energetik içkilər, kulinariya yağları, donuz və qoyun piyi, marqarin və digər hidrogenləşdirilmiş yağlar, qazlaşdırılmış içkilər, bitki yağları əsasında süd məhsulları və dondurma, saqqız, çipsilər, tərkibində etanol olan (0,5%-dən artıq) qımız və turş süd məhsulları, ət qiyməsi ilə hazırlanmış makaron, ətli blinlər, studenlər, doğramac, paştetlər, siyənək balığından farşmak, üzərində sous gəzdirilmiş ətli və balıqlı yeməklər, yumurtalı makaronlar, qayğanaq, frityurda qızardılan piroqlar və ponçiklər.








Ancaq təəssüf ki, bu qidaların əksəriyyəti bufetlərdə satılır. Bir çox ölkələrdə məktəb bufetlərində uşaqlar uşaqların qida menyusu hazırlanarkən pediatr və digər mütəxəssislərin rəyi nəzərə alınır. Azərbaycanda isə bu, nəinki nəzərə alınmır, heç bufetdə işləyənlər belə həkim nəzarətindən keçmir. Hansı ki, normalda bu şəxslər 3-6 aydan bir həkim nəzarətindən keçməlidirlər.

**Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı hazırda bütün bufetlərə nəzarət etmənin mümkün olmadığını dedi:** "Bir neçə il öncə ictimaiyyət tərəfindən gələn sosial tələbi nəzərə alaraq və bu sahədə normativ tənzimləməni həyata keçirmək məqsədilə Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən məktəb bufetlərinə olan tələbləri özündə əks etdirən dövlət standartı təsdiq edib. O ərəfədə biz bu standartla bütün müvafiq icra hakimiyyəti orqanlarını, bu sahədə çalışan qurumları, məktəbləri, katrinq həyata keçirən özəl şirkətləri - hansı ki, məktəb bufetlərinə bu qidalanmanı təmin edirlər - hamısını o standartla tanış etdik. Məktəb direktorları ilə görüşlərimiz oldu və məlumat verildi. Çox təəssüf ki, biz də mətbuatdan, ictimaiyyətdən eşidirik ki, məktəblərin bufetində qadağan olunmuş ərzaqlar, cipsilər, suxarilər, qazlı sular, acılı, souslu, mayonezli, ketçuplu məhsullar satılır. Azyaşlıların qidalanması üçün nəzərdə tutulmayan məhsullar satılır.

Hazırda yoxlama aparmaq səlahiyyəti bizdə olmadığına görə mövcud vəziyyəti təhlil edə bilmirik. Amma valideynlər, məktəb rəhbərliyi tərəfindən ictimai nəzarət olmalıdır ki, bu standartın tələblərinin pozulmasına yol verilməsin".

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mətbuat xidmətinin rəhbəri Bəşarət Məmmədov məktəb bufetlərində standartdan kənar qidaların satılmasına icazə verilmədiyini və daim nəzarət olduğunu bildirdi: "Məktəbin qapısından içəridə nə varsa, məktəb rəhbərliyi buna nəzarət edir və cavabdehdir".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məktəb bufetlərinin əslində icarəyə verilmiş bir obyekt olduğunu dedi:** "Bütün hallarda direktorlar məktəb bufetlərinə şərikdirlər. Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi məktəb bufetlərində satılan ərzaq mallarının çeşidi, onun standartı barədə sənə qəbul edib. Lakin bu əhəmiyyətli sənədin tələbləri məktəblərin maksimum 30 faizində yerinə yetirilir. Biz dəfələrlə demişik ki, böyük tənəffüsdə belə uşaqların normal qidalanmağa vaxtı olmur. Çünki böyük tənəffüsün vaxtı çox azdır. Dəfələrlə təklif vermişik ki, məktəblərin koridorlarında avtomatik meyvə satan qurğular qurulsun ki, uşaqlar ora qəpik atıb heç olmasa meyvə ilə qidalansınlar. Bu, ciddi problemlərdən biridir. Məktəb bufetlərində arzuolunmaz qidalar, evdə bişirilən peraşkilər satılır. Bakı məktəblərini mərkəzləşdirilmiş qaydada qida ilə təmin edən ayrıca sovet vaxtından qalmış bir qurum var. Bu qurum müəyyən cavabdehlik daşıyır. Amma çox təəssüf ki, o qurum da bu işlərə kifayət qədər nəzarət edə bilmir. Məktəb bufetlərinə valideynlər də nəzarət etməli, oranın standartlara uyğun işləməsinə nail olmalıdırlar".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Bir təhqirin iki növ cəzası



**Samir SARI**

**Bizim kəndin camaatında bir qəribə xasiyyət vardı, bir-birinin babasının vaxtilə daşımış olduqları ləqəbləri yada salıb, lağlağı edərdilər. Elə adam vardı ki, hamıya deməyə söz tapırdı, ancaq kimsə qayıdıb onun babasıyla bağlı söz deyəndə cırnayırdı.**

Neçə dəfə belə söhbətlər üstündə dava da düşmüşdü. Bir dəfə yaxın adamın toyunda "dədə-baba zarafatı" üstündə iki sürücü qohum az qaldılar tutaşsınlar. Əhvalat belə oldu ki, sürücülərdən biri həmkarının babasının Cürdək (bu, su qabıdır, güman ki, ağsaqqal biçinə-filana gedəndə üstündə həmişə cürdək olurmuş) ləqəbi daşıdığını yada salıb zarafat edəndə, o da qayıdıb onun babası haqqında köntöy bir zarafat elədi. Onların sözü çəpləşdi, dava başlamaq üzrəykən, ağsaqqallar olaya müdaxilə etdilər. Cürdəyin nəvəsini döymək istəyən sürücüyə dedilər ki, nə var, niyə cumursan bunun üstünə. O da cavab verdi: "Görmürsünüz, babama nə deyir?" Dedilər, axı, birinci sən onun babasına sataşdın. Davakar sürücü qane olmadı: "Mənim babam onun babasının tay-tuşu olmayıb".

İndi icazənizlə keçirəm mətləbə. Bizim əksəriyyətimiz həmin o, başqasının babasına sataşan, amma öz babasına söz deyiləndə dava salan sürücüylə, türkün sözü, eyni zehniyyətdəyik.

Çox tez-tez olur ki, mətbuatda təhqir olunmuş və qisas almaq eşqi ilə yanan həmkarımıza öyüd-nəsihət veririk: "Boş ver, a bəy, fikir vermə, qoy rədd olsun, axmaq adamdır də. Tort yeyən iti öldürməzlər ki".

Amma elə ki, öz ünvanımıza təhqiramiz bir söz işlədirlər, beynimiz çönür. Məsələn, 5-6 ay əvvəl bir toyda başqa kollektivdə çalışan jurnalist həmkarımız bizim əməkdaşlara yaxınlaşıb şəkil çəkdirmiş, sonra da o şəkli sosial şəbəkədə paylaşmışdı. Bizim də düşmənimiz, bədxahlarımız var. O bədxahlardan ikisi həmin şəklin altında əməkdaşlarımıza qarşı təhqiramiz ifadələr yazmışdı. Bir əməkdaşımız təhqiramiz şərh yazanların adını öz qara dəftərinə salıb, and içir ki, onların hanısana rast olsa, ilk fürsətdə qulağının dibinə şillə tutuzduracaq. Adam hüquqşünaslarla da məsləhətləşib, o hərəkətinin müqabilində alacağı cəzanı da aşağı-yuxarı bilir, deyir, şilləni elə vuracaq ki, o təhqir yazan gənc ayaq üstə qalmayacaq, amma bədən xəsarəti də almayacaq, ən çoxu sifətində beş barmağın dördünün yeri qalacaq, bir də yazdığı söyüşlə bağlı səhv etdiyini, nə yediyini etiraf edəcək.

Bəlkə də həmkarımızı təhqir edən şəxslər bu haqq-hesabı unudublar, gedib, amma təhqir olunanın yadındadır, hətta hazır qisas planı da var, sadəcə, gerçəkləşdirilməsi günü gözləyir.

Ona görə də Elsevər adlı gah müxalifətçi, gah iqtidarçı olan gənci təhqir üstündə tutdurduğuna görə müğənni Mətanət Əsədovanı qınayanları qınayıram.

Qınaqçılar bir az düşünsün, görsün, Mətanətə ünvanlanmış təhqir onun özünə deyilsəydi, özü necə edərdi. Əlbəttə ki, o, durub Elsevəri polisə-prokurorluğa, məhkəməyə verməzdi, Elişin ünvanını tapar, qapısına gedər, təpiyinin altına salıb, çığnayar, gedib girərdi türməyə.

Müğənni isə mədəni yol tutub, onu təhqir edənlə hüquqi müstəvidə, qanunun gücüylə, dövlətin iradəsi ilə hesablaşıb.

Bir dostumuz var, deyir ki, gərək müğənni gənci tutdurmazdı, sevgilisini göndərərdi, o da gedib Elsevərin peysərinə qapaz çəkərdi, iş bitərdi.

Amma sizi əmin edirəm ki, bu halda da hamı deyəcəkdi ki, burası dağ başıdırmı, dərəbəylikdirmi, dövlət var, qanun var, məhkəmə var, müğənni təhqir olunduğunu hesab edirsə, qoy məhkəməyə müraciət eləsin.

Odur, ötən illərdə müğənni Röya bu kimi münaqişələri türk seriallarından tanıdığımız kabadayılar kimi həll etmək istəmişdi, özünü kriminal avtoritetlər kimi aparmışdı, yazığın ünvanına yazmadığımız söz qalmadı. Əgər o, şəxsiyyətini təhqir edəni məhkəmə yoluyla cəzalandırmaq istəsəydi, onda da başqa söz deyəcəkdilər.

Birdəfəlik anlamaq lazımdır ki, media və sosial şəbəkə başqalarını cəzasızcasına təhqir etmək üçün qolay yer deyil. Lap biri fahişədirsə, yəni qeyri-leqal masaj salonunda işləyərək, millətə cinsi xidmət göstərirsə, ya da ildə 5 dəfə sponsor-aşna dəyişirsə, bu, hələ heç kimə onu təhqir etməyə əsas vermir. Təhqir edərsən, ən yaxşı halda məhkəməyə verərlər, ən pis halda Röya səni apartdırıb zirzəmiyə salar, videonu çəkdirər.

YENİ MÜSAVAT
N 245(6566) 4 noyabr 2016

# Azərbaycanlılar sosial şəbəkədən pul qazana bilmir, çünki....

## Ölkəmizdə bu ənənənin ləng inkişafının səbəbləri nədir?

**Dünyada məşhurlar öz instagram, facebook, tivitter səhifələrindən pul qazanma yoluna üstünlük verirlər. Belə ki, firmaların reklamına, hansısa gözəllik salonunun, yeni çıxan məhsulun... tanıtımına səhifələrində icazə verən məşhurlar hər paylaşımdan bəlli məbləğ alırlar. Nəticədə ay ərzində bu reklamların faizləri üst-üstə yığılır və hətta 10 min dollardan başlanan bir məbləğə yüksəlir. Təbii ki, sıravi insanların belə bir şansı yoxdur. Amma sosial şəbəkədə və internetdə pul qazanmaq üçün xeyli optimal üsullar var.**

Facebookda reklamdan pul qazanmaq imkanı get-gedə artır. Facebook-a yüklənən videolar artıq tək şəbəkə daxilində paylaşılmır, başqa saytlara da yüklənə bilir. Bu paylaşılan videoların üzərinə reklamlar da yerləşdirilə bilir. Bu da facebook istifadəçilərinə reklamdan da pul qazanmaq imkanı yaradacaq.

Azərbaycanda tanınmış blogger sayılan Nurlan Abbaszadə internetdən pul qazanmağın müasir üsulları barədə məlumatlıdır və bununla bağlı öz bloqunda arayış xarakterli material hazırlayıb. Onun yazdığına görə, 2015-ci ildən bu cür sistemlərlə pul qazanmaq daha da böyük potensial vəd edir. Lakin bu hər kəs üçün keçərli deyil. Hər internetə bağlantısı olan insan internetdən pul qazanmaq üçün yararlı sayılmır. Bunun üçün bir sıra kriteriyalar vardır. Əgər internetdən pul qazanmaq asan olsa idi, bunu hər kəs bacarardı.

Blogger internetdən pul qazanmanın yollarını 4 əsas maddədə birləşdirib:

*1) Video hazırlayaraq internetdən pul qazanmaq;*

*2) Məqalə yazaraq internetdən pul qazanmaq;*

*3) Proqramlaşdırma ilə internetdən pul qazanmaq*

*4) Forex sistemi ilə internetdən pul qazanmaq;*

*Bu yazımda sizlərə ilk olaraq birinci maddə haqqında danışacağam.*




YouTube internet portalından video hazırlayaraq internetdən pul qazanmaq haqqında yəqin ki, çoxlarınız eşitmisiniz. Lakin bu sistemin necə işlədiyi haqqında təsəvvürünüz yoxdur.

YouTube-dan pul qazanmaq üçün əsas alqoritm belədir.

Kanal yaradırıq, kanalımıza videolar yerləşdiririk, kanalımızı reklam edirik və abunəçilərimizi artırırıq. Kanalımıza YouTube- reklamlar yerləşdirir, yəni videolarımıza avtomatik olaraq bu videolar yüklənilir YouTube tərəfindən. Bu videolara tıklama və göstəriş sayısına görə isə YouTube - bizə pul ödəyir. Ödənilən pul Google Adsense hesabımıza yüklənilir, buradan isə bizim bank hesabımıza nağd olaraq göndərilir.

Amma internetin təklif etdiyi şərtlər bununla yekunlaşmır. İnternetdən pul qazanmaq üçün aşağıdakı üsullar da var.

**1) Affiliate Marketing System (Satışa çıxarma və Ortaqlıq Sistemi):** Yerli xarici bir çox internet saytının təqdim etdiyi bu imkan üçün komissiyaçılığın bir az daha inkişaf etmiş versiyasını deyə bilərik. Sayta üzv olursunuz, satacağınız məhsulları təyin etdikdən sonra bu məhsullara uyğun bir müştəri toplumu meydana gətirməlisiniz. Bu, ümumiyyətlə, ilk başlarda yoldaşlardan meydana gəlir. Qısacası, edilən bütün bu əməliyyatlardan qazanırsınız və ən əhəmiyyətlisi məhsul sataraq 2 fərqli şəkildə qazana bilirsiniz. Birincisi satdığınız məhsulun komissiya əvəzi, ikincisi isə daha çox müştəri taparaq. Daha çox qazanan və qazandıran bir satıcı olaraq komissiya əvəzinizin artması, fərqli sabit gəlir, hədiyyələr qazanmanız üçün sizi motivasiya edəcək əlavə fürsətlər yaranır.

**2) Game Design (Kompüter Oyun Dizaynı):** Əlbəttə ki, böyük firmaların milyonlarla dollar qazandığı, amma yüzlərlə qrupların olduğu oyunlardan bəhs etmirik. İnternetdən əldə edə biləcəyiniz flash və java proqramlarını, videoları rahatlıqla tapa bilərsiniz. Bunları bir çox sayta sata bilərsiniz, ölçüləri kiçik olduğu üçün çox yer örtməyən bu oyunları cib telefonlarına belə yükləyə bilərsiniz. Hətta müxtəlif yarışmalara qatılaraq mükafat qazana bilərsiniz.

**3) İctimai Media Mühəndisliyi (İnternet Reklam Xidmətləri):** İnternetin sürətlə həyatımızın hər sahəsinə girdiyinin fərqində olan firmalar, bir çox ictimai şəbəkənin meydana gəlməsindən faydalanaraq çox daha qısa müddətdə və çox daha çox insana çata bilmək üçün internet reklam xidməti təmin edənlərə yönəldilər. Bunun nəticəsində də "ictimai media mühəndisliyi" adında bir peşə ortaya çıxıb. Onlar ictimai paylaşma saytlarına girib firma adına hesab, qrup, səhifə açırlar və üzerlə yoldaş olurlar. Beləliklə, həm firma təqdimatını edir, həm unudulmur, həm də ünsiyyət təmin edilərək anketlər və oyunlar ilə müştəri məmnuniyyəti işlərini görmüş olurlar.

**Gənc blogger Məhəmməd Türkmən isə hesab edir ki, Azərbaycanda da sosial şəbəkə vasitəsilə pul qazanmaq mümkündür. Onun sözlərinə görə, bizdə bu qazanc Türkiyədə, Avropadakı qədər olmasa da, əslində mümkündür. Müsahibimiz dedi ki, onedo.com adlı saytda video yerləşdirməklə bunu etmək mümkündür.Bizdə isə belə bir təcrübə yoxdur:** "Amma sosial şəbəkədə 100-150 min izləyicin varsa, sənə müxtəlif reklam təklifləri gəlir. Bunlardan birincisi gizli reklamlardır - virtual reklam. Mən şəkil qoyuram, amma gizlicə hansısa kofe firmasını reklam edirəm. Bunların qiyməti də digərindən ucuz olur. Mənim 100 min izləyicim var, kimsə təklif edir ki, hansısa sərinləşdirici içkini reklam et. Mən masanın üzərinə həmin sərinləşdirici içkini qoyub, şəklini də yayıramsa, bu, gizli reklamdır və burda ödəniş 50 faiz azdır. Amma mən açıq-aşkar deyəndə ki, "bu sərinləşdirici içkini için", bu zaman birbaşa reklamdır və qiyməti daha bahadır".

**Konkret sosial şəbəkədən pul qazanma imkanlarına gəlincə, M.Türkmən dedi ki, reklamların qiyməti minimum 300-400 manatdan başlanır. Bu, əsasən foto və videolar üçündür:** "Məsələn, sən bloggersən, vaynsan. Çəkiliş edərkən hansısa mağazanın, firmanın nümayəndəsi deyir ki, çəkiliş zamanı mənim məkanımdan istifadə et, loqom düşsün. Onun qiyməti 300 manatdır. Bir də var deyir, mənim məhsulumu reklam et. Azərbaycanda bu təcrübə yavaş-yavaş formalaşır. İzləyicisi az olanlara pul ödəmirlər. Bəzən kostyum firması çəkiliş üçün kostyum verir. Müğənnilərlə də bu qaydada iş gedir".

**Sevinc TELMANQIZI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**

**Əməl və hərəkət baxımından insanın yönəldicisi, onun hərəkətlərinin istiqamətini və necəliyini müəyyənləşdirən amil - onun dünyagörüşüdür. Və yanlış dünyagörüşü insanın əxlaqında, əməlində müvafiq iz buraxır, hətta bunların mahiyyətini müəyyən edir. İnsan digərlərinə zülm etmək kimi bir zəlillikdən öz ruhiyyəsini qoruya bilsə, ruhi-mənəvi dəyişikliklərə təkan vermiş olar ki, nəticəsi mütləq xeyir aqibətlə sonuclanar. Və bu, bir fərd olaraq, onun islaholunmuş duruma yetişməsinə gətirdiyi kimi, eləcə də, bütövlükdə toplumun islahına səbəb olar.**

# Toplumun islahatı fərdin islahından keçir



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Bütün zamanlarda insanı ən çox düşündürən "nə etməli?", "necə etməli?", "vücudi baxımdan uduzmamaq üçün nə etmək lazımdır?" kimi suallar olmuşdur. Düşünən insan anlayır ki, əbədi yolun yolçusudur və bu yola müəyyən azuqə ilə çıxmaq lazımdır. Uca Allaha dua edirik ki, bizləri bu yola əliboş çıxmayanlardan qərar versin!

## Ey insan, özünün təbibi ol!

**İmam Cəfər Sadiqdən (ə) aşağıdakı mövzuda hədis nəql edirlər:** "Həqiqətən, səni özünün həkimi, təbibi qərar vermişlər. Sənin ağrını sənin üçün bəyan etmişlər, sağlamlığın əlamətlərini sənə tanıtdırmışlar. Və dərmanına yönəldib, bələdçilik etmişlər. Nəticədə düşün, gör ki, öz durumunun islahına necə qalxırsan».

Mübarək dinimiz insanı düşündürən sualların cavabında bildirir ki, daxili islahat aparmaq üçün, əbədi həyata azuqə toplamaq üçün insan ilk növbədə özünə diqqət yetirməlidir. Zira, insanı onun özündən çox kiminsə tanıması müşkül məsələdir. Deməli, insan özünü araşdırmalı, özü barədə məlumat toplamalı, yeri gələndə, məlumatı təsnifləndirməli, təhlil etməli və nəticədə islahatla bağlı qərarlaşmalıdır. Əlbəttə, kənardan kimsə insana müəyyən qiymətli məsləhətlər verə bilər, amma bu məsləhətlər səlis məlumata əsaslanmalıdır və məlumatın da mənbəyi həmin insanın özüdür. İnsan əslində öz vəziyyətinin həkimidir.

"Ağrını bəyan etmişlər» müddəasına gəldikdə, burada söhbət insanın daxili mərəzlərinin təbiətindən gedir. Dinimiz bildirir ki, insanın daxili xəstəliklərinin mənbəyi onun yanlış və səhv dünyagörüşündən irəli gəlir. Yəni, insanın mənəvi xəstəliklərinin bünövrəsində onun batil dünyagörüşü durur. Çünki əməl və hərəkət baxımından insanın yönəldicisi, onun hərəkətlərinin istiqamətini və necəliyini müəyyənləşdirən amil - onun dünyagörüşüdür. Və yanlış dünyagörüşü insanın əxlaqında, əməlində müvafiq iz buraxır, hətta bunların mahiyyətini müəyyən edir.

Hədisdə göstərilən "sağlamlığın əlamətlərini sənə tanıtdırmışlar» ifadəsi isə insanın gözəl əxlaqi xüsusiyyətə malik olmasına işarədir. İnsanın imana gəlməsi, yüksək əxlaq, mənəviyyat nümayiş etdirməsi - onun sağlam daxili duruma malik olmasının əlamətləridir. Yəni əgər insan bilmək istəyirsə daxili durumu sağlamdır, ya yox - əməllərinə diqqət yetirməlidir. Əgər insanın durumu ixlaslı, insanlara münasibəti xeyirxah, mehriban, səmimidirsə, daxili mərəzləri onu keyfiyyətsiz əməllərə sövq etmirsə - bu, daxili salamatlığa dəlalət edən amildir.

"Dərmanına yönəltmişlər" məsələsi isə insanın daxili xəstəliklərdən qurtulması üçün yardımçı olan vasitələri bəyan edir. Buraya tövbə, istiğfar, Allahdan səmimi qəlblə bağışlanmaq diləmək, yalnız Allaha tapınmaq, Məsumlara (ə) təvəssül etmək kimi mübarək vasitələr aiddir. İnsanın Allah dərgahında bağışlanma diləməsi və təqvaya riayət etməsi - müalicəsinin əsasıdır.

Hədisin sonunda göstərilən lnəticədə düşün, gör ki, necə öz durumunun islahına qalxırsan» ifadəsi tövsiyələri bir növ yekunlaşdırır. Ey insan! Özünün təbibi, islahedicisisən, günah əməllər sənin xəstə olmağını təzahür edir, xəstəliyin səbəbi olaraq yanlış dünyagörüşü sənə göstərilib, sağlam olmağın nişanələri yüksək keyfiyyət, mənəvi dəyərlər və bu dəyrlərin daşıyıcısı - Həzrət Peyğəmbər (s) və Əhli-Beyti (ə) sənə nümunə olaraq göstərilib, imanın yolu - tövbə, istiğfar, bəndəçilik kimi dərmanlar sənə təqdim edilib, indi düşün, bax gör islahın üçün nə etməlisən və necə etməlisən - artıq sənin üçün aydınlıq və müəyyənlik var. Bəs gecikmə, yubanma, özünü müalicə et!

## İnsanlara zülm etmədən yaşamaq

**İnsanların haqlarına riayət etməklə bağlı dinimizin çox ciddi tələbləri var. İmam Muhəmməd Baqir (ə) atası İmam Zeynəlabidindən (ə) nəql edir ki, Allahın Elçisi (s) Həzrət Əliyə (ə) xitabən bildirib:** "Ya Əli! Ən üstün cihad budur ki, insan bir kəsə zülm etmək niyyəti olmayan bir halda sübh edə".

Öncə nəql etdiyimiz mətləblər insanın islah olunmasına aid idi. Burada islahın gerçək təzahürləri bəyan edilir: insan bir kəsə zülm etmək niyyəti güdməsin, qəlbində kiminsə haqqını basmaq məqsədi daşımasın. Mahiyyət etibarilə söhbət ondan gedir ki, insan bütün çalarlarda, bütün müstəvilərdə xeyir mənbəyi olsun. Buradan aydınlıq hasil olur ki, insan istər fərd olaraq, istər ailədə, istər ictimai həyatında zülm etməməyi niyyət etsə, bu, onun durumunun salamatlığına bilavasitə dəlalət edər.

Əziz dinimiz bizə nə öyrədir? İnsanlara zülm etmək sıradan bir əməl deyil. Zülm etməyin mənbəyində deformasiyaya uğramış dünyagörüşü durur, Allah Təaladan çəkinməmək, Onun bəndələrini incitmək zəlaləti durur! Deməli insan bu zəlillikdən öz ruhiyyəsini qoruya bilsə, insanlara zülm etmək halətindən qəlbini təmizləyə bilsə - böyük vücudi nailiyyətlər əldə edər, ən azı, ruhi-mənəvi dəyişikliklərə təkan vermiş olar ki, nəticəsi mütləq xeyir aqibətlə sonuclanar.

Məsələyə bir qədər kompleks yanaşdıqda, hədisdə göstərilən məqamların böyük əhəmiyyət kəsb etməyinin fərqinə vararıq. Belə ki, əgər hər bir şəxs digər insanlara zülm etməmək qərarında olsa, bu, bir fərd olaraq, onun islaholunmuş duruma yetişməsinə gətirər, eləcə də, bütövlükdə toplumun islahına səbəb olar. Bir toplumu təsəvvür edək ki, burada fərdlər qarşılıqlı mehribançılıq, bir-birinin haqlarına hörmətlə yanaşma durumundadırlar. Burada münasibətlər necə də harmonik surətdə inkişaf edər və toplum bütövlükdə islahedici, tərbiyəedici missiyanı yerinə yetirən bir müəssisəyə çevrilər!

## Öz durumunu daim nəzarətdə saxlamalı

**İnsanın öz durumunu nəzarətdə saxlaması, həvayi-nəfsin yönəltdiyi istiqamətlərə getməyə qarşı müqavimət etmək imkanını əldə etməsi dinimiz tərəfindən çox əhəmiyyətli bilinir. İmam Cəfər Sadiqdən (ə) nəql edirlər:** "Bir kəs rəğbət durumunda, qorxu durumunda, meyil durumunda, qəzəb və razılıq durumunda öz varlığına, mövcudiyyətinə sahib çıxsa, Allah Təala onun bədənini cəhənnəm atəşinə haram edər».

İnsanın zəlaləti nədən baş verir? O zaman ki, insanın hərəkətləri əqldən deyil, həvayi-nəfsdən mənbələnər - bu insanın zillətə düşməsi labüddür. Mübarək hədisdən görürük ki, insanın ən müxtəlif ruhi vəziyyətləri təsvir edilib və hər bir vəziyyətdə insanın özünə nəzarət etməsinin vacibliyi təsdiqlənir. Müxtəlif vəziyyətlərin insanda müəyyən təsir buraxması təbiidir. Şərt odur ki, insan bunları idarə edə bilsin, qeyri-əqli halətlərin onun əməllərində təzahür tapmasına imkan verməsin.

Mahiyyət etibarilə, insanın özünə nəzarət etməsi nə deməkdir? Hər bir vəziyyətdə nəfsani istəklərin deyil, əqlin dominantı, əqlin üstünlük təşkil etməsi deməkdir. İstər rəğbətli durumda, istər qorxu, istər qəzəb və s. - hər bir durumda əqlin rəhbərliyi ilə hərəkət etməlidir insan. Əqlsə nə deyir? Əql deyir ki, əsas şərt - İlahi rizayətdir, Allahın razılığıdır. İnsan İlahi razılığı düşünsə, diqqət eləyər ki, istənilən vəziyyətdə günah etməsin, nöqsana yol verməsin, heç kəsin haqqını pozmasın - bu halda nicat tapmışlardan olar. Dinimiz bu məqamı o dərəcədə önəmli hesab edir ki, "Allah Təala cəhənnəm oduna bu insanın bədəninə yaxınlaşmağı belə qadağan edər» kimi müjdə verir.

## Qəlbini təfəkkür ilə oyat!

Əlbəttə ki, insanın daxili islahatı baxımından, daxili yüksəlişə nail olmaq baxımından Həzrət Əli (ə) ən gözəl nümunə kəsb edir. Böyük İslam Peyğəmbərinin (s) ən mübarək davamçısı olan Həzrət Əli (ə), bütün ömrü ilə ixlaslı bəndəçiliyin ən parlaq təzahürünü nümayiş etdirmişdir. Əmirəlmöminin (ə) bəşəriyyətə etdiyi tövsiyələrdin birində qəlbi yüksəlişin kökünün, mənbəyinin düşüncədə olduğunu bildirir: "Qəlbini təfəkkür ilə oyat".

Dinimiz bəyan edir ki, gerçəkliyi anmağa, qəlbi ayıqlığa insan məhz təfəkkürlə, düşüncə ilə yetişə bilər. Əgər insan düşünsə, öz xəstəliklərini, mərəzlərini anlayar, bu xəstəliklərdən qurtulmaq yollarını müəyyən edər. Düşünməyən insan özünü təhlil etməkdən məhrumdur, öz daxilini təftiş edə bilmir, islah barədə düşünə, qurtuluş yollarını araya bilmir.

**İmam Cəfər Sadiqdən (ə) bu mövzuda nəql edilən hədisdə bildirilir:** "Təfəkkür və düşünmək insanı yaxşılıqlara doğru və onlara əməl etməyə tərəf aparıb çıxarar».

Mübarək hədisdə təfəkkürün nəticəsi iki müstəvidə nəzərdən keçirilir: əvvəla, təfəkkür edən insan əqlin göstərdiyi ünvan ilə hərəkət edər, fəzilətlərin, təqvalı durumun üstünlükləri barədə mülahizələr edər və bu düşüncələr onda yəqinlik həddinə yetişər. Bu keyfiyyətlərin üstünlüyü barədə düşüncələrin nəticəsi olaraq, insan əməllərində təftiş aparar, islahatlar edər və təqva keyfiyyətlərinin əməldə təzahür etməsinə nail olar. Uca Allah cəmi insanları təfəkkür edənlərdən və bu təfəkkürün əməllərində təzahür edənlərdən qərar versin, inşəallah!

## Allahı düşünən pislikdən çəkinər

**İnsanın islah olunmasına yardım edən ən güclü vasitələrdən biri - Allah Təalanın onun durumu barədə agahlığını unutmamaq, bunu daima xatırlamaqdır. İmam Cəfər Sadiqdən (ə) nəql edilən mübarək hədisdə bildirilir:** "Bir kəs bilə ki, Allah Təala onu görür və dediyi şeyləri eşidir, yerinə yetirdiyi yaxşı və pis işləri bilir - bu diqqət, bunun fərqinə varma onu pislikdən çəkindirər. (Belə insan) bir kəs olar ki, Rəbbinin məqamından çəkinər və həvayi-nəfsinə uymaz».

Mübarək hədisdə vurğulanır ki, düşünən insan hər nə etdiyinin, dediyinin Uca Allah tərəfindən bilindiyinin fərqinə varmalıdır və əgər bunu anlasa, mütləq pisliklərdən çəkinər. Yenə də düşünmə ilə islahın bilavasitə əlaqəsinə işarə edilir. Nəticə etibarilə, insan hər nə baş verdiyinin Allah dərgahında məlum olmasını anlayır, bu halət də onu təqvalı duruma gətirib çıxarır. Uca Rəbbindən həya edən bu insan pisliklər, naqisliklər törətməkdən uzaq olar və fəzilətlərə, yüksək əxlaqa meyilli olar.

**Mövzunun davamında İmam Cəfər Sadiqin (ə) səhabələrindən birinə etdiyi tövsiyələrə nəzər yetirək:** "Sənə bütün işlərində İlahi təqvaya riayət etməyi, günahdan çəkinməyi, ibadətdə və insanlara xidmətdə ciddi-cəhdlə çalışmanı tövsiyə edirəm. Bil, o çalışma ki, orada günahdan çəkinmə yoxdur - faydasızdır».

Mübarək hədisdə kəmiyyətə deyil, keyfiyyətə üstünlük verməyin mühümlüyü vurğulanır - insanın bütün çalışmaları yalnız o zaman müsbət nəticələnə bilər ki, bunların binasında günahdan çəkinmə, İlahi təqvaya riayət etmə vardır.

**Həzrət Rəsulullahdan (s) Həzrət Əliyə (ə) xitabən nəql edilən aşağıdakı hədisdə insanı düşündürən "nə etməli?" sualına birbaşa cavablar vardır:** "Ya Əli! 3 şey var ki, Allah Təalanın görüşünə onlara riayət etmiş halda gedən, insanların ən yaxşısıdır: (birincisi) o kəs ki, ona vacib olan əməli Allahın dərgahında təqdim edə - ən üstün bəndədir. (İkincisi) o kəs ki, bütün haramlardan çəkinə - bəndələrin ən təqvalısıdır. (Üçüncüsü) o kəs ki, verilən ruzilərə qənaət edə - bəndələrin ən ehtiyacsızıdır. Ya Əli! 3 şey var ki, hər kəsdə olmaya, əməli tamam deyil - o qüdrət ki, insanı günahlardan çəkindirər, o əxlaq ki, (onun sayəsində) insanlarla ünsiyyət yaradıla bilinsin, bir hövsələ və helm ki, cahilin cəhalətini özünə qaytara bilsin».

Mübarək hədisdən bəlli olur ki, Allahın vacib buyrduğuna əməl edən, bunlara diqqətlə yanaşan, Allahın haram buyurduğundan çəkinən, Allahın verdiyi ruzini israf etməyən bəndə, eyni zamanda, bu günah etməkdən qorunmaq üçün qüdrət, insanlarla gözəl ünsiyyət qurmaq üçün müvafiq keyfiyyətlər, cahil insanın cəhalətinə səbir edib, onun şərinə uymamaq kimi mühüm cəhətlərin daşıyıcısı - nicat tapmış insandır. Uca Allahdan duamız budur ki, bu keyfiyyətlərə sahib çıxmağı bizlərə və bütün insanlara qismət etsin!

## Səfər ayının əlamətdar tarixləri

**Yeni başlanan səfər ayı hicri-qəməri (ay) təqvimi ilə ilin ilk ayı olan məhərrəmdən sonra gələn ikinci aydır. Bu ayda çox sayda hadisələr baş vermişdir ki, onların bir neçəsinə işarə edək.**

Səfər ayının 1-i: İmam Hüseynin (ə) əhli-beytinin (ə) əsir kimi Şama daxil olması.

Səfər ayının 1-i: Siffeyn döyüşünün başlanması.

Səfər ayının 2-si: Yezid lənətliyin mənfur məclisinin qurulması (haraya ki, İmam Hüseynin (ə) mübarək başını gətirirlər).

Səfər ayının 3-ü: İmam Muhəmməd Baqirin (ə) dünyaya gəldiyi gün.

Səfər ayının 5-i: Həzrət Rüqəyyənin (s.ə) şəhadəti.

Səfər ayının 7-si: İmam Musa Kazımın (ə) mövlud günü.

Səfər ayının 7-si: İmam Həsən Müctəbanın (ə) şəhadət günü.

Səfər ayının 8-i: Peyğəmbərimizin (s) məşhur səhabəsi Salmanın vəfatı.

Səfər ayının 9-u: Əmmar Yasirin Siffeyndə şəhid olması.

Səfər ayının 9-u: Nəhrivanda müharibənin başlanması.

Səfər ayının 14-ü: Əbu Bəkrin oğlu Muhəmmədin Misirdə Əmr As (lən) tərəfindən vəhşicəsinə şəhid edilməsi.

Səfər ayının 17-si: Üveys Qərəninin Siffeyn döyüşündə şəhadəti.

Səfər ayının 20-si: İmam Hüseynin (ə) "Ərbəin" günü.

Səfər ayının 24-ü: Həzrət Rəsullahın (s) xəstəliyinin şiddətlənməsi.

Səfər ayının 25-i: Peyğəmbərin (s) vəsiyyət yazmaq üçün kağız-mürəkkəb istəməsi və bəzi səhabələrin buna etiraz etməsi.

Səfər ayının 26-sı: Peyğəmbərin (s) Üsamənin ordusuna rumlular ilə döyüşə getmək üçün göstəriş verməsi.

Səfər ayının 28-i: Peyğəmbəri-Əkrəmin (s) ürəklər yandıran vəfat günü.

Səfər ayının axırı: İmam Rzanın (ə) şəhadəti.

**Allahım, bizləri daxili durumlarını inkişaf etdirənlərdən, yüksək əxlaq və fəzilətlərə malik olanlardan, Həzrət Rəsulullahın (s) və Əhli-Beytin (ə) yolunu davam etdirənlərdən qərar ver!**

**Allahım, işğal altında olan torpaqların azad olunmasını, xəstələrin şəfa tapmasını, Həzrət Mehdinin (ə.f) tezliklə zühur etməsini nəsib et! Amin!**

# YENİ MÜSAVAT

Son səhifə

N 245 (6566) 4 noyabr 2016




## Atası ilə sağollaşdı, 2 saat sonra onu tanımadı

“Daily Mail” qəzetinin xəbərinə görə, 13 yaşındakı Şarlotta Parsonsun ölümcül xəstəliyi atasını tanımadığı vaxt ortaya çıxıb. Ata Den səhər qızını məktəbə qoyandan 2 saat sonra məktəbdən qızının xəstələnməsi ilə bağlı zəng gəlib. Məktəbə gələn atanı isə qızı tanımayıb. Kriz keçirən və şüur bulanıqlığı yaşayan Şarlotta dərhal xəstəxanaya aparılıb. 13 yaşlı qız ancaq anasını tanıyır və keçmiş pişiklərindən danışırdı. 10 gün boyunca xəstəxanada qalan Şarlottaya iflic və miningit testləri edilib. 1 ay boyunca antibiotikdən istifadə edəndən sonra isə qızda beyin iltihabı olduğu ortaya çıxıb. Ölümcül bir xəstəlik olan və olduqca nadir rast gəlinən beyin iltihabı isə yaddaş itkisinə səbəb ola bilir. İmmunitet sistemi nisbətən zəif olan uşaqlar və yaşlılar isə beyin iltihabına daha meyllidilər. İlk vaxtlar qripə bənzər simptomlarla ortaya çıxan xəstəlik, gün keçdikcə iflic, əhval dəyişikliyi, xarakter və davranış dəyişiklikləri formasında özünü göstərir. 20 həftə boyunca infeksiya ilə mübarizə aparan Şarlotta bu müddətdə məktəbdən də məhrum olub.

# Bir sualla həyatını dəyişdirdi

Amerikada yaşayan 24 yaşlı Amber Rose 152 kilo ağırlığında idi. O, təyyarəyə minə bilmək üçün hər zaman iki yerin pulunu ödəyirdi. Bir gün heç tanımadığı adam ona “siz neçə aylıq hamiləsiniz” sualını verdi və bununla da həyatı dəyişdi. Bu sualdan olduqca təsirlənən qadın sürətli şəkildə arıqlamağa başladı. 80 kilo verən və 8 min dollar qarşılığında da arıqlayandan sonra ortaya çıxan ekstra dəyişiklik hamını şoka saldı. Qadın özü yerli mediaya açıqlamasında bildirdi ki, “hamiləsən” sualı onun bütün həyatını dəyişib. Belə ki, həmin suala qədər insanların onu kök qadın kimi qəbul etməsinə öyrəşmişdi. Amma hamiləlik sualı ona olduqca pis təsir edib: “Ana olmağa hazırlaşan qadınlara müqəddəs varlıqlar kimi baxıram. Özüm də nə zamansa elə olmaq istəyirəm. Amma hamilə olmadığım halda hamilə münasibəti görmək mənə heç də xoş gəlmədi”.



# 9 yaşlı uşaq ad günü keçirdi, heç kim gəlmədi



Oreqon ştatının sakini olan 9 yaşlı uşaq ad gününü təkbaşına keçirib. Lenta.ru saytının xəbərinə görə, dəvət olunanlardan heç kim onun ad gününə gəlməyib. Uşağın anası Kristen Leyn bildirib ki, uşaq yeddi dəvətnamə hazırlayıb. Amma həmin ünvanlardan heç biri bu dəvəti təsdiqləməyib. Ana buna görə narahat olmayıb. O xatırlayıb ki, qızının ad günündə də dəvətnamələrlə bağlı hər hansı təsdiq almamışdı. Buna baxmayaraq, dəvət olunan hər kəs ad gününə qatılmışdı. Bu səbəbdən də qadın oğlunun ad gününü təxirə salmağı düşünməyib.

Leyn bildirib ki, onların ailəsi yeni şəhərə köçüb, Malon isə evdə təhsil alır. Bayram münasibətilə o, yeni dostluqlar qurmaq və evi bəzəmək istəyib. “O, ad gününə qədər olan günləri sayırdı” deyən qadın xatırladıb ki, öz bloqunda valideynlərdən dəvətnaməyə öncədən cavab vermələrini xahiş etmişdi. “Mən orda qeyd etmişdim ki, ad gününə gələ bilməməniz dəhşətli bir hadisə deyil. Sadəcə, bu haqda öncədən xəbərdarlıq edilsə daha yaxşı olar”. Ad gününə heç bir qonaq gəlməyən oğlanın əhvalı isə tez bir müddətdə düzəlib və o ümid edir ki, gələn ilə qədər dostları da çoxalacağı üçün ad gününə gələnlərin sayı çox olacaq.

Uşağın baş tutmayan ad günündən xəbər tutan yanğınsöndürmə xidməti isə Malon üçün individual ekskursiya keçirib.






**QOÇ** - Hansısa narahatçılığa əsas yoxdur. İştirakçısı olduğunuz proseslər müsbət istiqamətdədir. Hətta maddi durumunuzun da yaxşılaşacağı mümkündür. Məsuliyyətinizi dərk edin.



**BUĞA** - Göy qübbəsi təzadlar ümmanına düşməyinizdən xəbər verir. Bu səbəbdən hər addımda ağıllı və tədbirli davranmalısınız. Fəaliyyətlə bağlı problemləriniz tədricən qaydasına düşəcək.



**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə bəxtinizə gərgin bir təqvim çıxa bilər. Odur ki, hər addımda tədbirli və ayıq-sayıq olmalısınız. Haqqınızı zorakı üsullarla tələb etməyə çalışmayın.



**XƏRÇƏNG** - İş yerində xırda qanqaraçılığı gözlənilir. Özünüzü ehtiyatlı aparın. Sizi başa düşməyənlərə nəyisə anlatmağa çalışmayın. Əsas diqqətinizi cari iş problemlərinin həllinə yönəldin.



**ŞİR** - Yeni əlaqələr yaratmaqla mövcud problemlərinizi həll etmək imkanı qazanacaqsınız. Müzakirələr zamanı mövzudan kənara çıxmayın. Axşama doğru ürəyinizə yaxın adamlara baş çəkin.



**QIZ** - Perspektivli sövdələşmələr üçün uğurlu vaxtdır. Amma danışıqları yalnız ikili vəziyyətdə aparmalısınız. Bu gün mühüm planlarınızı kiməsə desəniz, onlar reallığını itirə bilər.



**TƏRƏZİ** - Saat 11-13 arası azacıq gərginliklə üzləşsəniz də, günün əsas qayəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Nahardan sonra gözlənilməz və sevindirici hadisələrlə rastlaşacaqsınız.



**ƏQRƏB** - Olduqca uğurlu gündür. İdeyalarınıza doğru ilkin addımlar atmaqdasınız. Tərəfdaşlarınızla səmimi olsanız, bu prosesi sürətləndirə bilərsiniz. Nahardan sonra müqəddəs ocaqlara baş çəkin.



**OXATAN** - Oturaq işlərə müəyyən qədər ara verin. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Ulduzlar müxtəlif ünvanlardan maraqlı təklif alacağınızı bildirir. Axşam sevinəcəksiniz.



**OĞLAQ** - Baş verən situasiyaları reallığın gözü ilə qiymətləndirsəniz, uğurlarınız çox olacaq. Bu gün sizə qarşı rəğbət artacaq. Bunu nəzərə alıb hərəkətlərinizə diqqət yetirin.



**SUTÖKƏN** - Üzərinizə düşən başlıca vəzifə səhhətinizi qorumaqdan ibarətdir. Hətta bunun naminə işdən yayınmaq da olar. Saat 18-dən sonra sevgi romantikliyinə qapılmağınız məsləhətdir.



**BALIQLAR** - Göy qübbəsi ovqatınızın yüksələcəyinə işarə edir. Mənəvi rahatlığa qovuşmaq üçün imkanlarınız var. Buna baxmayaraq, təkbaşına fəaliyyət göstərməkdən çəkinin. Qazanc barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar tətilə gedir, amma istirahət etməyi bacarmır



Kanadanın Monreal Universitetinin apardığı araşdırmaya görə, qadınların beyini istirahət edərkən belə çalışır. Qadınlar istirahət edərkən bir çox şey haqda düşünürlər, kişilər isə istirahətdən həzz alırlar. Alimlər sübut ediblər ki, qadınlar məsuliyyətli olduqlarına görə kişilərdən daha çox düşünürlər. Amma tədqiqat zamanı o da üzə çıxıb ki, istirahət zamanı qadınlar detallar üzərində daha çox düşünüb, istirahəti özlərinə zəhər edirlər. Məsələn, tətildən sonrakı qayğılar, iş yerindəki problemlər onları relax olmağa qoymur. Son nəticədə isə beynini yükləyən zərif cinsin nümayəndəsi istirahətin dadını çıxara bilmir. Araşdırmalar onu da göstərib ki, qadınlar istirahətdən sonrakı dönəmdə də ondan yaxşı zövq ala bilmədikləri üçün özlərini günahkar hiss edirlər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5-6 noyabr 2016-cı il Şənbə № 246 (6567) Qiymətі 60 qəpik

**Xəbər**

## Tərtərdə nəhəng ilan uşağa hücum etdi

yazısı səh.2-də

**Gündəm**

### "Aprel döyüşləri"nin təkrarlanması üçün real zəmin yaranıb



Azərbaycan Silahlı Qüvvələri genişmiqyaslı hərbi təlimlərə start verdi; İrəvan danışıqlardan imtina etdi...

yazısı səh.11-də

### Müsavat deputat qrupunun taleyi-kim haradadır və nə edir?

yazısı səh.4-də

### "Şərurlu İsfəndiyar"ın yarımçıq obyektləri... sakinləri cana doydurub

yazısı səh.15-də

*Elxan Şahinoğlu:*

### "Seçkidə Tramp sürprizi ilə də qarşılaşmaq mümkündür"

yazısı səh.9-da

### Sabiq nazirdən Ermənistana xəbərdarlıq

yazısı səh.10-da

### WikiLeaksdən Klintona qarşı növbəti kompromat

yazısı səh.9-da

### Banklara "yuxarıdan" dollarla bağlı xəbərdarlıq məktubu

yazısı səh.7-də

### Mərkəzi Bank qiymətli kağız hərracına başladı

yazısı səh.13-də

### Azərbaycanda bütün məktəblilər planşetlərlə təmin ediləcək

yazısı səh.14-də

### Neftin qiyməti 25 dollara qədər düşə bilər

yazısı səh.15-də

### Dini qadağalar doğru yoldurmu...

yazısı səh.10-da

### Könüllü döyüşçülərin komandiri veteran statusu ala bilmir

yazısı səh.12-də

## Bakıdan düşmən və havadarlarına iki mesaj

# AZƏRBAYCAN MÜHARİBƏ HAZIRLIQLARINA BAŞLADI - BÖYÜK TƏLİM

Ermənistandakı "İsgəndər"lərin Pakistanın analoji raket sistemləri ilə neytrallaşdırma ehtimalı İrəvanda təlaşı artırıb; **erməni hərbi ekspert:** "Azərbaycanın ballistik raketlər əldə eləməsi Rusiyanı və İranı da narahat etməlidir..."




yazısı səh.8-də

## Fərhad Əliyev "mahmudovçuların" istintaqında - şok gəlişmə

Sabiq nazirin xaricdən Azərbaycana gəlib ifadə verəcəyi, Eldar Mahmudovla üzləşdiriləcəyi iddiaları var; 10 il öncə MTN-də işgəncə verilərək xəsarət alan, sonradan isə müəmmalı şəkildə intihar edən Əlihüseyn Şalıyevin ölüm işi yenidən gündəmdə; mərhum məmurun ölümündə həbsdəki generalların adları hallanır

yazısı səh.5-də



### Bakıda qara qəpiyə möhtac olan Ələkbərovun milyardları - Həmid Herisçi yazır

yazısı səh.3-də



*Tənzilə Rüstəmxanlı:*

### "Vahid Azərbaycan ideyası ətrafında yaranan təşkilatların çoxu bir-biri ilə mübarizə aparır"

yazısı səh.7-də



*İsgəndər Həmidov:*

### "Kəlbəcər girovlarına Milli Qəhrəman adı verilməlidir"

yazısı səh.6-da



# Şagirdlərə qarşı kobud hərəkət edən müəllimlər cəzalandırılacaq

**Bakı şəhəri üzrə Təhsil İdarəsi məktəblərdə müəllimlərin şagirdləri cəzalandırması hallarına münasibət bildirib. APA-nın xəbərinə görə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva deyib ki, məktəbdə uşağın təhsil almaq hüququ ilə yanaşı, digər hüquqları da müdafiə olunmalıdır. Onun sözlərinə görə, təhsil naziri tərəfindən 2011-ci ildə müəllimlərin etik davranış qaydaları ilə bağlı müvafiq əmr imzalanıb:**

"Həmin qaydalardakı bəndlərdən biri də müəllimlərin davranışında uşaqlara qarşı zorakılıq hərəkətlərinə yol verilməməsidir. Təbii ki, ictimaiyyətin hər bir nümayəndəsi kimi bizim də bu məsələyə münasibətimiz çox sərtdir. Nəzarət mexanizminə gəlincə, bununla bağlı məktəb direktorları və digər əməkdaşlarla qaydalara riayət edilməsi ilə bağlı mütəmadi söhbət edirik. İdarə bu kimi halları ciddi nəzarətdə saxlayır. Orta məktəblərdə şagirdlərə qarşı hansısa kobud hərəkət edən müəllimlər inzibati qaydada cəzalandırılacaq".

M.Vəliyeva məktəblərdə valideynlərdən müxtəlif adlar altında pul tələb olunmasına da aydınlıq gətirib. O vurğulayıb ki, idarənin bu məsələdə mövqeyi birmənalıdır. Şagirdlərdən pul yığılmasının yolverilməz olduğunu deyən müdir vurğulayıb ki, idarə tərəfindən direktorlara bununla bağlı tapşırıqlar verilib və bundan sonra da veriləcək:

"Bu istiqamətdə fəaliyyətin məktəb rəhbərliyi tərəfindən keçirilməsinə şübhə ilə yanaşıram, çünki onlar bu məsələnin nə qədər diqqət mərkəzində olduğunu yaxşı bilirlər. Amma bunu da qəbul edirəm ki, bəzi hallarda valideyn komitələrinin sədrləri hansısa tədbiri təşkil etmək üçün pul yığmaq təşəbbüsü göstərirlər. Bu da valideynlərdən gələn təşəbbüsdür. Lakin yenə də bu məsələyə məktəb rəhbərliyi nəzarət etməlidir. Hesab edirəm ki, narazılıqlar da bu məsələdən qaynaqlanır".

# Bu il Bakıdan ən çox İstanbula uçublar

**Bu ilin oktyabr ayında Heydər Əliyev Beynəlxalq Hava Limanı 265 min sərnişinə xidmət göstərib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 faiz çoxdur.**

Bu barədə virtualaz.org-a "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) mətbuat xidmətindən məlumat verilib.

Bildirilir ki, ümumilikdə 2016-cı ilin ötən on ayı ərzində Bakı hava limanı 2,7 milyon sərnişinə xidmət göstərib. Milli aviadaşıcıya 1,7 milyon sərnişin üstünlük verib, o cümlədən AZAL-ın Naxçıvan və Gəncəyə daxili uçuşlarında 468 min sərnişin daşınıb. Bu da ümumi sərnişin dövriyyəsinin 17 faizini və AZAL dövriyyəsinin 27 faizini təşkil edir.

Bu müddət ərzində hava limanının yük terminalları vasitəsilə 12,9 milyon ton yük daşınıb.

Beynəlxalq istiqamətlər üzrə ən çox tələbat əvvəlki kimi Bakıdan İstanbula, Moskvaya, Dubaya və Kiyevə olub. Xaricə gedən sərnişinlərin ümumi sayının 45 faizi onların payına düşür.

2016-cı ildə "Iraqi Airways", "Fly Baghdad", "ATA Airlines", "Air Cairo", "Komaviatrans" aviaşirkətləri, həmçinin "Pobeda" loukosteri Bakıya uçuşlara başlayıb.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Professor İlham Rəhimovun İtaliyada növbəti kitabı çap olundu







**Azərbaycanın əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor İlham Rəhimovun Sankt-Peterburqun "Yuridiçeskiy çentr" nəşriyyatı tərəfindən rus dilində çap olunmuş "O nravstvennosti nakazaniya" ("Cəzanın əxlaqiliyi haqqında") adlı növbəti kitabı italyan hüquqşünaslarının təşəbbüsü ilə İtaliyanın Turin şəhərində çap olunub.**

İtalyan dilinə tərcümə olunmuş monoqrafiya cəzanın fəlsəfi mahiyyəti haqqında müəllifin "Cinayət və cəza" (M., 2012), "Cinayət və cəzanın fəlsəfəsi" (SPb, 2013)kitablarında ifadə edilmiş düşüncələrinin davamıdır.

Monoqrafiyada qeyd edilir ki, hüquq elmi yalnız cəzanın formal tərifini verə bilər, bundan artığına qadir deyil. Bu fenomenin mahiyyəti haqqında mücərrəd mühakimə onun əxlaqına müdaxiləyə cəhd etmək, fəlsəfi fikrin hazırladığı kateqoriyalara daxil etmək imkanı verir. Xüsusən əgər söhbət ölüm cəzasından gedirsə, cəza əxlaqidirmi? Cəza qisas, qorxutma, psixoloji təsirdirmi? Cəzalandırma əxlaqının əsası nədir? Cəmiyyət cəza yolu ilə qarşısına qoyduğu məqsədlərə çatırmı? Müasir şəraitdə cəzadan imtina etmək mümkündürmü?

Professor İ.Rəhimovun bu maraqlı əsərində cavab verməyə çalışdığı sualların tam olmayan siyahısı belədir.

Kitab tələbələr, hüquq ali məktəblərinin aspirant və müəllimləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, cinayət hüququ sahəsində ixtisaslaşan nəzəriyyəçi və praktiklər, eləcə də filosoflar, sosioloqlar, psixoloqlar, cinayət və cəza problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Xatırladaq ki, professor İlham Rəhimovun "Cəzanın əxlaqiliyi haqqında" əsəri italyan dilinə tərcümə olunmuş sayca ikinci kitabıdır.



# Ölkədə qripə qarşı kütləvi dezinfeksiyaya başlanılıb

**Ölkədə qrip və kəskin respirator virusa qarşı kütləvi dezinfeksiya tədbirlərinə başlanılıb.**

Bu barədə APA-ya Bakı Şəhər Dezinfeksiya Stansiyasının kadrlar üzrə mütəxəssisi Kəmalə Cəfərova məlumat verib. O bildirib ki, səhiyyə naziri Oqtay Şirəliyevin qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə imzaladığı əmr əsasında Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən sərəncam verilib. Sərəncama əsasən dezinfeksiya tədbirləri ümumtəhsil və məktəbəqədər təhsil müəssisələri, qaçqın və məcburi köçkünlərin sıx məskunlaşdığı yerlər və əhalinin digər kütləvi toplaşdığı ərazilərdə aparılacaq.

Noyabrın 1-də başlayan tədbirlər ayın 12-dək davam edəcək: "Dezinfeksiya Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Masallı və Cəlilabadda aparılacaq".

# Bakıda dini ədəbiyyat satışı ilə bağlı reyd keçirilib

**Noyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları ilə birgə Bakı şəhərinin Sabunçu, Nizami, Xətai, Nəsimi və Suraxanı rayonları ərazisində yerləşən dini təyinatlı ədəbiyyatın, habelə mal və məmulatların satışı ilə məşğul olan 9 mağazada daha bir reyd keçirib.**

DQİDK-nın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsi olub.

Baxış keçirilən mağazalardan 8-nin ixtisaslaşdırılmış satış məntəqəsi olmadan dini təyinatlı ədəbiyyat, mal və məmulatların satışı ilə məşğul olduğu aşkarlanıb. Bununla yanaşı, içərisində müvafiq razılığın olmadığı, nəzarət markası ilə markalanmamış 421 dini təyinatlı ədəbiyyat, 13 ədəd DVD, 5 ədəd CD müəyyən edilərək hüquq-mühafizə orqanları tərəfindən götürülüb.

Qeydə alınmış qanun pozuntuları hüquq-mühafizə orqanları tərəfindən müvafiq qaydada sənədləşdirilib və aşkar edilmiş qanun pozuntuları ilə bağlı müvafiq araşdırmalar davam etdirilir.

# Aralıq dənizində 2 mühaciri gəmisi batıb-239 nəfər həlak olub

**Aralıq dənizində mühacirləri aparan iki gəmi batıb. "Trend"in BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına istinadən verdiyi məlumata görə, gəmilər Liviya sahillərində batıb. Hadisə nəticəsində 239 mühacirin həlak olduğu bildirilir.**

# Ermənistan əhalisi 634,7 min nəfər azalıb

**Ermənistan əhalisinin sayı açıqlanıb. Ermənistan KİV xəbər verir ki, 2016-cı il oktyabrın 1-nə olan məlumata görə, bu ölkənin 2993900 nəfər sakini var. Məlumata görə, bu ilin ilk 9 ayında Ermənistan əhalisinin sayı 4700 nəfər azalıb. 2016-cı il yanvarın 1-nə Ermənistan əhalisinin sayı isə ötən ilin eyni dövrü ilə müqayisədə 12 min nəfər az olub.**

Ümumiyyətlə, 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Ermənistan əhalisinin sayı 634,7 min nəfər azalıb.

# Qaradağda qadın özünü qazla boğmaq istəyib

**Bakıda intihara cəhd olub. Qaradağ Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə rayonun Qobustan qəsəbəsində qeydə alınıb.**

Qəsəbə sakini, 1990-cı il təvəllüdlü Samirə Əli qızı Məmmədova yaşadığı evin qapıları qıfıllayaraq təbii qaz xəttini açıb.

O, daha sonra Daxili İşlər Nazirliyinin "102" xidmətinə zəng edərək bu yolla intihara əl atdığını deyib.

Dərhal hadisə yerinə polis əməkdaşlarından ibarət əməliyyat qrupu çıxıb. Qapını sındıraraq evə daxil olan polis əməkdaşları S. Məmmədovanı huşsuz vəziyyətdə aşkar ediblər. O, dərhal xəstəxanaya yerləşdirilib, vəziyyəti normaldır.

# Ordumuz irimiqyaslı təlimlərə başlayır

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, noyabrın 12-dən 18-dək səhra şəraitində qoşunların və silahların idarəolunması sisteminin yoxlanılması məqsədilə Silahlı Qüvvələrdə irimiqyaslı təlimlər keçiriləcək.**

Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib. Təlimlərə 60 mindən artıq şəxsi heyət, 50-dən çox təyyarə və helikopter, 150-dən artıq tank və zirehli texnika, eləcə də raket və artilleriya qoşunlarının 700-dək sistemi cəlb ediləcək.

# 20 yaşlı neftçalalı gənc Bakıda dəm qazından həyatını itirdi

**Qaradağ rayonunun Lökbatan qəsəbəsi ərazisindəki evlərdən birində 1996-cı ildə anadan olmuş Neftçala rayonu Aşağı Surra kənd sakini Rəsulov Elvin Rövşən oğlu dəm qazından zəhərlənərək ölüb.**

Virtualaz.org saytının Şirvan bürosuna kənd sakinlərinin bildirdiyinə görə, 20 yaşlı Elvin Rəsulov Bakı şəhərindəki tikintilərdə fəhləlik etdiyindən kirayə ev tutubmuş.

Bu gün səhər onun işə gəlmədiyini və telefona cavab vermədiyini görən iş yoldaşları yaşadığı evə baş çəkərkən hamamda dəm qazından boğulmuş cəsədini aşkar ediblər.

Elvin Rəsulov hərbi xidmətdən yenicə gəlmişdi və ailənin yeganə oğlu idi.

Faktla bağlı Qaradağ Rayon Prokurorluğunda araşdırmalara başlanılıb.

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

**Milli Məclisin Aqrar siyasət komitəsinin noyabrın 3-də keçirilən iclasında "Tütün və tütün məmulatı haqqında" Qanuna dəyişiklik edilməsi haqqında layihə müzakirə olunub.**

# Deputatdan şok açıqlama: "Orta məktəblərdə qızlar da siqaret çəkir"

## Milli Məclis "Tütün və tütün məmulatı haqqında" Qanunu sərtləşdirir

Dəyişikliyə əsasən, tütün məmulatlarının satışında həvəsləndirmə üsulları məhdudlaşdırılır. Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, layihə Milli Məclisə prezident İlham Əliyev tərəfindən göndərilib. Onun sözlərinə görə, təklif edilən düzəlişlər tütün məmulatlarının insanların sağlamlığına zərərli təsirinin qarşısının alınmasına və sağlam həyat tərzinin təminatına yönəldilib. Həmçinin tütün və tütün məmulatının və onun ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanların reklamı qadağan edilir.

Digər dəyişikliyə əsasən isə tütün və tütün məmulatı istehsalı və ya satışı ilə məşğul olan şəxslər "Reklam haqqında" Qanunun 13.4 və 28-ci maddələrinə uyğun olaraq sponsor ola bilməzlər.

"Siqaretin reklamı qəti qadağan olmalıdır. Xarici ölkələrdə siqaret çəkən və çəkməyən insanların ağciyərlərinin şəklini də qutunun üstünə vururlar. Adam o şəklə, ciyərə baxanda siqaretin qutusunu belə açmaq istəmir". Modern.az-ın məlumatına görə, bu sözləri deputat Mahir Aslanov deyib. Deputat "Tütün və tütün məmulatı haqqında" Qanuna edilən dəyişikliyə münasibət bildirərək deyib ki, o, 53 il siqaret çəkib. "Mən özüm 53 il siqaret çəkmişəm. Siqaret məni o dərəcədə cana yığdı ki, o vərdişdən uzaqlaşdım. Hətta tütün məhsullarının yığımı da zəhərlidir. Ona görə də siqaretin reklam olunmasının qarşısı birmənalı şəkildə alınmalıdır".


Eldar Quliyev

"Bəzi tələbələr dövlət və özəl ali məktəblərdə siqareti universitetlərin dəhlizlərində çəkirlər. İnanın ki, adamın ürəyi bulanır". Azvision.az xəbər verir ki, bunu deputat Hüseynbala Mirələmov deyib.

**Deputat bildirib ki, televiziyalarda siqaretin reklamının qarşısı alınmalıdır:** "Siqaret 2-ci və 3-cü sinifdə oxuyan uşaqlardan başlayaraq qızlarımızın, uşaqlarımızın səhhətini korlayır. Bu gün televiziyalarda siqaretin reklamını elə göstərirlər ki, istər-istəməz çəkməyən adamda da siqaretə maraq yaranır. Televiziyalarda siqaretin reklamının qarşısı alınmalıdır".

**O, universitetlərin daxilində siqaret çəkən tələbələrin cərimələnməsinin vacibliyini vurğulayıb:** "Əgər biz təqaüdlə dolanan tələbəni ictimai yerlərdə siqaret çəkdiyinə görə cərimə etsək, inanın ki, o, ümumiyyətlə, siqareti də tərgidər".

**"Təəssüf ki, son zamanlar orta məktəblərdə qızlar arasında siqaret çəkənlərin sayı çoxalıb". Bunu isə komitə sədrinin müavini Eldar Quliyev deyib. Deputat bildirib ki, Azərbaycanda siqaret çəkən qadınların sayı artmaqdadır:** "Orta məktəblərdə siqaret çəkən qızlar da var. Bu baxımdan, orta məktəblərdə buna qarşı kəskin mübarizə aparılmalıdır. Əvvəllər biz buna Rusiya, MDB, Avropa ölkələrində daha çox rast gəlirdik. İndi Azərbaycanda da qadınların siqaretə meylliliyi artıb. Bunun qarşısını almaq üçün təkcə biz valideynlər yox, həmçinin orta məktəblərdə də ciddi nəzarət artırılmalıdır".

**Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.**

**❑ Hazırladı:E.PAŞASOY**


Əbubəkr Əl Bağdadi

# Suriyada döyüşən azərbaycanlı İŞİD-çilər həbs olundu

**Türkiyənin Kocaeli vilayətində antiterror polisi İŞİD-ə üzv olan 9 xarici ölkə vətəndaşını yaxalayıb. Virtualaz.org xəbər verir ki, onlardan 2-nin canlı bomba kimi hazırlandığı məlum olub. Həbs olunanlar arasında Azərbaycan və Suriya vətəndaşları da var. Hazırda onların dindirilməsi davam edir.**

Bu arada isə İŞİD-in nəşr orqanlarında təşkilatın lideri Əbubəkr əl Bağdadiyə məxsus olduğu deyilən səsyazma yayımlanıb.

Lent.az-ın xarici KİV-ə istinadən məlumatına görə, 31 dəqiqəlik səsyazmada İŞİD lideri Ə.Bağdadi Mosul əməliyyatının uğursuz alınacağını deyir: "İslam dövlətinin bu gün apardığı böyük cihada qarşı mübarizələr şiddətlənir. Bu isə bizim inamımızı artırır. Deməli, zəfərdən bir addım da irəlidəyik. Xalqımız "Allah düşmənlərinə" qarşı apardığımız bu cihadın zəifləməsinə icazə verməməlidir".

Səsyazmada Türkiyənin də adı anılır. İŞİD lideri təşkilat üzvlərinə çağırış edərək "artıq nifrətinizin alovunu Türkiyə əsgərlərinə boşalda bilərsiniz" deyib.

Səsyazmadakı Türkiyə ilə bağlı digər bölümdə isə "Türkiyə bu gün artıq mənzilinizə girdi, cihadınızın hədəflərindən biri halına gəldi. Oranı işğal edin və güvəndə hiss etdiyi yerlərə qorxu salın" ifadəsi yer alır.

Ə.Bağdadi "İnanmayanların gündüzünü gecəyə çevirin, torpaqlarını dağıdın, qanlarını çay kimi axıdın", - deyə çağırış edib.

Səsyazmada "kafir" ifadəsi işlədilən Səudiyyə Ərəbistanına da hücum çağırışı edilir.

Bildirək ki, Bağdadinin sonuncu səsyazması ötən ilin dekabr ayında yayılmışdı. Həmin səsyazmada isə Rusiya hərbi hava hücumlarının və Amerika liderliyindəki koalisiyasının İŞİD-i zəiflətmədiyi ifadələri yer alırdı.

Qeyd edək ki, İŞİD-in xəlifəliyini elan etdiyi Mosul 2014-cü ilin iyun ayından bu günə kimi təşkilatın qalası sayılır.

# Əvəz Zeynallının "hökumətə işləyirlər" açıqlaması aranı qatdı

## Siyasi məhbus siyahısı qalmaqalı böyüyür-94 nəfərlik siyahı müəlliflərindən əks düşərgəyə sərt cavab

**Siyasi məhbuslarla bağlı hazırlanan 94 və 166 nəfərlik siyahılar ətrafında gedən müzakirələr səngimir. Hər iki siyahını hazırlayanların və bu siyahıların tərəfdarlarının bir-birilərinə qarşı olan ittihamları getdikcə artmaqdadır.**

Xüsusilə AXCP və Milli Şuranın açıq dəstək verdiyi, Hollandiyada mühacir həyatı yaşayan hüquq müdafiəçisi Leyla Yunusun rəhbərliyi ilə hazırlanmış 166 nəfərlik məhbus siyahısını müdafiə edənlərin qarşı tərəfə ittihamları daha sərtdir. Onlar iddia edirlər ki, 94 nəfərlik siyahı hakimiyyətin maraqlarına xidmət edir və hökumət tərəfindən sifariş əsasında hazırlanıb. Arqument kimi də hakimiyyətin ölkə daxilində siyasi məhbusların artmaması ilə bağlı bu həcmdə məhbusun olması kimi görüntü yaratmaq istəyi göstərilir. Bu ittihamlar L.Yunusun siyahısının tərəfdarlarından olan "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının "Yeni Müsavat"a verdiyi son müsahibədə açıq şəkildə səsləndirilmişdi. Baş redaktorun müsahibədə dedikləri günlərlə davam edən gərginliyi daha da artırıb.


Əvəz Zeynallı


Əsabəli Mustafayev

**94 nəfərlik siyahı müəlliflərindən bəziləri onu sərt şəkildə tənqid edirlər. Ə.Zeynalının öz feysbuq səhifəsində paylaşdığı müsahibəsinin altında 94 nəfərlik siyahının müəlliflərindən olan tanınmış vəkil Əsabəli Mustafayev ona sərt rəy yazıb. Vəkilin fikirləri bunlardır:** "Məni çox təəccübləndirir ki, peşəkar jurnalist Əvəz bəy verəcəyi müsahibə barədə faktları əvvəlcədən dəqiqləşdirmir və nəticədə ölkədə insan hüquqlarının müdafiəsinin avanqardı olan şəxsləri təhqir edən fikirlər yazır. İlk növbədə 94 nəfərlik siyahını hazırlayan qrupun tərkibinə baxın: İntiqam Əliyev, Rəsul Cəfərov, Anar Məmmədli, Bəşir Süleymanov, Xədicə İsmayıl, Samir Kazımlı, vəkillərdən Fariz Namazlı, Xalid Bağırov, Fəxrəddin Mehdiyev, Yalçın İmanov, mən. Bir neçə vəkil də sənədlərin toplanması və qrupa təqdim olunması şəklində iştirak edib. Siyahının qaralama variantı hələ 2 ay qabaq hazırlanmışdır. Lakin həbslərlə bağlı situasiya hər gün dəyişdiyi üçün siyahını elan etmək mümkün olmurdu. Yekun siyahının hazırlanmasında Oqtay Gülalıyev də son günlərə qədər iştirak edirdi. Bizim heç xəbərimiz yox idi ki, o bizim qrupda iştirak etməklə yanaşı, ayrıca siyahının üzərində işləyir. Mən bunu ona görə yazıram ki, Əvəz bəy, guya 166 nəfərlik siyahıdan sonra biz siyahı tutmuşuq məlumatı yalandır. Bizim siyahı çoxdan hazır idi, lakin bəzi mübahisəli məqamlar olduğu üçün yekunlaşdırmaq olmurdu. İndi say barədə. Oqtay bəyin və bəzi şəxslərin rəyi bu idi ki, Nardaran işi üzrə tutulanların hamısı dərhal siyasi məhbus elan olunmalıdır. Əsasən də vəkillər bunun qəti əleyhinə idi. Çünki bu şəxslər barədə bizdə heç bir məlumat, sənəd yox idi. Siyahı isə hüquqi sənəddir və onun hazırlanmasında sənədlərə istinad olunmalıdır. Bu şəxslərin çoxunun vəkilləri yox idi, hökmdən apelyasiya şikayəti verilməmişdir. Hələ yazmadığım digər məlumatlar da var idi və bütün bunlar haqqında Oqtay bəy məlumatlı idi. Ona görə bu şəxslər monitorinq altında saxlandılar və nəzərdə tutulmuşdur ki, sənədlər toplandıqca onlar əsas siyahıya salınsın. Əvəz bəy, Siz Oqtay bəydən soruşun ki, neçə nəfərin sənədlərini toplamağı və qrupa təqdim etməyi söz vermişdi və neçəsini təqdim etmişdi. Sabunçudakı hadisələrlə bağlı həbs olunanların 7-nin də apelyasiya instansiyasında müdafiəsini təmənnasız olaraq öz üzərimə götürməyi razılaşdım və Oqtay bəy həmin şəxslərin yaxınları ilə məni calaşdırmağa söz verdi. Sonrası nə oldu, ondan maraqlanın. Hər kəsin öz siyahısını tərtib etmək hüququ var. Birincisi, digər siyahı müəlliflərinə qarşı kompaniya aparmaq lazım deyil. İkincisi, dəfələrlə deyilib k, siyahının çoxluğu çox ziyanlıdır. İndi Əvəz bəy, sizin müsahibənizə görə işçi qrupunda olan və sizin yaxşı tanıdığınız bizlər hökumətə işləyirik?"

**94 nəfərlik siyahının müəlliflərindən olan REAL hərəkatının idarə heyətinin üzvü Rəsul Cəfərov barələrində olan ittihamlarla bağlı xüsusi bir fikir bildirmək istəmədiyini qeyd etdi:** "Əvəz bəyin müsahibəsini oxudum, kifayət qədər ümumi ifadələrə yer verilmişdi. Düşünmürəm ki, bu iddialara mən cavab verməliyəm. Siyasi məhbuslarla bağlı sənəd bir və ya bir ayın içərisində hazırlanmış sənəd deyildi. Sənəd oktyabrın 17-də elan olundu. Bu sənədin hazırlanmasına faktiki bir neçə ay əvvəldən başlanılmışdı. Bununla bağlı konkret işçi qrupu olub. Bu qrup görüşlər keçirib, araşdırma aparılıb və yekunda bu siyahı ortaya çıxıb. Bizim sənəd ancaq siyahıdan ibarət deyil. Həm də 105 səhifəlik bir hesabatdır. Həmin hesabatda bu şəxslərin işlərini vermişik. Orada biz həmin şəxsləri nəyə görə siyasi məhbus kimi qələmə verdiyimizi göstərmişik. Açığı, bizim üçün siyasi məhbusların sayının nə qədər olması o qədər də önəmli deyil. Bizim üçün əsas olan həmin siyasi məhbusların azadlığa çıxmalarına yardımçı olmaqdır. Hazırda bu istiqamətdə müzakirələr daha çox məhbusların sayı, siyahılar arasında yaranan fərqlər üzərində qurulur. Düşünürəm ki, müzakirələri hər kəs həmin məhbusların azadlığa çıxmaları üzərində qurmalıdır. Hər kəsi bu işlə məşğul olmağa dəvət edirəm".

**❑ Cavanşir ABBASLI**

**Gürcüstanda daha çox azərbaycanlıların yaşadığı Marneuli rayonunda gürcülərlə azərbaycanlılar arasında kütləvi dava düşüb. Baki-post.az xəbər verir ki, hadisə noyabrın 2-də baş verib. Məlumata görə, svan mənşəli gürcülərlə düşən davada 1 nəfər gürcü oğlan öldürülüb. Dava ətrafdakıların müdaxiləsi ilə dayandırılıb.**

# Borçalıdan həyəcanlı xəbərlər - azərbaycanlı qadın niyə ölüb?

## Əlibala Əsgərov: "Hadisə milli qarşıdurma zəminində baş verməyib"



Sayt daha sonra yazıb ki, svan mənşəli şəxslər azərbaycanlılara cavab olaraq növbəti gün hücuma keçiblər. Nəticədə Marneuli bazarında bir qadın soydaşımız vəhşicəsinə döyülərək öldürülüb.

Baş verənlərin seçkisonrası gərginliklə əlaqədar olduğu da güman edilir. Qeyd edək ki, Gürcüstanda keçirilən son parlament seçkilərindən sonra hakim Gürcü Arzusu Partiyasının namizədlərinin az səs toplaması həmyerlilərimiz üçün problemlər yaradıb. Bir neçə gün əvvəl yayılan məlumatlarda müxalif Vahid Milli Hərəkat Partiyasının 36-cı seçki dairəsindən namizədi olmuş Əhməd İmanquliyevin də həyatının təhlükədə olduğu bildirilirdi.

Baş verən hadisədə svanların da adının çəkilməsi narahatlıq doğurur. Çünki Marneulidən azərbaycanlı namizədin şansı böyük olduğu halda, svan iddiaçının deputat seçilməsi birmənalı qarşılanmayıb.

Məsələ ilə əlaqədar Gürcüstandakı mənbələrimizlə əlaqə yaratdıq. **Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Əli Babayev** "Yeni Müsavat"a bildirdi ki, yayılan xəbərdə müəyyən qeyri-dəqiqliklər var. Onun sözlərinə görə, hadisə Marneuli bazarında olub. Ancaq qadın bazardakı başqa bir şəxslə dalaşıb və yıxılaraq ağır xəsarət alıb. "Ancaq belə iddia var ki, o, infarktdan dünyasını dəyişib" deyə, Ə.Babayev əlavə etdi. Ə.Babayev rəsmi qurumların məsələyə ehtiyatlı yanaşmasını da məntiqli saydı: "Qorxu var ki, bu qalmaqallı seçkilərdən sonra millət ayağa qalxar".

Digər adının çəkilməsini istəməyən mənbəmiz isə bildirdi ki, Marneulidə iki hadisə baş verib. Birinci hadisə qadının ölməsi ilə nəticələnib. Digər hadisə zamanı isə svan və gürcülər arasında toqquşma olub, ancaq ölən olmayıb.

**"Qeyrət" Xalq Hərəkatının sədri Əlibala Əsgərov "Yeni Müsavat"a dedi ki, əslində milli zəmində hər hansı qarşıdurma baş verməyib, həmçinin baş verənlərin seçkilərə aidiyyəti yoxdur:** "Marneuli bazarında bir azərbaycanlı qadın alverçi yola yaxın yerdə satdığı malları düzübmüş. Bu zaman bazarın işçisi olan bir nəfər maşınla keçmək istəyəndə həmin mallara toxunub və mallar aşıb. Bundan sonra qarşıdurma yaranıb. Avtomobil sahibi qadını itələyib və yerə yıxılan azərbaycanlı qadın keçinib. Hadisə bazardakı camaatın gözü qarşısında baş verib". **Ə.Əsgərov hadisəni törədən şəxsin saxlanıldığını da bildirdi:** "Onun gürcü olduğu deyilir. Amma başqa bir məlumata görə, svandır".

**"Qeyrət" sədri bildirdi ki, hadisə barədə özü də telefonla məlumat ala bilib. Amma soydaşlarımızla görüşüb təxribata uymamaları üçün söhbətləşməyi düşünür:** "Hadisə milli qarşıdurma zəminində baş verməyib, kriminal hadisədir. Əminəm ki, bizim xalq milli qarşıdurmaya getməyəcək. Gürcü tərəfin də gərginlik yaratmaqda marağı yoxdur. Amma bəzi kriminal qüvvələr gərginliyin artmasında maraqlıdır. Mən sabah *(4 noyabrda-C.T.)* hadisə yerinə gedib bu məsələ ilə dəqiq məşğul olacağam".

APA-nın Gürcüstan bürosunun məlumatına görə, hadisə Marneulinin mərkəzi bazarında qeydə alınıb. Şahidlər bildirir ki, səhər saatlarında svan (gürcüdilli millət) olduğu güman edilən gənclə bazarda çalışan 50 yaşlı azərbaycanlı, Marneuli şəhər sakini Məlahət Məmmədova arasında mübahisə baş verib. Mübahisə zamanı həmin gəncin M. Məmmədovaya qarşı güc tətbiq etdiyi, nəticədə yerə yıxılan qadının başından zərbə alaraq öldüyü deyilir.

Lakin Gürcüstan Daxili İşlər Nazirliyi hadisəni qətl kimi xarakterizə etməyib. Nazirlik M. Məmmədovanın halının qəflətən pisləşdiyini və onun dünyasını dəyişdiyini açıqlayıb. Faktla bağlı Gürcüstan CM-in 116-cı maddəsi ilə (ehtiyatsızlıqdan adam öldürmə) cinayət işi qaldırılıb.

Gürcüstandakı bəzi mənbələr isə əməkdaşımıza bildirdilər ki, rəsmi qurumlar hadisəni ört-basdır etməyə çalışır. Lakin soydaşlarımız israrla günahkarın cəzalandırılmasını istəyir.

**Gürcüstan parlamentinin azərbaycanlı deputatı Azər Süleymanov azvision.az-a açıqlamasında bildirib ki, dünyasını dəyişən qadın bazarda satıcı işləyirmiş. Deputatın sözlərinə görə, azərbaycanlı xanım mübahisə zamanı dünyasını dəyişib:** "Bazarda alıcı ilə satıcı arasında mübahisə olub. Mübahisəyə görə səhhətində problem olan xanım dünyasını dəyişib. Xanımın bədənində heç bir xəsarət izi aşkarlanmayıb. Ehtimal edilir ki, o, ürək tutmasından dünyasını dəyişib".

**Azər Süleymanov hadisənin mətbuat tərəfindən şişirdildiyini vurğulayıb:** "Gürcüstan və azərbaycanlılar arasında heç bir problem yoxdur. Kiçik bir insident zamanı xanımın ürəyi tutub. Xahiş edərdim ki, hər kəs milli məsələlərdə diqqətli olsun. Biz istəmirik iki xalqlar arasında milli zəmində problem yaşansın".

**Deputat məlum olayla bağlı cinayət işinin açıldığını, faktın araşdırıldığını qeyd edib.**

❑ **Cavid TURAN**




## Milli Dirçəliş Günü münasibətilə Təşkilat Komitəsi yaradılıb

**17 noyabr Milli Dirçəliş Günü münasibətilə bayram tədbiri keçiriləcək. Bu barədə AĞ Partiyanın sədri Tural Abbaslının verdiyi xəbərə görə, Milli Dirçəliş Gününü adına layiq tədbirlə qeyd etmək üçün Təşkilat Komitəsi yaradılıb. Təşkilat Komitəsinə Tural Abbaslı, vəkil Qurban Məmmədov, meydan hərəkatının liderlərindən olmuş Nemət Pənahlı, VİP sədri Əli Əliyev, "Xural"ın baş redaktoru Əvəz Zeynallı, tanınmış hərəkatçı, "Çənlibel" təşkilatının yaradıcılarından biri olan Bəxtiyar Tuncay, Bünyamin Qəmbərli, Ənvər Börüsoy daxildir. Təşkilat Komitəsi noyabrın 17-də möhtəşəm bir tədbir keçirmək üçün işə başlayıb.**

Təşkilat Komitəsi bəyan edib ki, bura ölkənin ali rəhbərliyindən müxalifət partiyalarına, gənclərdən QHT-lərə, media işçilərindən sıravi vətəndaşlara qədər hamı daxildir. Tədbir millətindir və millətin adına layiq olmalıdır.

Qeyd edək ki, 1988-ci il noyabrın 17-də Azərbaycanda meydan hərəkatı başlayıb. Azərbaycan üçün həmin gün xalq hərəkatının başlanğıcının qoyulduğu tarix olaraq mühüm əhəmiyyət kəsb edir. Məhz həmin gün o dövrkü Lenin meydanı-indiki Azadlıq meydanında ilk dəfə Azərbaycanın milli bayrağı qaldırılıb. Bakının baş meydanında ilk mitinq noyabrın 17-də keçirilib və 18 gün fasiləsiz davam edib. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra prezident Əbülfəz Elçibəy 17 noyabrın Milli Dirçəliş Günü adlandırılması və rəsmi dövlət bayramları sırasına daxil edilməsi haqda fərman verib. 2006-cı ilə qədər 17 noyabr qeyri-iş günü olaraq dövlət səviyyəsində bayram edilirdi. 2006-cı ildən isə iş günü olan bayramlar sırasına daxil edilib.

❑ **E.SEYİDAĞA**

# Bu gün Nardaran pirinə təbii qaz veriləcək - biz yazandan sonra...

## ""Azəriqaz" insanların dini inanclarından asılı olmayaraq hər bir məbədə hörmətlə yanaşır"

**Bakının Nardaran qəsəbəsində yerləşən 7-ci imam Museyi Kazımın qızı Rəhimə xanım ziyarətgahında kommunal problemlərin yaranması haqda xəbər vermişdik.**



Əməkdaşlarımız Nardaran qəsəbəsində sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun bağ evini (http://musavat.com/news/reportaj/emekdashlarimiz-eldar-mahmudovun-bag-evinde-oldular-reportaj_388970.html) axtararkən təsadüfən öyrəniblər ki, pirə verilən qaz ötən il kəsilib. "Azəriqaz" əməkdaşları müqəddəs ziyarətgahı təbii qazla təmin edən xətti kəsərkən 46 min manat borc yarandığını söyləyiblər.

Bildiriblər ki, həmin borc ödənilməsə, qaz olmayacaq. Maraqlıdır ki, ARDNŞ-in mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən müqəddəs ziyarətgaha qaz verilişinin dayandırılmadığı haqda açıqlama verməmişdilər. Bu haqda "Yeni Müsavat"ın http://musavat.com/news/olke/nardaran-pirinin-qazi-kesilib-korrupsiya-iyinden-bash-chatlayir_389827.html son 2 sayında xəbər vermişdik.

Noyabrın 3-də "report"saytına açıqlama verən məscidin axundu Musa Rza deyib ki, məscidə təbii qaz noyabrın 4-dən veriləcək. O qeyd edib ki, məscidin qazı 2015-ci ilin dekabrından kəsilib. M.Rza deyib ki, yeni qaydalara görə, məscid Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyata alınmalı idi: "Biz də qeydiyyatla bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə müraciət etdik. Müraciətimiz müsbət cavablandırıldı və bu ilin sentyabr ayında məscid qeydiyyata alındı. Sonra texniki şərtlərin alınması üçün "ASAN xidmət"ə müraciət etdik". Onun sözlərinə görə, "ASAN xidmət" bu gün texniki şərtləri təqdim edib və həmin texniki şərtlərin alınması ilə bağlı arayış "Azəriqaz"a göndərilib: "İstehsalat Birliyindən bizə bildirdilər ki, sabah(bu gün-red.) qazın verilişi təmin olunacaq".

"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətindən bildirilib ki, abonent uçotu sistemində qeydiyyatda olan və təbii qazla təmin olunan İslam dini təyinatlı ibadət, digər konfessiyalara məxsus məbəd və ziyarət yerlərinin orta illik qaz sərfiyyatı 1 953 kubmetr olduğu halda İstehsalat Birliyi tərəfindən hər bir məbədə illik 5 min kubmetr limitin əvəzsiz verilməsi həyata keçirilir: "2016-cı il noyabrın 1-ə olan məlumata əsasən, bu çərçivədə 378 məscid və dini məbədin təbii qazdan əvəzsiz istifadəsi üçün 1 890 000 kub metr limit ayrılıb. SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi insanların dini inanclarından asılı olmayaraq hər bir məbədə hörmətlə yanaşır".

Qurumun mətbuat xidmətindən bildirilib ki, "Rəhimə xanım ziyarətgahı" məscidinin qazla təmin edilməsi ilə bağlı müraciət təqdim olunandan sonra "Azəriqaz" məscidin tez bir zamanda təbii qazla təmin olunması üçün bütün köməkliyi göstərəcək.

Yada salaq ki, bu ilin iyun ayında prezident İlham Əliyev Bakının Nardaran qəsəbəsində, qəsəbədəki 7-ci imam Museyi Kazımın qızı Rəhimə xanım ziyarətgahında olarkən yerli sakinlərə bildirib ki, işığa görə yaranan 42 milyon 267 min manat elektrik enerjisi borcu silinib. Bu xəbər Azərbaycanda fəaliyyət göstərən əksər KİV-də "Nardaranlıların 42 milyon manatlıq işıq pulu borcu silindi" sərlövhəsi ilə yayılıb. Həmin görüşdən ötən 4 ay ərzində nardaranlıların işıq borcu müvafiq qurumlar tərəfindən silinməyib. Silinmiş işıq borcunun hansı əsasla əhalidən alınması məsələsinə aydınlıq gətirmək üçün "Azərişıq"ın mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevə sorğu ilə müraciət etmişik. Veriləcək cavabı da təqdim edəcəyik.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Sabiq naziri ən yaxın adamı satdı

**"MTN işi" üzrə ilk günlərdən adı Akif Çovdarovla (ləğv edilmiş Milli Təhlükəsizlik nazirliyinin idarə rəisi olub, hazırda həbsdədir) qoşa çəkilən, lakin bugünədək azadlıqda qalmağı bacaran Hilal Əsədovun (sabiq nazir Eldar Mahmudovun müavini olub) istintaqa verdiyi sensasion ifadəsi üzə çıxıb.**


Hilal Əsədov


Eldar Mahmudov

Yayılmış ifadədən belə aydın olur ki, general Hilal Əsədov keçmiş şefi Eldar Mahmudovun cinayətləri haqda istintaqçıların dili ilə desək, "səmimi ifadə" verib. Elə onun azadlıqda qalmasının sirrinin də bu olduğu şübhəsizdir. Lent.az generalın istintaqa verdiyi ifadənin tam mətnini əldə edib.

**H.Əsədov ifadəsində "sandığı açıb, pambığı töküb"**

General istintaqçıların qarşısına qoyduqları kağızlara yazıb ki, 2004-cü ildə MTN-də işə başlayıb. Nazirlikdə ilk vəzifəsi mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsində müşavir olub. 3 ay sonra nazirliyin Antiterror Mərkəzinə rəis təyin edilib. 2005-ci ildən sonra Eldar Mahmudov Hilal Əsədovu özünə müavin təyin edib. Hilal Əsədov ifadəsində bildirir ki, birbaşa nazir Eldar Mahmudovun şifahi tapşırığı ilə 2005-2009-cu illərdə nazirliyin Antiterror Mərkəzinə, 2011-ci ildən sonra həm də Əks-kəşfiyyat Baş İdarəsinin işlərinə nəzarət edib. O, nəzarətində olan idarə və mərkəzin fəaliyyəti çərçivəsində tədbirləri, məlumatları Eldar Mahmudova məruzə edib.

**"Eldar Mahmudov dedi ki, halallıqla bazarı alın"**

Sabiq nazir müavininin əhali arasında "Vosmoy bazarı" kimi tanınan meyvə-tərəvəz bazarının MTN əməkdaşları tərəfindən ələ keçirilməsi epizodu üzrə çox ilginc detalları ortaya qoyub. Onun ifadəsini ittiham aktına köçürüb, Eldar Mahmudovu özgəsinin əmlakını zorla ələ keçirilməsinə tapşırıq verdiyinə görə həbs etmək olar.

**H.Əsədov ifadəsində cinayət işində bu iş üzrə zərərçəkmiş kimi tanınan əslən Cəlilabad rayonundan olan Salman, Cəfər, Səfər və Qəhrəman Səfərov qardaşlarının heç birini tanımadığını, onları görmədiyini deyib:** "Onların sabiq iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyevin yaxın adamları olduğunu bilirdim. 2005-ci il idi. Akif Çovdarov yanıma gəldi. Dedi, Çingiz Əsədov adlı şəxs Səfərov qardaşlarından şikayət edir. Ç.Əsədov bildirmişdi ki, Səfərov qardaşları 2002-ci ildə zorla Naxçıvanski küçəsi 50-də yerləşən meyvə-tərəvəz bazarını onun əlindən alıblar. Ona hədə-qorxu gəliblər, qardaşını oğurlayıblar. Həmin zaman Səfərov qardaşlarının sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin yaxın adamları və kəndçiləri olduğunu öyrəndim. Fərhad Əliyev onda yenicə həbs edilmişdi, barəsində cinayət işi istintaq olunurdu".

**Hilal Əsədov ifadəsində bildirib ki, Səfərov qardaşları əməllərini səmimi şəkildə Akif Çovdarova etiraf ediblər:**

# Eldar Mahmudov ya özünü vurmalı, ya da qandallanmalıdır

"MTN şefi"nin müavininin şok ifadəsi yayıldı; Hilal Əsədovun dediklərindən aydın olur ki, Akif Çovdarovun dəstəsini birbaşa nazir himayə edib; "Eldar Mahmudov şifahi tapşırıq verirdi"...

**"Çovdarov o zaman Antiterror Mərkəzinin 1-ci idarəsinin 1-ci şöbəsinin rəisi idi. O, gördüyü işlərlə bağlı mənə məruzə edirdi. Çovdarov Səfərov qardaşlarını dindirmişdi, onlar elədikləri əməlləri səmimi şəkildə etiraf etmişdilər. Çingiz Əsədovun isə Səfərov qardaşları barəsində rəsmi şikayət edib, onları həbs etdirmək niyyəti yox idi. O, yalnız bazarın geri qaytarılmasını istəyirdi. Mən bunların hamısını Eldar Mahmudova məruzə elədim. Nazir məsələnin ciddi araşdırılmasını istəmişdi".**

**Sabiq nazir müavini bir müddət sonra Səfərov qardaşları ilə Çingiz Əsədov arasında razılıq yarandığını deyib:** "Akif Çovdarovun otağında Səfərov qardaşlarından biri Çingiz Əsədovla bazarın geri qaytarılması barədə razılaşıb. Mən nə Çingizi, nə də Səfərov qardaşlarını tanıyırdım. Bu məsələ ilə bağlı Çovdarov mənə gündəlik məruzə edirdi. Məruzələrdən sonra mənə məlum oldu ki, müəyyən məbləğ ödənildikdən sonra Səfərov qardaşları bazarı yenidən Çingiz Əsədova satıblar. Bu məsələlərdən sonra bazar Çingizə qaytarılıb".

**H.Əsədov qeyd edib ki, bu söhbətlərdən iki-üç həftə sonra Çingiz Əsədov bazarı satmaq istəyib:** "Akif zəng edib bu barədə mənə məlumat verdi. Çovdarova dedim ki, bu məsələni mütləq Eldar Mahmudova məruzə edəcəyəm. Nazirin yanına getdim, bu barədə məlumat verdim. Eldar Mahmudov bir neçə günə cavab verəcəyini dedi. İki gün sonra nazir razılıq verdi. Eldar Mahmudov dedi ki, halallıqla bazarı alın. Bütün işlər Çovdarova tapşırıldı".

**Hilal Əsədovun yoldaşına yağmalanan bazardan hər ay 15-20 min dollar verilib!**

**Müavininin təkcə Eldar Mahmudovun deyil, özünün qayınatasının da həbsinə yol açmaq gücündə olan ifadəsi var. H.Əsədov istintaqçılara deyib ki, Səfərovlardan alınan bazarın yarısı qayınatasına çatıb:** "Payım olsun deyə qayınatam Ənvər Məmmədova bazarın yarısını almağı təklif etdim. Digər yarısını isə Çovdarovun özü həll edəcəkdi. 70 min dollar qayınatama verdim, qalan pulu özü düzəltdi. Bazarın alınmasında rolum ancaq Ənvər Məmmədova pul verməyim olub. Bütün sənədləşdirmə işləri Akif Çovdarov və qayınatam tərəfindən aparılıb. Bazar qayınatam və Akif Çovdarovun yaxın adamı Elşən Hüseynova satıldı. Onların hər biri bazarda 50 faiz paya sahib oldular. Bazarı hazırda elə Elşən Hüseynov işlədir. 2012-ci ildə qayınatam özünə düşən payı yoldaşım Nüşabəyə verib. Bazarın alqı-satqısı, ada keçirilməsi 2005-ci ilin sonu, 2006-cı ilin əvvəllərində oldu. Bunların heç birində mən iştirak etməmişəm. Hər ay Ənvər Məmmədov Nüşabəyə 15-20 min dollar pul verirdi".

Müstəntiqlərin suallarını cavablandıran Hilal Əsədov bazarın Akif Çovdarov tərəfindən zorla alınmasından xəbərsiz olduğunu deyib. H.Əsədov əlavə edib ki, hazırda bazarın 50 faizi arvadı Nüşabə Əsədovaya məxsusdur, qalan 50 faizi isə Akif Çovdarovun qızı Aida Qasımovanın adınadır.

Qeyd edək ki, vaxtilə bazarın sahibi olmuş sahibkar Salman Qürbət oğlu Səfərov əmlakının əlindən necə qəsb edilməsi haqda bir müddət əvvəl "Yeni Müsavat" qəzetinə danışıb. (http://musavat.com/mobile/olke/mtn-generallarinin-vosmoy-bazari-emeliyyatinin-yeni-shok-detallari-qarshi-terefden-ilginc-achiqlamalar_384679.html)

S.Səfərovun söylədikləri general Hilal Əsədovun bazarın guya halallıqla alınması haqda ifadələrini təkzib edir. Qeyd etdiyimiz kimi, Hilal Əsədovun adı həmişə Akif Çovdarovla qoşa çəkilib. Təkcə "8-ci kilometr" bazarının bir hissəsinin deyil, "Karvansaray" ticarət mərkəzinin bütövlükdə sahiblərinin əlindən alınması əməliyyatı da bu cütlüyün birbaşa iştirakı ilə həyata keçirilib. Zərərçəkən tərəflərin danışdıqları hekayələrdə Hilal Əsədovun adı qırmızı xətlə keçir. Məsələn, "Yeni Müsavat"ın 11 noyabr 2015-ci il tarixli sayında "MTN generalları 20 milyonluq "Karvansaray"ı necə ələ keçiriblər..." sərlövhəli yazı dərc olunub. (http://musavat.com/news/gundem/mtn-generallari-20-milyonluq-karvansarayi-nece-ele-kechiribler_304414.html)

**Həmin yazıda 2012-ci ilə kimi "Karvansaray" ticarət mərkəzində payı olmuş Elşən Kərəm oğlu bildirir ki, "Karvansaray"ı onlardan MTN generalları Akif Çovdarov və Hilal Əsədov alıb. Həmin yazıdan sitat:** "Bizim MMC-nin rəhbərini Akif Çovdarov yanına çağırıb təhqir edir, söyürdü. Növbəti gün də Hilal Əsədov bunu təkrar edirdi..."

***

MTN-də ötən ilin oktyabrında baş tutan qəfil əməliyyatdan sonra hər kəs A.Çovdarovla yanaşı Hilal Əsədovun da qandallanacağını gözləyirdi. Belə görünür ki, H.Əsədov vaxtında vəziyyəti "düzgün" qiymətləndirə bilib və general lompaslı ağ kostyumunun yaxalığındakı qara ləkələri ifadələri ilə yumağa qərar verib.

Bu ifadədən sonra ortaya çıxan nəticə budur: Müavini, ən yaxın adamı Eldar Mahmudovu ilk fürsətdə satıb və cinayətləri onun tapşırığı və nəzarəti ilə həyata keçirdiklərini etiraf edib. Bundan sonra Eldar Mahmudov ya özünü vurmalı, ya da qandallanmalıdır...

❑ **E.MƏMMƏDƏLİYEV**




# Çovdarovun əlində gizli çəkilən intim videolar olub - "Elit" hoteldə əməliyyatın təfərrüatı

## MTN generalı pul ələ keçirmək üçün keçirilən əməliyyatda xüsusi təyinatlılardan istifadə edib

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Nəzarət Baş İdarəsinin həbsdə olan sabiq rəisi Akif Çovdarovun cinayət işi üzrə yeni detallar üzə çıxmaqdadır. A.Çovdarovun cinayət dosyesindən daha bir epizod haqda məlumatları apa.az yayıb.**

Sayt yazır ki, istintaqla müəyyən edilib ki, A.Çovdarov cinayət işi üzrə təqsirləndirilən şəxslərdən Səlim Məmmədovla birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olan Neman Kərimovun külli miqdarda pul vəsaitini ələ keçirmək üçün onu və yaxın qohumu Elvin Mövsümovu azadlıqdan məhrum edib. N.Kərimov və E.Mövsümov Binəqədi rayonunda yerləşən "Elit" hotelində olduqları vaxt dəstə üzvü Səlim Məmmədov xüsusi təyinatlılardan istifadə etməklə odlu silahla oraya basqın edərək adları çəkilən şəxsləri zorla MTN-ə gətirib.

A. Çovdarov onları 10 saat ərzində xidməti otaqlarda saxlamaqla qanunsuz azadlıqdan məhrum edib. O, N. Kərimovun yaxın münasibətdə olduğu Sevinc Rüstəmovadan aldığı 20 min manatı qaytarmamasını bəhanə edərək, sidik nümunələri götürərək guya narkotik vasitələrin istifadəçiləri olduqlarını iddia edərək barəsində cinayət işi başlanılacağı, həbs ediləcəyi, rüsvayedici məlumatların yayılacağı ilə hədələyib.

A. Çovdarov onlardan 80 min manat məbləğində pul tələb edib. Həmin gün tutulanların yaxınları həmin məbləği veriblər. A. Çovdarov həmin pulun 20 min manatını Sevinc Rüstəmovaya borcunun ödənişi kimi verib. Qalan 60 min manatını isə mənimsəyiblər.

Yada salaq ki, bir müddət əvvəl "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu Eldar Mahmudovun əlində 2800 seks videosunun olduğunu açıqlamışdı.

**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl moderator.az-a deyib ki, A.Çovdarovun bu kimi əməliyyatlarda qadınlardan istifadə etməsinin dövlətin təhlükəsizliyinə zərrə qədər aidiyyəti olmayıb:** "Əgər "istifadə olunan qadınlar" həqiqətən istintaqa cəlb olunursa, deməli, onlar bildiyimiz klassik məxfi əməkdaşlar deyil. Onlar Çovdarovun şəxsi məqsədləri, özəl həyatı üçün istifadə etdikləri, şantaj alətləridir, bəlkə də qurbanlarıdır. Qadınlar xüsusi xidmət orqanlarında tarixən olub, var və olacaq. Qadınları xarici kəşfiyyata əməliyyat işçisi və ya agent kimi cəlb etmək çətin və yorucu proses olsa da, nəticələri çox vaxt uğurlu olub. Lazım olan informasiyanı qadından yaxşı kim ala bilər ki? Müasir dünyamızda ABŞ, İsrail xüsusi xidmət orqanları məxfi əməkdaş kimi qadınlardan geniş istifadə edirlər. Böyük Britaniyanın kəşfiyyat orqanı Mİ-6-da, əks kəşfiyyatı təşkil edən Mİ 5-də kadr əməkdaşların 40 faizi qadınlardır. Bu geniş mövzudur, sadəcə, həyatdan götürülmüş , bizlərə tanış olan iki filmdən epizodu xatırlayaq. "Uzaq sahillərdə" filmində Anjelika alman zabitindən filmin başlama saatını məhz qadın cazibədarlığını istifadə etməklə öyrənir. "Baharın on yeddi anı"ndakı Ket xaricdə təhlükəli şəraitdə radist kimi fəaliyyət göstərir. Çovdarovun nə kəşfiyyata, nə əks-kəşfiyyata heç bir aidiyyəti yoxdur ki, hələ bir dövlət təhlükəsizliyini təmin etmək üçün yeri gələndə qadınlardan da istifadə etsin. O, yuxarıda qeyd etdiyim kimi, şəxsi məqsədləri, özəl intim həyatı və şantaj aləti kimi onlardan istifadə edə bilər".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016





# "Vaşinqtonda verdiyim "ikra" ziyafətində Hillari Klinton da vardı"

## Hafiz Hacıyev: "Amerikadan qayıdan kimi Surət Hüseynov məndən 600 min dollar xərac tələb etdi"

### "Xalq Cəbhəsinin qərargahına osetrin kababını və kürünü mən göndərmişdim"

**Mis müsəlman qazanları masa üzərində sırayla düzülmüşdü. Hamısı zəfəranlı nərə balığı kababıyla dolub daşırdı. İsrail istehsalı "Uzi" avtomatı masanın bir kənarında dincəlir, bəlkə də öz yeni sahibini gözləyirdi...**

Müsəlman qazanı, zəfəranlı nərə balıq kababı, təptəzə İsrail silahı...Qəribə, çox ziddiyyətli bu mənzərəni görərkən, yadımdadı, xeyli təəccübləndim. 1992-ci ilin may ayı idi, səhv etmirəmsə. Xalq Cəbhəsi fəalları öz qərargahlarına yığılıb hakimiyyəti alıb-almayacaqları barədə uzun-uzadı, yorucu müşavirələr-filan keçirdirdilər. İsgəndər Həmidov, indiki kimi yadımdadı, dəqiqəbaşı dəhlizlərdə peyda olur, tez də qeybə çəkilirdi. Pıçapıç, gizli xosunlaşmalar qərargahın bütün künc-bucaqlarına hakim olsa da, son sözü deyəcək qüdrət sahibi hələ görünmürdü.

Axır, bərk darıxıb sıxıldım. Süfrədəki nərə balığı kababından ağzıma yağlı bir tikə atıb, aradakı sükut buzunu qırdım.

- Bakı balıqçıları, nərə balığı, qara kürü qaçaqçıları, deyəsən, keçib Cəbhənin tərəfinə. Kim qara kürünün, ağ balığın sahibidirsə, Bakının fatehi də elə həmin adam olacaq.

Hardan biləydim camaata elə bircə bu hay lazımdı? Dəhlizdəki bütün bağlı qapılar bu dəm qəfil taybatay, öz-özünə açıldı elə bil. İclasdakılar dəhlizə tökülüşdülər. Türk mehtər marşının müşayiəti ilə cumdular eyyy Ali Sovetin ağ mərmər örtüklü qəşəng binasına tərəf.

Qısa atışma səsindən sonra eşitdik ki, bəs, Cəbhə hakimiyyətə yiyələnib. Bakını fəth edib.

***

- İsrail istehsalı "Uzi" avtomatını ilk dəfə həyatımda, bax, bu zaman gördüm. Təzəydi lap. Yağ içində. Görünür, təzəcə qutudan çıxarmışdılar. Qazan-qazan nərə balığı kababını, görünür, Hacı Cəbrayıl göndərmişdi cəbhəçilərin süfrəsinə.

"Müasir Musavat" Partiyasının sədri Hafiz Hacıyevin isti, rahat kabinetində əyləşib köhnə xatirələrimi danışıram. Hacı Cəbrayılın adını çəkən kimi Hafiz Hacıyev əsəbləşib sifətini turşudur.

- Nə? Hacı Cəbrayıl? Yox eyyyy... Mən idim... mən idim o vaxt bu kababı milli qazanlarımıza doldurub AXC qərargahına göndərən. Mən! Bunu məndən başqa daha kimsə bacarmazdı o vaxt. Bacarmazdı! O vaxt bizim "Azərbalıq" Dövlət Konserni nazirlik səviyyəsində bur qurum idi. Bakının balığı, kürüsü ixtiyarımızdaydı. Başqalarının ağzı nəydi bu sahəyə soxulsun...

Digər siyasi partiyaların qərargahlarıyla müqayisədə "Müasir Musavat"ın baş ofisi, necə deyərlər, toya gedəsidi. Qapıdakı elan qonaqlara bəribaşdan xəbərdarlıq edir: "Zəngi basıb, azca gözləyin". Sədrin otağında, şükür, istidir. Qapısına sovetdənqalma üslubda, meşin üzlük çəkilib. Hafiz bəy bu detala marağımı görüb xəfifcə gülümsəyir. Bilir söhbətimizin nəbzini harda tutmaq lazımdı. Keçir şirin sovet dövrü xatirələrinə.

- Gəncədə, 1982-də, deyəsən, Kənd Təsərrüfatı İnstitutunu qurtardım. Məni ölkənin ən ucqar bölgəsi sayılan Kəlbəcərə göndərdilər. Komsomolda işlədim əvvəlcə. Təşkilat şöbəsinin müdiri vəzifəsindən başladım. Katib kürsüsünəcən irəlilədim. Cari komsomol fəaliyyətim elmi işlərimi üstələmədi. Leninqrad Biologiya İnstitutunda "Şoran sularda nohur balıqçılığı" mövzusunda namizədlik dissertasiyamı müdafiə etdim. Elmi rəhbərim Kaşnevskiy Vasiliy İvanoviçdən sonra, vallah, dünyada başqa bir təmiz adam tanımıram. İnan, balalarımın canıyçün.

***- Elmi rəhbərinizə qutu-qutu nərə balığı, qara kürü payı necə, hədiyyə aparardız?***

Hafiz Hacıyev, "Həəəəə" etirafını son dərəcə musiqi səsləndirir bu dəfə. Ağzındakı "Ə" səsini bir xeyli uzadıb, arada mən tərəfə baxmağı da unutmur.

- Daha kimlərə nərə, qara kürü daşıdınız Moskvada, Bakıda, Vaşinqtonda, İstanbulda, Ankarada? Deyin, utanmayın. Aradan gör neçə illər keçib.

***

Həəəə....siyasi hakimiyyətə can atanlar yaxşı bilər - Bakının qara kürüsü, ağ balığı kimə əvvəlcədən öz xoş sifətini göstərəcəksə, yadda saxla, hakimiyyət də elə həmin kəsə keçəcək.

Basarkeçər dağlarındakı Zod kəndindən Gəncəyə, Bakıya gəlmiş gənc tələbə Hafiz Hacıyev bir gün bu etirafı Bakının Kubinka məhəlləsində eşidib, dərin fikirlərə qərq olur. Qərara gəlir, öz bəxtini məhz qara kürü, ağ balıq sahəsində sınasın. Girişir balıqçılığa. İçinə "İxtioloq" yazılmış diplomuyla Kənd Təsərrüfatı Nazirliyində gur fəaliyyətə başlayır. Tez bir zamanda şöbə müdiri, idarə rəisi vəzifələrinə yetişib, bunları son mənzil saymır özü üçün. Daha yüksək hədəfləri nişan alaraq, uzaq üfüqlərdən gözlərini bir an belə ayırmır. O vaxtlar Xəzər balığının mühafizəsi Həştərxana tabe idi. Kürü istehsalı, nərə balıq ovu isə birbaşa Moskvaya, Kremlə.

- Kommunist Partiyasının hər növbəti qurultayına 600 kilodan çox, bəzən hətta 1-2 ton qara kürü göndərərdik adətən. Bir o qədər də nərə balığı. Müstəqillikdən sonra Elçibəyin razılığı ilə "Azərbalıq" Dövlət Konsernini yaradıb işə başladıq.

***- Elçibəy, qara kürü, nərə balığı kababı...***

Hafiz Hacıyev icazə vermir cümləmi bitirim.

- Yox. Elçibəy qara kürü, ağ balıq kababı yeməzdi heç vaxt. İstəsəydi, birinci mənə deyərdi bu arzusunu. Dilindən bir dəfə də belə xahiş səslənmədi, biləsiz haaaa... O vaxt qərara gəldik ki, hər azərbaycanlının payına ayda bir dəfə 200 qram qara kürü, 2 kilo nərə balığı düşür. Xalqı bu minimumla təmin etdik. Elçibəy dövründə 55 ton qara kürü, 650 ton nərə balığı istehsal edərək satışa buraxdıq.

***- Qiymətlər necə idi bəs?***

Bayaqdan ürəyimdə saxladığım bu sualı, ilk fürsət tapınca ona ünvanlayıb, deyəsən, azca karıxdırıram.

- Yaddaşım paslanıb, deyəsən. Dükanlardakı qiymətlər, bağışlayın, indi yadımda qalmayıb. Ancaq Türkiyəyə, ABŞ-a satdığımız qara kürünün, ağ balığın qiyməti heç vaxt yadımdan çıxası deyil.

***

Azərbaycanın həm qara kürüsü var, həm də qara baxtı. Həm də Qarabağı. Həm də qara nefti. 90-cı illərdə bu qara rəngli naz-nemətlərimiz ətrafında dünya supergücləri öz gizli-açıq oyunlarını qurub fikrə getdilər: "Bəs kim oyunçu olacaq bu qəliz oyunlarda?"

O vaxtkı kadrlar qıtlığından istifadə edən Hafiz Hacıyev bu çağırışı elə göydəcə tutmağı bacarır. Özünü verir irəli. Okeanın o tayında, Amerikada, Ağ Evlə üzbəüz yerləşən "Çarlton" hotelində qara kürümüzün təqdimat mərasimini keçirir. Dəvətlilər arasında indi prezidentliyə namizədliyini irəli sürmüş Hillari Klinton da varmış.

- Həəəə... o, masalar arxasında gəzişir, hərdən süfrədəki qara kürünün dadına baxırdı.

***- Yadından çıxarmayıbmı o dad indi?***

Qəliz sualım həm Hafiz bəyi ayıldır, həm də katibəsini. O, tez masaya yaxınlaşıb çayımı təzələyir.

- Düşmənlərimiz həmişə milli mətbəximizə, qara kürümüzə, ağ balığımıza məğlub olub, yenə də məğlub olacaqlar. Bunu o vaxtkı Vaşinqton təqdimatımızda hiss edib, xeyli sevindim. Vaşinqton hakim elitasının restoran menyusuna özüm baxmışam. Qara kürü, nərə balığı bu menyudan heç vaxt pozulub silinən deyil.

***- Tanınmışlardan kimlər vardı "Çarlton" hotelindəki təqdimatınızda?***

H.Hacıyev bu dəfə sualımdan ehtiyatlanır, deyəsən. Qonaqların tam siyahısını açıqlamır. Siyahını qısaldır.

- Hafiz Paşayevin, Ceyhun Mollazadənin indi də o günlər yadından çıxmaz. Elə Hillari Klintonun da...

***- Bu dadı xanım Klintona xatırlatmaq lazımdı nə qədər gec deyil. Yoxsa sabah gec olar...***

Növbəti tapşırığım anında hədəfə dəyir sanki. Hafiz bəyin xatirə dəftərçəsi sanki düz ortadan açılır. O, telefonunun səs siqnalını söndürüb, nəhayət, rahatlanır. Katibəyə him-cimlə nəsə başa salır. Katibə kabinetdən çıxan kimi Hafiz bəy xatirələrinə davam edir.

- O vaxt ilk dəfə Moskvadan yan ötərək, biz dünya bazarına Xəzər nemətlərimizi satışa çıxardıq. Turqut Ozalın bir qohumu vardı, fotoşəkillərimiz indiyəcən qalır, Əhməd Yurddaş adında. Ona məxsus "Urfa" bazar şirkəti vasitəsilə qardaş ölkəyə 250 ton nərə balığının kilosunu 3,5 dollar qiymətinə satdıq. Qara kürünün tonunu 105 dollara satdıq Türkiyəyə, 110 dollara Amerikaya.

Sonrakı xatirələrin acısı bu vaxt Hacıyevin gözlərində canlanıb məni də öz axarına alır.

- Surət Hüseynovun adamları Vaşinqton səfərimdən dərhal sonra qapımı kəsdirib, nağıllardakı yeddi ilin bac-xəracını, yəni 600 min dollar pul tələb etdilər məndən. Vermədim. Gəlib elə kollegiyanın iclasından apardılar məni. Qısası, Surət Hüseynov məni tutdurdu, Heydər Əliyev buraxdırdı. Zindandan ayrılınca, əvvəlcə "Elçibəy xalq hərəkatı"nı yaratdım, sonra "Müasir Musavat"ı təsis etdim.

***- Eşitdiyimə görə, Heydər Əliyevi Bakıda qarşılayanlardan ən fəalı elə siz olubsunuz vaxtilə. Nəriman Həsənzadə, Bəxtiyar Vahabzadə, Cəlal Əliyev sıra boyu öndə dayanmışdılar. Amma Heydər Əliyevə yeganə gül çələngini siz vermişdiniz o zaman.***

- Hə...elədi... Onun bu çələngi qoxulamağı indiyəcən xatirəmdədir. Cəlal Əliyevin o vaxt çiynimə qonan əlinin istisi indi də getməyib.

Söhbətimizin bu ən şirin yerində katibə kabinetə qayıdır. "Vaşinqtonda vaxtilə çəkilmiş şəkillərdi" deyib, bir topa fotonu masa üzərinə buraxır.

***

Bir an fotolara zillənib keçmişə düşüb, müasirlikdən ayrılıram. Hafiz Hacəyev əvvəlcə gözləmə taktikasını seçir. Görəndə məsələ uzanır, başlayır öskürməyə. Bu, məni ayıldıb günümüzə qaytarır. Qayıdıb görürəm o, yenə əvvəlki yerindədi, katibə Könül xanım isə bir kənarda durub arxiv qovluqlarını vərəqləyir.

H.Hacıyev yenə öskürüb boğazını arıtlayır. Səsini bərpa edib sözünə davam edir.

- İndiki vəziyyətlə 1993-cü il arasında elə də fərq görmürəm. Tarix yenidən təkrarlanır. Qardaşımı, - o, prezident İlham Əliyevi daim belə çağırır, - gözü götürməyənlər, satqın məmur tayfası açıq sabotaja başlayıb prezidentimizə qarşı. Xalqla prezident arasında uçurum yaratmağa girişiblər. Məni ən çox kənd təsərrüfatı naziri əsəbiləşdirir, vallah. Toyuq əti niyə 1 manat 75-dən 3 manat 75 qəpiyə qalxmalıydı bu gün? Niyə? Mal ətinin kilosu 6 manatdan qalxıb 10 manata. Üzüm, Allahın üzümü, Azərbaycanın üzümü niyə 4-5 manata marketlərdə satışa çıxarılmalıdır? Sabotaj deyilsə, bəs nədir bu, hə, soruşuram hamınızdan? Son vaxtlar oliqarxlar siyasətlərini dəyişiblər lap. Deyirlər, bəs prezident yaxşıdır, ətrafı zaydır. Yenə də təkrarlayıram hamı üçün - bunu adi adam deyə bilər, vəzifə sahibi yox... Hakimiyyəti parçlamaq siyasətidir axı bu...

***- Çox qorxuludurmu vəziyyət?***
***- həyəcanımı gizləyə bilmirəm.***

### "Elçibəy qara kürü, ağ balıq kababı yeməzdi heç vaxt. İstəsəydi, birinci mənə deyərdi bu arzusunu. Dilindən bir dəfə də belə xahiş səslənmədi"





- Xəbərlərdən belə çıxır ki, nurçuların siyahısı Türkiyədən Bakıya göndərilib elə bil. İndi masa üzərindədir... Prezident...

Axşamdı artıq. Sadə insan kütləsi aşağıdakı "Azadlıq" metrosuna tərəf axır, axır, axır. Qurtarmır.

***

Söhbətimiz axır, bax, bu nöqtəsində bitdi nəhayət ki. Amma Hafiz Hacıyev söndürdüyü telefonunu yandırınca, zənglərin sayı-hesabını itirdik. Zəng vuranların ən narahatı, səbirsizi "Müasir Musavat"ın Şirvan şəhər şöbəsinin sədri Əmənov Eyvazdı. Deyirdi bəs oğlunu yol polisi işçiləri tutub döyüblər. Vəziyyəti ağırdı. Əl mənim, ətək sənin. Bəs ay Hafiz, kömək əlini bizdən üzmə...

- Polislə prokuror əvəzi əlbirdi bu şəhərdə. Şikayət etmişəm barələrində. Prokuror əvəzinə şiddətli töhmət veriblər... Polisin biri qaçıb...vəziyyət qəlizləşib lap eyyy...

**Hafiz bəy telefonlarını bir-birinə qatıb baş prokurorun köməkçisini aramaya başlayan vaxt, fikirləşdim qoy daha ona mane olmayım. Sakitcə qalxdım masa arxasından. Lal-dinməz, ingilissayağı kabineti tərk edirəm.**

**İmkan yaratdım ki, Hafiz bəy ölkəmizdə haqq-ədaləti bacardığı qədər bərpa etsin.**

**Mənimlə isə o, sonra da vidalaşa bilər.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016



# Həbsdəki jurnalistin xanımının İran səfirliyinə sığınması təsdiqləndi

## Fikrət Fərəməzoğlunun ailəsini səfirlik mühafizə edir; jurnalistin həyat yoldaşı barəsində xoşagəlməz xəbərləri kimlər yayıb?

**Hazırda həbsdə olan jam.az saytının baş redaktoru Fikrət Fərəməzoğlunun ailəsinin İran səfirliyinə sığınması barədə xəbər vermişdik. Jurnalistin ailəsi artıq səfirliyin nəzarətindədir. Doğrudur, səfirliyin təşkil etdiyi evdə yerləşməsələr də, Fərəməzoğlu ailəsi öz evində səfirlik tərəfindən mühafizə olunur.**

Bundan başqa, bəzi saytlarda F.Fərəməzoğlunun həyat yoldaşı Faiqə Nosrati haqqında qeyri-etik xəbərlər dərc ediblər ki, bu da qarşı tərəfdə ciddi narazılıq doğurub. F.Nosrati "Yeni Müsavat"a açıqlamasında vətəndaşı olduğu İran səfirliyinə sığınmasının səbəblərini açıqladı: "Belə iyrənc hadisələri yaşayacağımı bilmirdim, zənn edirdim ki, adi təhdidlərdir. Amma işin ən pik nöqtəsinə gəldik. Barəmdə əxlaqsız xəbərlər paylaşıldı. Səfirliyə müraciət etməyə məcbur qaldım. Mənə dedilər ki, sənə ev ayırırıq, orada yaşayarsan. Fikrətin məsələsi tam aydınlaşana qədər. Səfirliyə xəbər verdim ki, noyabrın 3-də onların ayırdıqları evə gələcəm. Amma sonradan fikrimi dəyişdim və səfirliyə məlumat verdim ki, öz evimdə qalıram, siz mənim evimi qoruyun. Onlar da bununla razılaşdılar. Ona görə evimi tərk etmədim ki, sonradan evdə adam olmayanda gəlib kamera, dinləmə quraşdırarlar. Sonra isə şəxsi həyatıma aid şeylər paylaşarlar. Səfirlikdən xahiş etdim ki, kolidora kamera quraşdırsınlar. 24 saat da evimiz mühafizə altında olacaq. İstəmirəm səfirliyin evində yaşamaq. Əvvəl deyilirdi ki, Fikrət rüşvət alarkən həbs olunub. Amma indi sübut olundu ki, həyat yoldaşım yazdığı yazılara görə həbs edilib. Bizi ləkələmək istədilər, amma alınmadı. Belə əxlaqsız xəbər yayan saytlar pula görə hər şeylərini satanlardır. Bu saytlar Fikrət həbs olunandan bu günə qədər onun barəsində bir xəbər belə yazmayıblar. Aydındır ki, o saytlara müəyyən məbləğdə vəsait verilib, bu xəbəri yaymaq üçün. Vəkil baş verənlər barədə şikayət hazırlayıb, prokurorluğa təqdim edəcək. Bir qadının başına necə oyun aça bilərlər ki? İlkin mərhələdə belə iyrənc xəbəri yayarlar. Bu hərəkəti edən şəxslər məsuliyyətə cəlb olunmalıdırlar. Onlar bildirirlər ki, haker hücumuna məruz qalıblar. Həmin məlumatları bir müddət yayıblar. Bunun screenlərini etmişik. Fikrət bəylə məsləhətləşəcəm. Bu barədə məhkəməyə müraciət etmək fikrimiz var. Əxlaqa sığmayan qeyri-etik ifadələr işlədilib. Təəssüf edirəm ki, hüquq-mühafizə orqanları vəkilə təsir etmək üçün belə imkanlara əl atırlar. Bu şeylər davam edəcək. Ona görə də evdən bayıra çıxanda da səfirliyin əməkdaşı məni mühafizə edəcək".



Fikrət Fərəməzoğlu

### Faiqə Nosrati: "Hər dəqiqə səfirlik başımızın üstündədir"

**Jurnalistin həyat yoldaşı xarici ölkələrin birindən siyasi sığınacaq istəmək fikrində olmadığını da söylədi:** "Bu barədə heç vaxt düşünmək belə istəməmişəm. Yoldaşımı heç vaxt həbsdə tək qoymaram. Ömrü boyu həyat yoldaşımı həbsxanada saxlasalar belə, onu tək qoyub ölkədən getmərəm. Fikrət azadlığa çıxandan sonra onun məsləhəti ilə harasa gedə bilərik. Fikrət həbs olunduğu andan səfirliyə müraciət etmişdim. O zamanlar təhdid olunmuşdum. O zamandan səfirliklə əlaqəm var idi. Hər dəqiqə səfirlik başımızın üstündədir. Bunları bilə-bilə niyə belə hərəkətlər edirlər, hələ də anlamıram".

**F.Fərəməzoğlunun vəkili Elçin Sadıqovun təqib olunmasını iddia edən jurnalist xanımı bunu yolverilməz hesab edir:** "Bütün səlahiyyətli orqanlardan, o cümlədən ölkə başçısından xahiş odur ki, bu məsələni dərhal araşdırıb, son qoyulmasına göstəriş versinlər".

Xatırladaq ki, Fikrət Fərəməzoğlu barəsində 2016-cı il iyulun 2-də Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Jurnalist Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə pul tələb etmədə) maddəsi ilə təqsirləndirilir. O, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılır.

❑ **Cavanşir ABBASLI**

# "Sərhədsiz Reportyorlar"ın hesabatı: "sərhədi" keçir, yoxsa...

**"Sərhədsiz Reportyorlar" hüquq-müdafiə təşkilatı noyabrın 2-də 2016-cı il üçün hesabatını açıqlayıb ki, 35 dövlət və hökumət başçısının, o cümlədən Azərbaycanın dövlət rəhbərinin adı da neqativ planda çəkilib.**

Sənəddə iddia olunur ki, ötən il ən çox Türkiyədə vəziyyət pisləşib, burada kütləvi repressiyalar dalğası davam edir və ən azı 130 jurnalist həbsdədir, 140-dan çox KİV bağlanıb. Hakimiyyət, demək olar ki, ölkənin bütün mətbuat məkanına nəzarət edir. ("Turan") "Ötən ildən hakimiyyət xaricdə sığınacaq almış jurnalistlərin qohumlarının təqibi ilə bağlı yeni metodlar tətbiq edir. Hazırda Azərbaycanda 8 jurnalist və blogger həbsdədir, onlarla KİV nümayəndəsi isə təqiblərdən xaricdə gizlənmək məcburiyyətindədir. 2015-ci illə müqayisədə Azərbaycan dünyada mətbuat azadlığı reytinqində 162-ci yerdən 163-cü yerə düşüb" - hesabatda bildirilir. Qeyd edək ki, ümumilikdə siyahıda 180 ölkədən bəhs olunur. Ən azad mətbuat Finlandiya və Niderlandda, ən qeyri-azad mətbuat isə Eritreya və Şimali Koreyadadır. Mətbuat azadlığının səviyyəsinə görə Gürcüstan 64-cü, Ermənistan isə 74-cü yerdə göstərilib. Azərbaycanda isə bu hesabata münasibət birmənalı deyil.



**Arif Əliyev:** "Hələ mən görməmişəm ki, düşmən siyahıları hansısa bir ölkənin rəhbərliyinə və yaxud siyasi elitasına müsbət təsir göstərsin"



**Zahid Oruc:** "Siyasi elitaların qəddarlığından danışanlar "Wikileaks"in banisi Culian Asancı raketlə partlatmağı təklif edən hökumətləri "dünyanın ən azad ölkələri" sırasına qoyurlar"

"Dost və düşmən kateqoriyaları, fikrimcə, bütövlükdə ayrı-ayrı ölkələrdə və müxtəlif səviyyələrdə artıq media elementi olmaqdan başqa, həm də siyasi elementdir. Ona görə də mən bunu bir o qədər də uğurlu kateqoriya hesab etmirəm". Bu fikirlər isə **"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyevə** məxsusdur. A.Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, medianın məqsədi həm də vəziyyəti dəyişmək, yaxşılaşdırmaqdır. "Hələ mən görməmişəm ki, düşmən siyahıları hansısa bir ölkənin rəhbərliyinə və yaxud siyasi elitasına müsbət təsir göstərsin. Ona görə də mən bu kateqoriyanı daha çox siyasi hesab edirəm. Bu, əlbəttə, bir media faktorudur, amma eyni zamanda burada, əlbəttə, bir siyasət də var. Amma əgər söhbət Azərbaycanda medianın vəziyyətini qiymətləndirməkdən gedirsə, mən bu fikirdəyəm ki, Azərbaycanda medianın vəziyyəti Avropa ölkələri arasında ən pis göstəricilərdən biridir. O mənada bu faktla razıyam. Xoşagəlməz bir səhnə mövcuddur" deyə, A.Əliyev əlavə etdi.

**A.Əliyev güman etmir ki, belə hesabatların hazırlanması zamanı "Sərhədsiz Reportyor"ın mövqeyinə təsir edən kənar amillər olur:** "Söhbətlər var ki, ermənilərdir, ya nələrdir, bu, çox səviyyəsiz söhbətlərdir. Hansı təşkilat ki, bir az xoşagəlməz bəyanat verir, biz dərhal onu erməniyə calayırıq ki, "Azərbaycana təsir etmək istəyir" və s. Dünya çapında Azərbaycan elə mühüm rol oynamır ki, ona təsir etmək üçün bu qədər böyük hengamələr yaradılsın. Sadəcə, hər təşkilatın özünün prinsipləri var. Təbii ki, istənilən təşkilata müəyyən təsirlər mövcuddur. Amma mən bilirəm ki, onlar öz siyahılarını, araşdırmalarını bütün ölkələr üçün ümumi prinsiplər əsasında aparırlar və xoşumuz gəlsə də, gəlməsə də, çox sanballı təşkilatlardandır".

**Ortaya sual çıxır, əgər bu təşkilat obyektivdirsə, o halda Ermənistanın adı niyə siyahıdan kənarda qalıb ki, erməni mediası Türkiyə və Azərbaycanın adını sevincək xəbər başlıqlarına çıxarıb və bu iki türk dövlətinə qarşı təbliğat aparmaq şansı qazanıb? Qan tökməklə hakimiyyətə gəlmiş Sərkisyanın ölkəsində vəziyyət bu qədərmi idealdır? A.Əliyev:** "Yox, Ermənistanda vəziyyət ideal deyil. Amma Ermənistanda medianın vəziyyəti və hakimiyyətin media siyasəti Azərbaycandan qat-qat yumşaqdır. Orda jurnalistlərin sərbəst fəaliyyət göstərməsinə imkanlar daha genişdir. Mən təəssüflənirəm ki, Azərbaycan mediası Qafqazdakı aparıcı rolunu artıq 2000-ci illərin əvvəlindən itirib".

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc isə təşkilatın hesabatını tam qərəzli sayır:** "Azərbaycanda mətbuatın azadlığını müəyyənləşdirmək üçün beynəlxalq hesabatları mötəbər mənbə kimi qəbul etməyin özü həmin hücumlara legitimlik qazandırmaq demək olardı. ATƏT-in komissarı Dunya Miyatoviç də daxil böyük bir dəstə "ekspertlər şuraları" şəklində uzun illərdi sovet çinovniklərinə bənzər bir formada Azərbaycanı hədələməklə məşğuldurlar. Lakin özləri ən kiçik tənqidlərə dözümsüzlük göstərir və xəfiyyə orqanlarının təmsilçiləri kimi yalnız xüsusi seçilmiş mənbələrlə işləməyə öyrəşiblər. Halbuki bir ölkədə internetin əlçatanlığına nəzərən və sosial medianın bütün digər KİV sektorunu üstələdiyinə rəğmən mediaya basqından və azad sözün meydanının daraldılmasından danışmaq qərəzçilikdir, xüsusi məqsədlər güdür və siyasi sifarişlərdən qaynaqlanır. SSRİ dövründə ideoloji basmaqəliblərlə işləyən qurumların təcrübəsi bir sıra beynəlxalq təşkilatların fəaliyyətində hələ də özünü qabarıq göstərməkdədir". **Z.Oruc "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda hakimiyyət orqanlarının mətbuata münasibətini bir neçə jurnalistin haqları üzərindən çözmək olmaz:** "Dünyada elə bir ölkə yoxdur ki, informasiya vasitələri üzərində xüsusi siyasət yürütməsin. Dövlət sirlərinə münasibət, hərbi təhlükəsizlik maraqları və müharibə şəraitinin tələbləri, həmçinin son illər qlobal təhlükəyə çevrilmiş etnik-milli-dini ekstremizmlə bağlı təhlükələr hakimiyyət orqanları ilə mətbuat arasında çoxsaylı problemləri meydana çıxarıb. Milli mənafelər hüquqi cəmiyyət quruluşunun gerçəkləri ilə qarşılıqlı ziddiyyətdə və çarpışma vəziyyətində qalıb. Ona görə də dünyada kəşfiyyat orqanlarının ən böyük silahlı kanalı təəssüf ki, informasiya vasitələridir. Media ictimai fikri formalaşdıran vasitə olmaqdan çıxaraq casus şəbəkələrinin maraq dairəsinə daxil olub. Azərbaycanda dövlət-media münasibətlərinin uğurlu inkişafına və yaxşı əməkdaşlıq tarixinə heç bir yer ayırmadan narkokartellərin və ya terrorçuların adı yer alan siyahılarda 162 ölkəni və bizi qaralamaq həmin hesabatları tərtib edənlərin cinayətkar maraqlarından başqa bir şey deyil. Hər halda, siyasi elitaların qəddarlığından danışanlar "Wikileaks"in banisi Culian Asancı pilotsuz raketlə partlatmağı təklif edən hökumətləri "dünyanın ən azad ölkələri" sırasına qoyurlar. Görünür, demokratik rejimlərdə amansızlıqla öldürülmək həbs olunmaqdan daha yüngül cinayətdir. Azadlığın ən yüksək həddi olaraq təhqir hüququnun və hər kəsi mühakimə etmək səlahiyyətinin hökm sürdüyü bir cəmiyyəti "qeyri-azad" adlandıranlar müxtəlif qanlı inqilablar törətdikləri ölkələrdə fərqli mövqeyi ilə seçilən media quruluşlarına qarşı basqıları, qətlə yetirilən jurnalistləri nədən görmürlər? Yoxsa azadlıq ancaq qərbpərəstliklə ölçülür?"

❑ **Cavid TURAN**



# Sözləri mənim, musiqisi hökumətin

Zamin HACI
zaminhaci@gmail.com

**Avstraliyada təzəlikcə bir qalmaqal qopmuşdu, özü də it üstündə. Sən demə, orda ştatlardan birinin türmə naziri iki it saxlayır, şəhərdən bağ evinə qədər məsafə isə 100 kilometrə yaxındır, bir neçə dəfə nazir sürücüsünə tapşırıb ki, itləri maşına qoyub bağa aparsın. Maşın nazirin xidməti maşını olduğundan camaat, mətbuat, siyasi aləm qarışıb bir-birinə. Tələb edirlər ki, nazir istefa verməlidir, çünki dövlət avtomobilində şəxsi itini daşıtdırıbdır.**

Belə söhbətləri oxuyanda adam it olub hürmək istəyir. Sən bunların dərd-sərinə bax... Gör camaat hansı "problemlərlə" uğraşır, biz nələrlə... Ötən əsrdəki bir teletamaşada Hacıbaba Bağırovun qəhrəmanı deyirdi: "Nöş belə oldu, çibuş?" Axı prinispcə, Avstraliya da Azərbaycan kimi bir yerdir, hələ qlobusda təpəsi aşağı dayanıblar, bizə baxanda çətinlikləri çoxdur.

Elə həmin gün bizim mediada başqa it xəbəri var idi: Bərdədə it boğuşdurmaq üzrə Azərbaycan çempionatı keçirilmişdir, Bozdar Toplanı boğmuşdur.

Fərq, bax, bundan yaranır: onlar naziri iti dövlət maşınına mindirdiyi üçün boğazlayır, biz isə it boğuşdurmaqdan ləzzət alırıq.

BDU-da bir professor var, gələcəyin jurnalistlərini istehsal eləmək üzrə, türkün sözü, görəvlidir. Keçən il Bakıda Avropa oyunları məzhəkəsi düzəldiləndə belə yazmışdı: "Bu oyunların təntənəli açılış mərasiminə sevinməyənlərin damarlarından azərbaycanlı qanı axmır". İndi buna nə deyəsən? Belələrinin stanoklarından çıxan məhsullar ölkəni hara aparar? Uzun sözün qısası, həmən bu professor təzəlikcə müəllimlərin kitab oxumadığından gileylənmişdi. Deyir, gərək müəllimlər çoxlu bədii kitab oxusun, uşaqlara da oxutdursun, millətimiz aydınlığa çıxsın, hurreyy! Sən oxuyub camaatın qan analizi ilə məşğul olursansa, o biri müəllimlər oxumasa yaxşıdır. Kasıbçılığımızı edirik birtəhər, imkan verin yaşayaq. Kitab oxusalar seçki saxtakarlığını, yaltaqlığı, yalançılığı bədii üsullarla edəcəklər.

O biri yanda AMEA-nın Ədəbiyyat İnstitutu adlı karikatur qurum iclas keçirdir və qərara alırlar ki, institutda... manısçılıq üzrə şöbə düzəldilsin, ən güclü mahnılarından biri "Kişidi bu, kişidi bu, nənənin kişmişidir bu" olan nəğməkar-şairi də ora müdir qoysunlar. Bəh-bəh... Nə günlərə qaldın, Azərbaycan, öz cəzandır çək... Hərçənd Bob Dilan Nobel alıbsa, bizim manısların ədəbiyyat institutuna axışmasına niyə pis baxaq? Yadıma Nüsrət Kəsəmənlinin bir şeiri düşdü, orda kor dişini çəkdirəndə gözü açılırdı, bundan sonra bütün korlar diş həkiminə axışırdı.

Üstəlik, hara baxsan, manıslıqla doludur. Azərbaycanda nə iş görsən, nə düzəltsən mahnı alınır. Nəğməkar ölkəyik. Prokuror mahnı yazır, nazir mahnı yazır, general qaval oynadır, canım sənə desin, gömrükçü mahnı qayırır və sairə. Hətta bir ara dünyanın ən bərkgedən universitetinə uşaq göndərdik, oxuyub gəldi, başladı mahnı oxumağa. Elə bil Oksforda, Harvarda deyil, Bülbül adına orta ixtisas məktəbinə uşaq göndərirsən. Qardaş, nə qədər mahnı oxumaq olar? Azərbaycanın adını axırda dəyişib "Osəsbaycan" qoyacaqlar. Özü də nə sirdirsə, oxuyanın da hamısı bir ağız oxuyub özünü tutandan sonra boğazı piylənir, başlayır xoruz buraxmağa. Hamı oxuyur, di gəl qulaq asmağa mahnı yoxdur. Yapistlərin mənəvi babası Brejnev müəllimin adından bir söz yazırdılar: "Çörək olarsa, mahnı da olar". Cəlal əmidən sonra buğda sortlarında yüngülvari problem yaşasaq da indi, göz dəyməsin, çörək var. Ye, oxu. Müsiqişünas Firudin Şuşinskinin bir müğənni haqda dediyi söz yadıma düşdü: "Zəngulə vura bilmir, səsi salır çənəsinə, elə bil Qala qoyunu gövşəyir".

Yəqin Avstraliyadan başlayan yazının qoyunla bitməsi də təsadüf deyildir. Hərçənd bizdə yanlış təsəvvür var ki, dünyada ən çox qoyun Avstraliyadadır. Yazım biləsiniz, bu düz fakt deyil. Ən çox qoyun Argentinada yaşayır.

# İrəvan və Tehran anlaşma ərəfəsində

## İran və Ermənistan arasında qaz razılaşması yenidən masada; Rusiya qazına alternativə "yaşıl işıq" yandıran İrəvan paralel olaraq Gürcüstanın tranzit tariflərini aşağı salması üçün hərəkətə keçdi

**İran və Ermənistan arasındakı qaz sövdələşməsi ilə bağlı proses yenidən canlanıb. Noyabrın 2-də Ermənistanın enerji infrostrukturu və təbii ehtiyatlar nazirinin müavini Ayka Arutyunyan Tehrana səfər edib.**

"Yeni Musavat" Ermənistan mediasına istinadən xəbər verir ki, nazir müavini səfəri çərçivəsində İranın neft və qaz ixracı milli kampaniyasının icraçı direktoru ilə görüşüb. Görüşdə İran qazının alış-satışı, Ermənistan ərazisindən üçüncü ölkəyə tranziti ilə əlaqədar məsələlər müzakirə olunub. Ermənistanın Energetika Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, danışıqlar əsnasında tərəflər təbii qazın tranziti və alqı-satqısını nəzərdə tutan yekun memorandumu paraflayıblar. "Yaxın zamanlarda sənəd imzalanmaq üçün təqdim olunacaq"-rəsmi məlumatda deyilir.

Qeyd edək ki, Ermənistan İrandan alacağı böyük həcmdə təbii yanacağın idxalı və ötürülməsi məqsədilə "Enerjiimpeks" kompaniyasını yaradıb. Hazırda Ermənistan təbii qazın bir hissəsini Rusiyadan Gürcüstan ərazisi vasitəsilə alır. Ermənistanı müəyyən qədər qaz ehtiyatları ilə təmin edən müsəlman İran dövləti son anlaşmaya əsasən, işğalçı ölkəyə 20 il ərzində 36 milyard kubmetr qaz ixrac edəcək. Hətta ixracın həcminin 47 milyarda qədər artırılması da istisna edilmir.

Heç şübhə yoxdur ki, Ermənistan qaz idxalını artırmaqla həm də Azərbaycanın işğal altındakı ərazilərini də təbii qazla təmin etməyi planlaşdırır. Bir sıra yaşayış məntəqələrinə ianələrlə də olsa, qaz xətləri çəkilib və işğalın və separatçılığın stimullaşdırılmasında çox təəssüf ki, Azərbaycanın müsəlman qonşusu da iştirak edir.

Eyni zamanda müxtəlif kombinasiyalar qurmaqla qazanmağa çalışan işğalçı Ermənistan İranla anlaşma imzalamağa hazırlaşdığı ərəfədə Tiflislə də qaz danışıqlarına başlamağa qərar verib. Ermənistan mətbuatı xəbər verir ki, İrəvan Rusiya qazının Gürcüstandan keçən hissəsinə görə tətbiq olunan tariflərin aşağı salınması məqsədilə Tiflislə danışıqlara başlayıb. Bu xəbəri "Qazprom-Ermənistan" kompaniyası da təsdiqləyib. İranla qaz anlaşmasından sonra Ermənistan Rusiya qazına artıq "ikinci dərəcəli" məsələ kimi baxmağa başlayıb və vəziyyətdən istifadə edərək daha ucuz mavi yanacaq almağa çalışır. İndi Tiflisin İrəvana hansı cavabı verəcəyi çox maraqlıdır.

Düzdür, ən ağır dönəmlərdə Azərbaycanın hesabına donmaq təhlükəsindən xilas olan Gürcüstanın da Bakı ilə razılaşmaları "unudub" Ermənistandan ötürüləcək İran qazından pay almaq iştahı var. Gürcü rəsmilər bunu Azərbaycanın qaz ehtiyatlarının "az olması" ilə əlaqələndirməyə, əslində isə Bakıya təzyiq edib daha ucuz qiymətə qaz almağa çalışırlar. Bu il ərzində Tiflisdən bir neçə dəfə bənzər açıqlamalar gəlib və rəsmən etiraf olunub ki, Tehran və Tiflis 200 milyon İran qazının Gürcüstana ixracına dair danışıqlar aparır. Hələlik Ermənistanın az tutumlu kəmərləri iri qaz anlaşmasını mümkünsüz edir. Üstəlik, İran-Ermənistan qaz kəmərinin İran hissəsinin diametri Ermənistan hissəsinin diametrindən iki dəfə böyükdür. Bu isə İrəvanın arzuları il tərs mütənasibdir. Rəsmi mövqe belədir ki, İran-Ermənistan qaz kəməri tikiləndə Ermənistan ərazisində daha iri diametrli kəmərin çəkilməsi üçün vəsait olmadığından belə bir vəziyyət yaranıb. Vaxtilə normal ölçülü kəmər çəkmək üçün vəsait tapa bilməyən Ermənistanın indiki ac-yalavac dövrdə bu vəsaiti haradan tapacağı isə sual doğurur. Qeyd edək ki, 2007-ci ildə istifadəyə verilən kiçik diametrli İran-Ermənistan qaz kəməri ildə 2,5 milyard kubmetr qaz ötürməyə imkan verir. Bununla belə, Ermənistan daha az qaz alır və əvəzində İrana hər il 3,3 milyard kilovat/saat elektrik enerjisi ötürür.




Ancaq qəribədir ki, beynəlxalq layihələrdən kənarda qalan işğalçı ölkə bəzən İran qazının Rusiya vasitəsilə hətta Avropaya ötürüləcəyi barədə də xam xəyallara düşür. Bir sıra sanksiyalarla üz-üzə qaldığı və maliyyə problemləri ilə üzləşdiyi dövrdə isə bu, real görünmür. Mümkündür ki, İrəvan Rusiyanın Ermənistan-İran qaz anlaşmasına şərt təpki verəcəyindən ehtiyatlandığı üçün belə məlumatları dövriyyəyə buraxır və Kremli zərərsizləşdirmək istəyir. İrəvan İran qazının Gürcüstan vasitəsilə Rusiyanın Abxaziya vilayətinə qədər nəql oluna biləcəyindən də dəm vurur. Amma bütün bunlar arzu olaraq da ermənilərin ürəyində qala bilər. Yeri gəlmişkən, İran-Ermənistan qaz danışıqlarından az sonra aprel döyüşləri baş verdi ki, Rusiya həmin döyüşləri bir neçə gün ərzində sakitcə müşahidə etməklə Ermənistanı şoka saldı. Məhz bundan sonra İrəvanda "Rədd olsun Rusiya" tipli şüarlarla aksiyalar başladı. Son zamanlar Rusiyanın bir sıra dairələrində Kremlin İrəvanla soyuyan münasibətlərindən bəhs olunur. Eyni zamanda Rusiya-Azərbaycan əlaqələrində dinamika müşahidə edilməkdədir. Odur ki, İran-Ermənistan qaz anlaşmasının tətiklənməsi Rusiyaya qarşı cavab tədbiri də ola bilər. Ona görə də mümkündür ki, Ermənistan növbəti dəfə Rusiyanın tərs şapalağına tuş gəlsin...

❑ **Elşad PAŞASOY**



# "Azərbaycan heç zaman Ermənistana hücum planı qurmayıb"

**"Erməni general Arkadi Ter-Tadevosyanın Ermənistanın Azərbaycanı 20 dəqiqəyə büsbütün məhv edə biləcəyi ilə bağlı iddiaları tamamilə ağılsızlıq və sərxoş adamın sayıqlamasıdır. Özünə hörmət edən hərbçi sübut-dəlil göstərmədən belə bəyanat verməz".**

Ehtiyatda olan polkovnik Şair Ramaldanov bu sözləri virtualaz.org üçün erməni general-mayoru, "Kommandos" ləqəbli Arkadi Ter-Tadevosyanın "Yerkramas" qəzetinə verdiyi müsahibədəki sözlərini şərh edərkən deyib.

Erməni generalı yalan danışmaqda günahlandıran Ş.Ramaldanov deyib: "Azərbaycan heç zaman Ermənistana hücum planı qurmayıb. İşğal altında olan torpaqlarımızın azad edilməsi bizim tarixi hüququmuzdur. Biz qaçqınları, özü də bütün millətlərdən olan qaçqınları öz yurdlarına qaytarmaq istəyirik".

# Rusiya aviaşirkəti İrəvana uçuşlardan imtina etdi

**Rusiyanın aşağı büdcəli aviaşirkəti "Pobeda" Ermənistanın paytaxtı İrəvana aviareyslər həyata keçirməkdən imtina edib. Rusiya KİV-i xəbər verir ki, buna səbəb Zvartnots hava limanında gömrük rüsumlarının yüksək olmasıdır. (azvision.az).**

İrəvan hava limanında 1 sərnişin üçün rüsum 50 avro təşkil edir. Bu isə Rusiya aviaşirkətinin büdcəsinə uyğun deyil. "Pobeda"nın xarici marşrut istiqamətində 1 sərnişin üçün hava limanının rüsumu orta hesabla 10 avro təşkil edir. Bir sıra hava limanlarında isə bu xidmət ümumiyyətlə pulsuzdur.

Qeyd edək ki, "Pobeda" Rostovdan İrəvana, həmçinin Gümrüyə uçuşlar həyata keçirməyə icazə alıb.

**Zaman-zaman Rusiyanın Azərbaycan və Ermənistana fərqli münasibət sərgiləməsinin şahidi olmuşuq. Bunun üçün ötənlərə qısaca nəzər yetirmək kifayətdir. Aprel döyüşlərində yalnız üç gün susaraq gərgin döyüşləri müşahidə edən Rusiya daha sonra atəşkəsin əldə olunmasına nail oldu, sülh danışıqlarında dinamikanın əldə olunması üçün bəzi cəhdlər göstərdi. Lakin daha sonra tərəfləri "razılaşmaq" üçün baş-başa buraxmağı daha məqsədəuyğun sayaraq yenə də kənara çəkildi.**

# Moskva-İrəvan münasibətlərindəki gərginlik - oyun, yoxsa reallıq...

## Politoloq: "Kreml İrəvana öz nümayəndələri vasitəsilə demək istəyir ki, "mənim bütün əmrlərimi yerinə yetirməsən, Dağlıq Qarabağ məsələsində mövqeyimi dəyişə də bilərəm"



Ermənistanda anti-Rusiya dalğasının baş qaldırdığı yay aylarında qəfildən Serj Sərkisyan Moskvaya çağırıldı və onun ardınca Kremlin öz forpostuna münasibəti xeyli dəyişdi. Rusiya işğalçı ölkənin hava məkanını öz nəzarətinə aldı, Ermənistanla birgə hərbi birləşmələr yaradılmasına qərar verdi, son nəticədə isə Rusiyaya məxsus "İsgəndər" raket kompleksləri İrəvandakı hərbi paradda göründü. Əksəriyyət hesab edirdi ki, Rusiya həm bununla Azərbaycanı ondan daha çox silah almağa təşviq edir, həm də Ermənistandakı ictimai rəyi öz xeyrinə dəyişməyə çalışır.

Əslində zahirən Rusiyanın öz məqsədinə çatdığını da demək olar. Xüsusən də Ermənistandakı anti-Rusiya aksiyalarının səngiməsini xatırladaq bilərik. Son vaxtlar isə Rusiyanın Azərbaycanla əlaqələrə daha çox önəm verməsi, VII Azərbaycan-Rusiya regionlararası forum kimi birgə tədbirlərin keçirilməsi və s. addımlar çox güman ki, yenə də erməniləri silkələyəcək və onların növbəti dəfə "Rusiya Ermənistanı satdı, Qarabağı Azərbaycana qaytarır" kimi vay-şivənə başlayacaqları şübhə doğurmur.

Bir sıra rusiyalı ekspertlərin açıqlamaları isə belə düşüncələr yaradır ki, İrəvan-Moskva münasibətlərində yenidən gərginliklər mövcuddur. Hesab olunur ki, bu soyuqluğun bir səbəbi də Ermənistandakı anti-Rusiya ovqat və Qərbə yönəlik siyasi reveransların artmasıdır. Hətta bu arada Rusiyanın Avrasiya İqtisadi Birliyi institutunun direktoru Vladimir Lepexin Ermənistanı öz ərazisində Qərb institutlarının fəaliyyətini dayandırmağa və yerli QHT-lərin Qərbdən maliyyələşməsinin qarşısını almağa çağırıb. "Əks halda, Ermənistanın ağır nəticələrlə üzləşəcəyini, o cümlədən "Dağlıq Qarabağı itirəcəyini" deyib.

**Bu ilin sonuna kimi bəzi ərazilərin azad olunacağına ümidli olan Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov isə beş il əvvəl Qarabağ razılaşmasının son anda pozulmasından bəhs edib.** "Bu güzəşt 2011-ci ildə işlənib-hazırlanmış Kazan formuluna əsaslanmalı imiş. Kazan formulunun prinsipləri artıq hər kəsə məlumdur. Söhbət ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qaytarılmasından *(Ermənistanla dəhliz saxlanılması şərti ilə)* gedirdi. Dağlıq Qarabağın statusu isə gələcəkdə müzakirə olunmalı idi. Demək olar ki, razılıq əldə olunmuşdu, hər şey hazır idi, bircə imza atmaq qalmışdı. Lakin son anda Ermənistan rəhbərliyi qorxaraq geri çəkildi. Sərkisyan bu addımı atacağı təqdirdə, devriləcəyindən qorxdu və sülh müqaviləsinə imza atmaqdan imtina etdi"- Markov deyib.

**Bir sıra müşahidəçilər isə Rusiya-Ermənistan münasibətlərindəki soyuqluğun əslində görüntü məqsədi daşıdığını, bununla həm də Azərbaycanın başının altına yastıq qoyulduğunu güman edirlər.**

"Rusiya Azərbaycanı özünün dostu kimi qələmə verir, tez-tez birgə forumlar keçirilir, gediş-gəliş artır. Biz də Rusiya ilə münasibətlərdə gərginliyin tərəfdarı deyilik, əksinə, inkişafın və iqtisadi-ticarət əlaqələrinin həcminin artırılmasını istəyirik. Ancaq Azərbaycanın dostu olmağa iddialı ölkə ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışar. Təəssüf ki, biz bunu Moskvadan görmürük".

**Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında politoloq Elxan Şahinoğlu söylədi. Ekspertin fikrincə, Moskvanın mövqeyi budur ki, "gedin, özünüz Ermənistanla razılaşın". E.Şahinoğlu qeyd etdi ki, razılaşmanın mümkün olmadığı Kremlə aydındır:** "Biz gücümüzü göstərmək istəyəndə isə Kreml tələsik işə qarışaraq Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyünün qarşısını alır. Demək, Kreml Ermənistanın məğlub olmasını istəmir. Ermənistan məğlub olmayınca isə torpaqlarımızı işğaldan azad edə bilməyəcəyik. Ermənistan prezidenti Serj Sərkisyan açıq-aşkar işğalı və beləcə status-kvonu uzatmağa çalışır. Ancaq apreldən sonra bunu uzatmaq İrəvan üçün getdikcə çətinləşir. Ermənistan hakimiyyəti üzərində böyük dövlətlərin təzyiqini hiss etməsə belə, Azərbaycanın silahlanmasından, Bakının dostları ilə hərbi ittifaqlarını gücləndirməsindən, hətta Azərbaycan hakimiyyətinin Rusiyanı öz tərəfinə çəkə biləcəyindən ehtiyatlanır".

**Politoloq bir məqama da diqqət çəkdi:** "Təsadüfi deyil ki, Rusiyanın Avrasiya İqtisadi Birliyi institutunun direktoru Vladimir Lepexin "Novosti Armeniya" agentliyinə müsahibəsində deyib ki, Qərb institutları Ermənistanda fəaliyyətlərini dayandırmasalar və yerli QHT-lərin Qərbdən maliyyələşmələrinin qarşısı alınmasa, İrəvan Dağlıq Qarabağı itirə bilər. Əslində bu sözlər rəsmi İrəvana ultimatumdur və Ermənistan hakimiyyəti Rusiyanın Avrasiya İqtisadi Birliyi institutunun direktorunun dilindən deyilən bu sözləri Kremlin mesajı kimi də qəbul edə bilər. Əlbəttə, Kreml Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməyə çalışmır, ancaq Moskva münaqişənin varlığından Ermənistan hakimiyyətini daima qorxu altında saxlamaq üçün istifadə edir. Yəni Kreml İrəvana öz nümayəndələri vasitəsilə demək istəyir ki, "mənim bütün əmrlərimi yerinə yetirməsən Dağlıq Qarabağ məsələsində mövqeyimi dəyişə də bilərəm". Belə çıxır ki, Moskva münaqişəni həll etmək əvəzinə, onun konservləşdirilmiş vəziyyətdə saxlamaq istəyir ki, Ermənistanı qul kimi yanında saxlaya bilsin". **E.Şahinoğlu bildirdi ki, Ermənistan Azərbaycanla üz-üzə qalarsa, Dağlıq Qarabağ üzərindəki nəzarətin itirilə biləcəyindən də qorxur:** "Məhz buna görədir ki, son günlər Ermənistanda siyasətçilər və ekspertlər arasında "Dağlıq Qarabağın müstəqil dövlət kimi qalması yaxşıdır, yoxsa Ermənistana birləşdirilməsi" mövzusu ətrafında geniş diskussiya gedir. Yəni Ermənistanda ən azı anlayırlar ki, Dağlıq Qarabağın "müstəqil dövlət" kimi varlığı uzun çəkməyə də bilər".

**"Rusiyanın "İsgəndər" raketlərini Ermənistana verməkdə məqsədi Dağlıq Qarabağ məsələsi deyil. Burada əsas məqsəd Gürcüstanı nişan almaqdır". Bu fikri isə azadinform-a politoloq Mübariz Əhmədoğlu deyib. O bildirib ki, son zamanlar Gürcüstana ABŞ və NATO-nun hərbi gəmiləri gəlir. Rusiya isə bundan narahatdır:** "Hesab edirəm ki, Rusiya "İsgəndər"i Ermənistana buna görə verib. Rusiya bu məsələyə çox ciddi reaksiya verir". Politoloqun sözlərinə görə, Rusiya hesab edir ki, ABŞ və NATO-nun Qara dənizdə, Baltikyanı regionda, Ukrayna və Gürcüstanda hərbi qüvvələri yığmaqda məqsədi odur ki, Rusiyanın Suriyada apardığı kampaniyaya maneə olsun: "Ona görə də Rusiya hazırda Suriyada öz qoşunlarını möhkəmləndirir. Admiral Kuznetsov artıq Aralıq dənizinin Suriya sahillərinə yan alıb. Bu da ABŞ və NATO-da narahatlıq yaradır. Çalışırlar ki, Qara dəniz və Baltikyanı ərazilərdə hərbi manevrlər etməklə "Admiral Kuznetsov"u geri qaytarsınlar".

**M.Əhmədoğlu hesab edir ki, regionda hərbi gərginlik nə qədər az olsa, bir o qədər yaxşıdır:** "Digər tərəfdən, yaranmış qarşıdurma ermənilərin təxribatına cavab verməyə yaxşı geosiyasi şərait yaradır. Bunu da nəzərə almaq lazımdır ki, ABŞ və Rusiyanın başı qarışıqdır. Hazırda Dağlıq Qarabağ onların yadına düşmür. Rusiya bütün kosmik qüvvələrini Suriya və Mosula yönəldib. Bizim region demək olar yaddan çıxıb. Azərbaycan ermənilərin hərbi təxribatına hərbi yolla cavab versə, daha yaxşı uğur əldə edə bilərik".

❑ E.PAŞASOY



# "Rusiya Azərbaycanın müttəfiqi deyil, tərəfdaşıdır"

## Bakıda keçirilən Azərbaycan-Rusiya forumuna ekspertlərdən reaksiyalar gəldi

**Bakıda keçirilən "Əməkdaşlıq körpüsü" adlandırılan VII Azərbaycan-Rusiya regionlararası forumu son günlərin mühüm hadisələrindən oldu. Forumda hər iki ölkənin hökumət üzvləri, iş adamları və media təmsilçiləri iştirak edib. Forum çərçivəsində Azərbaycan və Rusiya arasında əməkdaşlığa dair 12 sənəd imzalanıb.**

Ekspertlər bu forumun hər iki ölkə arasında iqtisadi-siyasi sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynayacağını qeyd edirlər.

**Siyasi ekspert Elxan Şahinoğlu** hesab edir ki, hər iki ölkə birgə əməkdaşlıqda maraqlıdır: "Əvvəlki illərdə mərkəzi hakimiyyətlər əməkdaşlıq edirdilər. Amma görünən odur ki, bu əməkdaşlıq yerlərə çatmayıb. Bu baxımdan, gözəl təşəbbüsdür. Azərbaycan Rusiyanın fərqli bölgələri ilə də əməkdaşlıq qurmaq istəyir. Amma Dağıstanın rəhbəri açıqlama verdi ki, əməkdaşlıq yüksək səviyyədə deyil. Elə məhsullar var ki, Azərbaycan onu üç dəfə baha qiymətə digər ölkələrdən alır, halbuki bizdən almalıdır. Dağıstan rəhbərliyi dəfələrlə Azərbaycana gəlib, eləcə də Azərbaycan rəsmiləri ora səfər ediblər. Amma maraqlıdır ki, bu əməkdaşlıq hələ də yüksək səviyyəyə qalxmayıb. Düşünürəm ki, əməkdaşlıq çox vacibdir. Həştərxanın bir rayonunda azad iqtisadi zona yaradılıb. Rusiya ilə iqtisadi əməkdaşlıq bizim üçün çox vacibdir. Ölkə başçısının özü də qeyd edir ki, neft erası başa çatıb. Son məlumata görə, Azərbaycana turistlərin 30%-i Rusiyadan gəlib. Bizim uzun onilliklərdir işlədiyimiz Rusiya bazarıdır. Bəzən Rusiya sərhədində maneələr yaradılır. Bu maneələr aradan qaldırılmalıdır. Forumda bunlar dilə gətirilmədi. Amma istənilən halda, bu forumu gərəkli sayıram. Siyasi zəmində daha çox əhəmiyyətlidir. Çünki Rusiya görür ki, Azərbaycan onların müxtəlif bölgələri ilə əməkdaşlığa can atır. Ona görə də Azərbaycanla əməkdaşlığı vacib sayır. Təəssüf ki, bu əməkdaşlıq Dağlıq Qarabağ məsələsinin həllində mühüm rol oynamır. Düşünürəm ki, Rusiyanın bölgələri ilə əməkdaşlıq bizə siyasi və iqtisadi istiqamətlərdə dividentlər gətirər. Bu məsələlərə pozitiv baxıram. Düzdür, Rusiyanın siyasəti ilə bağlı daim ciddi suallarım olub. Əgər Rusiya ilə əməkdaşlıqdan iqtisadi mənfəət əldə etmək mümkündürsə, bundan qaçmaq düzgün deyil. Əgər ölkəyə gələn turistlərin çoxu Rusiyadan gəlirsə, bunun artırılması yolları barədə düşünməliyik. Gəlib nə qədər çox pul xərcləsələr, büdcəyə pul o qədər də çox daxil olar. Bu məsələdə optimistəm. Rusiya hələ ki Azərbaycanın müttəfiqi deyil, tərəfdaşıdır. İşğalçı ölkə bizə müttəfiq ola bilməz".

**Politoloq Qabil Hüseynli Azərbaycan-Rusiya münasibətlərinin daim yaxşı olduğunu qeyd etdi:** "Belə forumun keçirilməsi münasibətlərin daha da yaxşılaşdırılmasına təkan verə bilər. Düzdür, forumun səviyyəsi dövlət səviyyəsində keçirilən forum deyildi. Burada verilən qərarlar düşünürəm ki, tövsiyə xarakteri daşıyır. Amma forumda kifayət qədər tanınmış şəxslər iştirak edirdilər. Onların siyasi nüfuzu və hökumətlərə təsir riçaqları var. Onlar münasibətlərin yeni səviyyəyə qalxmasına töhfə verə bilərlər. Bu, indiki dövrdə xüsusilə vacibdir. Əhəmiyyətli bir forum olduğunu düşünürəm. Münasibətlərdə fundamental gedişin başlanğıcı qoyuldu. Gələcəkdə belə forumların müntəzəm keçirilməsinin həm də ənənəsi yaradıldı. Belə forumlar indiki şəraitdə Rusiya-Azərbaycan münasibətlərinin yeni səviyyəyə qaldırılmasında əhəmiyyətli rol oynaya bilər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

# "Lotu Quli"nin "Marneuli klanı"-kimlər var?

**Rusiyanın hüquq-mühafizə və xüsusi xidmət orqanları paytaxt Moskva və ətraf rayonlarda Azərbaycan mütəşəkkil cinayət şəbəkəsinin görünməmiş aktivliyindən narahatdırlar.**

Virtualaz.org xəbər verir ki, bu haqda "Rosbalt" agentliyinə Rusiya xüsusi xidmət orqanlarındakı mötəbər mənbə bildirib.

Mənbənin bildirdiyinə görə, Moskva şəhəri və Moskva vilayətinin şəhər və rayonlarında azərbaycanlılardan ibarət mütəşəkkil cinayətkar qruplar görünməmiş dərəcədə aktivləşiblər. Bu, məşhur azərbaycanlı kriminal avtoritet "Lotu Quli" (Nadir Səlifov) və "Vaqif Bakinski" kimi tanınan Vaqif Süleymanovun qruplaşmalarının birləşməsindən yaranan yeni cinayətkar sindikatdır.

Xüsusi xidmət orqanlarındakı mənbənin məlumatına görə, yeni kriminal konqlomerat bu ilin yayında formalaşıb. Daha sonra ona "Rəşad Gəncinski" kimi tanınan digər kriminal avtoritet Rəşad İsmayılov da qoşulub. "Lotu Quli" yeni kriminal konqlomeratın liderdir və mənbə bildirir ki, hazırda o, ən güclü yaraqlılar "ordusuna" malik olan "vor zakon"dur. Öz növbəsində "Vaqif Bakinski" və "Rəşad Gəncinski" Moskvada iri ticarət mərkəzlərinə və topdansatış bazalarına malik olan iri azərbaycanlı biznesmenlərlə yaxın əlaqələrə malikdir.

Bildirilir ki, yeni klan bir-birinin ardınca Moskva və Moskvaətrafında gəlirli ticarət obyektlərini, ticarət mərkəzlərini, bazarları öz nəzarətlərinə alır. "Lotu Quli"nin klanı digər kriminal qruplaşmaları Moskva başda olmaqla, böyük şəhərlərdən sıxışdırıb çıxarmaqdadır. Mənbə bildirib ki, "Lotu Quli"nin başçılıq etdiyi klan öz qüvvələrini Moskvaya toplayır. Bu proses yeni qanqster müharibəsinin başlamasına səbəb ola bilər. "Rusiya xüsusi xidmət orqanları yaxınlarda ölkənin bir çox şəhərlərində qanlı kriminal qarşıdurmaların olacağından narahatdır", - deyə mənbə bildirib.



Xatırladaq ki, bugünlərdə "Rosbalt" Rusiya xüsusi xidmət orqanlarındakı mənbələrə istinadən "Rövşən Lənkəranski"nin qətlinin motivlərini açıqlayıb. Məlum olub ki, onu "Vaqif Bakinski"nin klanına daxil olan "göyərti kralı" Canbulat Şamiloğlunun qətlinə görə öldürüblər. "Rövşən Lənkəranski"nin qətlinin "Lotu Quli"nin dəstəyi sayəsində baş verdiyi bildirilir. Mənbə bildirirdi ki, "Rövşən Lənkəranski"nin qətlindən sonra onun aktivləri uğrunda müharibə başlayır. Rəqib qruplaşma onun "krışası" altında olan obyektləri ələ keçirməyə başlayıb.

"Rövşən Lənkəranski"nin qətlindən sonra onunla uzun illərdir ki, konfliktdə olan "Quli"nin önə çıxacağı gözlənilən idi. "Ded Xasan" klanına sadiq olan "Quli" Otar Bədəlovdan sonra "Marneuli klanı"nın lideri hesab olunur. "Lotu Quli"nin ən yaxın dostu hesab edilən Otar Bədəlov *("Otar Marneulski")* 2003-cü il martın 21-də Moskvadakı "Sushi" adlı barda öldürülməsindən sonra "Quli"nin azərbaycanlı "qanuni oğru"larla münasibəti daha da pisləşmişdi. Otarın qətli Azərbaycan kriminal qruplaşmalarını iki

## "Rövşən Lənkəranski"nin qətlindən sonra onunla uzun illərdir ki, konfliktdə olan Nadir Səlifovun önə çıxacağı gözlənilən idi

barışmaz düşərgəyə böldü. Bundan sonra "Lənkəranski" yə "qanuni oğru" adı vermiş "Nardaranlı Mirseymur" qətlə yetirildi. "Peşera" barına gələn iki killer Mirseymura "Steçkin" tipli tapança-avtomatdan 12 güllə vurub. Azərbaycanlı "qanuni oğru" xəstəxanaya çatdırılmamış həyatla vidalaşıb. İddia olunur ki, Hikmət Muxtarovun *("Sabirabadlı Hikmət")* qətli də məhz Otarın öldürülməsinə "Marneuli klanı"nın intiqamı olub. Hikmətin qətlindən sonra onun nəzarət etdiyi obyektlərə sahiblənmiş "Lənkəranski" də intiqam almaqdan vaz keçməyib. Məsələn, "Vaxa Marneulski" kimi tanınan Baxış Əliyevin qətlini yada salaq. Odessada güllələnən "Vaxa" bəzi mənbələrə görə, "Quli"nin qan qohumu idi. 2012-ci ilin noyabrında "Ded Xasan"ın rəhbərliyi ilə keçirilən toplantıda "Lənkəranski"nin "oğru" adının alınması barədə qərarı imzalayanlar arasında "Lotu "Quli" ilə yanaşı "Vaqif Marneulsiki"nin və "Vaxa"nın da adı vardı.



"Vaqif Marneulski"

Ümumiyyətlə, "Lənkəranski"nin Gürcüstan doğumlu azərbaycanlı "qanuni oğru"larla münasibətləri həmişə kəskin olub. Bu sırada "Vaqif Marneulski" də var. "Rövşən Lənkəranski"nin "Vaqif Marneulski" arasında konflikdən danışarkən 2010-cu ildə keçirilən bir "sxodka"nı yada salmaq lazım gəlir. 2010-cu ilin avqustunda V.Süleymanov münasibətlərini aydınlaşdırmaq üçün Rublevski yaxınlığında "Lənkəranski"yə yaxın "qanuni oğru" Cemal və Mamuko Mikeladze qardaşlarının kottecində toplaşıblar. Məlumatlar var ki, bu "sxodka" məhz "Cemo" söz alandan sonra davaya çevrilib. Onun azərbaycanlı "qanuni oğru"ya iradına Vaqif Süleymanov adekvat cavab verib. "Cemo" Vaqifi vurmaq istərkən *("qanui oğru"ya əl qaldırmaq bağışlanılmaz səhv sayılır)* özü zərbə alıb. Bu "sxodka"dan sonra "Lənkəranski" ilə münasibətlər daha da pisləşib. "Cemo" isə Bıtırkada "Vaqif Marneulski" nin təşkil etdiyi "sxodka" da adını itirib...

50 yaşlı "Vaqif Marneulski" 2001-ci ildə "qanuni oğru" adını alıb. Onun "Quli" ilə güclərini birləşdirməsi Rusiyada azərbaycanlıların mövqelərinə təsir edə bilər. Belə ki, "Lənkəranski"nin qətlindən sonra azərbaycanlıların bazarlardan sıxışdırılması prosesi vüsət alıb.

❑ «YM»

# YAP-çı deputatdan siyasi məhbus siyahısı hazırlayanlara sərt ittiham

## Bəxtiyar Sadıqov: "Siyahıları tərtib edənlərə yaxşı qrantlar verirlər"

**Siyasi məhbuslarla bağlı hazırlanan 94 və 166 nəfərlik siyahı ətrafında yaranan narazılıq bitmək bilmir. Hər keçən gün qalmaqal nəinki böyüyür, səslənən ittihamların sayı sürətlə artır. Mətbuat və sosial şəbəkələr səviyyəsində təhqir və tənqidlər havada uçuşur.**

Siyasət meydanında illərin dostları olan şəxslər məhz bu siyahılara görə qısa müddətdə düşmənə çevriliblər. Araşdırmaçı jurnalist Xədicə İsmayılın başçılığı ilə hazırlanan 94 nəfərlik siyahının tərəfdarları qarşı tərəfi geniş siyahı hazırlamaqla Avropadan gələn qrantların məbləğini artırmaq istəyində ittiham edirlər. Öz növbəsində hüquq müdafiəçisi Leyla Yunusun hazırladığı 166 nəfərlik siyahını müdafiə edənlər isə əks tərəfi hakimiyyətə işləməkdə və bunun üçün hakimiyyətin marağına xidmət edən siyahı hazırlamaqda suçlayırlar.

İqtidar düşərgəsinin isə siyahılara münasibəti birmənalıdır. Hakimiyyət nəinki hər iki siyahını qəbul edir, Azərbaycanda, ümumiyyətlə, siyasi məhbusların olmadığını bildirir.

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov** "Yeni Müsavat"a açıqlamasında siyahı hazırlayanları sərt şəkildə tənqid etdi: ""Bəxt üzüyü" adında məşhur film var. Orada şair Moşunun qələmi əlindən düşür, Söylüyə deyir ki, qələm hanı, qələm düşdü. Söylü deyir ki, qələm demə, çörək ağacı de. Azərbaycanda adını hüquq müdafiəçisi qoyan şəxslər, siyasi partiyalar var ki, siyasi məhbus siyahısı onlar üçün Moşunun çörək ağacı kimi bir şeydir. Əvvəla, bilmək lazımdır ki, siyasi məhbus kimdir? Onun kriteriyaları nədir? Beynəlxalq qurumlar konkret müəyyən etməyiblər ki, hansı əlamətləri olanlara siyasi məhbus deyilir, yaxud hansı əlamətlərdən məhrum olanlar adi məhbuslardır. Bu bir faktdır ki, beynəlxalq qurumlar, xarici ölkələr siyasi məhbus anlayışından digər dövlətlərə, xüsusilə yeni müstəqillik qazanmış ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Əslində siyasi məhbus anlayışı ikili standartların ən parlaq nümunələrindən



biridir. Bir ölkədə eyni halla tutulanlar siyasi məhbus sayılır, digər ölkələrdə isə cinayətkar. Dini radikalizmlə bağlı terrorçuluqda, Azərbaycanda mövcud quruluşu dəyişmək istiqamətində fəaliyyət göstərməkdə ittiham olunan şəxslər bizim ölkədə siyasi məhbus kimi qələmə verilir. Ölkə daxilində bu şəxslərin siyasi məhbus siyahılarına adlarını salmağa dəfələrlə cəhdlər olub. Necə ki, son məhbus siyahılarında bununla bağlı yaranan qalmaqal bunu açıq şəkildə göstərdi. Amma digər ölkələrdə bu insanlar birbaşa terrorçu kimi qiymətləndirilir. Hətta daha ağır cinayət hesab olunur. Bütün dünya terrordan əl çəkir. Ona görə də terrorizm ən ağır cinayət sayılır. İki siyahı var ki, onun biri Leyla Yunusundur. Onu çox yaxşı tanıyırıq. Ömrü boyu Azərbaycanın milli maraqlarına qarşı çıxış edib, ermənilərlə əməkdaşlığı olub. Sonuncu dəfə o, bizim yadımızda qanun nümayəndəsi olan polisi təhqir edən, papağını götürüb yerə atan, prezidentimizin təbirincə desək, ünsür kimi qalıb. Sonradan o çox zarıdı, xəstəyəm filan dedi. Azərbaycan dövləti buna rəhm elədi. Ona hətta imkan verildi ki, xaricdə müalicə olunsun. Ora çatan kimi yenidən əvvəlki ənənələrinə qayıdıb. O, antiazərbaycançı şəbəkənin əlində oyuncağa çevrilən insandır. Siyasi məhbus siyahısı onun üçün çörək ağacıdır. Eyni zamanda AXCP sədri Əli Kərimli və daxil olduğu qurum daim bundan çörək ağacı kimi istifadə ediblər. Bu siyahıları tərtib edənlərə yaxşı qrantlar verirlər. Bu qrantları antiazərbaycançı şəbəkə verir".

**İqtidaryönlü deputat hazırlanan siyahıların Azərbaycanın əleyhinə yönəldiyini də qeyd etdi:** "Siyahılarda siyasi məhbus kriteriyaları, ümumiyyətlə, nəzərə alınmayıb. Siyahıda hazırda məhkəməni gedən şəxslər də var. Biz konkret bilirik ki, siyahıda adı olanlar hansı cinayətləri törədiblər. Bu dəqiqə hüquq müdafiəçisi adını almaq çox asandır. Bir dənə QHT yarat, adını qoy, sonra ol hüquq müdafiəçisi. Bundan sonra olursan toxunulmaz şəxs. Cinayət də törətsən, sənə heç kim toxunmalı deyil, bu, mətbuat və söz azadlığına qəsddir. Açığı, mənə təəccüblü deyil ki, bu siyahılar üstündə dava düşüb. İki siyahı var, üçüncü mövqe də var. Əslində bu, siyahı davası deyil. Bu, Azərbaycana xəyanət edib, antiazərbaycançı qüvvələrin ölkəmizə təzyiq etmək üçün hazırlanan siyahıdır. Özləri bununla pul qazanacaq, o şəbəkə də hesab edir ki, bununla Azərbaycana təsir göstərəcək. Amma Azərbaycan müstəqil dövlətdir. Müstəqilliyimizin 25 illiyini qeyd etmişik. Sonuncu dəfə Avropa İttifaqında məlum ədalətsiz qərar oldu. Azərbaycan özünün çox doğru və kəskin addımını atdı. Nəticə ortadadır. Nə iki standartlardan, nə siyasi məhbus siyahısı ilə, nə də başqa vasitələrdən Azərbaycana nəinki təsir, heç təzyiq də göstərmək mümkün deyil. Azərbaycanın özünün yolu var. Bu yol milli maraqlara söykənir. Bu yolla ölkəmiz qətiyyətlə gedir. O insan ki cinayətkardır, məhkəmənin qərarı ilə cəzasını çəkməlidir. O insanlar ki, Azərbaycana xidmət edirlər, öz yolları ilə gedirlər. O insanlar Azərbaycanın rəsmən vətəndaşı olsalar da, qəlbən vətəndaşı deyillər. Bu yolla meydana atılanların özləri gülüş gündədirlər. Azərbaycana xidmət davası deyil, Azərbaycana adından istifadə edib özlərinə qrantlar qazanmaq davasıdır. Bu insanda təəssüf hissi yaradır ki, heyf ki beləri də azərbaycanlıdır".

❑ **Cavanşir ABBASLI**

## “Hərb, yoxsa sülh” məsələsi ətrafında mühüm gəlişmə




# Bakı İrəvanın arzusunu gözündə qoydu - düşmənin “İsgəndər” fiaskosu

Rusun raket kompleksləri ilə hərbi paritetə ümid edən Ermənistana qarşı Azərbaycanın cavab tədbirləri sərtləşir; müdafiə sənayesi naziri Yavər Camalovun Pakistana gözlənilən səfərinin ilginc pərdəarxası; Netanyahu Azərbaycana nə ilə gəlir, təcavüzkarın öz müttəfiqi Moskvaya arxayınçılığına əsas varmı?..

**Bu günlər Rusiya-Azərbaycan münasibətlərində mühüm hadisə - hökumətlərarası forumun Bakı iclası ilə yadda qaldı. Gələn ayın əvvəlində isə Rusiya baş nazirinin müavini, hərbi-sənaye kompleksini kurasiya edən, prezident Putinin yaxın adamlarından sayılan Dmitri Roqozin Bakıya gələcək. Rusiyanın Minsk Qrupunun üç həmsədrindən biri və işğalçı Ermənistanın əsas müttəfiqi olduğu nəzərə alınarsa, hər iki hadisənin qarşılıqlı münasibətlərdə məxsusi iz buraxacağını söyləmək mümkündür.**

“Rusiya Azərbaycana ən müasir silahlar və ticarət əlaqələrində bir sıra üstün imtiyazlar tövsiyə edəcək”. Bunu axar.az-a Roqozinin qarşıdakı Bakı səfərini şərh edən **sabiq dövlət müşaviri Qabil Hüseynli** deyib. O, Azərbaycanın hökumətlərarası komissiyanın iclasından çox şey gözlədiyini vurğulayıb: “Bugünlərdə Azərbaycan-Rusiya münasibətlərinə dair forum keçirildi. Bu forum iki ölkə münasibətlərini müttəfiqlik səviyyəsinə qaldırmaq məqsədi daşıyırdı. Hətta tərəflər öz hökumətlərinə müəyyən tövsiyələr hazırlayıb təqdim etmək niyyətindədirlər. Bunun ardınca hökumətlərarası komissiyanın iclası olacaq. Roqozinin Bakıya səfəri isə indiki ərəfədə əlamətdar sayıla bilər. İclas konstruktiv bir məcrada keçəcək. Yəni Rusiya Azərbaycana ən müasir silahlar və ticarət əlaqələrində bir sıra üstün imtiyazlar tövsiyə edəcək”, - politoloq deyib.

**Rəsmi Bakının sözügedən iclasa çox ciddi surətdə hazırlaşdığını deyən politoloq yaxın zamanlarda Rusiya ilə birgə hərbi istehsalın təşkili istiqamətində perspektivlərin mümkünlüyünü də istisna etməyib:** “Hazırda qarşıda duran əsas məsələ Ermənistana verilən ”İsgəndər-M" raketlərini neytrallaşdıran cavab tədbirləri görməkdir. İsrailin baş nazirinin ölkəmizə səfərinə böyük ümidlər gözlənilir, ancaq Moskva ilə münasibətlər də önəmlidir. Güman edirəm ki, Roqozinin səfəri Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi istiqamətində yeni yollar açacaq. Azərbaycan çalışır ki, özünün müstəqil hərbi sənaye kompleksini formalaşdırsın. Ordunun müasir silahlarla silahlandırılması sahəsində, hələ ki bəzi dövlətlərdən asılılığımız qalır. Xüsusən Rusiya ilə silah alverində müəyyən imkanlar yaradılır və Azərbaycan da bu imkanlardan öz mənafeyi naminə istifadə edəcək. Hesab edirəm ki, Azərbaycan hərbi üstünlüyünü təmin etmək üçün lazım olan addımları atacaq və çox güman ki, Rusiya da buna müsbət cavab verəcək".

***

D. Roqozinin Bakı səfərinədək, yəni noyabrın sonunda isə Azərbaycanın hərbi sənaye naziri Yavər Camalovun Pakistana səfəri nəzərdə tutulur. Bu haqda “İnterfax-Azərbaycan” agentliyinə diplomatik qaynaqlardan bəlli olub. Nazirin Karaçidə keçiriləcək müdafiə sənayesi sərgisində iştirak edəcəyi bildirilir.

Daha önəmlisi, əlbəttə ki, səfərin iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın genişləndirilməsi fonunda baş tutmasıdır. Belə ki, Azərbaycanın yeganə nüvə müttəfiqi, qardaş Türkiyə qədər bizə yaxın olan dost Pakistanın baş naziri Məhəmməd Nəvaz Şərifin ötən ay Bakıya etdiyi səfərdən sonra hərbi sahədə ilişkilər yeni mərhələyə qədəm qoyub.

Bu səfərin məntiqi nəticəsi kimi dünən məlum olub ki, İslamabad Azərbaycana 500 milyon dollar dəyərində müdafiə məhsullarının tədarükünü sürətləndirməklə bağlı hərəkət planını təsdiqləyib. Məlumatı Pakistanın rəsmi radiosu yayıb. Qərar İslamabadda idarələrarası İşçi Qrupunun iclasında qəbul edilib. İşçi qrup bununla bağlı 5 illik plan da təsdiqləyib. Sözsüz ki, Y.Camalovun Pakistan səfirinin gündəliyində bu mövzu öndə olacaq.

***

Yada salaq ki, Azərbaycan prezidenti İlham Əliyev Bakıda Nəvaz Şəriflə görüşü zamanı Azərbaycanın Pakistandan yeni nəsil, müasir hərbi texnologiyalara və avadanlıqlar almaqda, eyni zamanda ortaq istehsalın təşkilində maraqlı olduğunu bildirmişdi.

Pakistanın bizim əsas silah tədarükçülərindən biri olduğu məlumdur. Hərbi analitiklərə görə, Bakı bu ölkədən daha müasir müdafiə və hücum sistemləri almaqla, onların ortaq yerli istehsalına nail olmaqla işğalçı Ermənistan üzərində əzici hərbi üstünlüyünü saxlaya bilər.

Təbii ki, İsraillə də uğurla inkişaf etdirilən hərbi-texniki əlaqələrin əhəmiyyəti böyükdür. Bu xüsusda politoloq Qabil Hüseynlinin də vurğuladığı kimi, İsrail baş naziri Benyamin Netanyahunun Bakıya gözlənilən səfəri düşmənin yuxusunu qaçıran növbəti hadisə ola bilər. O mənada ki, həmin səfər işğalçı tərəfin “İsgəndər M”lər və digər bəzi rus silahları vasitəsilə Azərbaycanla hərbi paritet yaratmaq istəyinin üstündən xətt çəkilməsini sürətləndirəcək.

Söhbət bu kimi raket komplekslərinə qarşı İsrailin “Dəmir günbəz” və “Sehirli çubuq” adlanan qalxan sistemlərinin alınmasından gedir. Bəzi məlumatlara görə, “Dəmir günbəz” Azərbaycanda əslində var, sadəcə, onun daha da modernləşdirilməsi gündəmdədir. Burdaca xatırladaq ki, hazırda İsrailin müdafiə naziri Azərbaycanın yaxın dostu Aviqdor Libermandır.

***

İstənilən halda, təqdirediciir ki, Azərbaycan Rusiya ilə silah ticarətinin minimum səviyyədə saxlamaqla, bizə qat-qat yaxın olan müttəfiq, tərəfdaş və hərbi sənayesi inkişaf etmiş dövlətlərlə *(Pakistan, Türkiyə, İsrail, Ukrayna)* hərbi-texniki əməkdaşlığın həcmini artırmağa başlayıb.

Hər necə olmasa, Rusiya Ermənistanın əsas hərbi-siyasi müttəfiqidir. Ancaq Bakının silahlanma məsələsində geniş manevr imkanları və üstün iqtisadi potensialı var. Bu da o deməkdir ki, təcavüzkar ölkə hətta Rusiya hesabına da Azərbaycanla hərbi paritet yarada, silahlanma yarışına girə bilməyəcək.

❑ **Siyasət şöbəsi**

# Kəlbəcər girovları ilə bağlı MTN rəhbərliyinə ittihamlar



**2014-cü il iyul ayında Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailə üzvləri onların həyatının təhlükə qarşısında olduğunu bildirib.**

Onlar Beynəlxalq Qırmızı Xaç Komitəsindən (BQXK) narazılıqlarını ifadə ediblər və bir neçə gün əvvəl qurumun Bakı nümayəndəliyinin qarşısına toplaşıb etirazlarını şəxsən çatdırıblar. Şahbaz Quliyevin sonuncu məktubunda “Dilqəmi başqa yerə apardılar” yazması isə girovların ailələrində daha çox narahatlıq yaradıb. D.Əsgərovun oğlu atasının həyatının təhlükə qarşısında olduğunu deyib və müvafiq qurumlardan yardım istəyib. Bəs Kəlbəcər girovlarını necə xilas etmək olar?

**Qarabağ müharibəsi veteran, sabiq milli təhlükəsizlik xidməti zabiti İlham İsmayıl “Yeni Müsavat”a açıqlamasında bunları söylədi:** “Bir az öncə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının internet saytına nəzər saldım. Bildiyim məlumatlara xüsusi bir əlavə görmədim. 3098 nəfər hərbçi, 726 nəfər mülki şəxs olmaqla, 3824 nəfər axtarışdadır. Bu rəqəmlər köhnədir, amma bu rəqəmlərin içərisindəki iki ad təzədir-hələ köhnəlməyib: Dilqəm Əsgərov və Şahbaz Quliyev. Düzdür, zaman kəsiminə baxmayaraq 3824 nəfərin hər biri onun doğmaları üçün əzizdir, amma etiraf edək ki, Dilqəmlə Şahbaz cəmiyyətimizin təzə açılmış, qaysaqlanmamış yarası, dərdidir. Bəs ölkə olaraq onları girovluqdan - hərbi əsir sayılmır - azad etmək üçün nə edirik? İlk olaraq bu vəzifə dövlətin üzərinə düşür. Öz adıma deyirəm ki, dövlətin bu istiqamətdə bu günədək heç bir təsirli addımını görməmişəm. Adını çəkdiyim komissiyanın fəaliyyəti də sanki hesabat xətrinədir. Əvvəla, deyək ki, bu komissiyaya uzun müddət sədrlik etmiş Eldar Mahmudov bütün işlərlə məşğul olub, bircə birbaşa məsul olduğu işlərdən başqa”.



**İlham İsmayıl:**
“Xüsusi xidmət orqanı kimi vaxtilə MTN heç bir əks-əməliyyat həyata keçirməyib ki, Dilqəmlə Şahbazı dəyişə bilsin”

**İ.İsmayıl hesab edir ki, bu komissiya Beynəlxalq Qırmızı Xaç təşkilatı qarşısında da təsirli tələblər qoymayıb:** “Xüsusi xidmət orqanı kimi vaxtilə MTN heç bir əks-əməliyyat həyata keçirməyib ki, Dilqəmlə Şahbazı dəyişə bilsin. Dövlət tərəfindən humanitar sahədə dünya səviyyəsində görülən çoxsaylı xeyirxah tədbirlərin birinin əvəzi olaraq düşmən əlində olan Dilqəmin, Şahbazın azad olunması xahişi edilibmi? Ermənistana təsir imkanları olan elə Fransadan, Rusiyadan bu istiqamətdə xahişlər olunubmu? Axı istər Fransa, istər Rusiya üçün çox xeyirxah işlərin icraçısı Azərbaycan olub. Roma Papasından necə? Vatikan üçün də axı nələrsə edilib. Dilqəmin, Şahbazın dövlət səviyyəsində azad edilməsi iqtidara bu iqtisadi böhrana baxmayaraq, xeyli divident gətirərdi. Xalq Qarabağla bağlı bütün baş verənlərin müsbət həllinə xüsusi həssaslıqla yanaşır, bir olanı on dəfə şişirdir. Diplomatik yolla, əməliyyat yolu ilə heç bir uğur yoxdur, ona görə ki, ümumiyyətlə, bu insanların azadlığı üçün iş görülməyib. Bugünlərdə bir deputat Azərbaycanın xüsusi xidmət orqanları ilə MOSSAD-ın ciddi əlaqələri olduğunu qeyd edib. O hardan bilir başqa mövzunun söhbətidir, amma Afrikadan tutmuş Argentinayadək yəhudi soydaşlarından ötrü ağlagəlməz əməliyyatlara imza atmış bu əfsanəvi təşkilatla da, bəlkə bu barədə fikir mübadiləsi aparsınlar. Variantlar çoxdur... Gözümüzün qabağında açıq-aşkar Ermənistan iki soydaşımıza, iki vətənpərvərə, iki türkə işgəncə verir, ölümün bir addımlığındadırlar”.

**Bəzi ekspertlər hesab edir ki, girovları azad etmək üçün düşmənin qarşısına vaxt qoymaq, bu vaxtın tamamında isə onlar azad etmək üçün beynəlxalq hüquqa əsaslanıb əməliyyatlara başlamaq olar. Bu variant real görünürmü? İ.İsmayıl:** “Dilqəmgilin azadlığı üçün vaxt istənilsə, iki ağır nəticəsi ola bilər. Birincisi, Dilqəmgilin səhhət problemini yaradıb onların ölümünə qərar verə bilərlər. İkincisi, hətta salamat qalarlarsa və bizim verdiyimiz vaxt bitib heç bir iş görə bilməsək, bu, daha ağır nəticədir. Bu bizim hərbi ritorikanın da üstündən xətt çəkir, qeyri-ciddiliyimizi sübut edir, həm də onları hər zaman sərvaxt saxlamış oluruq. Onların əməliyyat yolu ilə azad olunmasının bir neçə variantı var, o cümlədən də dəyişməyə imkan verən şəxslərin ələ keçirilib dəyişilməsi də bu variantların biridir. Burda maliyyə ayırmaq, iş görmək lazımdır. Yenə deyirəm operativ kombinasiya qurmaq üçün çeşidli imkanlar var”.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016



# Dolları bahalaşdıran ABŞ-dır, yoxsa Elman Rüstəmov?

## Ekspertlər bildirirlər ki, uzunmüddətli perspektivdə manatın taleyi qaranlıqdır, devalvasiya bitmədiyi üçün baş bankir də dəyişdirilmir...

**ABŞ Federal Ehtiyat Sistemi (FES) dollarla bağlı faiz artımı qərarı verməsə də, manat ucuzlaşmaqdadır. Ekspertlər musavat.com-a manatın yaxın müddətdəki taleyinin FES-dən, yaxud Mərkəzi Bankdan asılı olduğunu musavat.com-a açıqlayıblar.**

**Ekspert Natiq Cəfərli** bildirib ki, manatın taleyi hazırda nə FES-dən, nə də Mərkəzi Bankın rəhbərindən asılı deyil: " Manatın dərdi daha böyükdür. Manat ölkənin valyuta gəlirlərinin azalmasından, ölkənin valyuta gətirə biləcək, dünya bazarlarına heç nə təqdim edə bilməməsindən, ölkənin valyuta, idxaldan asılılığından asılıdır. Yaxın həftələrdə Yeni il bayramının gəlməsi ilə bağlı idxalın artacağı proqnozlarından da asılıdır. Yəni bir çox şeylərdən asılıdır, xırda məsələlərdən tutmuş iri, makroiqtisadi göstəricilərə qədər hər şeydən asılıdır. Ona görə də manatın taleyi yaxın gələcəkdə heç də yaxşı görünmür. Hələ üstəlik, dekabrda FES də faizi artırsa, qonşu ölkələrdə ciddi valyutaların ucuzlaşmasına səbəb olacaq. Bu da istər-istəməz Azərbaycan manatına təsir göstərəcək. Azərbaycan təcrid olunmuş halda yaşamır, dünyada, ətrafda gedən proseslərdən də asılıdır. Üstəlik, son günlər neftin qiyməti də ciddi enişə keçib. Bu il əslində neftin qiyməti 11 faiz dəyər itirib. Bu da təbii ki, manata basqıları artırır. Bütün bu proseslər üst-üstə gəldikdə, manatın gələcək taleyi çox qaranlıq görünür".

**Ekspertin sözlərinə görə, ilin sonuna FES qərarını dəyişməsə də, manat yenə ucuzlaşacaq:** "Manat yenə dəyər itirəcək. Amma ümumən, köklü və fundamental manatın məzənnəsinə təsir etməyəcək. Düşünürəm ki, ilin sonuna qədər yumşaq şəkildə gündəlik, yaxud həftəlik məzənnənin zəifləməsi yolu ilə Mərkəzi Bank manatı ucuzlaşdırmaqda davam edəcək. Çünki həm də hökumətin bunda marağı var. Manat nə qədər ucuz olsa, Dövlət Neft Fondunun və Mərkəzi Bankın ehtiyatlarına o qədər çox qənaət etmiş olur. Burada hökumətin də marağının olduğunu qeyd etmək lazımdır".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, manatla bağlı qısamüddətli proqnoz vermək çətindir:** "Çünki manatın məzənnəsi inzibati yolla müəyyən olunur. Kiçik dövr çərçivəsində Mərkəzi Bank istənilən məzənnəni təyin edə bilər. Özünün zərərinə olsa belə edə bilər. Buna görə də ciddi proqnoz uzunmüddətli, ən azı 1 illik ola bilər".

**Ekspertin fikrincə, uzunmüddətli perspektivdə manatın taleyi acınacaqlıdır:** "Dolların xeyli bahalaşması və yaxın ildə 2 manatdan, sonra isə yəqin ki, 3 manatdan da baha olması qaçılmazdır. Ona görə ki, ölkənin valyuta gəlirləri azala-azala gedir və gedəcək. İstənilən əmtəə azdırsa, qiyməti bahalaşır. Deməli, ölkədə dollar azaldıqca, qiyməti də artacaq. Dollarımız isə azalır, o cümlədən valyuta ehtiyatlarımız da azalır. Bu, həmçinin Neft Fondunun səriştəsiz fəaliyyəti nəticəsində baş verəcək. Valyuta gəlirlərimiz ona görə azalır ki, neftin qiyməti ən azı artmır və böyük ehtimalla yenə düşəcək. İqtisadi əsaslarla yanaşı, geosiyasi səbəblər də var. Digər tərəfdən, neft hasilatımızın da həcmi azalır. Deməli, daha az neft satırıq, özü də aşağı qiymətlə satırıq. Neft və qaz Azərbaycanın yeganə valyuta gəliri mənbəyidir. Dünya bazarında əhəmiyyətli həcmdə başqa heç nə satmırıq. Çünki qeyri-neft sektorumuz, o cümlədən kənd təsərrüfatı inkişaf etməyib və etmir də. Sahibkarlığın inkişafı üçün ciddi və real tədbirlər görülmür, məmurlar prezidentin göstərişlərini yerinə yetirmir. Məhkəmə sistemi bərbad gündədir. Buna görə də sərmayə qoyub iş görmək istəyən yoxdur. Xaricə nə isə satmağımız bir tərəfə, heç özümüzü də təmin edə bilmirik, ərzaqın da böyük hissəsini idxal edirik. Təbii, neft gəlirləri hesabına. Deməli, valyuta gəlirlərimizin bir hissəsi ərzağa xərclənir. Buna görə də manatın devalvasiyasının sonu görünmür. Görünməsi üçün indidən tədbirlər görmək lazımdır. İlk növbədə də müstəqil və obyektiv məhkəmə sistemi olmalıdır ki, sahibkarlarda əminlik hissi yaransın və yavaş-yavaş iqtisadiyyatımız dirçəlsin. Bank sistemi və milli valyuta etimada söykənən institutlardır. Bu etimad ilk növbədə Mərkəzi Bankın rəhbərinə olan etimadla ölçülür. Azərbaycanda isə Mərkəzi Bankın sədri ən nüfuzsuz məmurlardan biridir, sözünə heç etimad yoxdur, düz danışanda belə etimad göstərilmir. Buna görə də məntiqlə çoxdan istefaya göndərilməli idi. Amma göndərilmir. Ona görə ki, devalvasiya bitməyib".

❑ **Röya RƏFİYEVA**

# Bəzi ərzaq məhsulları yenə bahalaşacaq

## Yeni gömrük rüsumları qüvvəyə mindi; hökumət bahalaşmanın qarşısını almaq üçün monitorinqləri gücləndirməlidir

**Noyabrın 3-dən Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"ndə etdiyi dəyişikliklərlə bağlı qərar qüvvəyə minib. Yeni gömrük idxal rüsumları iki il müddətində qüvvədə olacaq. Dəyişikliyə əsasən, Azərbaycana idxal edilən 1 kq ev toyuğu əti üçün 1 dollar, 1000 ədəd toyuq yumurtası üçün 100 dollar, 1 kq soğan üçün 0,2 dollar, 1kq xiyar üçün 0,2 dollar, 1 kq qoz-fındıq üçün 1,5 dollar, 1 kq üzüm üçün 0,4 dollar, 1 kq alma (sidr istehsalı üçün, qalama (qabsız), sentyabrın 16-dan dekabrın 15-dək), armud (perrinin və ya armud sidrinin istehsalı üçün, qalama (qabsız), avqustun 1-dən dekabrın 31-dək), heyva üçün 0,3 dollar, 1 kq xurma üçün 0,3 dollar gömrük idxal rüsumu müəyyənləşdirilib.**

O cümlədən meyvə şirələrinin, spirtli içkilərin 1 litri üçün 0,7 dollardan az olmamaqla gömrük idxal rüsumu alınacaq.

Gömrük rüsumlarının artması isə yuxarıda adıçəkilən malların bahalaşması deməkdir. Hökumət rüsumları artırmaqla daxili bazarı xarici rəqabətdən qorumağa çalışsa da, bu qərar ilk olaraq əks təsir yaratdı və bahalaşmaya gətirib çıxartdı.

Çünki sözügedən məhsullarla bağlı yerli istehsal hələ daxili tələbatı ödəmək gücündə deyil. Yerli istehsal olunan bəzi məhsulların isə xammalı xaricdən gətirilir. Bu da bahalaşmanı qaçılmaz edir.

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən iqtisadçı ekspert Natiq Cəfərli qeyd etdi ki, nəinki xaricdən gətirilən, eləcə də yerli məhsulların qiymətinin artacağı gözlənilir:** "Xaricdən gətirilən toyuq ətinin qiymətinin qalxması bazara təsirini göstərəcək. Digər tərəfdən, bəzi məhsulların xammalı da xaricdən gətirilir. Məsələn, toyuq ətindən hazırlanan kolbasalar yerli məhsul olsa da, xammal kimi xaricdən gətirilən toyuq ətindən istifadə olunurdu. O cümlədən dönərxanalarda, yeməkxanalarda xaricdən gətirilən toyuq əti istifadə edilirdi. Bu sahələrdə də təbii ki, qiymət artımları olacaq. Dolayı təsirləri isə ondan ibarətdir ki, yerli istehsalçılar bazarın tələbatını tam ödəmək qabiliyyətində deyillər. Xarici analoqların qiyməti qalxdıqca, istehsalın artımına da uzun bir zaman lazım olduğunu nəzərə alsaq, yerli istehsalçılar da məhsullarının qiymətini qaldıracaqlar. Bu da nəticə etibarilə əhalinin büdcəsinə zərbə vuracaq. Daxili istehsalın artması üçün bu qərarın qısa zamanda effekt verəcəyini gözləmək əbəsdir".




**İqtisadçı ekspert Vüqar Bayramov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hökumət "Antidenpinq haqqında" Qanun qəbul edibsə, həmin qanuna uyğun olaraq idxal olunan məhsulların bir qisminin gömrük rüsumunun qaldırılması gözlənilən idi:** "Hökumət o məhsulların idxalına gömrük rüsumunu qaldırıb ki, onlar ölkədə ya tam, ya da qismən istehsal olunur. Məsələn, quş əti ölkədə istehsal olunur. Lakin bu heyvanların yemi , dərmanı və sair xaricdən idxal olunur. Lakin bazarda olan məhsulların böyük əksəriyyəti yerli məhsullardır. O baxımdan, sərəncam yerli istehsalın çox olduğu məhsullara tətbiq olundu. Bu həm də ona görə idi ki, idxal yolu ilə xaricə gedən valyutanın həcmini azaltmaq mümkün olsun. Bu, hökumətin əsas məqsədi idi. Burada psixoloji tərəflər də var. Biz bu rüsumlar tətbiq edilən zaman bildirmişdik ki, xaricdən gətirilən məhsullar bahalaşarsa, bu, yerli istehsalın da bahalaşmasına gətirib çıxaracaq. Məsələn, yerli kolbasa istehsalında istifadə olunan xammalın əhəmiyyətli hissəsini xaricdən gətirilən məhsullar təşkil edir".

**Vüqar Bayramov onu da vurğuladı ki, hökumət bahalaşmanın qarşısını almaq üçün monitorinqləri gücləndirməlidir:** "Birmənalı şəkildə demək olmaz ki, yalnız xarici məhsulların qiyməti arta bilər, yerli məhsulların qiyməti artmamalıdır. O baxımdan, xərc strukturunun monitorinqi aparılmalıdır, yerli istehsal olunan məhsullarda xaricdən gətirilən xammalın çəkisinin nə qədər olması müəyyənləşdirilməlidir, daha sonra həmin məhsulun qiymətinin artması iqtisadi baxımdan əsaslandırılmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Kənd təsərrüfatı ciddi ziyanda

## Fikrət Yusifov: "Bu ilin payızında heç vaxt müşahidə olunmamış aramsız yağışlar kənd təsərrüfatı məhsullarının istehsalına ciddi təsir göstərir"

**Ölkədə qeyri-neft sektorunun inkişafı qarşıya məqsəd kimi qoyulduğundan, ekspertlər məsələ ətrafında fikirlərini, təkliflərini açıqlayırlar. Hansı sahələrin inkişafının mümkünlüyü, qarşıya çıxan çətinliklər ekspertlər tərəfindən müzakirə edilir. Bu sahəyə dövlətin dəstəyinin hansı həddə olması da müzakirəyə çıxarılan məsələlərdəndir.**



**İqtisadçı alim Fikrət Yusifov** musavat.com-a bildirib ki, cari ilin doqquz ayı ərzində aqrar sektorda ümumi istehsal 6,7 faiz arta bilib: "Təəssüf ki, bu ilin payızında indiyə qədər heç vaxt müşahidə olunmamış aramsız yağışlar kənd təsərrüfatı məhsullarının istehsalına səviyyəsinə ciddi təsir göstərir. Əgər təbii şərait normal olardısa, bu il aqrar sahədəki göstəricilər kifayət qədər yüksək ola bilərdi. Təbii şəraitin tam əlverişsiz olduğu bir vəziyyətdə, ümumi iqtisadi böhran və ümumi iqtisadi azalmalar fonunda aqrar sektordakı bu nəticələr sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsi kimi dəyərləndirilməlidir".

**Ekspertin sözlərinə görə, son bir neçə il ərzində aqrar sektorda fermerlərin fəaliyyətini daha səmərəli təşkil etmək məqsədilə dövlət öz dəstəyini kifayət qədər artırıb:** "Hazırda fermerlər ancaq torpaq vergisi ödəyirlər və başqa qalan bütün vergilərdən azaddırlar. Elə bunun nəticəsidir ki, hesabat dövründə keçən illə müqayisədə bir çox məhsulların istehsalı və ixracı üzrə əsaslı irəliləyişlər müşahidə olunub, ixrac olunan məhsulların çeşidi kifayət qədər böyüyüb, ixracın coğrafiyası isə genişlənib. Bunu kifayət qədər müsbət ənənə hesab etmək olar".

**F.Yusifovun sözlərinə görə, strateji məhsulların yetişdirilməsi sahəsində bu ilin doqquz ayı ərzində əldə olunan nəticələr ötən illərin müvafiq dövrləri ilə müqayisədə artıq dəfə ilə ölçülə biləcək səviyyədədir:** "Məsələn, əgər keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıbsa, bu il 52 min hektarda pambıq əkini təmin edilib. Bu hesaba da ilin sonuna 100 min ton məhsul gözlənilir. Gələn il pambıq əkin sahələrinin 2,3 dəfə artırılması, onun istehsalının isə 250 min tona çatdırılması nəzərdə tutulur. İpək istehsalının yeni infrastrukturunun yaradılması və baramaçılığın müasir tələblər səviyyəsində təşkil edilməsi nəticəsində keçən il istehsal olunmuş 232 kiloqrama qarşı cari ildə 70,7 ton, yəni 300 dəfə artıq yaş barama məhsulu istehsal edilib. Növbəti illərdə ölkədə baramaçılığın daha geniş inkişafı məqsədilə 1milyon 600 min tut tinginin əkilməsi nəzərdə tutulur ki, bu da hazırda mövcud olan tut ağaclarının sayından 4,5 dəfə çox deməkdir. Cari ilin 1 iyun tarixinə respublika üzrə 2,1 min hektar sahədə tütün əkilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 839 hektar və ya 40 faiz çoxdur. Göründüyü kimi, aqrar sektora dövlət dəstəyi öz nəticələrini artıq verməyə başlayıb. Hesab edirəm ki, bu qaydada inkişafla yaxın bir neçə il ərzində aqrar sektor ölkə iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılmasında öz sözünü əsaslı şəkildə deyəcək".

**Ekspert qeyd edib ki, aqrar sektorun sürətli inkişafını təmin etmək üçün ölkənin bank sisteminin rolu kifayət qədər artmalıdır:** "Bu gün kəndli-fermer dövlət dəstəyi ilə xüsusi olaraq verilən kreditlərdən başqa kreditlər almaq iqtidarında deyil. Çünki banklar bu gün kənd təsərrüfatı sahəsində sahibkarlığa dəstək verməyə hazır deyillər. Onların hazırkı durumunda təklif edə biləcəkləri kreditlərin şərtləri isə çox ağırdır. Yəni bu gün fermer hər hansı bir məhsul istehsal etmək üçün bankdan 15-20 faizlə kredit götürüb bu işlə məşğul ola bilməz. Belə kreditlər ona ən yaxşı halda 5-7 faizlə təklif olunmalıdır. Eyni zamanda kreditlərin uzunmüddətli olması mühüm şərtdir. Hesab edirəm ki, aqrar sahədə qarşıya qoyulan qlobal vəzifələrin həlli üçün ölkədə dövlətin də dəstəyi olan xüsusi bir ixtisaslaşmış bankın yaradılmasına ehtiyac var".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016

**Şagirdlərin əksəriyyəti tənəffüs vaxtı məktəblərin bufetinə qaçır. Burada isə sağlamlıq üçün təhlükəli olan, tərkibi, hazırlanma şəraiti bilinməyən pizza, tost, dönər, bulka, keks, çips, pirojna, suxarı, buterbrod və müxtəlif qazlı içkilərin satıldığı haqda zaman-zaman faktlar ortaya çıxıb. Məktəb bufetlərinə nəzarət demək olar ki, yox dərəcəsindədir. Baş çəkdiyimiz bir neçə məktəb bufetində bunların şahidi olduq. Bufetlərini jurnalistlərin daxil olması qadağan edilsə də, biz valideyn qismində ora daxil olaraq, xeyli məlumatlar əldə etdik. Məlum oldu ki, bufetlər haqqındakı standartda qadağan edilmiş xeyli qidalar var ki, onlar hazırda bufetlərdə şagirdlərə sırınır. Bəli, məhz sırınır, çünki uşağın qidanın keyfiyyətini müəyyən etməsi mümkünsüzdür.**

# Uşaqları zəhərləyən məktəb bufetləri...

## **Fazil Talıblı:** “Azyaşlıların qidalanması üçün nəzərdə tutulmayan məhsullar satılır”

## **Bəşarət Məmmədov:** “Məktəb bufetlərində standartdan kənar qidaların satılmasına icazə verilmir”

## **Eyyub Hüseynov:** “Məktəb bufetlərinə valideynlər də nəzarət etməli, oranın standartlara uyğun işləməsinə nail olmalıdırlar”

Şagirdlər məktəb bufetlərində qidaların baha satıldığını deyirdilər.

**304 saylı orta məktəbdə** olarkən şagirdlərdən biri məktəbdə daha çox kolbasa-çörəyi bəyəndiyini dedi: “Kolbasa-çörək və peraşkilər yaxşıdı. Ancaq pizzanın içindəki sosiska yaxşı dadmır. Biz daha çox suxari alırıq. Ancaq bizim məktəbdə qazlı sular satmırlar. Çöplü şirələr satılır”.

Məktəbin qarşısında övladını dərsdən götürməyə gələn bir neçə valideynlə də söhbətləşdik. **Övladının 3-cü sinifdə oxuduğunu deyən Əminə Məmmədova** uşağına məktəb bufetindən nəsə almağa icazə vermədiyini dedi: “Mən məktəb bufetində nələrin satıldığını, hansı şəraitdə bişirildiyini bilmirəm. Ona görə də buranın qidalarına etibar etmirəm. Özüm hər səhər uşağı dərsə gətirəndə mağazadan şirniyyat, su alıb çantasına qoyuram”.

**Ümumiyyətlə, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ümumtəhsil və ilk peşə təhsili müəssisələrində uşaq və yeniyetmələrin qidalanması zamanı istifadəsinə icazə verilməyən məhsulların siyahısı aşağıdakı kimidir: İçalat məhsulları** (qaraciyər, dil və ürək istisna olmaqla), içalatı təmizlənməmiş quş, vəhşi heyvanların əti, suda üzən quşların yumurtası və əti, qabığı çirklənmiş yumurta, və həmçinin salmonellyoza görə qeyri-sağlam təsərrüfatdan olan yumurta, germetikliyi pozulmuş bankada olan, köpmüş, paslı, deformasiyaya uğramış, etiketsiz konservlər, termiki emala məruz qalmayan yaşıl noxud, çirklənmiş və ya anbar ziyanvericiləri ilə yoluxmuş yarma, un, quru meyvələr və başqa məhsullar, mənşəyi məlum olmayan ərzaq məhsulları, kremli şirniyyat məmulatları (piroq və tortlar), termiki emala məruz qalmayan, təbii halda olan kəsmik və xama, ev şəraitində hazırlanmış qatıq, göbələklər və onlardan hazırlanan məhsullar (kulinariya məmulatları), termiki emala məruz qalmayan içkilər və morslar, kvas, kənd təsərrüfatı heyvanlarında aşkarlanan xəstəliklərə görə qeyri-sağlam təsərrüfatdan alınan, çəlləkdə saxlanılan, pasterizə edilməmiş və qaynadılmamış süd, təbii halda olan və kəsmiyin hazırlanması üçün istifadə olunan süd və qatıq, termiki emaldan keçməmiş ətdən, quş ətindən, balıqdan hazırlanmış yeməklər, sirkə, xardal, qıtıqotu, istiotlu bibər və digər (kəskin) ədviyyatlar, xəmiri acıdan naməlum tərkibli tozlar, istiotlu souslar, ketçuplar, mayonezlər, qəlyanaltı konservlər, turşuya qoyulmuş tərəvəzlər və meyvələr, təbii kofe, alkoqollu, energetik içkilər, kulinariya yağları, donuz və qoyun piyi, marqarin və digər hidrogenləşdirilmiş yağlar, qazlaşdırılmış içkilər, bitki yağları əsasında süd məhsulları və dondurma, saqqız, çipsilər, tərkibində etanol olan (0,5%-dən artıq) qımız və turş süd məhsulları, ət qiyməsi ilə hazırlanmış makaron, ətli blinlər, studenlər, doğramac, paştetlər, siyənək balığından farşmak, üzərində sous gəzdirilmiş ətli və balıqlı yeməklər, yumurtalı makaronlar, qayğanaq, frityurda qızardılan piroqlar və ponçiklər.




Ancaq təəssüf ki, bu qidaların əksəriyyəti bufetlərdə satılır. Bir çox ölkələrdə məktəb bufetlərində uşaqlar uşaqların qida menyusu hazırlanarkən pediatr və digər mütəxəssislərin rəyi nəzərə alınır. Azərbaycanda isə bu, nəinki nəzərə alınmır, heç bufetdə işləyənlər belə həkim nəzarətindən keçmir. Hansı ki, normalda bu şəxslər 3-6 aydan bir həkim nəzarətindən keçməlidirlər.



**Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı hazırda bütün bufetlərə nəzarət etmənin mümkün olmadığını dedi:** “Bir neçə il öncə ictimaiyyət tərəfindən gələn sosial tələbi nəzərə alaraq və bu sahədə normativ tənzimləməni həyata keçirmək məqsədilə Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən məktəb bufetlərinə olan tələbləri özündə əks etdirən dövlət standartı təsdiq edib. O ərəfədə biz bu standartla bütün müvafiq icra hakimiyyəti orqanlarını, bu sahədə çalışan qurumları, məktəbləri, katrinq həyata keçirən özəl şirkətləri - hansı ki, məktəb bufetlərinə bu qidalanmanı təmin edirlər - hamısını o standartla tanış etdik. Məktəb direktorları ilə görüşlərimiz oldu və məlumat verildi. Çox təəssüf ki, biz də mətbuatdan, ictimaiyyətdən eşidirik ki, məktəblərin bufetində qadağan olunmuş ərzaqlar, cipsilər, suxarilər, qazlı sular, acılı, souslu, mayonezli, ketçuplu məhsullar satılır. Azyaşlıların qidalanması üçün nəzərdə tutulmayan məhsullar satılır.



Hazırda yoxlama aparmaq səlahiyyəti bizdə olmadığına görə mövcud vəziyyəti təhlil edə bilmirik. Amma valideynlər, məktəb rəhbərliyi tərəfindən ictimai nəzarət olmalıdır ki, bu standartın tələblərinin pozulmasına yol verilməsin".

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mətbuat xidmətinin rəhbəri Bəşarət Məmmədov məktəb bufetlərində standartdan kənar qidaların satılmasına icazə verilmədiyini və daim nəzarət olduğunu bildirdi: “Məktəbin qapısından içəridə nə varsa, məktəb rəhbərliyi buna nəzarət edir və cavabdehdir”.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məktəb bufetlərinin əslində icarəyə verilmiş bir obyekt olduğunu dedi:** “Bütün hallarda direktorlar məktəb bufetlərinə şərikdirlər. Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi məktəb bufetlərində satılan ərzaq mallarının çeşidi, onun standartı barədə sənə qəbul edib. Lakin bu əhəmiyyətli sənədin tələbləri məktəblərin maksimum 30 faizində yerinə yetirilir. Biz dəfələrlə demişik ki, böyük tənəffüsdə belə uşaqların normal qidalanmağa vaxtı olmur. Çünki böyük tənəffüsün vaxtı çox azdır. Dəfələrlə təklif vermişik ki, məktəblərin koridorlarında avtomatik meyvə satan qurğular qurulsun ki, uşaqlar ora qəpik atıb heç olmasa meyvə ilə qidalansınlar. Bu, ciddi problemlərdən biridir. Məktəb bufetlərində arzuolunmaz qidalar, evdə bişirilən peraşkilər satılır. Bakı məktəblərini mərkəzləşdirilmiş qaydada qida ilə təmin edən ayrıca sovet vaxtından qalmış bir qurum var. Bu qurum müəyyən cavabdehlik daşıyır. Amma çox təəssüf ki, o qurum da bu işlərə kifayət qədər nəzarət edə bilmir. Məktəb bufetlərinə valideynlər də nəzarət etməli, oranın standartlara uyğun işləməsinə nail olmalıdırlar”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Bir təhqirin iki növ cəzası



**Samir SARI**

**Bizim kəndin camaatında bir qəribə xasiyyət vardı, bir-birinin babasının vaxtilə daşımış olduqları ləqəbləri yada salıb, lağlağı edərdilər. Elə adam vardı ki, hamıya deməyə söz tapırdı, ancaq kimsə qayıdıb onun babasıyla bağlı söz deyəndə cırnayırdı.**

Neçə dəfə belə söhbətlər üstündə dava da düşmüşdü. Bir dəfə yaxın adamın toyunda “dədə-baba zarafatı” üstündə iki sürücü qohum az qaldılar tutaşsınlar. Əhvalat belə oldu ki, sürücülərdən biri həmkarının babasının Cürdək (bu, su qabıdır, güman ki, ağsaqqal biçinə-filana gedəndə üstündə həmişə cürdək olurmuş) ləqəbi daşıdığını yada salıb zarafat edəndə, o da qayıdıb onun babası haqqında köntöy bir zarafat elədi. Onların sözü çəpləşdi, dava başlamaq üzrəykən, ağsaqqallar olaya müdaxilə etdilər. Cürdəyin nəvəsini döymək istəyən sürücüyə dedilər ki, nə var, niyə cumursan bunun üstünə. O da cavab verdi: “Görmürsünüz, babama nə deyir?” Dedilər, axı, birinci sən onun babasına sataşdın. Davakar sürücü qane olmadı: “Mənim babam onun babasının tay-tuşu olmayıb”.

İndi icazənizlə keçirəm mətləbə. Bizim əksəriyyətimiz həmin o, başqasının babasına sataşan, amma öz babasına söz deyiləndə dava salan sürücüylə, türkün sözü, eyni zehniyyətdəyik.

Çox tez-tez olur ki, mətbuatda təhqir olunmuş və qisas almaq eşqi ilə yanan həmkarımıza öyüd-nəsihət veririk: “Boş ver, a bəy, fikir vermə, qoy rədd olsun, axmaq adamdır də. Tort yeyən iti öldürməzlər ki”.

Amma elə ki, öz ünvanımıza təhqiramiz bir söz işlədirlər, beynimiz çönür. Məsələn, 5-6 ay əvvəl bir toyda başqa kollektivdə çalışan jurnalist həmkarımız bizim əməkdaşlara yaxınlaşıb şəkil çəkdirmiş, sonra da o şəkli sosial şəbəkədə paylaşmışdı. Bizim də düşmənimiz, bədxahlarımız var. O bədxahlardan ikisi həmin şəklin altında əməkdaşlarımıza qarşı təhqiramiz ifadələr yazmışdı. Bir əməkdaşımız təhqiramiz şərh yazanların adını öz qara dəftərinə salıb, and içir ki, onların hanısana rast olsa, ilk fürsətdə qulağının dibinə şillə tutuzduracaq. Adam hüquqşünaslarla da məsləhətləşib, o hərəkətinin müqabilində alacağı cəzanı da aşağı-yuxarı bilir, deyir, şilləni elə vuracaq ki, o təhqir yazan gənc ayaq üstə qalmayacaq, amma bədən xəsarəti də almayacaq, ən çoxu sifətində beş barmağın dördünün yeri qalacaq, bir də yazdığı söyüşlə bağlı səhv etdiyini, nə yediyini etiraf edəcək.

Bəlkə də həmkarımızı təhqir edən şəxslər bu haqq-hesabı unudublar, gedib, amma təhqir olunanın yadındadır, hətta hazır qisas planı da var, sadəcə, gerçəkləşdiriləsi günü gözləyir.

Ona görə də Elsevər adlı gah müxalifətçi, gah iqtidarçı olan gənci təhqir üstündə tutdurduğuna görə müğənni Mətanət Əsədovanı qınayanları qınayıram.

Qınaqçılar bir az düşünsün, görsün, Mətanətə ünvanlanmış təhqir onun özünə deyilsəydi, özü necə edərdi. Əlbəttə ki, o, durub Elsevəri polisə-prokurorluğa, məhkəməyə verməzdi, Elişin ünvanını tapar, qapısına gedər, təpiyinin altına salıb, çığnayar, gedib girərdi türməyə.

Müğənni isə mədəni yol tutub, onu təhqir edənlə hüquqi müstəvidə, qanunun gücüylə, dövlətin iradəsi ilə hesablaşıb.

Bir dostumuz var, deyir ki, gərək müğənni gənci tutdurmazdı, sevgilisini göndərərdi, o da gedib Elsevərin peysərinə qapaz çəkərdi, iş bitərdi.

Amma sizi əmin edirəm ki, bu halda da hamı deyəcəkdi ki, burası dağ başıdırmı, dərəbəylikdirmi, dövlət var, qanun var, məhkəmə var, müğənni təhqir olunduğunu hesab edirsə, qoy məhkəməyə müraciət eləsin.

Odur, ötən illərdə müğənni Röya bu kimi münaqişələri türk seriallarından tanıdığımız kabadayılar kimi həll etmək istəmişdi, özünü kriminal avtoritetlər kimi aparmışdı, yazığın ünvanına yazmadığımız söz qalmadı. Əgər o, şəxsiyyətini təhqir edəni məhkəmə yoluyla cəzalandırmaq istəsəydi, onda da başqa söz deyəcəkdilər.

Birdəfəlik anlamaq lazımdır ki, media və sosial şəbəkə başqalarını cəzasızcasına təhqir etmək üçün qolay yer deyil. Lap biri fahişədirsə, yəni qeyri-leqal masaj salonunda işləyərək, millətə cinsi xidmət göstərirsə, ya da ildə 5 dəfə sponsor-aşna dəyişirsə, bu, hələ heç kimə onu təhqir etməyə əsas vermir. Təhqir edərsən, ən yaxşı halda məhkəməyə verərlər, ən pis halda Röya səni apartdırıb zirzəmiyə salar, videonu çəkdirər.

YENİ MÜSAVAT
N 245(6566) 4 noyabr 2016

# Azərbaycanlılar sosial şəbəkədən pul qazana bilmir, çünki....

## Ölkəmizdə bu ənənənin ləng inkişafının səbəbləri nədir?

**Dünyada məşhurlar öz instagram, facebook, tivitter səhifələrindən pul qazanma yoluna üstünlük verirlər. Belə ki, firmaların reklamına, hansısa gözəllik salonunun, yeni çıxan məhsulun... tanıtımına səhifələrində icazə verən məşhurlar hər paylaşımdan bəlli məbləğ alırlar. Nəticədə ay ərzində bu reklamların faizləri üst-üstə yığılır və hətta 10 min dollardan başlanan bir məbləğə yüksəlir. Təbii ki, sıravi insanların belə bir şansı yoxdur. Amma sosial şəbəkədə və internetdə pul qazanmaq üçün xeyli optimal üsullar var.**

Facebookda reklamdan pul qazanmaq imkanı get-gedə artır. Facebook-a yüklənən videolar artıq tək şəbəkə daxilində paylaşılmır, başqa saytlara da yüklənə bilir. Bu paylaşılan videoların üzərinə reklamlar da yerləşdirilə bilir. Bu da facebook istifadəçilərinə reklamdan da pul qazanmaq imkanı yaradacaq.

Azərbaycanda tanınmış blogger sayılan Nurlan Abbaszadə internetdən pul qazanmağın müasir üsulları barədə məlumatlıdır və bununla bağlı öz bloqunda arayış xarakterli material hazırlayıb. Onun yazdığına görə, 2015-ci ildən bu cür sistemlərlə pul qazanmaq daha da böyük potensial vəd edir. Lakin bu hər kəs üçün keçərli deyil. Hər internetə bağlantısı olan insan internetdən pul qazanmaq üçün yararlı sayılmır. Bunun üçün bir sıra kriteriyalar vardır. Əgər internetdən pul qazanmaq asan olsa idi, bunu hər kəs bacarardı.

Blogger internetdən pul qazanmanın yollarını 4 əsas maddədə birləşdirib:

*1) Video hazırlayaraq internetdən pul qazanmaq;*

*2) Məqalə yazaraq internetdən pul qazanmaq;*

*3) Proqramlaşdırma ilə internetdən pul qazanmaq*

*4) Forex sistemi ilə internetdən pul qazanmaq;*

*Bu yazımda sizlərə ilk olaraq birinci maddə haqqında danışacağam.*




YouTube internet portalından video hazırlayaraq internetdən pul qazanmaq haqqında yəqin ki, çoxlarınız eşitmisiniz. Lakin bu sistemin necə işlədiyi haqqında təsəvvürünüz yoxdur.

YouTube-dan pul qazanmaq üçün əsas alqoritm belədir.

Kanal yaradırıq, kanalımıza videolar yerləşdiririk, kanalımızı reklam edirik və abunəçilərimizi artırırıq. Kanalımıza YouTube- reklamlar yerləşdirir, yəni videolarımıza avtomatik olaraq bu videolar yüklənilir YouTube tərəfindən. Bu videolara tıklama və göstəriş sayısına görə isə YouTube - bizə pul ödəyir. Ödənilən pul Google Adsense hesabımıza yüklənilir, buradan isə bizim bank hesabımıza nağd olaraq göndərilir.

Amma internetin təklif etdiyi şərtlər bununla yekunlaşmır. İnternetdən pul qazanmaq üçün aşağıdakı üsullar da var.

**1) Affiliate Marketing System (Satışa çıxarma və Ortaqlıq Sistemi):** Yerli xarici bir çox internet saytının təqdim etdiyi bu imkan üçün komissiyaçılığın bir az daha inkişaf etmiş versiyasını deyə bilərik. Sayta üzv olursunuz, satacağınız məhsulları təyin etdikdən sonra bu məhsullara uyğun bir müştəri toplumu meydana gətirməlisiniz. Bu, ümumiyyətlə, ilk başlarda yoldaşlardan meydana gəlir. Qısacası, edilən bütün bu əməliyyatlardan qazanırsınız və ən əhəmiyyətlisi məhsul sataraq 2 fərqli şəkildə qazana bilirsiniz. Birincisi satdığınız məhsulun komissiya əvəzi, ikincisi isə daha çox müştəri taparaq. Daha çox qazanan və qazandıran bir satıcı olaraq komissiya əvəzinizin artması, fərqli sabit gəlir, hədiyyələr qazanmanız üçün sizi motivasiya edəcək əlavə fürsətlər yaranır.

**2) Game Design (Kompüter Oyun Dizaynı):** Əlbəttə ki, böyük firmaların milyonlarla dollar qazandığı, amma yüzlərlə qrupların olduğu oyunlardan bəhs etmirik. İnternetdən əldə edə biləcəyiniz flash və java proqramlarını, videoları rahatlıqla tapa bilərsiniz. Bunları bir çox sayta sata bilərsiniz, ölçüləri kiçik olduğu üçün çox yer örtməyən bu oyunları cib telefonlarına belə yükləyə bilərsiniz. Hətta müxtəlif yarışmalara qatılaraq mükafat qazana bilərsiniz.

**3) İctimai Media Mühəndisliyi (İnternet Reklam Xidmətləri):** İnternetin sürətlə həyatımızın hər sahəsinə girdiyinin fərqində olan firmalar, bir çox ictimai şəbəkənin meydana gəlməsindən faydalanaraq çox daha qısa müddətdə və çox daha çox insana çata bilmək üçün internet reklam xidməti təmin edənlərə yönəldilər. Bunun nəticəsində də "ictimai media mühəndisliyi" adında bir peşə ortaya çıxıb. Onlar ictimai paylaşma saytlarına girib firma adına hesab, qrup, səhifə açırlar və üzerlə yoldaş olurlar. Beləliklə, həm firma təqdimatını edir, həm unudulmur, həm də ünsiyyət təmin edilərək anketlər və oyunlar ilə müştəri məmnuniyyəti işlərini görmüş olurlar.

**Gənc blogger Məhəmməd Türkmən isə hesab edir ki, Azərbaycanda da sosial şəbəkə vasitəsilə pul qazanmaq mümkündür. Onun sözlərinə görə, bizdə bu qazanc Türkiyədə, Avropadakı qədər olmasa da, əslində mümkündür. Müsahibimiz dedi ki, onedo.com adlı saytda video yerləşdirməklə bunu etmək mümkündür.Bizdə isə belə bir təcrübə yoxdur:** "Amma sosial şəbəkədə 100-150 min izləyicin varsa, sənə müxtəlif reklam təklifləri gəlir. Bunlardan birincisi gizli reklamlardır - virtual reklam. Mən şəkil qoyuram, amma gizlicə hansısa kofe firmasını reklam edirəm. Bunların qiyməti də digərindən ucuz olur. Mənim 100 min izləyicim var, kimsə təklif edir ki, hansısa sərinləşdirici içkini reklam et. Mən masanın üzərinə həmin sərinləşdirici içkini qoyub, şəklini də yayıramsa, bu, gizli reklamdır və burda ödəniş 50 faiz azdır. Amma mən açıq-aşkar deyəndə ki, "bu sərinləşdirici içkini için", bu zaman birbaşa reklamdır və qiyməti daha bahadır".

**Konkret sosial şəbəkədən pul qazanma imkanlarına gəlincə, M.Türkmən dedi ki, reklamların qiyməti minimum 300-400 manatdan başlanır. Bu, əsasən foto və videolar üçündür:** "Məsələn, sən bloggersən, vaynsan. Çəkiliş edərkən hansısa mağazanın, firmanın nümayəndəsi deyir ki, çəkiliş zamanı mənim məkanımdan istifadə et, loqom düşsün. Onun qiyməti 300 manatdır. Bir də var deyir, mənim məhsulumu reklam et. Azərbaycanda bu təcrübə yavaş-yavaş formalaşır. İzləyicisi az olanlara pul ödəmirlər. Bəzən kostyum firması çəkiliş üçün kostyum verir. Müğənnilərlə də bu qaydada iş gedir".

❑ **Sevinc TELMANQIZI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 245 (6566) 4 noyabr 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Əməl və hərəkət baxımından insanın yönəldicisi, onun hərəkətlərinin istiqamətini və necəliyini müəyyənləşdirən amil - onun dünyagörüşüdür. Və yanlış dünyagörüşü insanın əxlaqında, əməlində müvafiq iz buraxır, hətta bunların mahiyyətini müəyyən edir. İnsan digərlərinə zülm etmək kimi bir zəlillikdən öz ruhiyyəsini qoruya bilsə, ruhi-mənəvi dəyişikliklərə təkan vermiş olar ki, nəticəsi mütləq xeyir aqibətlə sonuclanar. Və bu, bir fərd olaraq, onun islaholunmuş duruma yetişməsinə gətirdiyi kimi, eləcə də, bütövlükdə toplumun islahına səbəb olar.**

# Toplumun islahatı fərdin islahından keçir

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



Bütün zamanlarda insanı ən çox düşündürən “nə etməli?”, “necə etməli?”, “vücudi baxımdan uduzmamaq üçün nə etmək lazımdır?” kimi suallar olmuşdur. Düşünən insan anlayır ki, əbədi yolun yolçusudur və bu yola müəyyən azuqə ilə çıxmaq lazımdır. Uca Allaha dua edirik ki, bizləri bu yola əliboş çıxmayanlardan qərar versin!

## Ey insan, özünün təbibi ol!

**İmam Cəfər Sadiqdən (ə) aşağıdakı mövzuda hədis nəql edirlər:** "Həqiqətən, səni özünün həkimi, təbibi qərar vermişlər. Sənin ağrını sənin üçün bəyan etmişlər, sağlamlığın əlamətlərini sənə tanıtdırmışlar. Və dərmanına yönəldib, bələdçilik etmişlər. Nəticədə düşün, gör ki, öz durumunun islahına necə qalxırsan».

Mübarək dinimiz insanı düşündürən sualların cavabında bildirir ki, daxili islahat aparmaq üçün, əbədi həyata azuqə toplamaq üçün insan ilk növbədə özünə diqqət yetirməlidir. Zira, insanı onun özündən çox kiminsə tanıması müşkül məsələdir. Deməli, insan özünü araşdırmalı, özü barədə məlumat toplamalı, yeri gələndə, məlumatı təsnifləndirməli, təhlil etməli və nəticədə islahatla bağlı qərarlaşmalıdır. Əlbəttə, kənardan kimsə insana müəyyən qiymətli məsləhətlər verə bilər, amma bu məsləhətlər səlis məlumata əsaslanmalıdır və məlumatın da mənbəyi həmin insanın özüdür. İnsan əslində öz vəziyyətinin həkimidir.

"Ağrını bəyan etmişlər» müddəasına gəldikdə, burada söhbət insanın daxili mərəzlərinin təbiətindən gedir. Dinimiz bildirir ki, insanın daxili xəstəliklərinin mənbəyi onun yanlış və səhv dünyagörüşündən irəli gəlir. Yəni, insanın mənəvi xəstəliklərinin bünövrəsində onun batil dünyagörüşü durur. Çünki əməl və hərəkət baxımından insanın yönəldicisi, onun hərəkətlərinin istiqamətini və necəliyini müəyyənləşdirən amil - onun dünyagörüşüdür. Və yanlış dünyagörüşü insanın əxlaqında, əməlində müvafiq iz buraxır, hətta bunların mahiyyətini müəyyən edir.

Hədisdə göstərilən "sağlamlığın əlamətlərini sənə tanıtdırmışlar» ifadəsi isə insanın gözəl əxlaqi xüsusiyyətə malik olmasına işarədir. İnsanın imana gəlməsi, yüksək əxlaq, mənəviyyat nümayiş etdirməsi - onun sağlam daxili duruma malik olmasının əlamətləridir. Yəni əgər insan bilmək istəyirsə daxili durumu sağlamdır, ya yox - əməllərinə diqqət yetirməlidir. Əgər insanın durumu ixlaslı, insanlara münasibəti xeyirxah, mehriban, səmimidirsə, daxili mərəzləri onu keyfiyyətsiz əməllərə sövq etmirsə - bu, daxili salamatlığa dəlalət edən amildir.

"Dərmanına yönəltmişlər" məsələsi isə insanın daxili xəstəliklərdən qurtulması üçün yardımçı olan vasitələri bəyan edir. Buraya tövbə, istiğfar, Allahdan səmimi qəlblə bağışlanmaq diləmək, yalnız Allaha tapınmaq, Məsumlara (ə) təvəssül etmək kimi mübarək vasitələr aiddir. İnsanın Allah dərgahında bağışlanma diləməsi və təqvaya riayət etməsi - müalicəsinin əsasıdır.

Hədisin sonunda göstərilən Inəticədə düşün, gör ki, necə öz durumunun islahına qalxırsan» ifadəsi tövsiyələri bir növ yekunlaşdırır. Ey insan! Özünün təbibi, islahedicisisən, günah əməllər sənin xəstə olmağını təzahür edir, xəstəliyin səbəbi olaraq yanlış dünyagörüşü sənə göstərilib, sağlam olmağın nişanələri yüksək keyfiyyət, mənəvi dəyərlər və bu dəyrlərin daşıyıcısı - Həzrət Peyğəmbər (s) və Əhli-Beyti (ə) sənə nümunə olaraq göstərilib, imanın yolu - tövbə, istiğfar, bəndəçilik kimi dərmanlar sənə təqdim edilib, indi düşün, bax gör islahın üçün nə etməlisən və necə etməlisən - artıq sənin üçün aydınlıq və müəyyənlik var. Bəs gecikmə, yubanma, özünü müalicə et!

## İnsanlara zülm etmədən yaşamaq

**İnsanların haqlarına riayət etməklə bağlı dinimizin çox ciddi tələbləri var. İmam Muhəmməd Baqir (ə) atası İmam Zeynəlabidindən (ə) nəql edir ki, Allahın Elçisi (s) Həzrət Əliyə (ə) xitabən bildirib:** "Ya Əli! Ən üstün cihad budur ki, insan bir kəsə zülm etmək niyyəti olmayan bir halda sübh edə".

Öncə nəql etdiyimiz mətləblər insanın islah olunmasına aid idi. Burada islahın gerçək təzahürləri bəyan edilir: insan bir kəsə zülm etmək niyyəti güdməsin, qəlbində kiminsə haqqını basmaq məqsədi daşımasın. Mahiyyət etibarilə söhbət ondan gedir ki, insan bütün çalarlarda, bütün müstəvilərdə xeyir mənbəyi olsun. Buradan aydınlıq hasil olur ki, insan istər fərd olaraq, istər ailədə, istər ictimai həyatında zülm etməməyi niyyət etsə, bu, onun durumunun salamatlığına bilavasitə dəlalət edər.

Əziz dinimiz bizə nə öyrədir? İnsanlara zülm etmək sıradan bir əməl deyil. Zülm etməyin mənbəyində deformasiyaya uğramış dünyagörüşü durur, Allah Təaladan çəkinməmək, Onun bəndələrini incitmək zəlaləti durur! Demək insan bu zəlillikdən öz ruhiyyəsini qoruya bilsə, insanlara zülm etmək halətindən qəlbini təmizləyə bilsə - böyük vücudi nailiyyətlər əldə edər, ən azı, ruhi-mənəvi dəyişikliklərə təkan vermiş olar ki, nəticəsi mütləq xeyir aqibətlə sonuclanar.

Məsələyə bir qədər kompleks yanaşdıqda, hədisdə göstərilən məqamların böyük əhəmiyyət kəsb etməyinin fərqinə vararıq. Belə ki, əgər hər bir şəxs digər insanlara zülm etməmək qərarında olsa, bu, bir fərd olaraq, onun islaholunmuş duruma yetişməsinə gətirər, eləcə də, bütövlükdə toplumun islahına səbəb olar. Bir toplumu təsəvvür edək ki, burada fərdlər qarşılıqlı mehribançılıq, bir-birinin haqlarına hörmətlə yanaşma durumundadırlar. Burada münasibətlər necə də harmonik surətdə inkişaf edər və toplum bütövlükdə islahedici, tərbiyəedici missiyanı yerinə yetirən bir müəssisəyə çevrilər!

## Öz durumunu daim nəzarətdə saxlamalı

**İnsanın öz durumunu nəzarətdə saxlaması, həvayi-nəfsin yönəltdiyi istiqamətlərə getməyə qarşı müqavimət etmək imkanını əldə etməsi dinimiz tərəfindən çox əhəmiyyətli bilinir. İmam Cəfər Sadiqdən (ə) nəql edirlər:** "Bir kəs rəğbət durumunda, qorxu durumunda, meyil durumunda, qəzəb və razılıq durumunda öz varlığına, mövcudiyyətinə sahib çıxsa, Allah Təala onun bədənini cəhənnəm atəşinə haram edər».

İnsanın zəlaləti nədən baş verir? O zaman ki, insanın hərəkətləri əqldən deyil, həvayi-nəfsdən mənbələnər - bu insanın zillətə düşməsi labüddür. Mübarək hədisdən görürük ki, insanın ən müxtəlif ruhi vəziyyətləri təsvir edilib və hər bir vəziyyətdə insanın özünə nəzarət etməsinin vacibliyi təsdiqlənir. Müxtəlif vəziyyətlərin insanda müəyyən təsir buraxması təbiidir. Şərt odur ki, insan bunları idarə edə bilsin, qeyri-əqli halətlərin onun əməllərində təzahür tapmasına imkan verməsin.

Mahiyyət etibarilə, insanın özünə nəzarət etməsi nə deməkdir? Hər bir vəziyyətdə nəfsani istəklərin deyil, əqlin dominantı, əqlin üstünlük təşkil etməsi deməkdir. İstər rəğbətli durumda, istər qorxu, istər qəzəb və s. - hər bir durumda əqlin rəhbərliyi ilə hərəkət etməlidir insan. Əqlsə nə deyir? Əql deyir ki, əsas şərt - İlahi rizayətdir, Allahın razılığıdır. İnsan İlahi razılığı düşünsə, diqqət eləyər ki, istənilən vəziyyətdə günah etməsin, nöqsana yol verməsin, heç kəsin haqqını pozmasın - bu halda nicat tapmışlardan olar. Dinimiz bu məqamı o dərəcədə önəmli hesab edir ki, "Allah Təala cəhənnəm oduna bu insanın bədəninə yaxınlaşmağı belə qadağan edər» kimi müjdə verir.

## Qəlbini təfəkkür ilə oyat!

Əlbəttə ki, insanın daxili islahatı baxımından, daxili yüksəlişə nail olmaq baxımından Həzrət Əli (ə) ən gözəl nümunə kəsb edir. Böyük İslam Peyğəmbərinin (s) ən mübarək davamçısı olan Həzrət Əli (ə), bütün ömrü ilə ixlaslı bəndəçiliyin ən parlaq təzahürünü nümayiş etdirmişdir. Əmirəlmöminin (ə) bəşəriyyətə etdiyi tövsiyələrdin birində qəlbi yüksəlişin kökünün, mənbəyinin düşüncədə olduğunu bildirir: "Qəlbini təfəkkür ilə oyat".

Dinimiz bəyan edir ki, gerçəkliyi anmağa, qəlbi ayıqlığa insan məhz təfəkkürlə, düşüncə ilə yetişə bilər. Əgər insan düşünsə, öz xəstəliklərini, mərəzlərini anlayar, bu xəstəliklərdən qurtulmaq yollarını müəyyən edər. Düşünməyən insan özünü təhlil etməkdən məhrumdur, öz daxilini təftiş edə bilmir, islah barədə düşünə, qurtuluş yollarını araya bilmir.

**İmam Cəfər Sadiqdən (ə) bu mövzuda nəql edilən hədisdə bildirilir:** "Təfəkkür və düşünmək insanı yaxşılıqlara doğru və onlara əməl etməyə tərəf aparıb çıxarar».

Mübarək hədisdə təfəkkürün nəticəsi iki müstəvidə nəzərdən keçirilir: əvvəla, təfəkkür edən insan əqlin göstərdiyi ünvan ilə hərəkət edər, fəzilətlərin, təqvalı durumun üstünlükləri barədə mülahizələr edər və bu düşüncələr onda yəqinlik həddinə yetişər. Bu keyfiyyətlərin üstünlüyü barədə düşüncələrin nəticəsi olaraq, insan əməllərində təftiş aparar, islahatlar edər və təqva keyfiyyətlərinin əməldə təzahür etməsinə nail olar. Uca Allah cəmi insanları təfəkkür edənlərdən və bu təfəkkürün əməllərində təzahür edənlərdən qərar versin, inşəallah!

## Allahı düşünən pislikdən çəkinər

**İnsanın islah olunmasına yardım edən ən güclü vasitələrdən biri - Allah Təalanın onun durumu barədə agahlığını unutmamaq, bunu daima xatırlamaqdır. İmam Cəfər Sadiqdən (ə) nəql edilən mübarək hədisdə bildirilir:** "Bir kəs bilə ki, Allah Təala onu görür və dediyi şeyləri eşidir, yerinə yetirdiyi yaxşı və pis işləri bilir - bu diqqət, bunun fərqinə varma onu pislikdən çəkindirər. (Belə insan) bir kəs olar ki, Rəbbinin məqamından çəkinər və həvayi-nəfsinə uymaz».

Mübarək hədisdə vurğulanır ki, düşünən insan hər nə etdiyinin, dediyinin Uca Allah tərəfindən bilindiyinin fərqinə varmalıdır və əgər bunu anlasa, mütləq pisliklərdən çəkinər. Yenə də düşünmə ilə islahın bilavasitə əlaqəsinə işarə edilir. Nəticə etibarilə, insan hər nə baş verdiyinin Allah dərgahında məlum olmasını anlayır, bu halət də onu təqvalı duruma gətirib çıxarır. Uca Rəbbindən həya edən bu insan pisliklər, naqisliklər törətməkdən uzaq olar və fəzilətlərə, yüksək əxlaqa meyilli olar.

**Mövzunun davamında İmam Cəfər Sadiqin (ə) səhabələrindən birinə etdiyi tövsiyələrə nəzər yetirək:** "Sənə bütün işlərində İlahi təqvaya riayət etməyi, günahdan çəkinməyi, ibadətdə və insanlara xidmətdə ciddi-cəhdlə çalışmanı tövsiyə edirəm. Bil, o çalışma ki, orada günahdan çəkinmə yoxdur - faydasızdır».

Mübarək hədisdə kəmiyyətə deyil, keyfiyyətə üstünlük verməyin mühümlüyü vurğulanır - insanın bütün çalışmaları yalnız o zaman müsbət nəticələnə bilər ki, bunların binasında günahdan çəkinmə, İlahi təqvaya riayət etmə vardır.

**Həzrət Rəsulullahdan (s) Həzrət Əliyə (ə) xitabən nəql edilən aşağıdakı hədisdə insanı düşündürən "nə etməli?" sualına birbaşa cavablar vardır:** "Ya Əli! 3 şey var ki, Allah Təalanın görüşünə onlara riayət etmiş halda gedən, insanların ən yaxşısıdır: (birincisi) o kəs ki, ona vacib olan əməli Allahın dərgahında təqdim edə - ən üstün bəndədir. (İkincisi) o kəs ki, bütün haramlardan çəkinə - bəndələrin ən təqvalısıdır. (Üçüncüsü) o kəs ki, verilən ruzilərə qənaət edə - bəndələrin ən ehtiyacsızıdır. Ya Əli! 3 şey var ki, hər kəsdə olmaya, əməli tamam deyil - o qüdrət ki, insanı günahlardan çəkindirər, o əxlaq ki, (onun sayəsində) insanlarla ünsiyyət yaradıla bilinsin, bir hövsələ və helm ki, cahilin cəhalətini özünə qaytara bilsin».

Mübarək hədisdən bəlli olur ki, Allahın vacib buyurduğuna əməl edən, bunlara diqqətlə yanaşan, Allahın haram buyurduğundan çəkinən, Allahın verdiyi ruzini israf etməyən bəndə, eyni zamanda, bu günah etməkdən qorunmaq üçün qüdrət, insanlarla gözəl ünsiyyət qurmaq üçün müvafiq keyfiyyətlər, cahil insanın cəhalətinə səbir edib, onun şərinə uymamaq kimi mühüm cəhətlərin daşıyıcısı - nicat tapmış insandır. Uca Allahdan duamız budur ki, bu keyfiyyətlərə sahib çıxmağı bizlərə və bütün insanlara qismət etsin!

## Səfər ayının əlamətdar tarixləri

**Yeni başlanan səfər ayı hicri-qəməri (ay) təqvimi ilə ilin ilk ayı olan məhərrəmdən sonra gələn ikinci aydır. Bu ayda çox sayda hadisələr baş vermişdir ki, onların bir neçəsinə işarə edək.**

Səfər ayının 1-i: İmam Hüseynin (ə) əhli-beytinin (ə) əsir kimi Şama daxil olması.

Səfər ayının 1-i: Siffeyn döyüşünün başlanması.

Səfər ayının 2-si: Yezid lənətliyin mənfur məclisinin qurulması (haraya ki, İmam Hüseynin (ə) mübarək başını gətirirlər).

Səfər ayının 3-ü: İmam Muhəmməd Baqirin (ə) dünyaya gəldiyi gün.

Səfər ayının 5-i: Həzrət Rüqəyyənin (s.ə) şəhadəti.

Səfər ayının 7-si: İmam Musa Kazımın (ə) mövlud günü.

Səfər ayının 7-si: İmam Həsən Müctəbanın (ə) şəhadət günü.

Səfər ayının 8-i: Peyğəmbərimizin (s) məşhur səhabəsi Salmanın vəfatı.

Səfər ayının 9-u: Əmmar Yasirin Siffeyndə şəhid olması.

Səfər ayının 9-u: Nəhrivanda müharibənin başlanması.

Səfər ayının 14-ü: Əbu Bəkrin oğlu Muhəmmədin Misirdə Əmr As (lən) tərəfindən vəhşicəsinə şəhid edilməsi.

Səfər ayının 17-si: Üveys Qərəninin Siffeyn döyüşündə şəhadəti.

Səfər ayının 20-si: İmam Hüseynin (ə) “Ərbəin” günü.

Səfər ayının 24-ü: Həzrət Rəsullahın (s) xəstəliyinin şiddətlənməsi.

Səfər ayının 25-i: Peyğəmbərin (s) vəsiyyət yazmaq üçün kağız-mürəkkəb istəməsi və bəzi səhabələrin buna etiraz etməsi.

Səfər ayının 26-sı: Peyğəmbərin (s) Üsamənin ordusuna rumlular ilə döyüşə getmək üçün göstəriş verməsi.

Səfər ayının 28-i: Peyğəmbəri-Əkrəmin (s) ürəklər yandıran vəfat günü.

Səfər ayının axırı: İmam Rzanın (ə) şəhadəti.

**Allahım, bizləri daxili durumlarını inkişaf etdirənlərdən, yüksək əxlaq və fəzilətlərə malik olanlardan, Həzrət Rəsulullahın (s) və Əhli-Beytin (ə) yolunu davam etdirənlərdən qərar ver!**

**Allahım, işğal altında olan torpaqların azad olunmasını, xəstələrin şəfa tapmasını, Həzrət Mehdinin (ə.f) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 245 (6566) 4 noyabr 2016



## Atası ilə sağollaşdı, 2 saat sonra onu tanımadı

"Daily Mail" qəzetinin xəbərinə görə, 13 yaşındakı Şarlotta Parsonsun ölümcül xəstəliyi atasını tanımadığı vaxt ortaya çıxıb. Ata Den səhər qızını məktəbə qoyandan 2 saat sonra məktəbdən qızının xəstələnməsi ilə bağlı zəng gəlib. Məktəbə gələn atanı isə qızı tanımayıb. Kriz keçirən və şüur bulanıqlığı yaşayan Şarlotta dərhal xəstəxanaya aparılıb. 13 yaşlı qız ancaq anasını tanıyır və keçmiş pişiklərindən danışırdı. 10 gün boyunca xəstəxanada qalan Şarlottaya iflic və miningit testləri edilib. 1 ay boyunca antibiotikdən istifadə edəndən sonra isə qızda beyin iltihabı olduğu ortaya çıxıb. Ölümcül bir xəstəlik olan və olduqca nadir rast gəlinən beyin iltihabı isə yaddaş itkisinə səbəb ola bilir. İmmunitet sistemi nisbətən zəif olan uşaqlar və yaşlılar isə beyin iltihabına daha meyllidilər. İlk vaxtlar qripə bənzər simptomlarla ortaya çıxan xəstəlik, gün keçdikcə iflic, əhval dəyişikliyi, xarakter və davranış dəyişiklikləri formasında özünü göstərir. 20 həftə boyunca infeksiya ilə mübarizə aparan Şarlotta bu müddətdə məktəbdən də məhrum olub.

# Bir sualla həyatını dəyişdirdi

Amerikada yaşayan 24 yaşlı Amber Rose 152 kilo ağırlığında idi. O, təyyarəyə minə bilmək üçün hər zaman iki yerin pulunu ödəyirdi. Bir gün heç tanımadığı adam ona "siz neçə aylıq hamiləsiniz" sualını verdi və bununla da həyatı dəyişdi. Bu sualdan olduqca təsirlənən qadın sürətli şəkildə arıqlamağa başladı. 80 kilo verən və 8 min dollar qarşılığında da arıqlayandan sonra ortaya çıxan ekstra dəyişiklik hamını şoka saldı. Qadın özü yerli mediaya açıqlamasında bildirdi ki, "hamiləsən" sualı onun bütün həyatını dəyişib. Belə ki, həmin suala qədər insanların onu kök qadın kimi qəbul etməsinə öyrəşmişdi. Amma hamiləlik sualı ona olduqca pis təsir edib: "Ana olmağa hazırlaşan qadınlara müqəddəs varlıqlar kimi baxıram. Özüm də nə zamansa elə olmaq istəyirəm. Amma hamilə olmadığım halda hamilə münasibəti görmək mənə heç də xoş gəlmədi".



# 9 yaşlı uşaq ad günü keçirdi, heç kim gəlmədi



Oreqon ştatının sakini olan 9 yaşlı uşaq ad gününü təkbaşına keçirib. Lenta.ru saytının xəbərinə görə, dəvət olunanlardan heç kim onun ad gününə gəlməyib. Uşağın anası Kristen Leyn bildirib ki, uşaq yeddi dəvətnamə hazırlayıb. Amma həmin ünvanlardan heç biri bu dəvəti təsdiqləməyib. Ana buna görə narahat olmayıb. O xatırlayıb ki, qızının ad gününündə də dəvətnamələrlə bağlı hər hansı təsdiq almamışdı. Buna baxmayaraq, dəvət olunan hər kəs ad gününə qatılmışdı. Bu səbəbdən də qadın oğlunun ad gününü təxirə salmağı düşünməyib.

Leyn bildirib ki, onların ailəsi yeni şəhərə köçüb, Malon isə evdə təhsil alır. Bayram münasibətilə o, yeni dostluqlar qurmaq və evi bəzəmək istəyib. "O, ad gününə qədər olan günləri sayırdı" deyən qadın xatırladıb ki, öz bloqunda valideynlərdən dəvətnaməyə öncədən cavab verməlıəri xahiş etmişdi. "Mən orda qeyd etmişdim ki, ad gününə gələ bilməməniz dəhşətli bir hadisə deyil. Sadəcə, bu haqda öncədən xəbərdarlıq edilsə daha yaxşı olar". Ad gününə heç bir qonaq gəlməyən oğlanın əhvalı isə tez bir müddətdə düzəlib və o ümid edir ki, gələn ilə qədər dostları da çoxalacağı üçün ad gününə gələnlərin sayı çox olacaq.

Uşağın baş tutmayan ad günündən xəbər tutan yanğınsöndürmə xidməti isə Malon üçün individual ekskursiya keçirib.




QOÇ - Hansısa narahatçılığa əsas yoxdur. İştirakçısı olduğunuz proseslər müsbət istiqamətdədir. Hətta maddi durumunuzun da yaxşılaşacağı mümkündür. Məsuliyyətinizi dərk edin.

BUĞA - Göy qübbəsi təzadlar ümmanına düşməyinizdən xəbər verir. Bu səbəbdən hər addımda ağıllı və tədbirli davranmalısınız. Fəaliyyətlə bağlı problemləriniz tədricən qaydasına düşəcək.

ƏKİZLƏR - Ümumi məziyyətlərinə görə bəxtinizə gərgin bir təqvim çıxa bilər. Odur ki, hər addımda tədbirli və ayıq-sayıq olmalısınız. Haqqınızı zorakı üsullarla tələb etməyə çalışmayın.

XƏRÇƏNG - İş yerində xırda qanqaraçılığı gözlənilir. Özünüzü ehtiyatlı aparın. Sizi başa düşməyənlərə nəyisə anlatmağa çalışmayın. Əsas diqqətinizi cari iş problemlərinin həllinə yönəldin.

ŞİR - Yeni əlaqələr yaratmaqla mövcud problemlərinizi həll etmək imkanı qazanacaqsınız. Müzakirələr zamanı mövzudan kənara çıxmayın. Axşama doğru ürəyinizə yaxın adamlara baş çəkin.

QIZ - Perspektivli sövdələşmələr üçün uğurlu vaxtdır. Amma danışıqları yalnız ikili vəziyyətdə aparmalısınız. Bu gün mühüm planlarınızı kiməsə desəniz, onlar reallığını itirə bilər.

TƏRƏZİ - Saat 11-13 arası azacıq gərginliklə üzləşsəniz də, günün əsas qayəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Nahardan sonra gözlənilməz və sevindirici hadisələrlə rastlaşacaqsınız.

ƏQRƏB - Olduqca uğurlu gündür. İdeyalarınıza doğru ilkin addımlar atmaqdasınız. Tərəfdaşlarınızla səmimi olsanız, bu prosesi sürətləndirə bilərsiniz. Nahardan sonra müqəddəs ocaqlara baş çəkin.

OXATAN - Oturaq işlərə müəyyən qədər ara verin. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Ulduzlar müxtəlif ünvanlardan maraqlı təklif alacağınızı bildirir. Axşam sevinəcəksiniz.

OĞLAQ - Baş verən situasiyaları reallığın gözü ilə qiymətləndirsəniz, uğurlarınız çox olacaq. Bu gün sizə qarşı rəğbət artacaq. Bunu nəzərə alıb hərəkətlərinizə diqqət yetirin.

SUTÖKƏN - Üzərinizə düşən başlıca vəzifə səhhətinizi qorumaqdan ibarətdir. Hətta bunun naminə işdən yayınmaq da olar. Saat 18-dən sonra sevgi romantikliyinə qapılmağınız məsləhətdir.

BALIQLAR - Göy qübbəsi ovqatınızın yüksələcəyinə işarə edir. Mənəvi rahatlığa qovuşmaq üçün imkanlarınız var. Buna baxmayaraq, təkbaşına fəaliyyət göstərməkdən çəkinin. Qazanc barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar tətilə gedir, amma istirahət etməyi bacarmır



Kanadanın Monreal Universitetinin apardığı araşdırmaya görə, qadınların beyini istirahət edərkən belə çalışır. Qadınlar istirahət edərkən bir çox şey haqda düşünürlər, kişilər isə istirahətdən həzz alırlar. Alimlər sübut ediblər ki, qadınlar məsuliyyətli olduqlarına görə kişilərdən daha çox düşünürlər. Amma tədqiqat zamanı o da üzə çıxıb ki, istirahət zamanı qadınlar detallar üzərində daha çox düşünüb, istirahəti özlərinə zəhər edirlər. Məsələn, tətildən sonrakı qayğılar, iş yerindəki problemlər onları relax olmağa qoymur. Son nəticədə isə beynini yükləyən zərif cinsin nümayəndəsi istirahətin dadını çıxara bilmir. Araşdırmalar onu da göstərib ki, qadınlar istirahətdən sonrakı dönəmdə də ondan yaxşı zövq ala bilmədiklərini üçün özlərini günahkar hiss edirlər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750